**TAHİRƏ HƏSƏNZADƏ**

# *XVIII-XIX ƏSRLƏRDƏ İRANDA YAŞAMIŞ AZƏRBAYCANLI İCTİMAİ-SİYASİ XADİMLƏR*

**BAKI – 2007**

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTU**

**TAHİRƏ HƏSƏNZADƏ**

# *XVIII-XIX ƏSRLƏRDƏ İRANDA YAŞAMIŞ AZƏRBAYCANLI İCTİMAİ-SİYASİ XADİMLƏR (MEHDİ BAMDADIN "TARİXİ-RİCALİ-İRAN" ƏSƏRİ ƏSASINDA)*

**BAKI – NURLAN – 2007**

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 13 iyun 2007-ci il tarixli 6 №-li iclasının qərarı ilə nəşr olunur.

Elmi redaktoru: Fərid ƏLƏKBƏRLİ,
tarix elmləri doktoru

Rəyçilər: Şahin FƏRZƏLİYEV,
tarix elmləri doktoru,
professor

Rəna MƏMMƏDOVA,
tarix elmləri namizədi

Kompüter icraçısı: Ülviyyə Ağayeva

*İran alimi Mehdi Bamdadın "Tarixi-ricali-İran" beşcildlik bioqrafik lüğəti əsasında yazılmış monoqrafiyada İranın XVIII-XIX əsrlərdəki əfşarlar və qacarlar dövrünün azərbaycanlı ictimai-siyasi xadimlərindən bəhs olunur. Kitab tarixçilər, həmin dövrlərlə maraqlanan tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ÖN SÖZ

Azərbaycan diyarı şimallı-cənublu tarixin yaddaşına neçə-neçə görkəmli şəxsiyyətin adını yazmış, 40 milyondan artıq əhalisi olan və həm mənəvi, həm maddi zənginliyi ilə diqqəti cəlb edən bir məkandır. Öz coğrafi mövqeilə Şərqlə Qərbi birləşdirən və Böyük İpək yolunun üstündə yerləşən bu ölkə hələ qədim zamanlardan diqqəti cəlb etmişdir. Bu fikri, dünyanın bir çox tarixçilərinin və səyyahlarının əsərləri, xatirələri əsasında yaranmış və bu günümüzə gəlib çatmış yazılı abidələrdən aldığımız məlumatlar təsdiq edir. Azərbaycanın Təbriz, Ərdəbil, Naxçıvan, Bərdə, Gəncə, Şamaxı kimi qədim şəhərləri ilə dünyanın müxtəlif guşələri arasında ticarət və mədəni əlaqələr yaranmışdır. Bu şəhərlər eyni zamanda görkəmli şəxsiyyətləri, elm və mədəniyyət adamları ilə də tanınmışdır.

Orta əsrlər Şərq tarixini öyrənmək üçün qiymətli mənbə olan qədim əlyazmalarda Yaxın və Orta Şərqdə tanınmış hüquqşünas, şair, dilçi, filosof, astronom, təbib və başqa elm adamları ilə bərabər əmirlər, sərkərdələr haqqında da məlumatlar verilirdi. Təbəri Məhəmməd İbn Cəririn (838/39-923) çoxcildli "Tarix ər-Rəsul və-l-müluk" (Peyğəmbərlərin və hökmdarların tarixi) Sibt ibn əl-Cavzi Qızoğlunun (XIII əsr) "Mirat əz-zaman fi təvarixi əl-ayan" (Əyanların tarixində zamanın güzgüsü"), İbn Xəllikanın (XIII əsr) "Vəfayat əl- əyan və ənba əbna əz-zəman" (Görkəmli adanların vəfatı və zəmanə oğulları haqqında xəbərlər), Azərbaycan tarixçisi Həsən bəy Rumlunun ( XVI əsr) "Əhsən üt-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

təvarix” (Tarixlərin ən yaxşısı), Xandəmir Qiyasəddin ibn Hüsaməddinin (1475-1536) “Həbibüs-siyər fi əxbar əfrad əl-bəşər” (Görkəmli adamlar haqqında xəbərləri təsvir edən dost), Mirzə Mehdi xanın “Tarixi-nadiri” (XVIII əsr) və digər əsərlər bu qəbildəndir.

Azərbaycan alimi və maarif xadimi, şair Abbasqulu ağa Bakıxanovun “Gülüstani-İrəm”, Məhəmmədəli Tərbiyətin “Danişiməndani-Azərbaycan”, Əziz Dövlətabadinin “Süxənvərani-Azərbaycan”, Yəhya Dövlətabadinin “Əz Səba ta Nima”, Nadir mirzə Qacarın “Tarixi-Təbriz be zəmimeyi-şərhi-hali-bozorqan”, müasir alimlərimizdən Çingiz Qacarın “Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri” və başqa əsərlər tanınmış azərbaycanlı ictimai-siyasi xadimlər, diplomat, hərbçi və başqa şəxsiyyətlər haqqında olan qısa, lakin çox qiymətil məlumatı nəsildən-nəslə ötürməkdədir. Bunlarla bərabər bir çox tarixi əsərlərdə dövrün ictimai-siyasi hadisələrinin təsviri ilə yanaşı, yeri gəldikcə müəyyən dövrün görkəmli şəxsiyyətlərinin də həyat və fəaliyyəti öz əksini tapmışdır. Belə mənbələrə nümunə olaraq İsgəndər bəy Münşinin “Tarixi-aləmarayi-Abbasi”, Məhəmmədhəsən xan Etimadüssəltənənin “əl-Məasir vəl asar”, “Ruznameyi-xatirati Etimadüssəltənə”, Mehdi Bamdadın “Tarixi-ricali-İran” əsərlərini də göstərmək olar.

Tədqiqat obyekti beş cildi əlimizdə olan Mehdi Bamdadın “Tarixi- ricali-İran” əsəridir. XVIII-XX əsrlərdə İran dövlətçiliyində öz yeri olmuş görkəmli şəxsiyyətlər haqqında bioqrafik lüğət olan və

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

şəxsiyyətlərin əlifba sırası ilə tərtib olunmuş bu əsər 10 cilddən ibarət nəzərdə tutulsa da, müəllifin xəstəliyi səbəbindən yarımçıq qalmışdır. Bununla belə əsərdə həyat və fəaliyyətləri işıqlandırılmış neçə-neçə azərbaycanlı şəxsiyyət-dövlət xadimi, diplomat, hərbçi haqqında çox dəyərli məlumat verilir. Onları öyrənmək və tədqiq etmək Azərbaycan tarixinin müəyyən səhifəsini öyrənmək və işıqlandrmaq deməkdir. Buna görə də "XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər" adlı mövzunu işləmək ehtiyacı, zərurəti yaranmışdır. Tədqiqat işi 2 fəsil, 11 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat və şəxsi adları ibarətdir. Əlavədə bir sıra görkəmli şəxsiyyətlərin rəsmləri dərc olunmuşdur. Tədqiqat işinin I fəsli "XVIII əsrdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər" adlanır. Bu fəsildə hər şeydən əvvəl XVIII əsrdə İranda yaranmış ictimai-siyasi vəziyyət qısa şərh olunur, bu əsrdə əsası I Şah İsmayıl (1501-1524) tərəfindən qoyulmuş Səfəvilər dövlətinin (1501-1732) sonuncu hökmdarları olan Şah Sultan Hüseyn (1694-1722) və onun oğlu II Şah Təhmasib (1722-1732) zamanı yaşayıb fəaliyyət göstərmiş görkəmli şəxsiyyətlər haqqında məlumat verilir. Bu dövrdə Nadir Şah Əfşar hərbi qüdrətinin geniş vüsət alması ilə məşhur döyüşçü kimi tanınmış, onun qələbələrinin iştirakçısı və yardımçısı olmuş azərbaycanlı şəxsiyyətlər də tarix səhnəsində olmuşlar. Nadir Şahın yadellilərlə, torpağını işğal etmiş əfqanlarla mübarizəsinin, müzəffər yürüşlərinin təkanverici qüvvəsi olan sərkərdələrdən Əmiraslan xan (?-1748), igid Fətəli xan Əfşar, (?-1763),

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Təhmasibqulu xan Cəlayir və başqalarından bəhs olunan bu fəsildə Azərbaycan tarixinin bir sıra məsələləri də işıqlandırılmışdır. Nadir Şah tərəfindən Azərbaycanın və bütün Qafqazın hökmdarı (1739-1748) təyin olunmuş Əmiraslan xan Nadir Şahın əmisi oğludur. O şahın və onun qətlə yetirilmiş övladlarının intiqamını almış, axıra qədər ona sadiq sərkərdə olmuşdur. Nadir Şah Əfşar siyasətinin tərəfdarları arasında çavuşlu tayfasından olan Baba xan, Qasım bəy Qırxlu Əfşar və başqaları adlı-sanlı hərbçilər olmuşlar. Onun yaxın silahdaşı olan bacarıqlı diplomat Əlimərdan xan Şamlu Səfərvilər və Əfşarlar dövrünün görkəmli şəxsiyyəti idi, Məhəmmədəli xan İranın əfqanlardan təmizlənməsində yaxından iştirak etmişdir. O həm də Nadir Şahin elçisi kimi diplomatik missiyanı yerinə yetirmək üçün Hindastana ezam olunmuşdu. Bu fəsildə Qacar şahları sülaləsinin əcdadı olan Fətəli xan Qovanlu (Qoyunlu) (1685-1726) və onun oğlu, Ağaməhəmməd şah Qacarın (1742-1797) atası Məhəmmədhəsən xan Qacar (1715-1759) haqqında, onların döyüş yolundan, hakimiyyət uğrunda mübarizələrindən bəhs olunur. Aşağıbaş tayfasının rəisi Məhəmmədhəsən xan Qacar Məşhəd kənarında qətlə yetirildikdən sonra onun ailəsinin keçirdiyi ağır həyat, oğlanları Ağaməhəmməd xan, Cəfərqulu Xan və Hüseynqulu Xan Cahansuzun müstəqillik yolunda Kərim xan Zəndlə, ümumiyyətlə zəndilərlə mübarizələri bu fəsildə öz əksini tapmışdır. Ağaməhəmməd xan Qacarın sağ əli, onun ən çətin döyüşlərinin iştirakçısı, igid qardaşı Cəfərqulu Xan və onun qələbələri geniş təsvir olunmuşdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

XVIII əsrdə hakimiyyət uğrunda, torpaqların müstəqilliyi və bütövlüyü üçün aparılan mübarizədə yaxından iştirak etmiş azərbaycanlı hərbçilərdən Canməhəmməd xan Qacar Dəvəlu Ağaməhəmməd xanın cəsur komandirlərindən biri olmuşdur. Türkman yomut tayfası 1786-cı ildə Mazandaran sərhəddində qarışıqlıq salan vaxt Ağaməhəmməd xanın oraya göndərdiyi Canməhəmməd xan onları bacarıqla dəf etmişdir. Canməhəmməd xan Ağa Məhəmməd xanın ordusunda talış Mustafa xan əleyhinə mübarizədə də iştirak etmişdir. Onun oğlu Məhəmmədvəli xan, yaxud Vəli xan Qacar Dəvəlu cəsur hərbçi olub, Ağaməhəmməd şahın və sonra da Fətəli Şahın qoşun komandirlərindən idi. O, 1794 cü ildə Ağaməhəmməd şahın tapşırığı ilə İranda Zəndi sülaləsinin son nümayəndəsi Lütfəli xanı (1789-1794) əl-qolu bağlı Kirmana, şahın hüzuruna gətirən də Məhəmmədvəli xan olmuşdur. Məhəmmədvəli xan 1795-ci ildə Qafqazın bir sıra hakimlərini birləşdirərək özünə tabe etmək üçün oraya qoşun çəkən Ağaməhəmməd şahın ordusuna komandanlıq etmiş, Qacar şahı qətlə yetirilən zaman isə vəliəhd Fətəli Şahın ordusuna qoşulmuş, hakimiyyəti zəbt etməyə cəhd göstərən qüvvələrə qarşı vuruşmuşdur. O, ölümünün axırına qədər Fətəli Şaha sadiq ordu başçılarından biri idi. Ağaməhəmməd şahın apardığı ağır döyüşlərdə onun yanında olan, qacarlar elinin məşhur böyüklərindən Məhəmmədhüseyn xan Qacarqovanlu şahın xalası oğlu olub, 1788-ci ildə onun şəxsi mühafisi idi. O, keşikçibaşı vəzifəsini ömrününün sonunadək yerinə yetirmişdir. Qarabağa yuruş edən Ağa Məhəmməd şah Xudafərin

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

körpüsünü qorumağı məhz Məhəmmədhüseyn xana tapşırmışdı və qətlə yetirilən şahin cəsədini ilk dəfə o görmüşdür. O, Ağaməhəmməd şahın katibi Mirzə Rzaqulunun məsləhətinə əməl edib, cox böyük əziyyətlə Naxçıvan yolu ilə Tehrana gəlmiş və bundan sonra Fətəli Şah Qacar ordusuna sərkərdə təyin edilmişdir. Məhəmmədhüseyn xan I Rusiya-İran müharibəsi (1804-1813) zamanı İrəvanda ruslara qarşı vuruşan qoşunun önündə idi. Bir sözlə, bu fəsildə cəsur azərbaycanlı döyüşçülərin göstərdikləri igidliklərdən geniş bəhs olunur.

Tədqiqat işinin II fəsli daha geniş bir mövzunu əhatə edir və "XIX əsrdə İranda yaşamış azərbaycanlı ictimai- siyasi xadimlər" adlanmaqla dövrün ictimai-siyasi vəziyyətinin şərhindən sonra Qacarlar dövrünün azərbaycanlı ictimai-siyasi xadimlərindən, hərbçi və diplomatlardan bəhs olunur.

XVIII əsrdə İranın Avropa dövlətləri ilə əlaqəsi bir o qədər də geniş nəzərə çarpmır və bu dövr xarici ölkələrlə əlaqənin yenicə yaranmağa başladığı dövrdür. Fətəli Şah hakimiyyəti dövrünün (1766-1834) sonlarında isə ölkə müharibələrdən qurtulmuş, Avropa dövlətlərinin Şərqlə əlaqəsini yaradan İrana maraq artmışdır. Hələ XIX əsrin ilk illərindən Hindistan, Fransa və başqa Avropa ölkələri özlərinin diplomatik nümayəndələri ilə İrana yaxınlaşmağa başlamış, və İran dövləti də Qərbin texnikasını öyrənmək üçün gəncləri, qarşılıqlı olaraq öz səlahiyyətli nümayəndələrini xarici dövlətlərə göndərmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

II fəsil XIX əsrdə İranda yaşamış Azərbaycanlı ictimai-siyasi xadimlər, hərbçilər və diplomatlar haqqında məlumat verməklə, Azərbaycanın İran dövlətçiliyi tarixinə xidmətlər göstərmiş, şərəfli yer tutmuş görkəmli şəxsiyyətlərin tarix səhifələrində qaldığını aşkarlayır. İranda ictimai-siyasi vəziyyətin nisbətən sabitləşdiyi, ölkədə gedən dağıdıcı müharibələrə son qoyularaq, sülh əldə edildiyi ilə fərqlənən XIX əsr görkəmli Azərbaycanlı şəxsiyyətlərin, diplomat, və hərbi xadimlərinin fəaliyyətilə də əlamətdar olmuşdur.

Ağaməhəmməd şah Qacarla başlamış (1779-1797) və Əhməd şah hakimiyyətinə (1909-1925) qədər davam etmiş Qacar şahları sülaləsinin 150 ilə yaxın bir tarixi vardır. Bu dövrün XIX əsri bir sıra tarixi hadisələrlə əlamətdardır və azərbaycanlılar həmin hadisələrin canlı şahidləri, fəal iştirakçıları olmuşlar. İran dövlətini xaricdə təmsil etmiş diplomat Xəlil xan Koroğlu Qəzvini, Mirzə Rza Qəzvini, Əsgər xan Əfşar, Məhəmmədhüseyn xan Müqəddəm Marağayı, onun oğlu Əli xan, Mirzə Rza xan Daneş İrəvani və başqaları, İran dövlətinin ilk konstitusiyasını yazmış Mirzə Yusif xan Təbrizi, görkəmli tarixçi-coğrafiyaşünas alim, İranın ilk Nəşriyyat naziri, marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə, alim-filosof, məramı bütün dünya müsəlmanlarının birliyi olan Seyid Cəmaləddin "Əfqani" və başqaları bu dövrdə fəaliyyət göstərmişlər və bu fəsildə onlardan geniş bəhs olunur. İran tarixinin bu dövrü üçün mühüm simalardan biri Azərbaycan valisi, Fətəli Şah Qacarın oğlu, vəliəhd Abbas Mirzə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Naibüssəltənədir (1789-1833). O, 1799-cu ildən ta ömrünün sonuna iki il qalmış Azərbaycanda yaşamış, İran ordusunun bacarıqlı sərkərdəsi kimi I (1804-1813) və II (1826-1828) Rusiya-İran müharibələri zamanı öz ağlı və igidliyi ilə tanınmışdır. Onun özünəməxsus keyfiyyətlərini təsvir edən avropalı diplomat, Napoleon Bonapartın tərcüməçisi cənab Gevr belə yazır:

"Mən onun qədər (Abbas Mirzə Naibüssəltənə-H.T.) Avropa elminə və sənayesinə diqqət edən başqa İran şahzadəsi tanımıram". (66, c. 1, s. 363).

Məlumdur ki, məhz Abbas Mirzənin təşəbbüsü ilə İranda Avropa təhsili almış mühəndis və hərbçilər yetişmiş, İran ordusunun Avropa üsulu ilə yaradılması işi təşkil olunmuşdur. Abbas Mirzə Naibüssəltənənin Rusiya–İran müharibələri zamanı öz ordusuna cəlb etdiyi cəsur döyüşçülər arasında milliyyətcə azərbaycanlı hərbçilər olmuş, onlar bu müharibələrdə şöhrət qazanmışlar. "Sarı Aslan" ləqəbli döyüşçü və onun silahdaşları rus İmperatoru I Nikolayı heyrətə gətirmişdir. Bu haqda tədqiqat işində ətraflı məlumat öz əksini tapmışdır. Abbas Mirzənin müharibələrdə uğursuzluğunun başlıca səbəbi isə xarici imperialist dövlətlərinin İrana müdaxiləsi olmuşdur. Abbas Mirzənin Aslandüz adlanan yerdə olan ordusunun qəflətən hücüma məruz qalması, Rusiya-İngiltərə müqaviləsi, ingilislərə rəğbət bəsləyən Baş nazirin apardığı danışıqlar və s. 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmançay kimi uğursuz müqavilələr bağlanması ilə nəticələndi. Cox ağır döyüşlərdə Abbas Mirzə rəşadətlə vuruşsa da, topla silahlanmış nizami rus

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qoşunu qarşısında tab gətirə bilmədi. İrəvan qalasının müdafiəsində iki qardaş, Hüseyn xan və Sarı Aslan ləqəbli Həsən xan aylarla rus qoşunlarının mühasirəsində qaldılar. Rus imperatorunu heyrətə gətirən ordunun məğlubiyyəti yalnız xəyanət və satqınlığın nəticəsi olaraq baş verdi. Qacar şahzadələri içərisində ən işgüzarı və ağıllısı olan Abbas mirzə Naibüssəltənə xarici dövlətlərin İrana işgüzar səfər etmiş diplomatların nəzər-diqqətini cəlb etmiş, İranda olmuş səyyahlar onunla maraqlanmış, görüşmüş, ondan bəhs etmişlər. Mənbələrdən məlum olur ki, o, əvvəllər ingilis siyasətinə tərafdar olmuş, lakin onların ruslarla İran əleyhinə gizli danışıqları, bu səbəbdən də İranın müharibələrdə uduzması onu ingilislərdən uzaqlaşdırmışdır. Abbas Mirzə bacarıqlı diplomat idi. O, siyasət işlətdikdə, bunun nəticəsi olaraq ruslar Xoy şəhərini boşaltmaq qərarına gəldilər. Bir qədər sonra vəliəhd, Rusiyaya, İmperator I Nikolayın (1796-1855) görüşünə dəvət olunur. Əgər bu görüş baş tutsa idi, müharibə nəticəsində İranın Rusiyaya olan borcu 1 milyon tümən bağışlanacaqdı. Lakin Rusiya dövlətinin İrandakı səlahiyyətli nümayəndəsi Qriboedovun öldürülməsi (1829) vəziyyəti dəyişdi. Abbas Mirzənin baş tutmayan səfəri barədə belə mülahizə yürüdülür ki, o, Paskeviçlə yaxşı münasibətdə idi və Lənkəranla İrəvanın qaytarılması barədə danışıqlar aparırdı. Səfər baş tutsa idi Abbas Mirzənin siyasətdə böyük uğuru olardı. Digər şahzadələrdən Mahmud Mirzə, Bəhmən Mirzə tarixi əsərlər yazmaqla yadda qalmışlar. Rusiya dövlətinin Qafqazda yürütdüyü işğalçı siyasətinə qarşı

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

mübarizə aparan Azərbaycan hökmdarı Abbas Mirzə Naibüssəltənənin başçılıq etdiyi Azərbaycan ordusunda cəsur hərbçilər yetişirdi. Bunlardan biri də Abbas Mirzənin oğlu şahzadə Cahangir Mirzədir. (1810-1853) Cahangir Mirzə xüsusi təhsil görmüş bilikli, fazil şahzadələrdən idi. O, II Rusiya-İran müharibəsi zamanı (1826-1828) Abbas Mirzənin sərkərdəliyi altında olan İran ordusunun komandirlərindən biri kimi vuruşmuş, 1827-ci ildə Xəzər sahilində yerləşən Salyan cəbhəsində igidlik göstərmişdir. O, Salyan qarnizonunu əsir alaraq rusların toplarını dənizə tökmüş və bu hadisədən sonra məşhurlaşmışdı.

II fəsildə həmçinin qəhrəman Cavad xan, Abbas Mirzə Naibüssəltənənin ordusunda olan cəsur döyüşçülərdən, digər Gəncə müdafiəçisi Əmir xan Sərdar, sonralar Nişabur şəhərinin hakimi təyin edilmiş Məhəmmədzaman xan Qacar, Məhəmməd xan Qaragözlü, İrəvan müdafiəçilərindən, Sarı Aslanla çiyin-çiyinə vuruşmuş Məhəmmədəmin xan Qacar və başqaları haqqında məlumat verilir. Bu fəsildə Nəsrəddin Şah Qacar (1831-1896) hakimiyyəti dövrünün ictimai-siyasi xadimlərindən geniş bəhs olunur. Yüksək dərəcəli zabit, general-mayor Hacı Qulamrza xan, Hüseyn xan Nizamüddövlə Şahsevən İnanlunun oğludur. Məlumdur ki, inanlular azərbaycanlıların etnoqrafik qrupu olan Şahsevən tayfalarından biridir. Qulamrza xan Nəsrəddin Şahın artilleriya generalı vəzifəsində idi. İran sərhədlərinin qorunmasında və asayişin bərpa olunmasında isə komandan, qoşun rəisi Mustafaqulu xan Qaragözlünün böyük xibmətləri olmuşdur. O cümlədən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əsli Şəkidən olan diviziya komandiri Əbdülqadir xan, əsasən azərbaycanlılardan ibarət olan İran kazak briqadasının hərbçilərindən general Əsədulla xan Əbülfətzadə (?-1918) və polkovnik İbrahim xan Münşizadə, (1878-1918), general-leytenant (mirpənc-H.T.) Allahverdi xan, general Mirzə İsmayıl xan (1849-1906) haqqında məlumat verilmişdir. Tədqiqat işinin II fəslində də XIX əsrdə İranda yaşamış məşhur azərbaycanlı ictimai-siyasi xadimlərdən geniş bəhs olunur. O cümlədən İranın Avropa yolu ilə inkişaf etməsi, ölkədə insan hüquqlarının, istiqlalın qorunması uğrunda gedən mübarizənin önündə gedən və əhali arasında böyük nüfuza malik olan Seyid Cəmaləddin Əsədabadi, Mirzə Yusıf xan Təbrizi, Seyid Məhəmməd Təbatəbai böyük fəaliyyət göstərmişlər.

İranda Tərcümə və Nəşriyyat idarəsinin təşkilində və sonralar bu idarənin əsasında İran Nəşriyyat Nazirliyinin yaradılmasında marağalı Məgəmmədhəsən xan Etimadüssətənin (1843-1896) rolu, onun geniş elmi, ictimai-siyasi fəaliyyəti bu fəslin II bölümündə öz əksini tapmışdır. Məhəmmədhəsən xan İranın ilk nəşriyyat naziri olmuş, İran tarixşünaslığında Avropa elmi metodunun banisidir, Avropa elm və texnikasının, ədəbiyyatının İranda yayılmasında müstəsna xidmətlər göstərmişdir. Gördüyü dəyərli işlərinə görə Səniüddövlə (dövlət sənətkarı) və Etimadüssəltənə (səltənətin etimadlı adamı) kimi yüksək titullar almışdır. Bir neçə xarici dil bilən Məmmədhəsən xan 25 il Nəsrəddin Şah Qacarın tərcüməçisi olmuş, saraya gələn xarici nümayəndələrlə şah arasında əlaqə yaratmış, şahı üç

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Avropa səfərində (1873, 1878, 1889-cu illər), eləcə də ölkədaxili səfərlərdə müşayət etmişdir. O, 50-dən artıq tarixi-coğrafi, elmi, bədii tərcümə əsərlərinin müəllifidir. Öz evində elmi cəmiyyət yaratmış, bir sıra xarici dövlətlərdə elmi cəmiyyətlərin üzvi seçilmişdir. Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin həyat və yaradıcılığı haqqında monoqrafiya çap oluduğundan bu tədqiqat işində ondan qisa şəkildə bəhs olunmuşdur. (B, 2001, 222 s.).

II fəslin II bölümündə həyatını Şərqin istibdaddan azad olunması, bütün dünya müsəlmanlarının birliyi uğrunda mübarizəyə həsr etmiş ictimai və siyasi xadim, Azərbaycan filosofu, Seyid Cəmaləddin Əfqaninin ömür yolundan, XIX əsrin 40-cı illərində baş vermiş Babi üsyanının qabaqcıl nümayəndələrindən olan qəzvinli Tahirə Qürrətüleynin mənalı həyatından, bu hərəkatda şam kimi əriyərək məhv olan Süleyman xan Təbrizidən bəhs olunur.

İranda ilk antiimperialist xalq hərəkatı olan "tənbəki üsyanı" hadisəsi ilə əlaqədar Azərbaycanda baş vermiş iğtişaşlarda nüfuzlu din xadimi Mirzə Cavad Təbrizi xalqı müdafiə edən və asayişi yaradan ilk ruhani şəxs olmuşdur. Əslən İrəvandan olan bu şəxs Nəsrəddin Şahın fərmanı ilə Azərbaycanın cümlə imamı təyin edilmişdi.

XIX əsrdə fəaliyyət göstərmiş azərbaycanlı ictimai-siyasi xadimlərdən bəhs edərkən, maarifçi Hacı Mirzə Həsən Təbrizi yeni məktəb və burada yeni təlim metodunun banisi kimi xatırlanır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Azərbaycan alimi Mirzə Səlim Axundov Qarabağinin 1890-1894-cü illərdə Tehranda baş vermiş vəba xəstəliyi zamanı göstərdiyi xidmətlər İran dövləti tərəfdən yüksək qiymətləndirilmiş, onun mahir, sınanmış və hər cür müalicəyə qabil bir həkim olduğu xüsusi olaraq qeyd edilmişdir. O cumlədən Təbrizdə yaşamış, əsli Xoy şəhərindən olan Mirzə Məhəmməd Təbib Qoboli, həkim Mirzə Baba Əfşar həmin dövrün görkəmli şəxsiyyətlərindən idilər.

Tədqiqatın II fəslinin II bölümü XIX əsrdə İran dövlətinin xarici ölkələrlə əlaqələrinin yaranmasında diplomatik fəaliyyət göstərmiş azərbaycanlı ictimai-siyasi xadimlərdən, onların bu sahədə uğurlarından bəhs edir. Qeyd etmək lazımdır ki, bəhs olunan dövrdə bu sahədə ilk addımlardan birini İngiltərə atmış, 1801-ci ildə öz səlahiyyətli nümayəndəsi ser Con Məlkumu İrana göndərmişdir.

1805-ci ildə Fransanın fateh hökmdarı I Napoleon Bonapart (1769-1821) uzun müddət Şərqdə yaşamış və ərəb, fars, türk dillərini kamil bilən, Misir yürüşündə İmperatorun tərcüməçisi işləyən Jan Gevri Fətəli Şah sarayına göndərmişdir. Bir il keçdikdən sonra 1806-cı ildə Mirzə Rza Qəzvini adlı diplomat Fransa nümayəndəsi Gevrlə birlikdə Parisə göndərilmiş, orada öz diplomatik missiyasını yerinə yetirməyə başlamışdır. (yuxarıda adı çəkilən Jan Gevr məşhur “Xacə Şah” romanının müəllifidir. O, Hindistan və İran həyatından bəhs edən bir sıra tarixi əsərlərin müəllifidir. “Xacə şah” qətlə yetirilmiş Ağaməhəmməd şah Qacarın həyat və fəaliyyətinə həsr olunmuşdur) Mirzə Rza Qəzvini

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əvvəllər şahzadə Məhəmməd Mirzənin məsləhətçisi olmuş, çox təcrübəli, xarici ölkələrdə olan adət-ənənələrə bələd bir şəxs idi. O, Fransa sarayında İranın səlahiyyətli nümayəndəsi təyin edildikdən sonra onun fəaliyyəti nəticəsində İranda ordu quruculuğu işinin təşkilinə başlanıldı.

Belə ki, 1807-ci ildə İmperator I Napoleonun icazəsi ilə general Qardan 70 nəfər zabit və mühəndis-müəllimlə birlikdə Mirzə Rzanın müşayəti ilə İrana yola salınmışdır. Həmin il Mirzə Rzanın əvəzinə urmiyalı Əsgərxan Əfşar Fransa sarayına göndərildi və onun diplomatik fəaliyyəti 1809-cu ilədək, yəni 3 il davam etdi. Qeyd etmək lazımdır ki, Fətəli Şah Qacarın ordu komandirlərindən olan Əsgər xan Bakının rus qoşunlarından müdafiəsində də iştirak etmişdir. Bu barədə II fəsildə məlumat verilir. Haqqında bəhs olunan, Avropa ölkələri ilə diplomatik münasibətlərin yaranmasında və inkişafında böyük xidmətləri olmuş Hüseyn xan, yaxud Məhəmmədhüseyn xan hərbçi, diplomat, adyutantbaşı, nizamüddövlə, Sahibi-ixtiyar vəzifə və ləqəblərinə layiq görülmüş, dövrünün ictimai-siyasi xadimi idi. Hüseyn xan üç Qacar şahının zamanında mühüm dövlət işlərində xidmət etmiş, məşhur Səfəvi əmirlərindən və otuzikilər tayfasından olan Ağa xan Müqəddəmin nəslindəndir. O, 1826-1828-ci illər II Rusiya-İran müharibəsi zamanı orduda baş yavər, Məhəmməd şah dövründə Azərbaycan qoşunlarının baş komandanı kimi (1837) Herat yürüşündə iştirak etmiş, oradan qələbə ilə qayıtmış və bu münasibətlə Məhəmməd şah özü Simnan şəhərində 20

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

min Azərbaycan ordusuna baxış keçirərək baş adyutant Hüseyn xana general-mayor rütbəsi vermişdir. Hüseyn xan 1838-ci ildə İstanbul və Parisə diplomatik nümayəndə kimi göndərilərək hər iki dövlətlə danışıqlar aparmışdır. Qeyd etmək lazımdır ki, Böyük Britaniya kraliçası Viktoriyanın (1819-1901) tacqoyma mərasimi ilə əlaqədar keçirilən mərasimdə İran dövlətini diplomat Hüseyn xan Marağaı təmsil etmişdir. Bacarıqlı diplomat, Avropanın siyasi xadimi, Avstriyanın Baş Naziri Metternix tərəfindən yüksək qiymətləndirilmiş, nadir insan adlandırılmışdır. Böyük Azərbaycan ədibi M.F. Axundov Hüseyn xanı və onun oğlu diplomat Əli xanı şəxsən tanımış, həmvətənləri olan ata-oğula hörmət bəsləmişdir.

Diplomatik fəaliyyəti ilə İranın ictimai-siyasi həyatında tanınmış, nəzər diqqəti cəlb edən Mirzə Yusif Təbrizi, Mirzə Rza xan Daneş İrəvani, Mirzə Əsədulla xan Təbrizi, onun qardaşı Mahmud xan Təbrizi və başqaları Azərbaycanın diplomatiya tarixində şərəfli yer tutmuşlar.

Kitabda onlar haqqında ətraflı məlumat verilmişdir.

Nəticədə tədqiqat işinin əsas müddəaları ümumiləşdirilmişdir.

Kitabın sonunda şəxs adları göstəricisi və haqqında bəhs olunmuş görkəmli şəxsiyyətlərin rəsmləri verilmişdir

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# I FƏSİL. XVIII ƏSRDƏ İRANDA YAŞAMIŞ AZƏRBAYCANLI İCTİMAİ-SİYASİ XADİMLƏR

## XVIII əsrdə İranda ictimai-siyasi vəziyyət

XVIII əsr İran dövlətinin tarixində ən ağır dövrlərdən biridir. Səfəvilər sülaləsindən olan I Şah Abbas (1571-1629) ölkədə farslaşdırma siyasəti yeritsə də, osmanlılar və şeybanilərlə [1] bir sıra uğurlu müharibələr aparmış, bunun nəticəsində Osmanlı İmperiyası tərəfindən tutulmuş Azərbaycan, İraqi-Ərəb, Xorasan və bir sıra ərazilər geri alınmışdır. Onun hakimiyyəti dövründə nizami ordu yaranmış, vergi işi qaydaya düşmüş, bir sıra abadlıq və tikinti işləri görülmüşdür. Səfərvilər dövlətinin Avropa ölkələri ilə diplomatik və ticarət əlaqələrinin yaranması I şah Abbas dövründə (1587-1629) görülən müsbət işlərdən hesab oluna bilər. 1599-cu ildə onun göstərişi ilə Avropanın Almaniya, Roma, İspaniya, Fransa, Polşa, Venesiya, İngiltərə və Şotlandiya kimi dövlətləri ilə əlaqələr yaratmaq üçün qızılbaşların Bayat elindən olan azərbaycanlı Oruc bəy də daxil olmaqla, 20 nəfərdən ibarət diplomatik nümayəndə heyyəti təşkil olunmuşdu.

Tarixi araşdırmalar göstərir ki, ondan sonra İran taxtı-tacına əyləşmiş I Şah Səfinin (1629-1642) və II Şah Abbasın (1642-1666) hakimiyyətləri dövründə də

[1] Şeybanilər Orta Asiyada feodal dövləti olub, (1500-1598) paytaxtı əvvəlcə Səmərqənd, sonra isə Buxara (1560-cı ildən) idi. Banisi Məhəmməd Şeybanidir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

vəziyyət pis deyildi. Bunlardan sonra hakimiyyətə gəlmiş Şah Süleymanın (Səfi) dövründə (1666-1694) isə Səfəvilər dövləti iqtisadi və siyasi cəhətdən tənəzzül etməyə başladı. Özbək xanlarının, Hindistanın moğol hakimlərinin İran torpaqlarına olan fasiləsiz hücumları dövləti zəiflədən amillərin əsası idi.

Belə vəziyyətdən sui-istifadə edən Osmanlı sultanı IV Murad İrəvan xanlığını və Azərbaycanı zəbt elədi. I Şah Səfinin hakimiyyəti zamanı itirilmiş torpaqlardan yalnız Qəndəhar onun oğlu II Şah Abbas tərəfindən geri alındı.

Süleyman şahın oğlu Şah Sultan Hüseyn (1694-1722) hakimiyyəti dövrində İran dövləti tərəfindən vaxtilə qazanılmış uğurların təməli daha da sarsılmağa başladı. Şah Sultan Hüseyn Səfəvi Süleyman şahın böyük oğlu idi. Tarixçilərin yazdığına görə Sultan Hüseyn İranda şahlıq etmiş hökmdarların ən ağılsızı və ən yüngülü olmuşdur. Bu səbəbdən İran tarixində bu dövlət üçün ən uğursuz hadisələr onun hakimiyyəti illərində baş vermişdir.

Ümumiyyətlə XVIII əsrin əvvəllərində İran əhalisinin, xüsusən kəndlilərin həyat şəraiti dözülməz olmuşdur. Ölkə iqtisadiyyatı XVII əsrin sonlarında tənəzzülə uğramağa başlamışdır. Renta və vergilərin artması kəndliləri var-yoxdan çıxarır, onu dilənçi vəziyyətə salırdı. Bunun nəticəsində daxili bazar, əmtəə istehsalı və ticarətin dairəsi kiçilirdi. Şübhəsiz ki, şəhər əhalisi də, o cümlədən sənətkarlar pis vəziyyətə düşürdülər. (34, s. 293, 294). Dövlətin vergi siyasəti, xüsusən Sultan Hüseynin dövrində çox pis idi. 1698-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1701-ci illərdə kəndli, sənətkar və tacirlərdən alınan vergi 2-3 dəfə artırılmışdır. Dövlət siyasətinə qarşı etirazlı çıxışlar, üsyanlar Sultan Hüseyn dövrünə xas olan xüsusiyyətlərdən idi.

XVIII əsrin əvvəllərində yaranmış ağır vəziyyət, əhalinin qarşılaşdığı çətinliklər, İran tarixinin bu dövründə baş vermiş hadisələr bu tarixi əlamətdar etmişdir. Belə hadisələrdən biri Şah Sultan Hüseynin taxtdan salınması, onun və səfəvi şahzadələrinin öldürülməsi oldu. Aciz Sultan Hüseyn atasının vəsiyyətinə zidd olaraq, taxta əyləşdirildikdən sonra 1694-cü ildə Şahnəvaz xan ləqəbli gürcü Gorgin (Georgi) xanı Qəndəhara[2] hakim göndərdi. Xristian olan bu şəxs əhaliyə zülm etməyə və tamahkarlıqla məşğul olmağa başladı. Bu da sonralar təriqət ayrılığı cəhətdən çəkişmələrə yol açdı. Gorgin xan Qəndəharda 5 il hakim olmuş və bu müddətdə öz siyasətini heç dəyişməmişdi. Qəndəhar əhalisi onun əlindən bezmişdi. Bu zaman əfqanların gilzayi tayfalarının böyüklərindən olan Mir Veys Hütəki çox çevik, bəlağətli danışan natiq və hamının hörmətini qazanmış bacarıqlı bir şəxs idi. O, 1700-cü ildə Qəndəhar əhalisinə edilən zülm və zorakılıqları saraya çatdırmaq üçün bir nümayəndə heyyəti düzəltdi və Şah Sultan Hüseynin yanına İsfahana yollandı. Isfahanda isə saray əyanları, din xadimləri bir-biri ilə çəkişməklə məşğul olduqlarından dərdlərini heç dinləyən də olmadı. Mir Veys məmləkətin

---

[2] Qəndəhar XVII əsrin ortalarından səfəvilərin hakimiyyəti altında olmuş, Dost Məhəmməd 1855-ci ildə Əfqanıstan dövlətinin tərkibinə qatmışdır. Əfqanıstanın cənubunda şəhərdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

vəziyyətini dağılmış və xaraba gördükdə oradan Məkkəyə getdi, yenidən İsfahana qayıtdığı zaman isə onun ərizəsinə baxılmadığını gördü. Qəndəhara qayıdan Mir Veys əhaliyə müraciət edib, saraya qarşı mübarizədən başqa çıxış yolu görmədiyini onlara bildirdi. Əhali onun kafirlərə və təriqət düşmənlərinə qarşı qalxmaq, üsyan etmək fikrini bəyəndi. Qəndəharın hakimi Gorgin xan 1701-ci ildə ov zamanı öldürüldü. Bu hadisədən sonra Mir Veys bütün Gilzayı tayfalarını öz ətrafında birləşdirərək, dövlətin verdiyi fərmanlara tabe olmamaq yolunda mübarizəyə başladı. Mir Veys, Sultan Hüseyn şah sarayı bundan xəbər tutunca tədricən Qəndəharı və orada olan qüvvələri İran məmurlarının əlindən aldı, bu şəhərə yiyələndi. Qəndəharda və onun ətrafında olan İran ordusu qətlə yetirildi. Mir Veys hakimiyyətə yiyələndikdən sonra, yalnız bu zaman mərkəzi hökümət qəflət yuxusundan ayıldı və onun qarşısını almaq xəyalına düşdü. Əvvəlcə iki nəfəri növbə ilə onun yanına elçi göndərdilər. Məqsəd bu idi ki, onu dövlətə tabe olmaq üçün razı salsınlar. Mir Veys isə buna etina etmədi və hər iki elçini zindana saldı. Dövlət vəziyyəti belə gördükdə Xorasan hakimiyyətinə göstəriş verdi ki, onu dəf etmək üçün Qəndəhara yola düşsünlər. Lakin onlar məğlub oldular, çoxlu itki verərək geri qayıtdılar. Gorgin xanın qardaşı oğlu, Gürcüstan valisi Xosrov xan, yaxud Keyxosrov xan bu dəfə Mir Veysi tamamilə məğlub etmək üçün yola düşdü. Xosrov xan yaxşı irəliləyirdi və əvvəllər onun qüvvələri üstün idi. Mir Veys 1702-ci ildə təslim olmaq ərəfəsində idi və Qəndəharı verməyə məcbur idi. Lakin Xosrov xan təkcə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qəndəharı zəbt etmək fikrində deyildi. O, Mir Veysin tamamilə və qeyd-şərtsiz təslim olmasını istəyirdi. Xosrov xan güclü olsa da siyasətdə zəif, tamahkar bir şəxs idi. Bu planları çəkməkdə ikən bir vaxt ayıldı ki, özü mühasirəyə düşmüşdür. Iran ordusu elə məğlub oldu ki, ordunun 25 min əsgərindən 700 nəfər canını zorla qurtara bildi. Xosrov xan bu döyüşdə öldürüldü. Mir Veysə qarşı göndərilən Məhəmməd Zaman da öldürüldü. Bu döyüşdə qazandığı qələbədən sonra Mir Veysin qüdrət və iqtidarı daha da artdı. Mir Veys 8 il Qəndəharın müstəqil və müqtədir hakimi oldu. O, 1121-ci ildə (1709/10) vəfat etmişdir.

Mir Veys vəfat etdikdən sonra onun yerinə qardaşı Mir Abdulla əyləşdi və o, Mərkəzi hökümətə itaət etmək, hesablaşmaq siyasəti yeritməyə başladı. Gilzayı tayfalarının böyükləri bu işə razı olmadılar. Bir il keçdikdən sonra Mir Veysin 18 yaşlı oğlu Mir Mahmud onu, yəni əmisini öldürməyə vadar oldu. O, 1710-cu ildə taxta əyləşdi.

Mir Mahmud xan və onun müşavirləri Şah Sultan Hüseyn sarayının vəziyyətinə və əhvalına çox yaxşı bələd idilər və bilirdilər ki, dövləti idarə edənlər rəzil adamlardır. Ölkəni və onun sərhədlərini qorumaq onların heç ağlına belə gəlmir.

Mahmud xanın məqsədi İranı bütövlükdə tutmaq və İsfahanı ələ keçirmək idi, ona görə də əvvəlcə öz rəqiblərini bir-birinin ardınca aradan götürdü, o cümlədən Abdalı [3] tayfasının başçısını, Şah Sultan

---

[3] Abdali və Gilzayi qəbilələri Əfqanıstanda ən böyük tayfalardan idi və ibtidadan bir-birinə düşmən idilər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hüseyndən Heratı almış və İran dövlətinə düşmən münasibət bəsləyən, hələlik isə ancaq Heratın müqtədir hakimi olan Əsədulla xanı öldürdü. Mir Veysin özü kimi böyük siyasətçi və ağıllı oğlu Mahmud xan Əsədulla xanla vuruşaraq onu qətlə yetirdi. O, bundan sonra aldadıcı hərəkət edərək, mərkəzi dövlətə ərizə yazdı və bu əməli ilə İran dövlətinə xidmət etdiyini bildirmiş oldu, özünü dövlətin müti qulu kimi qələmə verdi. O, hətta yazdı ki, şahın itidir. Sultan Hüseyn də sadəliyindən buna inandı. Şah Mir Mahmud xanın mükafatlandırılması üçün fərman verdi, ona qiymətli qaş-daşla bəzədilmiş qılınc göndərdi. "Hüseynqulu" deyə müraciət etdi, ona "sufiyi-safizəmir" (təmiz ürəkli sufi) ləqəbini verdi. Bundan sonra Sultan Hüseyn sarayı yenə qəflət yuxusuna getdi, tam arxayın və asudə olub, Mir Mahmud xandan heç bir xəbər tutmadı. Mir Mahmud xan 1710-cu ildə Sistanı zəbt elədi. Sultan Hüseyn sarayında isə qərəz, ixtilaf və rəqabət hökm sürürdü, bir dəstə məmur tərəfindən qəbul edilən hər hansı bir qərar, digər dəstə tərəfindən tezliklə iflic edilirdi və s. Mir Mahmud Sistanı tutduqdan sonra 1711-ci ildə 8 min nəfərlə Kirman və Yəzd yolu ilə İsfahana yürüş etdi. 1712-ci ildə Culfa işğal olundu və beləliklə İsfahan yolu əhalinin üzünə bağlandı. Bu zaman İsfahanda aclıq baş verdi. Şah Sultan vəziyyəti belə gördükdə, oğlu Təhmasib mirzənin xeyrinə taxt-tacdan əl çəkmək qərarına gəldi. Lakin şəhər mühasirədə olarkən Təhmasib Mirzə oradan Qəzvinə qaçmışdı. Sultan Hüseyn çarəsiz qalıb, yaxın adamları ilə birlikdə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Fərruxabadda olan Mir Mahmud xanın yanına getdi və öz əli ilə tacı onun başına qoydu.

Beləliklə, Mahmud xan İsfahana daxil oldu, bacarıqsız Şah Sultan Hüseynin və onun ətrafında olanların vastəsilə Şah İsmayıl Xətai və Böyük Şah Abbasın əyləşdiyi taxt-taca sahib oldu. O, eyni zamanda həm Əfqanıstanın, həm də İranın şahı oldu. Qeyd etmək lazımdır ki, Səfəvi dövlətinin dağılmasını yalnız Şah Sultan Hüseynin səriştəsizliyi və bacarıqsızlığı ilə əlaqələndirmək düzgün olmazdı. Burada feodal sinfi arasında mövcud olan ziddiyyət və çəkişmələrin, eyni zamanda, feodallar, xanlar, hökümət canişinləri tərəfindən kəndlilərin və sənətkarların, eləcə də köçərilərin istismarının güclənməsi şəraitində bütünlüklə ölkədə siyasi böhranın formalaşdırdığı faktoru da xüsusi olaraq qeyd etmək lazımdır. Bütün bunlar isə dövlət aparatının dağılmasını sürətləndirdi. (34, s. 294).

Mahmud Şahın hakimiyyəti 1722-1725-ci illəri əhatə edir. O, hakimiyyətdə olduğu 4 il müddətində saysız-hesabsız Səfəvi şahzadələrini və əmirlərini əvvəlcə zindana saldı, sonra qətlə yetirdi. Deyilənə görə qaniçən şah öz hakimiyyətinin sonlarında çoxlu insan öldürdüyü üçün dəyişərək, dəli vəziyyətinə düşmüşdü və artıq şahlıq iqtidarında deyildi. Bu səbəbdən Gilzayi böyükləri Mahmud Şahın etirazına baxmayaraq qətlə yetirdiyi əmisi Mir Abdullanın oğlu Mir Əşrəfi Qəndəhardan çağırıb, vəliəhd təyin etdilər. Mir Əşrəf də atasının intiqamını alaraq Mahmud Şahı qətlə yetirdi. Əşrəf xan II Təhmasibi aradan götürmək məqsədilə ona xəbər göndərdi ki, tezliklə İsfahana gəlsin, şahlıq irsən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ona, səfərvilər nəslinə mənsubdur. Lakin Təhmasibin ətrafında ondan ağıllı adamlar olduğundan, İsfahana getməyi ona məsləhət görmədilər.

Bu illərdə Əşrəf xanla osmanlı Əhməd[4] paşa arasında mübarizə gedirdi. Rusiya ilə Osmanlı dövləti arasında İranı bölüşdürmək haqqında bir saziş imzalanmışdi. Ruslar ordu ilə Xəzər dənizini keçərək Gilanın bir sıra yerlərini istila etmişdilər. Əşrəf şahın ixtiyarında isə İsfahan, Fars və Kirman var idi. Osmanlı Əhməd paşa devrilmiş və həbs edilmiş Sultan Hüseyni azad edərək, özü ilə birlikdə, İrana üz tutdu. O, Həmədanı tutmaq istəsə də əhali müqavimət göstərdi. Lakin onlara kömək gəldiyi üçün osmanlılar 100 min əsgərlə qələbə çaldılar. Əşrəf xan bundan xəbər tutduqda dərhal Gülpayeqana gedib, onları qabaqladı və məğlub etdi. Osmanlılar Əşrəf xanla sülh müqaviləsi bağladılar. Bu müqaviləyə görə Qərbi İran osmanlılara, Şərqi İran isə Əşrəfə tabe edildi. Əşrəf xan 1722-ci ildə Sultan Hüseyni qətlə yetirərək, hakimiyyət taxtına əyləşdi. Onu Qumda, atası Süleyman şahın qəbrinin yanında dəfn etdilər. Sultan Hüseynin böyük oğlu II Təhmasib qanuni vəliəhd idi. Isfahan əfqan Mahmud Gilzayi tərəfindən 1722-ci ildə mühasirə olunan zaman o, özünü Qəzvinə yetirdi ki, guya ordu toplayıb, əfqanları əzəcəkdir. Bəzi tarixçilər bunu Şah Sultan Hüseynin əvvəldən təşkil etdiyi kimi qələmə verirlər. Lakin II Təhmasib Qəzvində olduğu müddətdə ordu yığmaq əvəzinə özünə toy elədi. II Təhmasib 1722-ci ildə atası Şah Sultan Hüseynin

[4] Əhməd paşa-Qərbi və Mərkəxi İranı zəbt etmiş Osmanlı qüvvələrinin başçısı idi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əşrəf tərəfindən öldürüldüyü xəbərini eşitdikdə qəflət yuxusundan ayıldı, şahlıq taxtına əyləşmək üçün mübarizə aparmağa başladı.

Həzin " Tarix" kitabında II Təhmasibin taxta əyləşməsi tarixinin 1722-ci il olduğunu yazır və göstərir ki, həmin il Şah Sultan Hüseyn Mahmud tərəfindən hakimiyyətdən kənarlaşdırıldı. (71, c 2, s 84-85).

Şah II Təhmasib əfqanları məğlub edərək şəhərləri geri almaq üçün Rusiya dövlətinə, I Pyotra müraciət etdi. Pusquda durmuş ovçuya bənzəyən ruslar isə İrana kömək etmək əvəzinə Gilan şəhərini tutdular, onlar Mazandaran və Gürganı işğal etməyə hazırlaşırdılar. Bu zaman I Pyotr vəfat etdi (1725-ci il) və Nadir Şah Əfşar meydana çıxdı. (76, c. 46, s 79-87). Ruslar Gilanı boşaltdılar, lakin Ənzəlidə öz nümayəndələrini saxladılar ki, ticarət aparsınlar. Osmanlılar isə məlum olduğu kimi bu zaman Kirmanşah, Kürdüstan, İrəvan, Naxçıvan, Marağa və Xoyu zəbt etmişdilər. Onlar artıq Təbrizə yaxınlaşırdılar. II Təhmasib Təbrizi qoyub Ərdəbilə getdi. Təbriz əhalisi düşmənlə təkbətək üz-üzə qalıb, müqavimət göstərdi. Lakin axırda təslim olmaqdan başqa bir yol qalmadı.

Əşrəf Kaşan, Qum və Tehranı tutmaq üçün İsfahandan hərəkət etdiyi zaman II Şah Təhmasib geri çəkilərək, Mazandarana yola düşdü. Bu zaman Mazandaran və Gilanda taun xəstəliyi yayılmışdı. Təhmasibin ordusunda bu xəstəliyə düçar olanlar ölürdülər. O, kömək üçün qacarlar sülaləsinin cəddi Fətəli xan Qacara müraciət etdi ki, Xorasanı əfqan Mahmudun işğalından qurtarsın.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

II Şah Təhmasib Damğana yetişdikdə Nadirqulunun (1688-1747) igidliyini və şücaətini eşitdi. Bu zaman Nadirqulu **(Nadir Şah)** Əbivərd və Nisa hakimi idi. Şah Təhmasib Həsənəli xan Bistamini onun ardınca göndərdi. O da Nadirqulunu Şah Təhmasibin hüzuruna gətirdi. Nadirqulunun 500-600 nəfərdən ibarət qoşunu var idi. Şah Təhmasib onu öz ordusuna sərkərdə təyin etdi. O, da ordunu iki hissəyə böldü. Bir hissə, Şah Təhmasibin sərkərdəliyi ilə 100 min nəfər əsgər osmanlılarla döyüşə getdi. Nadir özü isə 60000 nəfərlə Xorasanda olan əfqan məlik Mahmudu əzmək üçün getdi, Mahmudu məğlub edərək öldürdü. Mənbələrin verdiyi məlumata görə Nadirqulu güclü sərkərdə olan Fətəli xan Qacarı özünə rəqib bilirdi və yüksəliş yolunda onun maniə olduğunu hesab edirdi. O, Şah Təhmasibin razılığı ilə 1726-cı ildə Fətəli xanı aradan götürdü. (71, c. 4, s 196). Beləliklə, Məşhəddə orduya komandanlıq Nadirquluya tapşırıldı.

Şah Təhmasib öz hüquqlarından lazımi qədər istifadə etmirdi, özünün acizliyi, atası Şah Sultan Hüseyndən ona keçmiş ətalət, buraxdığı səhvlər onun ətrafında olan nüfuzlu, zəkalı insanları bezdirir, saraydan uzaqlaşdırırdı.

Onun zəifliyindən istifadə edənlər və xəyanət yolunu tutanlar da var idi. Nadirqulu yaranmış bu fürsətdən bacarıqla istifadə edərək, hakimiyyəti ələ almaq məqamını yaratmaq üçün qiyam qaldırdı və güya Təhmasibi şahlıq taxtına əyləşdirmək üçün 500-600 nəfərlik qoşunla meydana çixdı. Təhmasibi İran şahı elan etdi, bu hərəkətlə ağıllı sərkərdə olan Nadirqulu Şah

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Təhmasibin etimadını qazandı və onun bütün yürüşləri müvəffəqiyyətlə başa çatmaqda davam etdi. Şah Təhmasib onu öz qoşunlarının baş komandanı təyin etdi və Təhmasibqulu xan adını ona bu zaman verdi. Təhmasibqulu xan dərhal əfqanlara, türkmanlərə və ruslara müharibə elan etdi. 1730-cu ilin qışında Qəzvin, Kaşan, İsfahan və bir çox başqa şəhərləri əfqanlardan geri aldi. Baharda isə osmanlılardan Həmədan, Ərdəbil və Təbrizi, ruslardan Gilanı və zəbt etdikləri digər yerləri aldı. Təhmasibqulu xan Xorasanda və digər yerlərdə işləri sahmana saldıqdan sonra Şah Təhmasiblə və güclü ordu ilə Heratı fəth etməyi və Abdaliləri əzməyi qərara aldı. O, Heratda yeni hökümət qurduqdan sonra II Şah Təhmasibla bərabər Məşhədə qayıdır. Bu zaman əfqan Əşrəf xanın Xorasana yola düşdüyü xəbəri yayılır. Təhmasibqulu xan II şah Təhmasiblə birlikdə onun qarşısına çıxır. Əşrəf öz qoşunu ilə Damğanda dayanmışdı. Təhmasibqulu xan Sipəhsalar ona aman vermədən döyüşə girdi, Əşrəf məğlub oldu və qaçdı. Bu döyüşlərin canlı şahidi olan Həzin öz "Tarix" kitabında Əşrəfin məğlub edilməsi səhnəsini reallıqla təsvir etmişdir. O yazır ki, Təhmasibqulu xan Şiraza qaçmış Əşrəf xanı izləmək üçün yola düşdü. Əşrəf xanın yollarda maniələr yaratmasına baxmayaraq, Nadirqulu xan o yerlərə yaxşı bələd olduğundan yoluna davam etdi. Şiraz yaxınlığında olan Zərqan hüdudunda döyüşə başladı, Əşrəf məğlub edildi və Şiraza çəkildi. O və sağ qalanlar çıxış yolunu öz əsl məskənlərinə-Qəndəharə getməkdə gördülər. Əşrəf xan bunun üçün Təhmasibqulu xandan xahiş etdi ki, İrandan çıxıb getməyə ona möhlət

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

versin. Təhmasibqulu xan dərhal müsbət cavab vermədi və Əşrəf xan əsir düşməmək üçün qorxusundan Laristan tərəfə qaçdı.

Təhmasibqulu xan Zərqanda çox qalmadı və Şiraza yollandı, Əşrəfin Şirazdan getməyini eşidib, onu təqib etməyə başladı. O, Əşrəfin şəhərdə qalmış sərkərdə və əsgərlərinin cəsurlarını öz ordusuna daxil etdi. Əşrəf qaçarkən özü ilə götürdüyü xəzinəni qardaşı vasitəsilə dəniz yolu ilə Bəsrəyə keçirmək qərarına gəlmişdi. Lakin Laristan əhalisinin bir qismi sünniməzhəb olduqları üçün əvvəlcə Əşrəfə yardımçı olacaqlarını bildirsələr də, sonra vətən təəssübkeşliyi üstün gəldi və onlar Əşrəfin qardaşını öldürərək xəzinəni paylaşdırdılar. Larilər bu ərazidə olan bütün əfqanları məhv etdilər. Əşrəf isə Sistana qaçdı. O, yolda İbrahim adlı bir qulam tərəfindən öldürüldü, başı Şah Təhmasibə göndərildi.

Təhmasibqulu xan əfqanları darmadağın etdikdən sonra Şiraza qayıtdı. Şəhər əfqanlar tərəfindən dağıdılmışdı, bağlarda bir ağac belə qalmamışdı. O, əhaliyə göstəriş verdi ki, Şiraz bağlarını əvvəlki vəziyyətə salsınlar. Şah Təhmasib onun bu qələbəsinə görə bir sıra qiymətli əşyalar, o cümlədən daş-qaşla bəzədilmiş cıqqa və ordu əmrləri üçün 300 dəst bahalı paltarı Şiraza göndərdi. Təhmasibqulu böyük fəxrlə cıqqanı başına taxdı. Bu əşaları ona gətirmiş Hüseynəli Bəstamiyə tapşırdı ki, tələblərini şaha çatdırsın.

Nadirin tələbləri aşağıdakılar idi:

1. Bütün Xorasan onun ixtiyarına verilsin.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

2. İran qoşunlarının komandanlığı, Sipəhsalar vəzifəsi ona tapşırılsın.

3. Şahın bacısı Nadirin böyük oğlu Rzaqulu Mirzəə ərə verilsin.

Şah Təhmasib dərhal hər üc şərtə razı oldu və Təhmasibqulunu osmanlıları İran torpağından çıxarmağa göndərdi. Şahın verdiyi fərmana görə Xorasan vilayətindən başqa Simnan, Kirman, Mazandaran da Təhmasibqulu xanın ixtiyarına verildi. Fərmanda həmçinin göstərilirdi ki, bundan sonra onu "məmləkətlər padşahı" adlandırır və onun adına qızıl və gümüş sikkələr vurulacaq. Təhmasibqulu xan məmləkətlər padşahı (padşahe-məmalek) ifadəsindən başqa fərmanda göstərilən bütün mətləbləri qəbul edərək osmanlılarla döyüşə getdi. (71, c.1, s 202). Nəhavəndi aldıqdan sonra burada osmanlıları məğlub etdi. Osmanlı qüvvələrinin paşaları (ordu komandanları) İranda Nəhavəndin alınmasını eşitdikdə, Məlayirdə toplaşıb, Təhmasibqulu xanla döyüşə hazırlaşmağa başladılar. Bu döyüşdə də Təhmasivqulu xan qalib gəldi. Osmanlılar çoxlu sayda tələfat verərək, Həmədana və Kirmanşaha çəkildilər. Bütün osmanlı qoşunlarının komandanı, həm də Bağdad valisi olan Əhməd paşa Kirmanşahdan Bağdada getdi. Təhmasibqulu xan 1730-cu ildə Azərbaycanda hakimiyyətini bərqərar etmək üçün Təbrizə getməyi qərara aldı. O, Miyandoabda toplanmış osmanlı ordusunu məğlub edib, Təbrizə daxil oldu. Bu zaman Təbrizdə hakim Mustafa paşa idi. O, ordusunu yığaraq qaçmaq istədikdə, Təhmasibqulu xan özünü yetirdi və iki min nəfəri əsir götürdü. Azərbaycanda qayda-qanun

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yarandı. Bu zaman abdalilərin Heratda qarışıqlıq saldıqları xəbəri gəldi, Tayfanın bötüklərindən Zülfüqar xan şəhəri zəbt eləmişdi. Təhmasibqulu xan dərhal oraya üz tutdu. 9 ay mühasirədə qaldiqdan sonra Herat alındı, abdalilər əzildikdən sonra Herata hakim təyin olundu və o, Məşhədə qayıtdı.

Təhmasibqulu II şah Təhmasibi öz tərəfindən tam arxayın etmək və ona sədaqətini göstərmək üçün ələ aldığı bir neçə saray adamını İsfahandan Məşhədə çağıraraq, özünün şaha olan sədaqətini və itaətini onlara bildirdi. Onlar da Şah Təhmasibin yanına, İsfahana qayıtdıqdan sonra Təhmasibqulu xanın etibarlı bir sərkərdə olduğunu şaha bildirdilər. Sadəlövh şah da dərhal saray adamlarının sözlərinə inandı.

Şah Təhmasib 1732-ci ildə Xorasanın şərqində nizam-intizam yaratmaq üçün abdalilər tayfası ilə mübarizə aparan Təhmasibqulu xandan xəbərsiz öz ətrafında olan 100 min nəfərlik ordu ilə Azərbaycana, osmanlılarla döyüşə getmişdi. O, bu döyüşdə məğlubiyyətə uğramış və onlarla rüsvayçı sülh bağlamışdı. Belə ki, bu razılığa görə Araz çayının sol sahilində olan bütün şəhərlər osmanlılara verilmişdi. Bu hadisə Təhmasibqulu xanı çox əsəbiləşdirdi və şahı hakimiyyətdən uzaqlaşdırmaq vaxtının çatdığını düşündü. O, əyalət və vilayət hakimlərinə müraciətində, şahı bu hərəkətinə görə ittiham etdi. 1732-ci ilin may ayında zahirən Azərbaycan istiqamətinə, əslində isə İsfahana yola düşdü. Təhmasibqulu xan yola düşməmişdən əvvəl şaha bir məktub göndərdi. Məktubda göstərilirdi ki, düşməni əzmək üçün

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Azərbaycana gedir, lakin yolda şah həzrətlərini görmək arzusunda olduğundan Tehranda dayanacaq. Şah Təhmasib onun təklifində qəribə heç nə hiss etmədi və İsfahandan çıxmadı. Təhmasibqulu xan Xorasan qoşunları ilə Tehrana daxil olduqdan sonra, burada çox ləngimədi və Şah Təhmasibi ziyarət etmək üçün İsfahana yola düşdü. O, 1732-cü ilin avqust ayında İsfahana daxil oldu və şahın hüzuruna gəldi. Bir neçə dəfə təzim etdikdən sonra yeri öpdü, əlini sinəsi üstünə qoyaraq dayandı. Şah Təhmasib bu zaman onun simasında özünün ən etibarlı adamını görürdü. Təhmasibqulu xan düşmənin başını əzmək, onu tamamilə İrandan qovmaq qərarına gəldiyini şaha bildirdi və xahiş etdi ki, o, Azərbaycana yola düşməmişdən əvvəl şah, Xorasan ordusunun sərkərdə və əmirlərində ruh yüksəkliyi yaratmaq üçün onların, həmçinin əlahəzrətin ordusunun sabah Baği-Hezar-Cəribdə düzülməyinə icazə versin. Şah bu təklifi qəbul etdi və sabah həmin yerə yola düşmək barədə əmr verdi. Beləliklə həmin günü orada keçirdilər. Müxtəlif qiymətli hədiyyələrlə şahı təbrik etdilər. Təhmasibqulu xan şahdan xahiş etdi ki, yorğun olduğu üçün bu gecəni burada, Baği-Hezar-Cəribdə qalsınlar. Şah razı oldu. Şah Təhmasib ona göstərilən qulluqdan çox məmnun qalmışdı. Şahın isə əvəz olunması qərara alınmışdı. Devrilmiş şah gecəni orada qaldı və eyş-işrətlə məşğul oldu, o qədər şərab içdi ki, uşaq kimi o tərəf bu tərəfə yıxılırdı, ayaq üstə dayana bilmirdi. Təhmasibqulu xan Xorasanın sərkərdələrini və əmirlərini şahın bu hərəkətini öz gözləri ilə görmələri üçün və şaha layiq

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olmayan hərəkətlərin İranı ağır vəziyyətə saldığını onlara başa salmaq üçün buraya yığmışdı. Səhər şahın sərxoşluğu davam edən vaxt əsgərlər şahın otağını mühasirəyə aldılar və səs-küy başladı. Şah Təhmasib bu səs-küyün səbəbini soruşduqda Təhmasibqulu xan otağa girib təzim etdi və dedi: "Qurban, bir şey yoxdur, ordu sərkərdələri ərz edirlər ki, biz sənin hakimiyyətinə tabe olmaq istəmirik, səltənətə əlahəzrətin oğlunu gətirirlər". Bundan sonra təxti-rəvanı gətirib, şahı əyləşdirdilər və bir neçə əsgərlə birlikdə Məşhədə yola saldılar. Bu hadisə 1732-cü ilin avqust ayında baş vermişdir. Təhmasibqulu xan özü də şahı müşayət edirdi. O, sərkərdə və əmirlərin bu kobud hərəkətlərinə görə şahdan üzr istədi.

Təhmasibqulu xan bu əməli icra etdikdən sonra göstəriş verdi və Şah Təhmasibin südəmər oğlu Abbas mirzəni III Şah Abbas (1732-1739) adı ilə gətirib, tacı onun beşiyi üzərinə qoydular. Sonra onun adına xütbə oxundu, sikkə kəsildi. (71, c. 2, s. 210) Təhmasibqulu xan özü isə Naibüssələtənə oldu. III Şah Abbas dayəsi ilə bərabər Qəzvinə yola salındı. M Bamdad yazır ki, III Şah Abbas Səfəvi hökmdarı II Təhmasibin böyük oğludur. Atası II Təhmasib 1732-ci ildə Nadirqulu xan Əfşar tərəfindən hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra südəmər, 4-5 aylıq uşaq olan III şah Abbas səltənət taxtına gətirildi. Nadir Şah dövləti idarə edirdi, həm də Naibüssəltənə idi. O, göstəriş verdi ki, şahlıq tacı Abbasın beşiyi üzərinə qoyulsun. III şah Abbasın yaşı ilə əlaqədar ziddiyyətli fikirlər mövcuddur. Nadir Şahın şəxsi həkimi keşiş Bazen həmkarı, alimənsəb keşiş olan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Roqerə yazdığı bir məktubda III Şah Abbas adlanan bu südəmər uşağın 4-5 aylıq olduğu göstərilmişdir. “Məfatihül-möminin” kitabının müəllifi Mir Məhəmmədşəfi Qəzvini və “Tarixi-Nadir Şah” kitabının müəllifi Ləkhart onun 8 aylıq uşaq olduğunu yazırlar.

Digər tarixçilər də III Şah Abbasın müxtəlif yaşda olduğunu göstərirlər.

Lütfəli bəy Azər müasirlərindən bəhs edən “Atəşkədə” əsərində yazır: “(Nadirqulu) Şah Təhmasibi səltənət taxtından salaraq onun 2 yaşlı oğlu Abbas mirzəni səltənətin namizədi elədi. Hər ikisini Mazandarana göndərdi”. (71, c. 2, s 210). Aşağıdakı məlumat da diqqətəlayiqdir:

Nadir Şah 1736-cı ildə İrandan alınmış bəzi torpaqları, Şərqi Xorasanın bir sıra vilayətlərini, yəni Qəndəhar və Kabili almaq üçün, həmçinin Hindistanı zəbt eləmək üçün o yerlərə yola düşmüşdü. Bu zaman Şah Təhmasibi və Şah Abbası Mazandarandan Səbzəvara gətirərək orada saxladılar. 1739- cu ildə İranda şayiə yayıldı ki, Nadir Şah Hindistanda öldürülmüşdür. Vəliəhd, Nadir Şahın böyük oğlu Rzaqulu Mirzə, Səfərvilər sülaləsinin tərafdarları üsyan qaldırmasınlar deyə və Şah Təhmasibi, Şah Abbası taxta əyləşdirməsinlər deyə, Nadir Şah tərəfindən Astarabad hakimi olmuş Məhəmmədhüseyn xan Qacar Dəvəluya göstəriş verildi ki, Şah Təhmasibi və onun iki oğlu-Abbas mirzə ilə Süleyman Mirzəni məhv eləsin. O da Rzaqulu Mirzəin əmrini yerinə yetirdi (71, c. 2, s 210). Bu məlumatdan aydın oldu ki, III şah Abbas 1739-cu ildə, yəni 7 yaşında qətlə yetirilmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Təhmasibqulu xan, Şah Təhmasibi taxt-tacdan uzaqlaşdırdıqdan sonra dövlətin bütün qüdrətini əlinə aldı və fəthlərini davam etdirdi. Kirmanşah, Kərkük, Diyarbəkr, Kərbəla, Nəcəf fəth olundu. Beynülnəhreyndə Samirə, və Kazimeyn-Kərbəla, Nəcəf, Hillə və digər torpaqlar ələ keçirildi. Ölkədə qarışıqlıq yaradan bəzi tayfalar Xorasana, Dərəgözə köçürüldülər. Təhmasibqulu xan Osmanlı və Rusiya dövlətlərinin bir hissəsinə çevrilmiş Azərbaycana üz tutdu. Isfahanda Rusiya və Osmanlı dövlətinin səfirləri onun hüzuruna gəldilər. Onlar zəbt edilən şəhərləri, o cümlədən Bakı və Dərbəndi geri qaytarmaq barədə sülh sazişi bağlamaq niyyətində olduqlarını bildirdilər. Lakin Təhmasibqulu xan çox ağıllı sərkərdə idi və onlara mənfi cavab verdi, döyüşə başladı, Tiflis, İrəvan, Gəncə və digər torpaqlar Təhmasibqulu xanın əlinə keçdi. O, Qafqazda döyüş əməliyyatları apararaq Azərbaycan, Gürcüstan və Dağıstanda torpaqları azad edib, orada nizam-intizam yaratdığı zaman Rusiya işğal etdiyi Bakı və Dərbəndi boşaldaraq Nadirə təhvil verdi.

Təhmasibqulu xan böyük fəthlərdən sonra öz gələcək planlarını həyata keçirmək üçün göstəriş verdi ki, hər bir şəhərin hakim, əmir, alim, seyid, qazi və əyanı bir məsələnin müzakirəsində iştirak etmək üçün təyin olunmuş gündə Muğan çölünə gəlsinlər. O, buraya toplaşmış insanlarin qarşısında belə bəyanat vermişdir: "Siz ağaları buraya yığmaqda məqsədimiz budur ki, sizə xatırladım: Şah Təhmasib taxt-tacdan azad edildikdən sonra onun oğlu III Şah Abbas İran şahı oldu və onların hər ikisi sağdır, həyatdadır. Hər ikisi də padşah və

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

şahzadədir. Mən bu bir neçə il ərzində səylə çalışdım, məmləkətə xidmət etdim. Rusların, əfqanların və osmanlıların əlinə keçmiş şəhərləri onların işğalından qurtardım, ölkədə əmin-amanlıq yaratdım. Düşmənlər darmadağın edildilər. İndi siz öz seçiminizdə azadsınız. O iki nəfərdən birini, yaxud layiq olan başqa birisini İran məmləkəti üçün seçin".

Bu bəyanatdan sonra hər yerdən səslər ucaldı: "Sizdən başqa bu məqama heç kəsi istəmirik, siz gərək səltənətə sahib olasınız".

Bu söhbət bir ay ortada gəzib dolaşdı və Təhmasibqulu xan hələ səltənəti qəbul etməkdən imtina edirdi. Nəhayət bir qədər keçdikdən sonra qəbul etdi və dedi: İndi ki, siz məni səltənəi taxtında şah görmək istəyirsiniz, mən bunu bir sıra şərtlərlə qəbul edirəm".

Təhmasibqulu xanın tələblərindən biri müsəlmanlar arasında nifaq və ikitirəliyin aradan qaldırılması idi. Şah İsmayıl zamanında yaranan bu hal (şiə-sünni məsələsi) İran torpağında fitnə-fəsad yaradan məzhəb ayrılıqlarına səbəb olmuşdu. Təhmasibqulu xan dedi: "Ona görə də iranlılar arasında Şah İsmayıl Səfəvi zamanında yayılmış şiəlik təriqətindən əl çəkmək lazımdır. İranlılar neçə müddətdir ki, həzrəti-imam Cəfəri-sadiqə (ə) itaətdədirlər, o həzrəti öz başçıları bilsinlər, onun ardınca getsinlər". (71, c. 4, s. 213). Hamı bu təklifə razı oldu, bu barədə vəsiqənamə yazıldı, möhürləndi və xalqın nümayəndələrinə verildi. Nadir Şahın təklif etdiyi və Muğan çölündə yayılmış əhdnamənin bu bəndində cəfəri məzhəbinin digər mövcud dörd məzhəblə yanaşı (hənəfi, şafei, maliki və

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

hənbəli) qüvvədə olması barədə məlumat öz əksini tapmışdır.

Kəbənin ziyarəti zamanı həmin dörd məzhəbdən başqa cəfəri məzhəbinin də ayinləri yerinə yetirilməli idi. Bu əhdnamənin cəfəri məzhəbi ilə əlaqədar olan hissəsindən başqa bütün bəndləri Osmanlı dövləti tərəfindən də qəbul edilmişdi. Bu barədə bir qədər ətraflı: Nadir Şah 1736-cı ildə Osmanlı dövləti ilə müharibəni bitirərək sülh danışıqları aparmağa başladı. Onun öz elçisi ilə göndərdiyi 4 maddəlik müqavilənin bütün bəndləri qəbul edilmiş, cəfəri məzhəbinin islam və şəriət qanunlarına görə beşinci məzhəb kimi qəbul edilməsi haqqında olan maddə mübahizə doğurmuşdu. I Mahmud elçisini göndərərək bu məzhəbin qəbulunun xalq arasında narazılığa səbəb olacağını bildirmişdi. Lakin Nadir Şah inadkarcasına bunu qəbul etməmiş və bu fikir ayrılığı 1740-cı ilədək davam etmişdir. 1743-cü ildə İran Osmanlı dövləti ilə yenidən müharibəyə başladı. Hər iki dövlətin qoşunları Mosul, Qars və İrəvan ətrafında vuruşdu. Nadir Şah İrəvan vuruşmasından sonra İstanbula iki məktub göndərdi. Bu məktubda din və qardaşlıq naminə məzhəb məsələsindən əl çəkdiyini bildirdi. Nadir Şah bunun əvəzində Şah İsmayıl dövründə Səfəvi İran torpaqları olan yerlərin geri qaytarilmasını istəmişdi. Məktubları Nadir Şahın məşhur sərkərdələrindən olan Fətəli xan aparmışdı. Osmanlı dövləti öz elçisini Fətəli xanla bərabər Nadir Şahın Tehranla Qəzvin arasındakı Kerdən qərargahına göndərmiş, 1746-cı ildə burada Qəsri-Şirin müqaviləsinə uyğun müqavilə imzalanmışdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Sünni Nadir Şah əsasən şiəməzhəb əhaliyə malik İran torpaqlarını azad edərək orada şah elan olunduqdan sonra onun əsas məramlarından biri də insanları bir-birinə yaxınlaşdırmaq olmuşdur. O, şiəliklə yanaşı sünni məzhəbinə də hörmət etməyi qanun çərçivəsinə sala bildi və dörd məzhəblə yanaşı (hənəfi, şafii, maliki və hənbəli) cəfəri məzhəbini də tanımağı tövsiyə etdi. O, şiə dövlətində şah olmaq üçün şiəliyi qəbul etmiş, həm sünnilərin, həm də şiələrin hörmət bəslədiyi imam Cəfəri-Sadiqin adına "cəfəriyyə" məzhəbini elan etmişdir. (53, s. 19).

Təhmasibqulu xan 24 şəvval 1148-ci ildə (1736, fevral), münəccimlərin onun üçün təyin etdikləri gündə şahlıq taxtına əyləşdi. O gündən Nadir Şah kimi məşhur oldu. Öz adına xütbə oxutdu, sikkə düzəldi və bir çox şəhərin hakimini dəyişdi.

1736-cı ilin novruz bayramından sonra Mahmud Şah Hutəki Gilzayinin qardaşı Mir Veysin oğlu Mir Hüseyn Qəndəharı (Əfqanıstanın qədim şəhərlərindən biri) zəbt etdi və düşmən mövqeyi tutdu. Nadir Şah Qəndəhara yola düşərkən eşitdi ki, bəxtiyari elinin başçılarından olan Əlimurad xan Həftləng Bəxtiyari də düşmən mövqeyindədir. Nadir Şah əvvəlcə Əlimurad xanı qətlə yetirdi, sonra bəxtiyarilərdən 4 min gənc seçib, öz ordusuna daxil etdi və 1736-cı ilin dekabrında Qəndəharı mühasirəyə aldı. Əfqanlar İranın bütün var-dövlətini həmin qalada saxlayırdılar.

Əfqan Mir Hüseyn Nadir Şahın yaxınlaşdığını eşitcək çöldə yetişmiş buğdanın tez yığılması barədə sərəncam verdi. Yığa bilmədikləri buğdaya od vurub

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yandırmağı əmr etdi və qalaya çəkildilər. Nadir Şahın ordusu Qəndəharın şərqində qərarlaşıb, əməliyyata hazırlaşdı. O başa düşdü ki, mühasirə uzun çəkəcək. Ona görə də tapşırıq verdi ki, şəhərin ətrafında bir neçə bürc tikilsin. Bununla da gəlib-gedənləri nəzarətdə saxlamış olsun. Sonra göstəriş verdi ki, mövcud şəhərin bərabərində bir şəhər salınsın. Yeni şəhər dərhal tikildi və Nadirabad adlandırıldı. Qəndəhar fəth olunandan sonra oranın əhalisi bu şəhərdə məskən salmışdı.

Qeyd etmək lazımdır ki, indiki Qəndəhar Nadir Şahın inşa etdiyi şəhərdir, köhnə Qəndəhar isə onun əmri ilə tamam dağıdılmişdır. Nadir Şah qətlə yetirildikdən sonra yeni şəhərin adı dəyişdirildi və Qəndəhar adlandırıldı, Nadir Şahın yasovulu, Əhməd şah Dürrani adı ilə məşhur olan Əhməd xan Abdalı Şərqi Xorasanın şəhərlərini idarə edən zaman o ərazini Əfqanıstan adlandırmış, Nadirabadı öz paytaxtı etmişdi. Sonra şəhərin adını dəyişib, Qəndəhar qoydu. Qeyd etmək lazımdır ki, Nadir Şah Qəndəhar qalasını mühasirəyə alaraq Mir Hüseyni məğlub edən zaman böyük oğlu, vəliəhd Rzaqulu Mirzə Bəlx və Bədəxşanı öz əlinə keçirmişdi və Mavəraünnəhrə hücum etməyə hazırlaşırdı. Lakin Nadir Şahın bu işə müdaxiləsi onu Bəlxə qayıtmağa məcbur etdi.

Gilzayi başçılarından olan Əşrəf sultan Nadir Şahın ordusu ilə birləşdi. Qəndəharın mühasirəsi 1 ildən artıq çəkdi. Nadir Şahın ordusundan 4 min əsgər tələf oldu. Mir Hüseynin təslim olduğunu bildikdə Nadir Şah onu və qohumlarına yaşamaq üçün Mazandarana getməyə icazə verdi. Külli mıqdarda qənimət ələ

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

keçirildi. Mir Hüseyn Nadir Şahın hərəmxanasında olan bacısı Zeynəbin xahişi ilə bağışlandı. (71, c. 4, s. 217).

Nadir Şah Qəzneyn və Kabilə tərəf hərəkət etdi. Kabil əhalisi onu əvvəlcə yaxşı qarşıladı və o, orada 40 gün qaldı. Qeyd etmək lazımdır ki, Kabil o vaxtı Hindistana tabe idi. "Nadir Şah 13 gün yol gedərək moğol ölkəsinə gəldi və 8 günə oranı aldı". Bu sözlər Nadir Şahın şəxsi həkimi Bazinə məxsusdur. Moğol padşahı Məhəmməd şahı məğlub etdikdən sonra Nadir Şahın başına əhvalat gəldi. Onun güya öldürüldüyü barədə şayiə yayıldı. Avam camaat bu yalan şayiəyə inanıb, Nadir Şahın əleyhinə qiyam qaldırdı. Xırmanlara od vurdular. Şəhərin böyüklərinin evlərinin yaxınlığında və məhəllələrdə yerləşən şah qarnizonları əhali tərəfindən dağıdıldı. Bu hadisələrdən sonra Nadir Şah səhər tezdən yola düşüb şəhərə varid oldu. O, düşündü ki, camaat onu görüb xəcalət çəkər və pis əməllərdən əl çəkərlər. Lakin bunun əksinə oldu, hətta ona tərəf atəş də açdılar. Xoşbəxtlikdən güllə ona dəymədi. Vəziyyəti belə gördükdə əmr etdi ki, üsyançılara divan tutulsun. Bu zaman Məhəmməd şah bütün vəzir və əyyanlarını Nadir Şahın yanına göndərdi və qırğını dayandırmağı xahiş etdi. Nadir Şah da sərkərdələrinə əmr verdi və 58 gündən sonra, Şahcahanabadda sakitlik yaradaraq, İrana qayıtdı. O, əzəmətli bir məclis quraraq buraya Hindistanın əyan, əşrəf, sərkərdə və əmirlərini dəvət etdi. Nadir Şah bu məclisdə Hindistan məmləkətini yenidən Məhəmməd şaha tapşırdı və səltənət tacını öz əli ilə onun başına qoydu, dedi: "Bundan sonra Məhəmməd

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

şah mənim möhtərəm qardaşım və yenə də Hindistanın padşahıdır".

Nadir Şah Hindistan əyanları və Məhəmməd şah tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırıldı və gəldiyi yolla İrana qayıtdi. Şahın şəxsi həkimi Bazin yazır: "Fateh özünü ilk moğol padşahı elan etdi və həmin şahlığın bütün xəzinəsi ona tapşırıldı. Sonra hind səltənətinin tacını Məhəmməd şaha verdi, bu şərtlə ki, o, İranın vassalı olsun". (71, c. 4, s. 222)

Nadir Şah moğollardan aldığı küllü miqdarda mal-dövləti əvvəlcə Məşhəd və Qəzvində qoydu, iki ildən sonra qərara aldı ki, bunların hamısını möhkəm qalada saxlasın. Bunun üçün Kəlat qalasını seçdi. Bu qala iki hündür dağın arasında yerləşmişdir. Havası ağır olan bu yer Nadir Şah üçün behiştə çevrilmişdi. Onun nəzərində bu yer onun məmləkətinin ən səfalı nöqtəsi, istirahət guşəsi idi. Burada qorunan sərvətin nə qədər olduğu barədə heç kəsin məlumatı yox idi. Bazin isə bu qənimətin miqdarı barədə yazır ki, təxminən 300 kurur rupiyə qədər olardı. Bu isə Fransa pulu ilə 5 milyard 250 milyondur. (71, c. 4, s. 223).

Nadir Şah Dağıstan uğrunda mübarizəyə başladığı zaman vali Xudayar xan onun qorxusundan əhalini qiyama qaldırdı. Nadir Şah Kabildən o istiqamətə yola düşdü və Xudayar xanı əsir aldı. O, Dağıstanı 3 hissəyə bölərək hər birinə öz tərəfdarlarından hakim təyin etdi. Sonra Mavəraünnəhri və Türküstanı fəth eləmək üçün hazırlaşdı.

Buxara şahı Əbülfeyz xan müqavimət göstərmədən ona tabe oldu və padşaha aid olan bütün

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qiymətli əşyaları (üzük və tac) Nadir Şaha təqdim etdi. Nadir Şah öz tərəfindən onu Türküstan padşahı təyin etdi. Nadir Şah Türküstan sultanlarının nəslindən olan Tahir xanı Xarəzmə hakim təyin etdi. Sonra İrana yola düşdü və Mərv-Kəlat yolu ilə Məşhədə varid oldu. Bu 1154 cü ilə (1741) təsadüf edir. Nadir Şah Məşhəddə iki ay qaldıqdan sonra hələ 2 il əvvəl, yəni 1739-cu ildə ləzgilərlə müharibə zamanı öldürülmüş qardaşı İbrahim xanın qisasını almaq və Dağıstanı fəth etmək üçün Əstərabaddan Mazandarana, oradan da Tehrana gələrək Dağıstan istiqamətinə yola düşmək qərarına gəldi. Lakin bu döyüş onun üçün uğursuz oldu. Mazandarandan keçərkən sıx cəngəlliklər olan Zirab adlanan yerdə ona sui-qəsd etdilər. Ağac arxasında gizlənən bir şəxs Nadir Şahı nişan alaraq ona güllə atdı. Lakin güllə yan keçərək yalnız sağ qolunun altından keçib onu cızmış, sonra atına dəyib, onu öldürmüşdü. Şah Tehrana gəlib bir neçə gündən sonra yenidən Dağıstana yola düşdü. Nadir Şahın bu yürüşü də uğursuz oldu və istədiyinə nail olmadı. Qış fəslinin düşməsi də buna mane oldu və Dərbəndə qayıdaraq göstəriş verdi ki, əsgərlər qışı burada qalmaq üçün özlərinə ağac və qamışdan ev düzəltsinlər. Belə də etdilər. (Hərb tarixində ilk hərbi düşərgəni salmış oldu) Nadir Şah Dərbənddə dayandı və ona sui-qəsd edənlərin cəzasını verdi. Şübhəli şəxslərdən biri Dilavər Taymənininin [5] nökəri Nikqədəm, digəri Dilavərin oğlu Ağa Mirzə idi. Nadir Şah Nikqədəmə söz verdi ki, əgər o, həqiqəti danışarsa, ona aman veriləcək

---

[5] Taymənilər  tayfası Heratın ucqar ərazisində sakin olub, 12 minə yaxın ailədən ibarətdir. Bu tayfa iki söbəyə ayrılır.1qıncaq  2 Dərzavi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

və öldürülməyəcək. Nikqədəm hadisəni olduğu kimi danışdı və onu bu işə Ağa Mirzənin vadar etdiyini söylədi. Nadir Şah söz verdiyi kimi onu öldürmədi, lakin tapşırdı ki, hər iki gözünü çıxarsınlar. Ağa Mirzəni isə öldürtdü. Sonra böyük oğlu, vəliəhd Rzaqulu Mirzəin də hər iki gözünün çıxarılmasını əmr etdi. Əsas günahkar o idi. Bu hadisədən sonra şahın çılğınlığı daha da artdı.

Dərbənddə olarkən Nadir Şah 5-ci məzhəbin, yəni cəfəri məzhəbinin Osmanlı dövləti tərəfindən qəbul edilmədiyini eşidib, qərara aldı ki, müharibəyə başlasın və Beynülnəhreyni işğal etsin. O, Dərbənddə bir daha elan etdi ki, Muğan çölündə qərara alınmış bu məsələdə israrlıdir və onun məqsədi I Şah İsmayıla uğursuzluq gətirmiş sünni-şiə məsələsinin islam aləminə nifaq saldığını Osmanlı dövlətinə çatdırmaqdır. Nadir Şahın bu addımını Lord Kerzon yüksək qiymətləndirir və "Kitabi-İran və məsəleyi-İran" əsərində göstərir ki, Nadir Şahın zühurundan sonra Tehran yenidən diqqət mərkəzində oldu. Əfşar şah bu tarixi şəhərdə (Dərbənddə) böyük şiə mollalarını bir yerə toplayaraq ittihadi-islam, şiə-sünnü ixtilafını aradan götürməyi təklif etmişdir. (71, c. 4, s. 266).

Nadir Şah görkəmli alim, nüfuzlu şəxsiyyət olan Mirzə Məhəmmədəli Naibüssədarəti vilayətlərə göndərdi. Özü isə 17 aya yaxın Dağıstanda qalaraq, ağır döyüşlər apardı. Həm o, həm də ləzgilər böyük itkilər verdilər. Nadir Şah uğur qazanmadan 1742-ci ildə geri qayıtdı. Bir ildən sonra Bağdadı fəth etmək üçün yola düşdü.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Nadir Şah Bağdadın Şəhirvan deyilən yerində olarkən Farsın qubernatoru Tağı xan Şirazinin bir dəstə toplayaraq onun əleyhinə çıxdığını eşitdi. Tağı xan şəhərdən çıxmayaraq səngər düzəltdi və Nadir Şahla döyüşə hazırlaşdı. Nadir Şah öz adamlarından Mirzə Tağı xanın yanına nümayəndə göndərdi və ona itaət etməyi təklif etdi. Lakin Taği xan rədd cavabı verdi. Nadir Şah Fars ordusunun komandanı Məhəmməd Hüseyn Qırxlu Əfşara əmr etdi ki, Şirazın mühasirəsini daraltsın və möhkəmlətsin. Tağı xan 4ay yarım müqavimət göstərdi, lakin Nadir Şahın güclü ordusu onu qaçmağa vadar etdi. O, iki gündən sonra tutularaq İsfahana göndərildi və cəzalandı. Bu vaxt Şirazda vəba xəstəliyi yayıldı, 14 min əhali bu xəstəlikdən uzaqlaşıb şəhəri tərk etdi.

Nadir Şahın həkimbaşısı Bazin yazır ki, Nadir Şahın səhhəti ömrünün axırlarında pisləşmışdi. Işinin çoxluğu və yorğunluq ona bir çox xəstəliklər gətirmişdi. O cümlədən ağız quruluğu, bədənə su yığılma (водянка) və başqa xəstəlikləri var idi. Bazin onu müalicə etdiyi üçün şah ona hüsn-rəğbət bəsləyirdi. Sarayda ondan başqa 4 həkim olduğu halda, xarici olduğu üçün Nadir Şah Bazinə daha çox inanırdı. (71, c. 4, s. 229).

Nadir Şah 1158-ci (1745) ildə Qafqazda olarkən Şəki şəhərində qalmışdir. Bu zaman eşitdi ki, bir neçə yüz min nəfərdən ibarət atlı və piyada Osmanlı ordusu vəziri-əzəm Məhəmməd paşanın komandanlığı altında İran şəhərinə üz tutmuşdur. Nadir Şah hərəkət edib, bir neçə günə İrəvanın iki fərsəxliyinə yetişdi. İki ordu döyüşdü və bu döyüşdə İran ordusu qalib gəldi. Sonra

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

iki dövlət arasında İstanbulda sülh müqaviləsi bağlandı. Bu müqavilə 1160-cı ildə (1747-ci ilin əvvəli) Mustafa xan Şamlu və Mirzə Mehdi xan Əstərabadi tərəfindən imzalanmışdı. Nadir Şah osmanlılarla döyüş qurtardıqdan sonra Həmədan və Ərak yolu ilə İsfahana gəldi.

Nadir Şah İsfahanda çox qalmadı. Bir ay sonra Məşhədə yola düşdü, öz qiymətli cəvarihatını bir daha görmək üçün Kəlata getməyi qərara aldı. Burada hər şeyin salamat və qaydasında olduğunu bildikdən və gözətçilərə tapşırıq verdikdən sonra İsfahana yola düşdü. Çox keçmədi ki, Nadir Şah Əfşarın ölüm xəbəri yayıldı.

Nadir Şah dünən ona yaxın, dost olan insanlar tərəfindən qətlə yetirilmişdir. Belə ki, şahın yaxın adam hesab edərək göndərdiyi şəxslər üsyançıları məğlub etmək əvəzinə onların tərəfinə keçir, onun əleyhinə birləşirdilər və qiyam qaldırırdılar. Nadir Şah da onları məğlub edirdi. Növbəti dəfə kürdləri əzmək qərarına gəldi. Nadir Şahın ilxıları saxlanan Radgan düzündə Zəfəranlu Qoçan kürdləri qarətçilik etmiş, ilxını bütünlüklə aparmışdılar. Nadir Şah kürdləri tənbeh etmək üçün Xabuşan istiqamətində hərəkət etdi. Qoçanda düşərgə saldı. Lakin öz qərarına əməl etməmiş, gecə ona çox yaxın olan saray adamları, sərkərdələri tərəfindən qətlə yetirildi. Bu hadisə 11 cəmadiyüssani 1160-cı ildə (20 iyun 1747-ci il) baş vermişdir.

Bazin yazır: "Nadir Şah 1747-ci il iyun ayının 19-da Qoçana yaxınlaşdı və narahatçılıq gətirəcəyini sanki hiss edirdi və bəlkə də sui-qəsd baş verəcəyini hiss edəcəyi təqdirdə Kəlata pənah aparmaq məqsədi ilə bu

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yerdə düşərgə salmışdı. Neçə gün idi ki, bir atı bəzəyərək hərəmxana qarşısında hazır saxlayırdı. Şah ona qarşı sui-qəsd hazırlandığını duyurdu. Lakin buna səbəb görmürdü".

Nadir Şahın ölümü onun düşmənlərini sevindirdisə, İran bu hadisədən çox zərər çəkdi və hərc-mərclik, hakimiyyət uğrunda çəkişmə meydanına çevrildi. Hər vilayətdə bir şah baş qaldırdı,bir hökmdar meydana çıxdı.

Nadir Şah İranda dəniz donanması yaratmaq təşəbbüsündə olmuş ilk dövlət xadimidir. Avropada dəniz donanmasının mövcudluğu barədə eşitdikdə bu fikrə düşən Nadir Şah Fars körfəzində və Xəzər dənizində bunu yaratmağı qərarlaşdırmışdı. O, İngiltərədən bir neçə gəmi almış və bir neçəsini Bəndər-Abbas limanında düzəltdirməyi təklif etmişdi. Lakin orada lazımı taxta olmadığı üçün başqa yerdən gətirməyi tapşırmışdı. Beləliklə əhalinin zəhməti bahasına 300 fərsəng məsafədən iri ağaclar gətirildi, bu iş zamanı minlərlə insan tələf oldu. Xəzər dənizinə bir neçə gəmi buraxıldı və 3 gəminin də düzəldilməsinə başlandı. Bu zaman Nadir Şah qətlə yetirildi.

Nadir Şahın gözətçi dəstəsinin rəisi, həm də onun əsas qatillərindən biri olan Məhəmmədqulu xan Əfşar, şahın öldürülməsi, bu işdə onun rolu barədə şəxsi həkim, avropalı Bazin yazırdı:

"Hələ 1746-cı məsihi ili başa çatmamış İran şahının ilk həkimi təyin olunmağımla əlaqədar bu ölkəyə yetişdim. Bu qeydlərimlə heç də öz sərgüzəştlərim haqqında məlumat vermək qəsdində deyiləm, əksinə,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

məqsədim daima yanında olduğum, şəxsi həkimi kimi qulluq etdiyim şahın faciəli ölümü barədə məlumat vermək, bu hadisəyə aydınlıq gətirməkdir. Mənim köməyim bu cəhətdən olar ki, mərhum şahın həyat və fəaliyyətinin sonlarında baş vermış hadisələri açıb göstərim. Çünki onun ilk həkimi kimi məcbur idim ki, hər yerdə və hər zaman onunla birlikdə olum. Mən onun qətlə yetirildiyi yerin yaxınlığında qalırdım, çünki mənim də çadırım onun çadırı yaxınlığında qurulmuşdu. Nadir Şah neçə müddət idi hiss edirdi ki, onun əleyhinə təxribat hazırlanır və həyatı təhlükə altındadır. Lakin bunun səbəbini bilmirdi. Saray adamları içərisində ondan narazı, qarışıqlıq salmaq istəyən iki nəfər var idi. Bunlardan biri Nadir Şahın gözətçibaşısı Məhəmmədqulu xan, digəri isə onun mübaşiri Səlah xan (Bazin Saleh xanı hər yerdə Səlah kimi yazır-H. T.) idi. Nadir Şah Səlah xandan heç şübhələnmirdi, çünki onu döyüşkən, igid kimi tanıyırdı. Lakin əslində o, Məhəmmədqulu xandan da təhlükəli idi. Nadir Şahın ordusunda 4 min əfqan var idi və onlar bir tərəfdən şahı fədakarcasına qoruyurdular, digər tərəfdəndə iranlıların düşməni idilər. Həmin gecə, yəni iyunun 19-dan 20-nə keçən gecə Nadir Şah əfqanların komandanlarını yanına çağırıb onlara dedi: “Mən öz mühafizlərimdən razı deyiləm. Sizin mənə olan yaxşı münasibətinizi, sizin düzlüyünüzü, cəsurluğunuzu bilirəm. Ona görə də sizə tapşırıram ki, sabah sübh tezdən İranın zabitlərini yığıb həbs edin, əgər onlardan kimsə özbaşınalıq edərsə və müqavimət göstərərsə, onu öldürməkdən çəkinməyin. Mənin məqsədim özümü müdafiə etməkdir və mən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

təhlükəsizliyimi sizə tapşırıram". Əfqan komandirləri şahın onlara göstərdiyi bu etimada və mehribanlığa görə çox məmnun oldular və öz əsgərlərini tez hazır vəziyyətə gətirdilər. Lakin bu fərman gizli qalmadı və narazı olanlar, üsyankarlar bundan xəbər tutdular. Hər yerdə cəsusları olan və bu fərmanla ölümə məhkum ediləcəyini başa düşən Məhəmmədqulu xan Saleh xanı xəbərdar elədi. Bu iki şəxs birləşərək gecə şahı qətlə yetirməyi qərara aldılar. Sonra 60 nəfər komandiri tapıb,onları da himayə etdilər və sənəd tərtib edərək, onların adlarını oraya yazdılar və qol çəkdirdilər. Onları inandırdılar ki, bu tədbir və intiqam onların həyatını xilas etmək üçün icra olunur, çünki səhər əfqanlar onları məhv etmək əmrini almışlar. Qoşun başçıları qürub çağı əmr icra olunan vaxt gəldilər.

Qiyamçılar şahın çadırına daxil oldular və onlara mane olanların hamısını zərərsizləşdirdilər. Onlar şahın yatağına yaxınlaşdılar. Şah hənirtiyə oyandı,fəryad etdi: "Kimdir? Mənin qılıncım hanı? Silahımı gətirin!" Bu sözləri eşidən qiyamçılar qorxudan geri döndülər, lakin bir neçə addım getmişdilər ki, bu zaman iki qadının qaldırdığı şivən onları məcbur etdi ki, yenidən çadıra girsinlər və onları susdursunlar. Nadir Şah hələ gecə paltarını geyməmişdi. Əvvəlcə Məhəmmədqulu irəli cumdu və qılıncla ona elə bir zərbə endirdi ki, şah ayaq üstə dayana bilmədi və yerə yıxıldı, ona bir neçə zərbə də vurdular. Bədbəxt şah qan içində çabaladı, qalxmaq istədi, lakin qüvvəsi çatmadı. Bu zaman o dedi: "Məni nə üçün öldürürsünüz? Mənim həyatımı mənə qaytarın. Nəyim varsa, sizin olsun. "Nadir Şah bu sözləri deyən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

zaman əlində qılınc olan Səlah xan qəflətən onun başını üzdü. O, şahın başını bir əsgərə verdi ki, aparıb Əliqulu xana (Nadir Şahın qardaşı oğluna-H. T.) çatdırsın. Bu zaman Əliqulu xan Heratda idi və taxt-tac uğrunda mübarizə aparırdı. Əsgəri yolda öldürdülər və kəsilmiş baş 3 həftədən sonra şahzadəyə çatdırıldı". (71, c. 3, s. 474-475). Bazin Məhəmmədqulu xanın aqibəti barədə belə yazr:

"Təhmasibqulu xana (Nadir Şah-H. T.) qarşı sui-qəsdin banisi olan Məhəmmədqulu xan başqa biz sui-qəsdi Əliqulu xanın (Adil şah-H. T.) əleyhinə hazırlayırdı. Adil şah da onu öz əvvəlki vəzifəsində, yəni keşikçibaşı saxladı və ona inandı. Lakin ondan şübhələndikdə onu tədricən öyrənməyə başladı. Məşhəddə onu həbs edərək əmr etdi ki, gözləri çıxarılsın. Sonra onu Nadir Şahın arvadlarının əlinə verdi və ona ölüm tələb edən arvadlar qatili görən kimi min bir işgəncə ilə öldürdülər". (71, c.3, s. 476).

Nadir Şah Əfşarın vəliəhdi Rzaqulu Mirzə (1719-1748) Əbivərd hakimi Baba Əli Kusə Əhmədlu Əfşarın qızı ilə izdivacdan dünyaya gəlmişdir. Rzaqulu Mirzəin Şah Sultan Hüseynin qızı Fatimənin izdivacından isə Şahrux şah doğulmuşdur. Deməli, Nadir Şahın nəvəsi olan Şahrux həm əfşarlar, həm də səfəvilər nəslinin davamçısı olmuşdur.

Ingilis alimi Vatson Qrent "Tarixi-İran" kitabında bu barədə belə yazır: "Bu zirək, təcrübəli siyasətçi (Nadir Şah nəzərdə tutulur) səltənətin hökmdarını özündən asılı etdikdən sonra qərara aldı ki, şübhə doğurmamaq və öz nəslini daha da möhkəmləndirmək

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

üçün onlarla qohumluq əlaqələri yaratsın. Bu məqsədlə öz böyük oğlu Rzaqulu Mirzəə II Şah Təhmasibın bacısını aldı. (71, c.2, s. 34).

Mir Məhəmmədşəfi Qəzvini "Məhafil-ül-möminin" əsərində yazır: Nadir Şah səltənət taxtına əyləşdikdən sonra Rzaqulu Mirzəi Xorasan valisi təyin etdi".

Nadir Şah 1738-ci ildə Dehlidə olarkən İranda şayiə yayıldı ki, şah orada vəfat etmişdir. Rzaqulu Mirzə işini ehtiyatlı tutmaq üçün, xalqın qiyamından və səfəviyyə tərəfdarlərının qorxusundan öz müşaviri olan Əstərabad valisi Məhəmmədhüseyn xan Qacar Dəvəlunu Səbzəvara göndərdi. O da II Şah Təhmasibı və onun oğlu III şah Abbası qətlə yetirdi. (71, c.2, s. 35). Sonra isə səltənəti öz istədiyi kimi qurmaqla məşğul oldu. Bu zaman Nadir Şah Hindistandan qayıtdı. Rzaqulu xanın tutduğu işdən xəbərdar olduqda onu pislədi. Bəziləri deyirlər ki, guya Nadir Şah Hindistana getməmişdən Rzaqulu Mirzəə tapşırmışdı ki, əgər oradan qayıtmasa, bu cür hərəkət etsin. Rzaqulu Mirzəin bu hərəkəti xalqı qəzəbləndirmış və o, artıq gözdən düşmüşdü.

Nadir Şah Qəndəharı [6] mühasirə etdiyi günlər (1736/37) Rzaqulu Mirzə Xorasan qoşunlarının köməyi ilə Bəlx və Bədəxşanda fəthlər edirdi və o ərazini tamamilə tutmuşdu. Rzaqulu xan Türküstanı fəth elədi.

---

[6] Qəndəhar-Əfqanıstanın cənubunda yerləşir. Səfəvilər və Böyük Moğollar arasında mübarizə obyekti olmuşdur. XVII əsrin ortalarından səfəvilərin hakimiyyəti altında idi. Nadir Şah 1738-ci ildə zəbt eləmiş, 1773-74-cü illərdə Əhməd şah Dürrani dövlətin paytaxtı olmuş, 1855-ci ildən Əfqanıstan dövlətinin tərkibinə daxil edilmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Getmək istədikdə, Nadir Şah icazə vermədi və Bəlxə qayıtdı.

Nadir Şah qardaşı İbrahimn qanını almaq üçün 1739-cu ildə Tehrandan keçib Dağıstana tərəf hərəkət edərkən, Mazandaran meşəliklərində ona güllə atılmışdı. Bu səfərdə vəliəhd Rzaqulu Mirzə da onunla idi. O bu hadisələrdən zahirən həyəcanlansa da, müqəssiri tapa bilmədilər. Lakin bu işdə onun əli olduğu sübuta yetdi və Nadir Şah Dağıstanda onu yanına cağırıb uzun-uzadı danışıqlardan sonra tapşırdı ki, hər iki gözü cıxarılsın.

Rzaqulu  xan gəncliyində Xorasan valisi təyin edilmişdi və o zaman öz müəllimi olan Mirzə Sadıq Təfrişini dünya işığından məhrum etmişdi. Həmçinin Şah Təhmasibi və iki oğlunu qətlə yetirmişdi. Rzaqulu Mirzəin arvadı qardaşının faciəsindən xəbər tutduqda öz əri ilə mübahisə etmiş və Rzaqulu Mirzə əmr etmişdi ki, onu döyüb öldürsünlər. Lakin özü də ruzgarın amansız ölümündən qaça bilməmişdi.

Rzaqulu Mirzə Nadir Şahdan sonra taxt-taca yiyələnmiş Adil şahın göstərişi ilə, qaniçən gürcü Söhrabın əli ilə digər şahzadələrlə birlikdə 29 yaşında qətlə yetirilmişdir.

Nadir Şah özünün yüksək sərkərdəlik məharəti ilə, başa vurduğu fəthləri nəticəsində böyük bir əraziyə malik bir dövlət yaratdı və dünyanı tərk etdi. Əlavə olaraq demək lazımdır ki, onun şahlıq dövrü əslində 1736-1747-ci illər deyil, 1732-1747-ci illər, yəni 15 ildən artıq bir zaman olmuşdur.

Yuxarıda deyildiyi kimi Nadir Şahın nəvəsi Şahrux mirzə (1733-1796) Rzaqulu Mirzəin və Səfəvi

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Şah Sultan Hüseynin qızı Fatimə Sultan Bəyimin oğlanlarıdır. O, 12 yaşında olarkən Nadir Şah tərəfindən ən güclü qoşun böyükləri ilə birlikdə Sam mirzəyə qarşı döyüşə göndərilmişdi. Məlumdur ki, I Sam mirzə yalançı şahzadə olaraq (guya Şah Sultan Hüseynin oğludur) osmanlılar tərəfindən Azərbaycana hücum etmişdi. Bu döyüşdə Sam mirzə məğlub edildi və gözünün biri çıxarılaraq geri göndərildi. Nadir Şah 1747-ci ildə qətlə yetirildikdən sonra onun qardaşı oğlu Əliqulu xanın nökəri, gürcü Söhrab onun tərəfindən Kəlata göndərdi ki, şəhzadələrin hamısını öldürsün. Bu zaman 14 yaşlı Şahrux da Kəlatda idi. Şəhzadələrdən üç nəfəri hadisədən xəbər tutaraq Mərv istiqamətinə qaçdı. Söhrab hər üçünü tutdurub, Məşhədə, Əliqulu xanın yanına göndərdi. O da iki qardaşı öldürdü, Şahruxu isə öldürmədi. Düşündü ki, Şahrux həm ata, həm də ana tərəfdən şahlıq taxtına varisdir, əgər Şahruxu öldürməsə, İran əhalisi onu qəbul etmədiyi təqdirdə Şahruxu səfəvi varisi kimi şahlıq taxtına əyləşdirər, özü də naibüssəltənə olar və bütün işləri özü idarə edər. Beləliklə, Əliqulu xan Şahruxun da öldürüldüyünü bildirdi, özünü isə Ərk qalasında gizlətdi. Əliqulu xan 1748-ci ildə öz kiçik qardaşı İbrahim xanla döyüşdə məğlub olaraq, kor edildi. İbrahim xan qardaşına və Azərbaycan valisi Əmiraslan xan Qırxlu Əfşara qalib gəldikdən sonra istədi ki, Xorasanı zəbt eləsin və Şahruxu ələ keçirərək öldürsün, yaxud kor etsin. Lakin Xorasan böyükləri birləşərək Şahruxu Ərkdən azad edib taxta əyləşdirməyi qərara aldılar. Şahrux çox cavan idi və əvvəlcə imtina etdi. Lakin əmirlərin təkid və

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

xahişlərindən sonra razı oldu. O, 1748-ci il 1 oktyabrda səltənət taxtına əyləşdi.

Nadir Şahın şəxsi həkimi Bazin yazır ki, Məşhəddə və onun ətrafında olan dövlətin adlı-sanlı, nüfuzlu əyanları Şahrux mirzəni, Nadirin nəvəsini Adil şahın saldığı zindandan çixararaq qərara aldılar ki, onu taxta əyləşdirsinlər. Xəzinəni qoruyan mühafiz və əsgərlər onu Kəlatdan Məşhədə gətirdilər. Beləliklə Şahrux dövləti idarə etməyə başladı. 1749-cu ildə Şahrux Mirzə ilə özünü Azərbaycanda şah elan etmiş İbrahim şah arasında müharibə baş verdi. Bu döyüşdə İbrahim şahın sabit və vahid dövlət tərəfdarı olan əsgərləri Şahruxun tərəfinə keçdilər və Şahrux qalib gəldi. Hamı Şahruxun nəzarətsiz qalmış İsfahana gəlməsini istədiyi halda Xorasan əyanları arzu edirdilər ki, o, Məşhəddə qalsın, çünki onu İran şahı kimi tanımaq istəməyən qonşu dövlətlərdən biri Xorasanı ələ keçirə bilərdi. Şahrux şah bu təklifə razı oldu. Beləliklə şahlıq iddiasında olan şəxslər aradan götürüldükdən sonra zahirən Şahruxu narahat edə biləcək mötəbər bir iddiaçı qalmamışdı. Lakin bir ildən sonra İran səltənətini yalnız səfəvilərin əlində görmək istəyən Məşhəddə Astani-Rəzəvinin mütəvəllisi Mir Seyd Məhəmməd (o, Süleyman şahın bacısı oğlu və Sultan Hüseyn şahın kürəkəni Mirzə Davudun oğlu idi-H. T.) 1750-ci ildə Şahruxu taxtdan salaraq onu kor etdi, özünü isə II şah Süleyman elan edib, taxta əyləşdi.

Vatson II şah Süleymanın taxt-taca yiyələnməsi barədə "Tarixi-İran" kitabında belə yazır: "Onun müridləri İranda şayiə yaydılar ki, Nadir Şahın nəvələri

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

İranda onun səyi ilə millətin mənliyi və taleyi olan şiəliyi sünniliklə əvəz etmək niyyətindədirlər. Bu məqsədlə bir dəstə düzəltmiş, şahın ordusunu məğlub edib, Şahruxu əsir etmişdi. Onu şahlıqdan birdəfəlik məhrum etmək üçün dərhal hər iki gözünü kor etmişdilər". (71, c. 2, s. 138).

II Süleyman şahın hakimiyyəti 40 gündən bir qədər artıq oldu. Belə ki, Şahrux şahın tərəfdarları, Məşhəd əhalisi Yusif Əli bəy Cəlairin köməyi ilə II Süleymanı taxtdan salaraq gözlərini çıxartdılar. Kor Şahrux şahı və ətrafındakıları yenidən hakimiyyətə gətirdilər. Həkimlər onun heç olmasa bir gözünün müalicə olunub sağalması üçün çox səy etsələr də, bu mümkün olmadı.

Şahrux şah 1796-cı ilin sonlarına qədər kor vəziyyətdə Xorasanda hakimiyyəti idarə etdi. Maraqlı burasıdır ki, Kərim xan Zənd və onun canişinləri Xorasanda Nadir Şahın siyasətini davam etdirən Şahrux şaha heç bir təzyiq göstərmədilər.

1796-ci ildə Ağa Məhəmməd şah Qacar Tiflisi zəbt etdikdən sonra Gürcüstandan Xorasana yola düşmüş, zahirən ziyarət etmək, əslində isə Nadir Şahdan qalmış xəzinəni mənimsəmək məqsədi ilə buraya gəlmişdi. O, bütün var-dövləti əlinə aldıqdan sonra 64 yaşlı Şahruxu ailəsi və qohumları ilə birlikdə Mazandarana göndərmiş və orada yaşaması üçün əmr vernişdi. Lakin o yarı yolda Damğanda vəfat etmişdir. (71, c. 2, s.141).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## NADİR ŞAH DÖVRÜNÜN İCTİMAİ-SİYASİ XADİMLƏRİ

XVIII əsrdə İranın ictimai-siyasi həyatında milliyətcə azərbaycanlı olan döyüşçü, sərkərdə həkim və alimmər mühüm mövqe tuturdular. Iran tarixindən bəhs edən əsərlərdə bu şəxsiyyətlər haqqında dəyərli məlumatlar vardır. Həmçinin İran sarayı ilə əlaqədar olmuş Avropa diplomatları və həkimlərinin çap etdikləri xatirə qeydlərində də yeri gəldikgə onlardan bəhs olunmuşdur. Bu sahədə İran alimi Mehdi Bamdadın gördüyü işlər çox yüksək qiymətə malikdir. Onun "Tarixi-ricali-İran" əsəri XVIII-XX əsrlərdə İranda yaşamış görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinə həsr olunmuş bioqrafik lüğətdir. 10 cilddən ibarət nəzərdə tutulmuş, zəngin faktları özündə cəmləşdirmiş bu qiymətli mənbə, müəllifinin ağır xəstəliyinə görə, uzun illərdən bəri topladığı materialın hamısı çap olunmadığından kitabın yalnız 5 cildi işıq üzü görmüşdür. Bu kitabı yazmaqda müəllifin yalnız bir məqsədi olmuşdur. O da İranın üç əsrlik ictimai-siyasi həyatında mühüm rol oynamış Nadir Şah Əfşar və Qacarlar dövrünün görkəmli dövlət xadimləri, tarixi şəxsiyyətləri haqqında tarixi mənbələrdən araşdıraraq üzə çıxardığı məlumatları tarixdə yaşatmaq, bunları həmin simalarla maraqlanan tədqiqatçılara çatdırmaqdır.

Tədqiqat işində həmin kitabda öz əksini tapmış və XVIII-XIX əsrlərdə, daha doğrusu Nadir Şah Əfşar və Qacarlar hakimiyyəti dövründə yaşayıb fəaliyyət

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

göstərmiş Azərbaycanlı ictimai-siyasi xadimlər haqqında verilmiş məlumatlardan istifadə edilmişdir.

Bu məlumatların araşdırılaraq müasir oxucuya çatdırılması tarixin müəyyən bir səhifəsini yaradan azərbaycanlı ictimai-siyasi xadimlər haqqında bilgilər əldə etmək üçün vacibdir. Bu, ona görə zəruridir ki, hər bir millətin görkəmli adamlarının tarixi, birmənalı olaraq o millətin ictimai həyatını bütünlüklə göstərən güzgüdür. Çünki görkəmli bir şəxsiyyətin tarixi fəaliyyəti həmin xalqın, o ölkənin tarixi deməkdir. Hər bir ölkədə öz yurdunun milli mədəniyyətini qoruyan böyük insanlar, mətin, sarsılmaz iradəli insanlar olmuşdur. Onlar ölkələrində islahatlara və tərəqqiyə xidmət etmişlər. Qeyd etmək lazımdır ki, İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlərin həyat və fəaliyyətindən bəhs edən və yuxarıda adı çəkilən "Tarixi-ricali-İran" əsəri bu cəhətləri işıqlandıran qiymətli mənbələrdən biridir. Mənbələrdən məlum olduğu kimi Azərbaycanlılar İranda yaşaşan çoxsaylı millətlər sırasında farslardan sonra sayca ən böyük xalqdır və İranın əsasən Qərbi Azərbaycan, Şərqi Azərbaycan, Ərdəbil, Həmədan, Zəncan, Urmiya, Tehran, Şiraz və başqa rayonlarında məskundurlar. (14, s. 10). Məlumdur ki, Azərbaycan tarixinin müxtəlif dövrlərində bu torpağın Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir Şah, Ağa Məhəmməd şah Qacar kimi güclü sərkərdələri, ictimai xadimləri olmuş, Azərbaycanda vaxtilə bu şəxsiyyətlərin qüdrətindən vahid, güclü bir dövlət yaranmışdır. Azərbaycan dili ucalaraq tariximizin müəyyən bir dövründə dövlət dili olmuşdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Tarixi mənbələri araşdırarkən İranda yaşayıb fəaliyyət göstərmiş bir çox azərbaycanlı sərkərdə, diplomat, və qüdrətli hərbi xadimlərin adlarına rast gəlmək olar. Bu şəxsiyyətlərin tarix səhifələrində qalmasında həmin mənbələrin müəlliflərinin, eyni zamanda ölkədə müəyyən məqsədlə yaşayıb çalışmış və sonralar kitablar, xatirələr yazaraq nəşr etdirmiş avropalıların da rolu böyükdür. Qeyd etmək lazımdır ki, İranda istər Nadir Şah Əfşar, istərsə qacarlar dövrində azərbaycanlılar dövlətin idarə olunmasında, orduda həlledici rol oynamış, onun uğurlarında yaxından iştirak etmişlər. Fransız maarifçisi Monteskye "İran məktubları" kitabında yazır:

"Türklərin, bu müzəffər xalqın yalnız tarixçiləri çatışmayıb ki, onların ağlasığmaz qələbələrinin şöhrətini yaysınlar... Bu cəngavər xalq öz gündəlik şöhrəti ilə məşğul olub, əbədi məğlubedilməzliyinə inanaraq keçmiş qələbələrinin əbədiləşdirilməsi qayğısına qətiyyən qalmamışlar". (59) Emosiya ilə deyilmiş bu sözlərdə danılmaz bir həqiqət vardır. Heç şübhə yoxdur ki, mövzudan bəhs edən mənbələrin bəzisi itmiş, məhv edilmiş, günümüzə gəlib çatmamışdır.  Lakin hər halda bir çox tarix kitablarında verilən məlumatlar türkün döyüşkənliyini, bacarıqlı sərkərdəlik qabiliyyətini dünyaya yaymağa müyəssər olmuşdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ƏMİRASLAN XAN ƏFŞAR

Adı həm İran, həm də Avropa mənbələrində qeyd olunmuş, Nadir Şah Əfşar dövri sərkərdələrindən biri Əmiraslan xandır. Qırxlu əfşar tayfalarından olan Əmiraslan xan Nadir Şah Əfşarın əmisi oğlu olub, XVIII əsrdə İranın ictimai-siyasi həyatında, dövlətçiliyində özünəməxsus yer tutmuşdur. O, Nadir Şahın yeritdiyi siyasəti müdafiə edən ictimai xadim və onun döyüşlərdə mərdliklə vuruşan mötəbər sərkərdələrindən idi. Əmiraslan xan qüdrətli, vətənpərvər, ağıllı, uzaqgörən, Nadir Şaha çox sadiq olan bir şəxsiyyət kimi nəzər-diqqəti cəlb edir.

Qeyd etmək lazımdır ki, Azərbaycanlıların etnogenezində iştirak etmiş türkdilli tayfa olan əfşarlar bir neçə qollara bölünürlər: Qırxlu, Cəlayir, Kosa Əhmədlu, İnanlu, Ərəşlu, Alplu, İmirlu və s.

Nadir Şah 1739-cu ildə Qəndəhar və Kabil yürüşlərində olarkən ləzgilər Şirvan torpaqlarına qoşun çəkmişdilər və Nadir Şahın qardaşı, Azərbaycan hakimi İbrahim xan onlarla döyüşdə qətlə yetirilmişdi. Nadir Şahın əmisi oğlu Əmiraslan xan bu zaman Azərbaycan ordusunun sərkərdəsi idi. Nadir Şahın qardaşı öldükdən sonra Əmiraslan xan şah tərəfindən Azərbaycanıın və bütün Qafqazın hökmdarı təyin olundu. Onun hakimiyyəti 1739-1748-ci illərə təsadüf edir. (71, c. 1, s. 166-167). O, yuxarıda deyildiyi kimi, cəsur, mərd insan olduğu üçün Nadir Şahın mötəbər sərkərdələrindən sayılırdı və şaha çox sədaqətli idi. Vaxtilə yalançı şahzadə olan Sam Mirzəyə qalib gəlmişdi. Şah qətlə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yetirildikdən sonra da bu sədaqətə sadiq qaldı. Məlum olduğu kimi Nadir Şah 1747-ci il iyun ayının 20-də Məşhəd yaxınlığındakı Qoçan deyilən yerdə öz keşikçiləri tərəfindən öldürüldükdən sonra şahın saysız-hesabsız var-dövlətinə göz dikənlərdən biri də qardaşı oğlu Əliqulu xan idi. O, hakimiyyətə yiyələndikdən sonra İranda yığılan vergiləri iki il dayandırmaqla özünü Adil şah kimi tanıtmışdır.

Əmiraslan xan Əfşar Adil şahdan Nadir Şahın və onun qətlə yetirilmiş övladlarının intiqamını almaq üçün yollar axtardı. (Adil şah nəvəsi Şahruxdan başqa Nadirin bütün nəslini məhv etmişdir). Lakin intiqam almaq, özü də bunu təkbaşına etmək çox çətin idi. Ağıllı və tədbirli sərkərdə olan Əmiraslan xan bu işdə Nadir Şahın ləzgilər tərəfindən öldürülmüş qardaşının oğlu, Adil şahın kiçik qardaşı İbrahim xanın köməyindən istifadə etmək qərarina gəldi. (İbrahim xan öldürüldükdən sonra onun adını kiçik oğluna vermişdilər-H. T.) Nadir Şahdan sonra hakimiyyəti əlinə almış Adil şah qardaşı İbrahim xanı İsfahan hakimi və eyni zamanda hərbi komandan təyin etmişdi. Onun qoşununun tərkibi Şirazdan gətirdiyi hissələrdən, əfqan və özbəklərdən ibarət idi. Ibrahim xan da şahlıq iddiasında olduğu üçün öz ordusunu daima möhkəmləndirməklə məşğul idi. O da Əmiraslan xan kimi qüdrətli sərkərdələrdən öz məqsədinə çatmaq üçün istifadə etməyə başladı.

Tarixçilərin yazdığına görə Əmiraslan xan Əfşar əlli yaşında, ucaboylu, enlikürək, qırmızısifət və çalsaç bir adam olmuşdur. Ilk baxışda qaraqabaq təsiri

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bağışlayırdı, əslində isə çox mülayim, xoşrəftar idi və İbrahim xanla da münasibəti yaxşı idi.

Adil şah Ağa Məhəmməd şah Qacarın atası, aşağıbaş qacarlar tayfasının rəisi Məhəmmədhəsən xanla müharibədə məğlub oldu. Bu zaman Əmiraslan xan öz ordusundan əlavə Kirmanşahdan böyük bir qoşun hissəsi ilə İsfahana varid olub İbrahim xana qoşuldu. O, İbrahim xana məsləhət gördü ki, Tehrana çatan kimi Adil şahı tutdursun. Ibrahim xan Əmiraslan xanın ağıllı məsləhətinə qulaq asmaqla qalib gəldi. O, Adil şahın Tehranın kənarında olan ordusu ilə döyüşə başladı və Əmiraslan xan Xorasana tərəf qaçan Adil şahı qovaraq, Tehrandan bir qədər aralı yerdə əsir etdi. Bu zaman hiyləgər Adil şah Əmiraslan xana yalvarıb, onu azad edəcəyi müqabilində yüksək vəzifələr vəd etdi. Əmiraslan xan isə çox ağıllı və sadiq sərkərdə olduğu üçün belə cavab vermışdi: "Əgər səni buraxmasam, bundan da böyük vəzifəyə çataram". (23. c.1, s. 64). Təəssüf ki, onun bu sədaqəti İbrahim xanın xəyanətkar xisləti ilə başqa cürə "mükafatlandırıldı". Bu barədə bir qədər sonra bəhs olunacaq.

Adil şahı İbrahim xanın hüzuruna gətirdilər və onun gözlərinə mil çəkildi. Bununla da Əmiraslan xan Nadir Şahın və onun qətlə yetirilmiş ailəsinin intiqamını almış oldu. Iranın şahı isə babası Nadir Şah Əfşar, anası Səfərvilər sülaləsindən olan Şahrux Mirzə oldu.

İbrahim xan Əmiraslan xanı Azərbaycan hakimi, özünü isə Tehranda İran şahı elan etdi. Əmiraslan xan Nadir Şah tərəfdarlarından olduğu üçün Şahrux şaha itaət etməyi qərara almışdı. O, Şahrux şaha göndərdiyi

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

məktubda yazırdı: “ Şükür olsun allaha ki, mən öz arzuma çatdım. Adil şahın kor edilməsini Tehranda öz gözlərimlə gördüm. Nəhayət ki, Nadir Şahın və onun nəslinin qatili cəzasına çatdı”. (23, c. 1, s. 65).

Göründüyü kimi Nadir Şahın nəvəsi Şahrux Mirzənin hakimiyyət taxtına əyləşməsində Azərbaycan ordusunun, o cümlədən Əmiraslan xanın misilsiz rolu olmuşdur. Əmiraslan xan İbrahim xanı Adil şaha qarşı üsyan qaldırmağa vadar etdi. Nadirin intiqamını almağa çağırdı və buna nail oldu.

Bəs, Əmiraslan xanın aqibəti necə oldu? Şahlıq iddiasında olan İbrahim xan Əmiraslan xanın çox sədaqətli, səmimi bir insan, Şahrux şahın alovlu tərəfdarı olduğunu bilirdi. Ona görə də həm Şahrux şahın, həm də Əmiraslan xanın varlığı onu narahat edirdi. Əmiraslan xan Azərbaycan hakimi təyin olunduqdan sonra öz dəstəsi ilə Təbrizə yola düşdü. Bu zaman İbrahim xan ondan şübhələndiyi və nigaran olduğu üçün, hən də gələcəkdə onun işlərinə qarışmağa imkan verməmək üçün Əmiraslan xanı ortadan götürmək qərarına gəldi. (71, c. 1. s. 17). Ona görə də Həmədandan çıxıb Azərbaycan istiqamətinə qoşun çəkdi və Marağada İbrahim xanla Əmiraslan xan arasında döyüş başlandı. Bu döyüşdə qalib çıxan İbrahim xan oldu və Əmiraslan xan məğlub olaraq, Kazım xan Qaracadağinin köməyi liə Qaracadağın (Arazbaran) dağlıq ərazisinə çəkildi. Lakin bir qədər sonra həmin yerdə Kazım xan onu bir bəhanə ilə tutub, İbrahim xanın yanına apardı. İbrahim xan onu qardaşı Sarı xanla birlikdə qətlə yetirdi. Sarı xan da cəsur döyüşçü idi və hər bir döyüşdə qardaşı Əmiraslan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

xanla birlikdə vuruşmuş, onun yanında olmuşdur. Nadir Şahın avropalı şəxsi həkimi Bazin sonralar taxt-taca yiyələnmiş Adil şahın sarayında da çalışmışdır. Yazdığı məktublarından məlumdur ki, onun zənninə görə Əmiraslan xanın ölümü belə baş vermişdir:

“Qalib gəlmiş İbrahim xan şahlığa yetişdi. Təbriz valisi Əmiraslan xan öz ordusu ilə ona yardım etdi, sonra hökümətdən bir əks-səda belə gözləmədən əsgərlərini yığib, öz iqamətgahına yola düşdü. Hətta yola düşməzdən əvvəl İbrahim mirzədən icazə də istəmədi”. (71, c. 1, s. 167). Bu əməl onda şübhə doğurdu. Sonra fikirləşdi ki, bu şübhə əsassız deyildir. İbrahim şahın ordusu hələ İsfahan ətrafında idi ki, Təbriz valisinin üsyan etdiyi xəbəri gəldi. Təbriz valisi Əmiraslan xan məğrur, hələ Təhmasib dövründə Nadirqulu xanın komandanlıq etdiyi hərbi hissənin ən rəşadətli, qabil sərkərdələrdən sayılırdı. Onun ətrafında böyük ordu vardı. Əmiraslan xan hesab edirdi ki, bir gənc şəhzadə (həm də təcrübəsiz) onun hərbi yardımının hesabına qardaşını məğlub edərək şahlıq taxtına sahib olmuşdur. Indi onun əmrinə tabe olmaq lazım deyil. Lakin İbrahim xan öz düşməninin saymazlığı və şöhrəti qarşısında qəzəbləndi, əsgərlərin sədaqətinə arxayın olub, tədbir gördü, yola düşdü. Təbriz yaxınlığında ona tabe olmayan məğrur Əmiraslanla görüşməyə tələsdi. Əmiraslan xanın aqibəti də Adil şahın aqibəti kimi oldu. Bir neçə döyüşdən sonra Əmiraslan xanın əsgərləri onu tərk etdilər. Artıq onun mərdanə və şücaətli vuruşu fayda vermədi. Çarəsiz qalaraq dostlarından birinə pənah apardı. Amma dostu da qorxudan şahın adamlarına xəbər

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

verdi ki, onu da günahkar hesab etməsinlər. Səhərə az qalmış qoşun ora yetişdi və Əmiraslan xanı həbs etdilər. Onunla birlikdə qardaşını və oğlunu Təbrizə apardılar. Şah döyüş qurtardıqdan sonra şəhərə daxil oldu. Əsiri onun yanına gətirdilər. Şah soruşdu: "Nə üçün belə etdin və nə ümidlə üsyana əl atdın? Bilmədin ki, bu cinayətdir? Nə üçün özünü belə təhlükəyə atdın? " Cəsur və təkəbbürlü məhbus isə nəinki bağışlanmasını xahiş etmədi, əksinə, alçalmadı, zəncirlənmiş halda cəsarətlə cavab verdi ki, söz azaddır. Sonra əlində silah düşmənin bərabərində duraraq ona nalayiq sözlər dedi, yalvarmadı. Padşah bərk qəzəbləndi və əmr etdi ki, onu boğsunlar və əmr dərhal yerinə yetirildi. (71, c. 1, s. 167).

Bazinin fikirlərinə birmənalı yanaşmaq düzgün deyildir. Əmiraslan xan məğrur təbiətli olduğu üçün etinasız münasibəti özü üçün təhqir saymış, buna cavab vermək istəmişdir.

Əmiraslan xanın ölümü barədə digər bir mənbədə göstərilir ki, o və qardaşı Sarı xan İbrahim xana yetişmək üçün Azərbaycandan hərəkət edib, Zəncana daxil olduqda, şəhər hakimi İbrahim xanın əmri ilə hər iksini tutub, qollarını bağlamış, yolda qardaşları öldürüb başlarını İbrahim xana göndərmişdir. (23, c. 1, s. 66-67). Əmiraslan xan xəyanət qurbanı olmuşdur.

Nadir Şah nəhəng, qüdrətli bir dövlət yaratmaq üçün ətrafına yığdığı bacarıqlı döyüşçülərdən istifadə edirdi. Deyirlər ki, yer üzərində onun qədər parlaq hərbi qələbələr qazanmış sərkərdələri barmaqla saymaq olar. Əlbəttə, bu uğurlarda onun cəsur qoşun komandirlərinin payı az olmamalıdır. Əmiraslan xan belələrindən idi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## BABA XAN ÇAVUŞLU

Nadir Şah Əfşar siyasətinin tərafdarı, onun qadir silahdaşı və döyüşlərdə şücaət göstərmiş komandirlərdən biri də Baba xandır. O, çavuşlu tayfasından idi və bir müddət Təhmasibqulu xan Əfşar (Nadir Şah) tərəfindən Luristan ostandarı (general-qubernator) təyin olunmuşdu. Təhmasibqulu xan Naibüssəltənə 1733-cü ildə Topal Osman paşanın komandanlığı altında olan Osmanlı ordusu tərəfindən məğlub edilərək, Samirədən Həmədana geri çəkilmişdi. O, sonra yenidən osmanlılarla döyüşə girmək üçün İranın bütün vilayətlərindən böyük əmir və sərkərdələri Həmədana, öz ordugahına çağırdı, o cümlədən Baba xan çavuşlunu da gətirdi. Döyüş uğurla keçdi, Nadir Şah osmanlı ordusunu məğlub edərək, Topal Osman paşanı öldürdü.O, bundan sonra Baba xanı ordunun komandanı təyin edib, Hillə, Kərbəla, Nəcəf şəhərlərini tutmağa göndərdi. Baba xan bu tapşırığın da öhdəsindən bacarıqla gəldi. Nadir Şah səltənət taxtına əyləşdikdən sonra Azərbaycanı osmanlılardan tamamilə təmizlədi. O, digər hüdudları da azad edərək, Baba xanla birləşdi və nəzərdə tutduğu fəthlərə başladı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# QASIM BƏY ƏFŞAR

Nadir Şah Əfşarın yaxın və etibarlı köməkçilərindən biri olan Qasım bəy Qırxlı Əfşar bir müddət Təhmasibqulu xanın (Nadir Şah) yanında möhrdar vəzifəsində çalışmışdır. Təhmasibqulu xan 1733-cü ildə III Şah Abbas taxt-tacına əyləşdikdən sonra özü naibüssəltənə oldu. Bu zaman bütün sərkərdə, əmir və vilayət böyüklərinin (general-qubernatorları) yığaraq osmanlılara qarşı mübarizəyə qaldırdı. Xuzistan hakimi Məhəmməd xan Bəluc da Həmədana çağırılanlar arasında idi. Nadir Şah o, olmadığı təqdirdə Xuzistanda qiyam qalxacağını hiss etdiyi üçün həmin vilayətə özünün inandığı və etibar etdiyi Qasım bəyi təyin etmişdi. Nadir Şah fikrində heç də yanılmamışdı. Məhəmməd xan öz yerinə başqasının göndərildiyini eşitdikdə narazı oldu və hər ikisi Xürrəmabad yaxınlığında, Cayidər adlanan məkanda rastlaşdılar. Lakin Məhəmməd xan Nadir Şahdan ehtiyat etdiyi üçün dərhal Şiraz tərəfə qayıtdı. Fars vilayətlərində qiyam qaldırdı. Qasım bəy isə təyin olunduğu Xuzistana gəlib, işləri ilə məşğul olmağa başladı. Lakin bir neçə gündən sonra Məhəmməd xan Qasım bəyi və tabeliyində olanları tutub həbs elədi.

Məhəmməd xan Bəluc Xuzistanın şəhərlərini ələ keçirərək öz adamlarına tapşırdı və özü isə Şiraz tərəfə yollandı. O, Fars valisi Əhməd Sultan Mərvini həbs edərək Qasım bəylə birlikdə Şirazda zindana saldırdı. Lakin həmin il Məhəmməd xan Bəluc Təhmasibqulu xan Cəlayir tərəfindən məğlub edilərək Şirazdan qaçdıqda

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qasım bəy də zindandan azad edilmişdi. (71, c. 3, s. 126).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ƏMİRXAN BƏY QIRXLU

Nadir Şah fars valisi Məhəmmədəli xan Qullarağasını Hindistan səfarətinə təyin edib, Məhəmməd şahın hüzuruna göndərdikdən sonra onun yerinə yaxın qohumlarından biri olan Əmirxan bəy Qırxlı Əfşarı 1733-cü ildə Fars əyalətinə canişin təyin etdi. Nadir Şah həmin il Bağdadı mühasirəyə alarkən Əmirxan bəyi, Bəhbəhan və Kuhkiluyə hakimi Məhəmməd xan Bəlucu Fars ordusunun başında Bağdada göndərdi. Bu vaxt Nadir Şah eşitdi ki, Osmanlı dövlətinin sərd-əzəmi Topal Osman paşa 100 min qoşunla Bağdad valisi Əhməd paşaya köməyə gəlmişdir. Belə olan halda Nadir Şah Bağdadın mühasirəsində bir dəstə qoyub özü Topal paşanın qarşısına getdi. Bu döyüşdə Nadir Şah məğlub oldu və Həmədana çəkildi. Bu məğlubiyyətə səbəb Məhəmməd xan Bəlucun xəyanəti oldu. Əmirxan isə Nadir Şaha axıradək sədaqətlə xidmət etdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# KƏLBƏLİ XAN (?-1743)

Nadir Şah Əfşarın müzəffər yürüşlərinin sərkərdələrindən biri də Kəlbəli xandır. Kəlbəli xan əfşarların bir qolu olan Kosa Əhmədlulu Baba Əli bəyin oğludur. Baba Əli bəy isə Nadir Şahın qaynatası olmuşdur. Kəlbəli xan Nadir Şahın qaynı, onun övladlarının, yəni şahzadə Rzaqulu Mirzə, Nəsrulla Mirzə, İmamqulu Mirzə və başqalarının dayısıdır.

Kəlbəli xan Nadir Şah Əfşarın ordu komandirlərindən olub, onun apardığı bir sıra müharibələrin iştirakçısı idi. Nadir Şah 1736-cı ilin fevral ayında rəsmi olaraq şahlıq taxtına əyləşdikdən sonra Fars hakiminin müavini olan Mirzə Tağı xan Mustofini Farsın qubernatoru (bəylərbəyi) təyin etdiyi zaman Kəlbəli xan Əfşar həmin əyalətin qoşun komandanı oldu. Nadir Şah Bəhreyn adalarını və Fars körfəzi sahillərini tutmaq üçün onların hər ikisinə, yəni Mirzə Tağı xana və Kəlbəli xana tapşırıq verərək, silahlanmış ordu ilə o istiqamətə göndərdi. Onlar Bəhreyn adalarını Şeyx Cəbarədən aldılar və beləliklə Nadir Şah həmin adaları Farsa birləşdirdi. Kəlbəli xan Nadir Şahın Məsqət və Əmman yürüşündə də fəal iştirak etmişdir. Nadir Şah bu məqsədlə Bəndər Abbasda gəmilər hazırlamaq üçün tapşırıq verdi. Sonra Kəlbəli xan ordu komandanı kimi gəmilərlə Məsqət və Əmmana yola düşdü və bu müzəffər yürüş nəticəsində hər iki torpaq Farsa birləşdirildi. Təəssüf ki, bu zaman Kəlbəli xanla Mirzə Tağı xan arasında inciklik, kin-küdurət,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

münaqişə yarandı və onlar bir-birinə müxalif və düşmən oldular. Biri digərini ittiham edirdi. Onlar arasında baş vermiş ixtilaf getdikcə dərinləşirdi. Bunun pis nəticələnəcəyini düşünən Nadir Şah bundan xəbər tutduqda onların hər ikisini geri çağırdı və özünün yaxın adamlarından birini, Məhəmmədhüseyn xan Qırxlı Əfşarı Farsın qoşun komandiri təyin etdi. Məhz bu şəxs sonralar Kəlbəli xanın intiqamını almağa nail olmuşdur. Kəlbəli xan vəzifəsindən azad edildikdən sonra Bəndər Abbasda yaşamışdır. O, 1743-cü ildə Mirzə Tağı xan tərəfindən tutularaq öldürülmüşdür. Bu hadisə o zaman baş vermişdir ki, Mirzə Tağı xan Nadir Şah əleyhinə üsyan qaldırmışdı. Kəlbəli xan Nadir Şaha sadiq hərbçilərdən olmuşdur və onun yolunda qətlə yetirildi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ƏMİR ƏHMƏD XAN

Nadir Şah dövründə yaşamış Əmir Əhməd xan Azərbaycanın Dünbüli tayfasından olan böyük əmirlərdən Murtuzaqulu xanın oğludur. O, 50 ildən artıq Xoy və onun ətraf yerlərinin hakimi olmuşdur. Bu müddətdə əhali firavan və dinc şəraitdə yaşamışdır. Əmir Əhməd xan insanlar arasında, onlarla münasibətdə səxavətli, xoşniyyət, alimlərlə xoş davranan, şeirsevər bir şəxs idi. Uzun müddət bir vilayət hakimi olması onun yuxarıda qeyd olunan xüsusiyyətlərinin nəticəsidir. Əhməd xan Osmanlı-İran müharibəsi zamanı pis vəziyyətdə olan, dağılmış Xoy şəhərinin abadlaşması üçün çox calışmışdır. Onun və oğlunun uzunmüddətli hakimiyyəti dövründə Xoy şəhəri abadlığa üz qoydu və əhalisi də xeyli artdı. Nadir Şah onu və tərifəlayiq adamları bəyənir və qiymətləndirirdi, hakimiyyəti etibar edirdi. Qeyd etmək lazımdır ki, həm Əhməd xanın əcdadına, həm də özünə Səfəvi hökmdarlarının da münasibəti yaxşı olmuşdur. O və eləcə də onun böyük oğlu birlikdə Nadir Şahın dövründə hakimiyyət sürmüşlər.

Əmir Əhməd xan öz qardaşı Salman xanın övladlarının (Şahbaz xan və b.) əli ilə 1200-ci (1786) ildə öldürülmüşdür. O, öldürüldükdən sonra Xoy ətrafında bir neçə dəfə qarışıqlıq oldu. Bu zaman onun böyük oğlu Hüseynqulu xan şəhər əhalisi ilə birlikdə vuruşaraq qələbə qazandı, namərd əmisi uşaqlarını məğlub etdi və onları əsir aldı. O, şəhərdə hakimiyyəti

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əlinə aldıqdan sonra ədalət məhkəməsi qurdu. Sonra atasının cənazəsini onun özünün qabaqcadan Samirədə tikdirdiyi və vəsiyyət etdiyi Müqəddəs Əskəreyn məqbərəsində dəfn etdi. Əmir Əhməd xan Xoyda çoxlu bağlar və məhəllələr salmış, müxtəlif tikintilər aparmış, həmçinin Samirədə bir sıra binalar, o cümlədən müqəddəs Əskəreyni təmir etdirməyə başlamışdı. Lakin bu işlərin bəzisi yarımçıq qalmışdı, sonra Hüseynqulu[7] xan bunu başa çatdırdı. O, əlavə olaraq həmin yerdə bir məscid, karvansara və hamam tikdirdi. Əmir Əhməd xanla oğluna dövrün şairlərindən çoxu, o cümlədən "Hərif" təxəllüslü Mirzə Əbülhəsən Təbatəbai Cəndəqi, Aşıq İsfahani, Sabahi Kaşani və Azər Bəydili mədhiyyələr yazmışlar. (71, c. 1, s. 80).

[7] Mirzə Məhəmmədhəsən Zünuzi Mərəndi (Fani) özünün "Bəhrül-ülum" əsərində yazır ki, Əmir Əhməd xanın oğlu və varisi Əmir Hüseynəli xan Dünbülüdür. M. Bamdad isə onu Hüseynqulu xan kimi yazır.

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## AĞA XAN

Nadir Şah Əfşar dövrünün görkəmli şəxsiyyətlərindən olan Ağa xan Bəydili Şamlu tayfasının böyüklərindən biri idi. O, "Atəşkədə" təzkirəsinin müəllifi Lütfəli bəy Azərin atasıdır.

Nadir Şah 1736-ci ilin fevral ayında Azərbaycanın Muğan çölündə tacqoyma mərasimi keçirərək səltənət taxtına əyləşən zaman özünün bir neçə hakimini dəyişib, yenilərini təyin etdi. Ağa xan Bəydili də onun hüzurunda olanlardan biri kimi Muğan çölündə onun həmrahı idi. O, Nadir Şah tərəfindən Lap, Bəndərabbas və Fars körfəzi sahillərinin hakimi təyin olunmuş, oraya yola düşmüşdür. Ağa xan 1150-ci ildə (1737) vəfat etmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ƏLİMƏRDAN XAN ŞAMLU

Nadir Şah qüdrətli sərkərdə olmaqla yanaşı həm də diplomat idi və bu sahədə fəaliyyət göstərən Əlimərdan xan Şamlunu və başqalarını da bu missiyanı yerinə yetirməyə hazırlamışdı.

Əlimərdan xan Şamlu Səfərvilər və Əfşarlar hakimiyyətləri dövrünün görkəmli şəxsiyyətlərindəndir. Nadir Şah 1145-ci (1732) ildə II Təhmasibi hakimiyyətdən saldıqdan sonra dövlətin siyasətini xarici dövlətlərə bildirmək sahəsində işə başladı. O, Fars valisi Məhəmmədəli xan Qullarağasını diplomatik nümayəndə kimi Hindistana, Məhəmməd şah sarayına göndərdi. Məqsəd bu idi ki, Hindistan şahı Nadir Şahın hakimiyyətini tanısın və əfqanlara öz torpağında sığınacaq verməsin. Şahcahanabad sarayında, Dehlidə, Nadir Şahın bu tələblərinə əməl olunmadı. Beləliklə, Məhəmmədəli xan ona tapşırılan işi yerinə yetirə bilmədi.

Nadir Şah yenidən Hindistana bir nümayəndə göndərməli oldu. O, bu dəfə Kabildən Əlimərdan xan Şamlunu göndərdi və tapşırdı ki, əvvəlki nümayəndə ilə, yəni Hindistanda qalmış Məhəmmədəli xanla görüşsün və bu məsələni birlikdə müzakirə etsinlər. Sonra İran şahının təkliflərini bildirsinlər. Əlimərdan xan Hindistana getdikdən sonra orada fəaliyyətini davam etdirdi və danışıqlardan bir nəticə hasil olmadıqda, Nadir Şah özü Kabilin bir neçə əyan və əsrafını yığaraq, Məhəmməd şahın sarayına yola düşdü. O, bu hərəkəti ilə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

açıq-aşkar demək istəyirdi ki, Hindistan şahının göstərdiyi bu cür rəftarın özü elə iki millət və iki dövlət arasında dostluğa dəlalət edir. (71, c. 2, s. 496). Böyük siyasətçi olan Nadir Şahın qoşunları 1739-cu ilin 24 fevralında Böyük Moğollar sülaləsindən olan Məhəmməd şahın ordusunu darmadağın edərək, martın 20-də Dehlini tutdu. (15, s. 252).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# MƏHƏMMƏDƏLİ XAN QULLARAĞASI

Nadir Şahın sərkərdəlik, ölkəni idarı etmək fəaliyyətinin bilavasitə iştirakçısı olmuş və onun diplomatik missiyasını yerinə yetirmiş Aslan xan Qullarağasının oğlu Məhəmmədəli xan II Şah Təhmasibın dövrində atasının mötəbər vəzifəsində olmuşdur. O da diqqət cəlb edir.

Təhmasibqulu xan (Nadir Şah) 1729-cu ildə Fars vilayətini əfqanlardan təmizlədikdən sonra şahın göstərişi ilə Məhəmmədəli xanla birlikdə həmin vilayətə göndərilmişdi. O, Şirazda olarkən buraya gəlmiş Məmmədəli xana Şiraz səhərinin abadlığı ilə məşğul olmağı tapşırdı. Məhəmmədəli xan beş ildən artıq bir müddətdə Fars valisi oldu. O, əfqanlar tərəfindən dağıdılmış yerləri bərpa etdirdi və onun səy və bacarığı nəticəsində Şiraz əvvəlki vəziyyətinə qayıtdı.

Məhəmmədəli xan 1733-cü ildə yenidən İran dövlətinin nümayəndəsi kimi Hindistana göndərildi və bir diplomat olaraq Bəndər-Abbas yolu ilə Məhəmməd şahın sarayına yola düşdü. Təəssüf ki, onun sonrakı fəaliyyəti barədə məlumat yoxdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# MƏHƏMMƏDHÜSEYN XAN ƏFŞAR

Nadir Şah hakimiyyəti dövrünün bacarıqlı hərbçilərindən olan Məhəmmədhüseyn xan Qırıqlı Əfşar saray adamı olub, axurbaşı vəzifəsində idi. 1743- cü ildə Fars vilayətinin bələdiyyəsi Tağı xanla Fars ordusunun komandiri Kəlbəli xan Kosa Əhmədlu Əfşar arasında Məsqət və Əmmanın fəthindən sonra güclü ixtilaf, düşmənçilik əmələ gəldi. Nadir Şah onlardan hər ikisinin xatirini çox istədiyi üçün öz qohumu olan Kəlbəli xanı azad edərək onun yerinə Məhəmmədhüseyn xanı Farsın qoşun böyüyü təyin etdi və oraya göndərdi. Lakin Tağı xan xəyalında Kəlbəli xanın əvəzinə özünü ordu komandiri gördüyü üçün Məhəmmədhüseyn xanın bu vəzifəyə təyin edilməsindən razı qalmadı. Ona görə də Məhəmmədhüseyn xanın Şiraza gəldiyini eşitdikdə Məsqət və Əmmanı tərk etdi və onu xəbərdar etmədən özü Bəndər Abbasda Fars ordusunun mərkəzini yaratdı. Tağı xan 1743-cü ildə Nadir Şahın qohumu və Bəndər Abbasda iqamət etmiş keçmiş ordu komandiri Kəlbəli xanı kin-küdurət və ədavət üzündən orada tutaraq öldürdü.

Farsın yeni təyin olnmuş komandanı Məhəmmədhüseyn xan bir qədər ordu hissələri götürərək, zahirən həmin əraziyə kömək etmək, əslində isə günahkarı ələ keçirərək tutmaq və orada nizam-intizamı yaratmaq üçün Fars körfəzi sahilinə yola düşdü. Orada vəziyyəti ağır gördükdə dərhal Nadir Şaha xəbər verdi. Özü isə tez Şiraza gəldi ki, şəhər Tağı xanın əlinə keçməsin. O burada Tağı xanın qardaşını, şəhərin naibi

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olan Mırzə İsmayıl xanı tutub, İsfahana göndərdi. Nadir Şah iğtişaş alovunun digər yerlərə yayılmaması üçüm əmr etdi ki, hər tərəfdən ordu yığılsın, Şiraz mühasirəyə alınsın. Məhəmmədhüseyn xan əsir düşməmək üçün Şirazdan Kazeruna getmişdi və oradan qayıdaraq, Şirazın müdafiəsində iştirak etdi. O, Nadir Şahın qətlindən bir qədər sonra vəfat etmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİR HƏSƏN BƏY

Nadir Şah Əfşar dövrünün sərkərdələrindən olan Mir Həsən bəy bacarıqlı hərbçi olmuşdur. O, bir müddət bazar ordusunun darğası (daruğeye-ordubazar, ordu bazarının başçısı) vəzifəsində çalışmışdır. Fars əyalətinin bəylərbəyisi Tağı xan Şirazi təmamilə məğlub edildikdən və İsfahana göndərildikdən sonra Nadir Şah onun yerinə Mir Həsən bəyi Farsın hakimi təyin etmişdir. Lakin Nadir Şahın mehtərbaşısı olan Məhəmmədhüseyn xan Qırxlu Əfşarla Fars qüvvələri komandiri ona təzyiq göstərərək tabe olmaq istəmədilər. Nəticədə Mir Həsən bəy xəyanətin qurbanı olaraq öldürüldü.

Həsən bəyin adı Fəsainin "Farsnameyi-Nasiri" əsərində Mir Hüseyn bəy və Mirzə Məhəmməd Kəlantərin qəzetində isə Mır Həsən bəy kimi yazılmışdır. (87, c. 1, s. 302).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# MUSTAFA XAN ŞAMLU

Nadir Şah Əfşar dövrünün mötəbər şəxsiyyətlərindən biri Mustafa xan Şamlu bu tayfanın böyüklərindən olmuşdur. Qeyd etmək lazımdır ki, şamlular azərbaycanlıların etnogenezində iştirak etmiş türkdilli tayfadır. Azərbaycanın və İranın siyasi həyatında mühüm rol oynamış şamlular qızılbaş tayfa birliyi tərkibində Səfərvilər dövlətinin yaranmasında fəal iştirak etmişlər. (2, c. 10, s. 462).

Nadir Şah 1158-ci ilin (1745) əvvəllərində İrəvan döyüsündə Osmanlıları məğlubiyyətə uğratdıqdan sonra onlar sülh danışığına başlamağı tələb etdilər. Bu zaman müzakirələr başlandı. 1746-cı ilin sonlarında Nadir Şah Xorasandan İsfahana gəldi və Osmanlı nümayəndəsi də buraya gəldi. Onun adı Əhməd əfəndi idi. Nadir Şah müzakirələrdən sonra iki nəfərdən ibarət olan öz nümayəndəsini sülh müqaviləsini bağlamaq üçün İstanbula göndərdi. Bunlardan biri şahın öz münşisi Mirzə Mehdi xan Əstərabadi, digəri isə Mustafa xan Şamlu idi. Mir Məhəmməd Şəfi özünün "Məhafilül-möminin" əsərində bu barədə belə yazır: "h.q. 1160-cı ildə (1747-ci ilin əvvəli) Mustafa xan Şamlu və Mirzə Mehdi xan Münşiyül-məmalik İstanbul səfirliyinə göndərildilər". (71, c 4,s. 104).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## RZAQULU XAN ŞAMLU

Nadir Şah Əfşarın ağıllı sərkərdələrindən və diplomatlarından biri olmuşdur. Onun əsli Səfəvi və Əfşar əmirlərindəndir. Mahmud Şah Əfqanın canişini Əşrəf Sultan səltənətə sahib olduqdan sonra 1145-ci ildə (1732/33) osmanlılarla müharibə edərək məğlub oldu. Sülh müqaviləsi bağlandıqda, onun nəticələrinə görə Əşrəf Sultan bütün Azərbaycanı, Zəncan, Həmədan və Kirmanşahı osmanlıların ixtiyarına vermişdi. Nadir Şah Əşrəf Sultanı Mehmandustda məğlub etdikdən sonra özünün bacarıqlı sərkərdəsini, bu qələbənin iştirakçısı Rzaqulu xan Şamlunu həmin torpaqları osmanlılardan geri almaq üçün İstanbula göndərmiş, o, bu barədə osmanlılarla danışıqlar aparmışdı. Çox çətin gedən müzakirə və danışıqlardan sonra osmanlılar işğal etdikləri şəhərlərin bütünlüklə geri qaytarılması haqqında İran tərəfinin tələblərini rədd etmiş, Rzaqulu xan isə məyus halda geri qayıtmışdı. Lakin sonralar məlum olduğu kimi, Nadir Şah bu torpaqları geri almağa nail oldu.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## SALEH XAN

Nadir Şahdan sonra onun qazandığı torpaqlarda ağır vəziyyət yarandı. Bu zaman İran dövlətinin taxt-tacına yiyələnən Adil şah dövran sürürdü. Onun sarayının görkəmli şəxsiyyətlərindən biri, Xorasanın bayat tayfalarından olan Saleh xandır. (71, c. 2, s. 174). O, 1747-ci ildə Fars vilayətinin qubernatoru, eyni zamanda ordu komandiri təyin olunaraq oraya göndərilmişdir. Saleh xanın qardaşı Həsən xanın da sarayda böyük nüfuzu var idi. Saleh xan bu təyinatdan az bir müddət keçdikdən sonra Farsın hakimi vəzifəsindən məhrum edilmiş, bu vəzifəyə Mirzə Əbülhəsən Şirazi təyin olunmuşdur. Lakin iki aydan sonra Əbülhəsən xan xəstələndiyindən Saleh xan yenə də hər iki vəzifəni icra etməyə başlayır. Bu zaman İran torpaqları birinin əlindən digərinin əlinə keçirdi. Hakimiyyət bir müddət Mir Seyid Şahruxun əlində olarkən, Saleh xan Adil şahın tərəfdarı kimi Şirazdan sürgün edilir, Xorasana gəlir. Nadirin qardaşı oğlu İbrahim xan İranın mərkəz, qərb və şimal yerlərini zəbt etdikdə Saleh xan onun müxalifi olduğu üçün Şirazdan çıxıb, Yəzd tərəfə getdi. Yalnız İbrahim şah Şahrux şahın ordusu tərəfindən məğlub edilərək öldürüldükdən sonra Saleh xan öz tərəfdarları ilə Şirazı müdafiə edə bilməyən Fətəli xana qalib gəldi və şəhərə daxil oldu. O yenidən Farsın hakimi və qubernatoru vəzifəsini yerinə yetirməyə başladı.

Saleh xan 1754-cü ildə Kərim xan Zənd tərəfindən qətlə yetirilmişdir. Onun Şirazda gördüyü işlərdən biri şəhərdə tikdirdiyi istehkamdır ki, sonralar Kərim xan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Zənd onu tamamlamışdır. Qacarlar sülaləsinin banisi Ağa Məhəmməd şah Qacar 1793-cü ildə Şiraza gəldiyi zaman tapşırmışdı ki, bütün bürc və qala divarlarının özülləri möhkəmləndirilsin.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# TƏHMASİBQULU XAN CƏLAYİR

Nadir Şah ordusunun məşhur və qüdrətli sərkərdələrindən biri Təhmasibqulu xan Cəlayirdir. 1732-ci ildə Təhmasibqulu xan Əfşar (Nadir Şah) II Şah Təhmasibı taxtdan saldıqdan sonra bir sıra hakimləri təyin etdi. Təhmasibqulu xan Cəlayir də İsfahan hakimi oldu. Özü isə əfqanları İran torpaqlarından qovmaq üçün, eləcə də Şah Təhmasibin əldən verdiyi yerləri geri qaytarmaq üçün Kirmanşaha tərəf hərəkət etdi.

Xuzistan valisi Məhəmməd xan Beluc Təhmasibqulu xan əleyhinə üsyan qaldırdığı zaman İranın cənubunda iğtişaş yarandı. Nadir Şah çox inandığı, bacarıqlı komandir Təhmasibqulu xan Cəlayiri 12000 nəfər qoşunla başqa komandirlərlə ittifaqda İsfahandan Məhəmməd xanın üstünə göndərdi. Məhəmməd xan Şirazda mühasirəyə düşməmək məqsədilə və burada əhaliyə etibar etmədiyi üçün qərara aldı ki, Nadir Şahın qoşunu Şiraza yaxınlaşmamış onu qabaqlayıb məhv etsin. Bu məqsədlə Şirazdan çıxıb, Dərbənd adlanan yerdə dayandı. Bura iki dağ arasında olan təbii istehkam idi. Lakin o, Nadirin birinci hücumuna davam gətirə bilmədi və Laristan tərəfə qaçdı. Təhmasibqulu xan Cəlayir Nadir Şah tərəfindən onu izləmək üçün göndərildi. O, hər yerdə Məhəmməd xanı təqib etdi. Laristanlılar Məhəmməd xana öz torpaqlarında yol verməyirdilər və onun adamlarını da tutub, sərdar Təhmasibqulu xan Cəlayirin yanına gətirirdilər. Axırda Kiş adasında yaşayan Hulə tayfasının başçısı və hərbi komissarı olan Şeyx Əllaqa

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

pənah apardıqda o, Məhəmməd xanı və adamlarını tutaraq, sərdar Cəlayirə təhvil verdi. Nadir Şah Təhmasibqulu xan Cəlayiri Fars vilayətində nizam-intizam yaratdıqdan sonra 1734-cü ildə Azərbaycana göndərdi və ordunu onun ixtiyarına verdi. O, 1738-ci ilədək Azərbaycanda yaşadı.

Təhmasibqulu xan Cəlayir 1738-ci ildən 1747-ci ilədək Nadir Şah tərəfindən Şərqi İranın fərmandehi (komandir), Kabilin sərdarı təyin olunmuşdur. Nadir Şahın vəfalı və etibarlı komandiri olan Təhmasibqulu xan Cəlayir, şaha qarşı üsyan qaldıran, əhalini incidən dövlət məmurlarına qarşı mübarizədə onun sağ əli idi. Nadir Şah qardaşı oğlu Əliqulu xandan şübhələndiyi üçün ona nəzarət etməyi məhz Təhmasibqulu xan Cəlayirə tapşırırdı. O da Əliqulu xanı öz əmisi Nadir Şaha xəyanət etdiyi üçün danlayır, ona müxalif olmamağı tapşırırdı. Təhmasibqulu xan Cəlayir həmişə Əliqulu xanın Nadir Şah əleyhinə görmək istədiyi əməllərinə mane olurdu, ona görə də axırda Əliqulu xanı zəhərləyib, üsyana rəhbərliyi öz əlinə almışdı. Əliqulu xan yalnız Nadir Şahın ölümündən sonra öz məqsədlərini həyata keçirməyə başladı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ƏMİR FƏTƏLİ XAN ƏFŞAR

Əfşarların Ərəşlu qolundan olan və fateh Nadir Şahın tanınmış sərkərdələrindən Urmiyalı Əmir Fətəli xan Əfşar Əraşlu (?-1763) onun apardığı döyüşlərin əksəriyyətində iştirak etmişdir. O, xüsusən, Hindistan yürüsündə çox cəsur və qabil komandan kimi hər yerdə öndə getmiş, qələbələrə nail olmuşdur. Nadir Şah, əfqanlarla müharibə edən zaman, 1736-cı ildə İsfahandan Qəndəhara gələrək, Fətəli xanı Kəlat qalasını fəth eləmək üçün göndərdi. Qeyd etmək lazımdır ki, Qəndəharda da bu adda qala mövcuddur və onu Nadir Şahın xəzinəsi qorunan Kəlatla səhv salmaq olmaz.

Fətəli xan istehkam qalası olan Kəlatı fəth etməyə nail oldu. Nadir Şah 1738- ci ildə Hindistan yürüşü zamanı Şahcahanabad (indiki Dehli) yaxınlığındakı Ənbale qəsəbəsinə çatdıqda özünün hərəmxanasının və araba karvanının mühafizəsini etibarlı sərkərdəsi olan Fətəli xana tapşırmışdı. Fətəli xan Nadir Şahın ölümündən sonra İranda baş verən hərcmərclik zamanı əvvəlcə onun qardaşı oğlu İbrahimin dəstəsinə birləşərək, onu müdafiə edənlərdən biri oldu və Fars əyalətinin ordu başçısı təyin edilərək, Şiraza göndərildi. (71, c. 3, s. 59). Fətəli xan bundan sonra Şirazın keçmiş valisi Saleh xanla müharibəyə hazırlaşdı. Lakin farslar arasında birlik görmədiyi və onlardan arxayın olmadığı üçün döyüşmək əvəzinə İsfahana getdi. Bundan istifadə edən Saleh xan heç bir müqavimətə rast gəlmədən Şiraza daxil oldu və özünü yenidən Farsın hakimi elan etdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Fətəli xan Əfşar öz yerinə, Urmiyaya qayıtdı. Nadir Şahdan sonra hakimiyyət uğrunda mübarizə qızışdığı zaman, Azad xan Gilzayi şahlıq iddiasında olarkən Fətəli xan Əfşar ona birləşdi, öz bacarıqlı sərkərdəliyi sayəsində Azad xana uğurlar qazandırdı. Xoy və Urmiya onun ixtiyarına keçdi.  Azad xan 1754-cü ildə Fətəli xan Əfşarı Kərim xan Zəndin Şirazda hakimlik planlarına mane olmaq üçün İsfahandan Şiraza göndərmişdi. Fətəli xan Əfşar da Kərim xanı məğlub edərək onu Şirazdan çıxarmağa nail olmuşdu. Ağa Məhəmməd xan Qacarın atası Məhəmmədhəsən xan 1756-cı ildə şahlıq iddiasında olan Azad xan Gilzayi ilə müharibə etmək üçün Azərbaycana getdikdə Fətəli xan da onun ordusu ilə birləşdi və Azad xan məğlub edildi. O zamandan etibarən Fətəli xan Məhəmmədhəsən xanın sərkərdələri sırasında oldu və Kərim xan Zənd əleyhinə vuruşdu. Qacarların zəndilərə qalib gəlməsi yolunda onun da böyük fəaliyyəti olmuşdur. Məhəmmədhəsən xan Kərim xan tərəfindən məğlub edildikdən sonra Fətəli xan Əfşar Tehrana qədər onunla getmiş, sonra Azərbaycanda Urmiya hakimi olmuşdur. O, Təbrizi və Marağanı özünə tabe etdirdikdən sonra, digər vilayətlərə üz tutmaq istədisə də, Kərim xan Zənd bundan xəbər tutdu və onu əzmək qərarına gəldi və o, yalnız bir ildən sonra Fətəli xanı çox çətinliklə məğlub edə bildi.  Baş vermiş bu hadisənin şərhi belədir:

Kərim xan Zəndə qalib gəlmiş Nadir Şahın görkəmli sərkərdəsi, Urmiya xanı Fətəli xan Əfşarın 30 minlik ordu ilə Azərbaycanın möhtəşəm qalası olan Şuşaya hücum cəhdi isə boşa çıxmışdı. Onun əsgərləri

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Pənah xana əsir düşdükdə, əsirlərin qaytarılacağı təqdirdə qızını Pənah xanın oğlu İbrahimxəlil xana verməyə razı olmuşdu. Fətəli xan qaytarılan əsirlərlə birlikdə İbrahimxəlili də götürərək qoşununu Urmiyaya aparmışdı. Oğlunu itirmiş Pənah xan Fətəli xan tərəfindən məğlub edilmiş Kərim xanla ittifaqa girərək böyük ordu ilə Fətəli xanı Urmiya yaxınlığında məğlub etdi və o, əsir götürüldü. (15, s. 260). Qacarların zəndilərlə mübarizəsi isə davam edirdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ZÜLFÜQAR XAN

Kərim xan Zənd vəfat etdikdən sonra İranda hakimiyyət uğrunda mübarizə aparanlardan biri də Zəncanın böyüklərindən və İranın məşhur əmirlərindən olan Zülfüqar xan Əfşar Xəmseyidir. O, özünün böyük nüfuzu, qüdrət və dövləti ilə məşhur olmuşdur. Kərim xan Zənd Azərbaycandan qalib kimi qayıdandan sonra (1762) Zəncan və Ərak Zülfüqar xana tapşırıldı. Zülfüqar xanın bu vilayətdə hakimiyyətindən bir qədər keçdikdən sonra onun əleyhdarları Kərim xanın yanına gələrək, ona şər atdılar. (Guya özbaşınalıq, saymamazlıq edir) Deyilənlərin həqiqətə uyğun olub-olmadığını yoxlamaq üçün o, Şiraza çağırıldı. Lakin Zülfüqar xan çox məğrur bir insan olduğundan özü getmədi, ağıllı, işgüzar, müdrük bir qadın olan anasını Kərim xan Zəndin yanına göndərdi. Qadın Kərim xana öz övladı kimi müraciət edərək Zülfüqar xanın gəlməsi üçün möhlət istədi. Kərim xan ananın xahişini qəbul etdi. Zülfiqar xan sonra da gəlmədiyindən ona qarşı güc tətbiq olundu və o məğlub oldu. Kərim xan onu nədənsə cəzalandırmadı. Zülfüqar xan bir müddət Şirazda qaldıqdan sonra yenidən Zəncan hökumətinə təyin olunaraq oraya qayıtmışdır. Zülfüqar xan 1779-cu ildə vəfat etmiş Kərim xandan sonra özü üçün ordu düzəldərək, Qəzvin istiqamətində yola düşdü. O, Ağa Məhəmməd xan Qacarın qardaşı Cəfərqulu Xan tərəfindən məğlub edilsə də, özünü toplayıb, yenidən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

döyüşə qatıldı. Bu yerlər ona tabe edilmişdir: Zəncan, Qəzvin,Gilan, Ərak və Həmədan.

Zülfüqar xan bu əməliyyatla məşğul ikən İsfahanda olan Kərim xan Zəndin bacısı oğlu Əlimürad xan Zənd (o,bir müddət İsfahan, Kaşan, Tehran və Qəzvin hakimi olmuşdur) Zülfüqar xanı məğlub etmək üçün İsfahandan Əraka yola düşdü. Ərakın kəndlərindən olan Şərada iki ordu arasında ağır döyüş baş verdi. Bu döyüşdə sərkərdə Zülfüqar xan Əfşar qalib gəldi və Əlimurad xan böyük məğlubiyyətə uğradı. Lakin müqavimət göstərdi, ruhdan düşüb məyus olmadı. Bu zaman Kürdlər ona qoşuldular və Əlimurad onların yardımı ilə Zülfüqar xana qələbə çaldı. Onun ordusu pərakəndə halda dağıldı. Zülfüqar xan ordusunu bir yerə yığmaq üçün çox səy etdisə də, mümkün olmadı və çarəsiz Zəncana qayıtdı. Zülfüqar xan həm döyüş zamanı, həm  də ölümünün sonunda xəyanət qurbanı oldu.  Zəncanda əsir saxladığı Hidayətqulu xan Gilani şəhər əhalisi ilə xəlvəti danışığa girib, onu Əlimurad xana təslim etdi və o, 1780-cı ildə öldürüldü. Zəncanda yaşayan Zülfüqarilər onun nəslindəndir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## Qacarlar dövrünün azərbaycanlı ictimai-siyasi xadimləri

Nadir Şah dövdündə cəsur sərkərdə kimi tanınmış, məşhur Məhəmmədhəsən xan Qacardan bəhs etməmişdən əvvəl onun atası, Qacarlar sülaləsinin əcdadı Fətəli xan Qovanlu haqqında məlumat vermək məqsədəuyğun hesab olunur. Qacarlar sülaləsinin əcdadı Fətəli xan Qacar Kovanlu, ya Qoyunlu (1685-1726) Şahqulu xanın oğludur. Əsli türkman və moğol tayfalarından olan qacarlar iki tayfadan: yuxarıbaşlı, yaxud Dəvəlu və aşağıbaşlı, yaxud Qovanlu qacarlardan ibarət olmuşlar. Bu da onların Gürgan çayının yuxarı və aşağı hissələrində yerləşmələri ilə əlaqədardır. Hər iki tayfanın rəisi Fətəli xandan əvvəl həmişə yuxarıbaş tayfasından olurdu.

Böyük Şah Abbas (1571-1629) qacarlar tayfasını, Gəncədən Mərvə və Gürgana köçürməklə onlardan həmişə türkman və özbəklərin hücumlarının qarşısını mərdanə alan maneə kimi istifadə etmişdir. Qacarlar o ərazidə sakin olmuşlar. (71, c. 3, s. 73). Şah Abbasın bu əməli barədə Sepehr "Qacariyyə tarixi"nin I cildində, Rzaqulu xan Hidayət isə "Rovzət üs-səfi"nın 9-cu cildində yazmışlar.

İngilis alimi ser Con Məlkum "Tarixi-İran" əsərinin II cildində qacarlardan bəhs edərək göstərmişdir ki, "Dəvəlu" tayfası da qacarlardandır və bir vaxtlar qacarların bu qolu bir çayın kənarında yaşayırdı. Bir

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

hissəsi çəmənliyin yuxarı hissəsində (onlara yuxarıbaş qacarlar deyilirdi), digəri isə aşağı hissədə yaşayırdı. Onlar bu cəhətə görə yuxarıbaş və aşağıbaş qacarlar adlanmışlar. Bundan əlavə hər tayfa bir neçə qollara bölünürdü və bəzi ailələr onun rəisinin və yaxud kəndin adı ilə adlanmışdır. Məsələn, Dəvəlu tayfası İrəvan şəhəri yaxınlığında olan Dəvəlu kəndində yaşayırdı və onlar Dəvəlu adlanırdılar. (71, c. 3, s. 74).

1600-cü ildə I Şah Abbas Səfəvi Gürgana gedərkən Hüseyn xan Qacar Ziyadoğlunu Gəncədən köçürərək Mübarəkabad qalasında yerləşdirmişdir. Mübarəkabad qalası I Şah Təhmasib zamanında da mövcud idi və türkmanlər onu dağıtmışdılar. Şah Abbas onu yenidən tikdirdi və qacarları burada yerləşdirdi.

Fətəli xan Qacar 1097-ci ildə (1685/86) burada anadan olmuşdur. O Şah Sultan Hüseyn Səfəvi (1694-1722) zamanında Əstərabadda əfqan təhlükəsinə qarşı vuruşan atlılar dəstəsinin və qacarların elxani elinin rəisi idi. Əfqan Mahmud Hutəki Gilzayi İsfahanı mühasirə edərkən, o, öz qoşunu ilə şah Hüseynin köməyinə gəlmişdi. Şah Hüseyn ona xidmətlərinə görə "Şəmşiri-cahanqoşa" (dünyanı fəth edən qılınc) bağışlamışdı. Bu qılınc qacarlar sülaləsində qiymətli yadigar kimi uzun müddət qorunub saxlandı.

Şah Sultan Hüseynin oğlu II ŞahTəhmasib 1724-cü ildə Qəndəhardan gələn təhlükəyə qarşı qoşun toplayan vaxt Fətəli xan Qacar onun yanında idi. Sonralar II Şah Təhmasiblıq taxtına əyləşdikdə, Fətəli xan Naibüssəltənə élan olundu. Fətəli xan İranın təxmınən bütün şimal hissəsini əlində saxlayırdı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bir sira tarixçilər yazırlar ki, II Şah Təhmasib Ərdəbildən Tehrana varid olduqda Əhməd xan adlı xüsusu qvardiya başçısını (rəisi-tüfəngdaran) kömək üçün Əstərabada, Fətəli xanın yanına göndərmişdi. Bu zaman Fətəli xan Qacar elinin rəisi və böyüyü idi. Fətəli xan bu dəvəti yaxşı qarşıladı və Əstərabaddan Simnan və Damğanı keçib, öz ordusu ilə Şah Təhmasibə köməyə gəldi. Bu zaman Tehran əfqan Əşrəf Hutəki tərəfindən mühasirəyə alınmışdı və Fətəli xan onunla döyüşə başladı, lakin məğlub olub, Mazandarana qayıtdı. Behşəhrdə (Əşrəf də adlanır-H. T.) Şah Təhmasiblə görüşdü və o, şahın qoşun qüvvələrinin komandanı təyin edildi. Bu hadisədən sonra Əşrəf Hutəki Tehranı zəbt elədi və Fətəli xan Şah Təhmasibi götürərək Gürgana getdi. Onun məqsədi bu idi ki, Yəmut və Kukəlan tayfalarından ordu toplasın və Məlik Mahmud Sistaninin əlində olan Xorasanı tutsun. Şah Təhmasib bu əməliyyatı həyata keçirmək üçün Fətəli xanla birləşərək Məşhədə yola düşdü. Onlar yolda artıq məşhur bir hərbçi olan Nadirqulu xanın cəsurluğunu və qəhrəmanlığnı eşitdilər və Fətəli xan onu Şah Təhmasibin hüzuruna gətirdi. Şah Nadirqulunu Məlik Mahmudla vuruşmaq üçün Məşhədə göndərdi. O da bir neçə döyüşdən sonra Məlik Mahmudu məğlub edib öldürdü. Nadir bu qələbədən sonra Şah Təhmasib tərəfindən Təhmasibqulu xan ləqəbini aldı və onun ən yaxın döyüş komandanı oldu. Fətəli xan Naibüssəltənə güclü sərkərdə idi və onun nüfuz və bacarığı Nadirqulunun nəzərindən qaçmırdı. O, Şahın yanında kölgədə qala biləcəyini düşünərək Fətəli xanı saraydan uzaqlaşdırmaq qərarına

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

gəldi. Səbəb tapıldı və Fətəli xan 1726-cı ildə, 42 yaşında, vaxtilə atasını öldürdüyü Mehdi bəy Qacar Dəvəlu tərəfindən Məşhəd yaxınlığında qətlə yetirildi. Tarixçılər yazırlar ki, bu hadisə Təhmasibqulu tərəfindən süni surətdə yaradılmış döyüş zamanı Şah Təhmasibin razılığı ilə baş verdi. Lakin bu fikir əsaslandırılmamış qalır. Eyni zamanda şah onun ölümündən sonra fərman verdi ki, qacarlar ayağa qalxmasınlar. Fətəli xan Məşhəddən bir neçə km aralı Xacərəbi adlanan yerdə dəfn olunmuşdur. (85, s. 298). Təhmasibqulu xan (Nadir Şah) tədricən bütün işləri əlinə aldı. Nadir Şah Əfşar böyük fateh kimi Asiyada tanındı.

Bacarıqlı sərkərdə Fətəli xan Qacarqovanlunun oğlu, Ağa Məhəmməd şah Qacarın atası, qacarlar elinin aşağıbaş tayfasının rəisi Məhəmmədhəsən xan Qacar (1715-1759) atası Məşhədin kənarında qətlə yetirildikdən sonra çox zaman Gürgan çölündə yəmut türkmanləri arasında köçəri həyat sürmüşdür. Bu zaman Nadir Şah qüdrət sahibi idi. Buna baxmayaraq Məhəmmədhəsən xan ara-bir öz varlığını büruzə verirdi. O, şah tərəfindən təyin edilmiş vergi yığan məmurlarla mübarizə aparır, müti yaşamaq istəmir, mübariz ruhda həyat sürürdü. Məhəmmədhəsən xan 1743-cü ildə 29 yaşında Gürgana qayıdıb öz həyatını qurmağa başladı. Bu məqsədlə uzun müddət yuxarıbaşlı Əstərabad canışını Məhəmməd Zaman bəylə vuruşaraq ona qalib gəldi. Xəbər Nadir Şaha çatdıqda aşağıbaş qacarqovanluların düşmənlərindən birini, yuxarıbaş qacarqovanlu tayfasından olan Məhəmmədhüseyn xan Qacarı ordu ilə təmin edərək, Gürgana göndərdi. Bu

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

döyüşdə Məhəmmədhəsən xan məğlub oldu və əsir düşməmək üçün yenidən Gürgan çölünə çəkildi. O, burada Begənc xan Yəmut Dəvəçi tayfasının arasında yaşamağa başladı. Məhəmmədhəsən xan Nadir Şah qətlə yetirildikdən sonra hakimiyyəti ələ almaq uğrunda mübarizə aparanlardan biri olmuşdur. O, əvvəlcə Gürgana sahib oldu, sonra Mazandarana yürüş etdi. Lakin çox çəkmədi ki, Əli şah Əfşar (Nadir Şahın qardaşı oğlu- H.T.) onun qarşısını kəsdi. Məhəmmədhəsən xan bu döyüşdə məğlub oldu və yenidən Gürgandan kənarda gizləndi. Onun övladları əsir alındılar. M. Bamdad yazır ki, bu zaman böyük oğlu Ağa Məhəmməd xanım 6 yaşı var idi, o Adil şahın əmri ilə axtalandı. (Bu hadisənin baş verməsi səbəbləri müxtəlif cürə şərh olunur) (71, c. 3, s. 365).

Adil şahın şəxsi həkimi Bazin onun Mazandarana getməsi səbəbini açıqlayaraq, öz məktublarının birində belə yazır: "Biz İsfahana yaxınlaşdıqca oradan qulağımıza qarışıqlıq, həyəcanlı sədalar çatırdı. Iki nəfərin edə biləcəyi üsyanın baş verdiyi tam aydınlığı ilə gözlərimiz önündə idi. Bunlardan biri Mazandaran əyalətində böyük nüfuza malik, sadə camaat və qohumları ilə mühafizə olunan Məhəmmədhəsən xan, (Bazin səhv olaraq Fətəli xan yazmışdır-H.T.), digəri isə şahın qardaşı İbrahim mirzədir. Adil şah qərara aldı ki, Məhəmmədhəsən xanı ortadan götürsün. O, bu üsyanın yatırılmasına beş ay vaxt sərf etdi". (71, c. 3, s. 367).

Məhəmmədhəsən xan Nadir Şahın namərd qardaşı oğlanları Adil şah və İbrahim şah öldürüldükdən və səltənətə Şahrux şah əyləşdikdən sonra, 1748-ci ildə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əstərabaddan Gürgana gəldi. Bu zaman o, Əstərabad hakimi idi. Lakin Şahrux şahdan xoş münasibət görmədiyindən Əstərabada qayıtmalı oldu. O, qarşısına səltənət taxtına çatmaq, qalib gəlmək məqsədi qoyduğu üçün daim bu barədə düşünür, yollar axtarırdı, bu məqsədlə İranın bir sıra torpaqlarını ələ keçirməyə başladı. Gərgin mübarizə nəticəsində bir neçə rəqibini məğlub etdi. Məhəmmədhəsən xanın mühüm döyüşləri sırasında Əhməd şah Abdali, Azad xan Gilzayi və Kərim xan Zənd ilə apardığı döyüşlər ağır olmuşdur. Vaxtilə Nadir Şahın yasovulu olmuş Əhməd şah Abdali bu zaman Əfqanıstanın şahı idi. O, 1751-ci ildə xeyli qoşunla Xorasana, sonra Nişabura gəlmiş, Məhəmmədhəsən xanla ağır döyüşlər aparmışdır. Məhəmmədhəsən xan isə əfqan sərkərdəsi Abbasqulu bəylə döyüşmüş, nəticədə hər iki tərəf arasında sülh bağlanmışdı. Əhməd şah bu barışıqdan sonra, Şahpəsənd xanı (əmiri-leşkər) 15 min atlı ilə Səbzəvar və Şahrud yolu ilə Əstərabad və Mazandaranı zəbt eləmək üçün göndərdi. Artıq bu zaman Məhəmmədhəsən xan Əstərabadı və Mazandaranın bir hissəsini ələ keçirmişdi. O, qoşunun bir hissəsini götürüb, Əhməd şahın qarşısına çıxdı və qalib gəldi. Məmmədhəsən xan 1756-cı ildə Azad xan Əfqan Hutəki Gilzayi ilə Azərbaycanda apardığı döyüşdən də qalib çıxdı.

Kərim xan Zənd (1704-1779) fatehlik fikrinə düşdüyü zaman Səfəvi nəslindən olan Şah Sultan Hüseynin qız nəvəsi Seyid Əbu Turabı tapıb, ona III Şah İsmayıl adını verdi və hakimiyyət taxtına əyləşdirdi. Özünü isə vəkülülrəayə (rəiyyət vəkili) adlandırdı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Kərimxan Vəkil sonralar Əstərabad və Xorasanın bəzi yerləri istisna olmaqla, təxminən İranın bütün ərazisini ələ keçirdi. Məhəmmədhəsən xan isə Mazandaran və Əstərabada yiyələnmişdi və Kərim xana tabe olmaq istəməyənlərdən biri idi. Kovanlu qacarları özlərinin yeni yüksəliş dövrünü yaşayırdı. Mazandaranda baş vermış döyüşlərdən биridə Məhəmmədhəsən xandan zərbə alan Kərim xan məğlub oldu. Bu vaxt III Şah İsmayıl Kərim xanı tərk edib, Məhəmmədhəsən xanın ordusuna birləşdi. Bundan sonra böyük uğurlar qazanan Məhəmmədhəsən xan Gürgan, Mazandaran, Azərbaycan və İranın mərkəzinin bir hissəsini öz əlinə keçirdi. O, İsfahanı tutduqdan sonra Şiraz istiqamətində hərəkət etdi və şəhəri bir müddət mühasirədə saxladı. 1756-cı ildə baş vermiş şiddətli quraqlıq və aclıq Məhəmmədhəsən xanın ordusunu zəiflətdi. Bu zaman Kərim xan da müqavimət göstərirdi. Məhəmmədhəsən xan mühasirədən əl çəkərək Mazandarana və Gürgana getməyə məcbur oldu. Kərim xan özünün ən güclü sərkərdəsini onun ardınca göndərdi və həmin Şeyxəli xan Zənd 1759-cu ildə onu məğlub etdi. Məhəmmədhəsən xanın məğlubiyyətinin əsas səbəbi hər yerdə ona qarşı çıxan yuxarıbaş tayfasından bəzi əleyhdarları oldu. Döyüş zamanı Məhəmmədhəsən xanın atı Kəlbad deyilən yerdə büdrədi və düşdüyü yerdən qurtula bilmədiyindən onu təqib edən düşmən aman vermədi, onun başını bədənindən ayıraraq, Tehrana, Kərim xan Zəndin yanına apardılar. Kərim xan isə onu ehtiramla Şah Əbdüləzimdə dəfn etmək əmrini verdi. Oğlanları Ağa Məhəmməd xanı, Cəfərqulu Xanı,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hüseynqulu xanı Şiraza, digərlərini Qəzvinə göndərdi. Mənbələr Məhəmmədhəsən xanın qətli ilə əlaqədar müxtəlif məlumatlar verir. Fərhad mirzə "Cami-Cəm" əsərində göstərir ki, Məhəmmədhəsən xan öz rəiyyəti Səbzəli bəy tərəfindən öldürülmüşdür. Səbzəli bəy yuxarıbaş qacarlarının tapşırığını yerinə yetirmişdir. "Məfatihül-möminin" isə göstərir ki, Şeyxəli xan Zənd Məhəmmədhəsən xanın qaynı Hüseyn xan Dəvəlu ilə müttəfiq olub, Məhəmmədhəsən xanla döyüşmüş və onu qətlə yetirmişdir. Məhəmmədhəsən xanın ürəyində qalmış arzularını isə oğlu Ağaməhəmməd xan həyata keçirdi. Onun qüdrət sahibi, döyüşmək qabiliyyəti, müstəqilliyə can atmaq və s. xüsusiyyətləri oğlu Ağaməhəmməd şahda özünü büruzə vermişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## AĞA MƏHƏMMƏD ŞAH QACAR

Kərim xan Zənd, Mıhəmmədhəsən xan Qacar qətlə yetirildikdən sonra, yuxarıda qeyd olunduğu kimi, oğlanları Ağaməhəmməd xan, Cəfərqulu Xan və Hüseynqulu xanı Şiraza, digərlərini isə Qəzvinə göndərmışdir. Ağa Məhəmməd xan yaxınları ilə bərabər 16 il Şirazda qaldı. Ona şəhərdən çıxmağa icazə vermirdilər, ciddi nəzarət altında idi. Lakin bir qədər keçdikdən sonra, xüsusən, Kərim xan Zəndin həyatının sonlarına yaxın ona etimad göstərildi və Kərim xan ona şəhərdən kənara çıxıb, vaxtını ovda keçirməyə icazə verdi. O, hətta istədiyi ata minib, Tehrana da gedə bilərdi.

1779-cu ildə Kərim xan Zəndin xəstəliyi şiddətləndi və vəziyyəti ağırlaşdı. Ağa Məhəmməd xan bibisi (bəzi mənbələrdə xalası, yaxud bacısı), həm də Kərim xanın arvadı (71, c. 3, s. 249). vasitəsilə xəbər tutdu ki, o, tezliklə həyatla vidalaşacaqdır. Ağa Məhəmməd həmin gün ov etmək bəhanəsilə şəhərdən çıxdı və qayıtdı. Səhər yenə çıxdı, o bilirdi ki, Kərim xan vəfat edərsə, şəhərin darvazaları bağlanacaq. Ona görə də guya əlindən buraxdığı şahini axtarmaq üçün şəhərdən bir neçə günlüyə çıxacağını bildirdi və gecə kənarda qaldı. O, səhər xəbər tutdu ki, Kərim xan gecə keçinmişdir. Bir qədər gözlədi ki, qohumlar da gəlib ona qoşulsunlar. Lakin onlardan bir xəbər olmadı, iki nəfəri isə öldürüldü. Ona görə də Ağa Məhəmməd xan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Şirazdan uzaqlaşmağı qərara aldı. Kərim xanın qohumları arasında nifaq düşdüyündən onu yaddan çıxarmışdılar. Ağa Məhəmməd xan bu fürsəti əldən verməmək üçün tez Şirazdan uzaqlaşdı və üç günə İsfahana çatdı. Onunla gələnlər yolda xəstələndikləri üçün orada qaldılar. O isə Tehrana gəldi, bir gün burada qaldıqdan sonra Mazandarana yola düşdü, məqsədi Gürgana getmək idi. Lakin ona həm qacar tayfaları, həm də özünü şah elan etmış qardaşı Murtuzaqulu xan mane oldular və Gürgana buraxmadılar. Ağa Məhəmməd xan 4 il fasilələrlə qardaşı ilə mübarizə aparmış, gah o, gah da Murtuzaqulu xan qələbə qazanmışdır. Ümumiyyətlə Ağa Məhəmməd xan ömrünün axırlarına qədər zəndilərə və qardaşlarına qarşı üzücü, yorucu mübarizələr aparmışdır. O, Kərim xandan sonra özünü onun yerində görmək istəyən Əlimurad xan (1782-1785) və Cəfər xan (1785-1789), onlardan daha güclü olan Lütfəli xan (1789-1794) Zəndlə mübarizədə böyük qüvvə sərf edərək, qalib gəldi və özünü İran taxt-tacına rəqibsiz çatdırdı. 1788-ci ildə isə Tehranı öz paytaxtı etmək qərarına gəldi. Lord Kerzon "İran və mouzuye-İran" əsərinin I cildinin 303-cü səhifəsində bu barədə belə yazır:

"Ağa Məhəmməd xan əvvəlcə Mazandaranı və Gürganı zəbt elədi və Sari şəhərini özünün paytaxt şəhəri etməyi qərara aldı. Lakin Farsın və İraqın düşmənlərinə nəzarət etmək üçün Tehrana gəldi. Onun bu cür seçim etməsi əmisinin siyasətini davam etdirmək məqsədi güdən Fətəli Şahda da özünü göstərmişdi. Çünki o da əmisi kimi Rusiya sərhədlərinə yaxın olmağı və buradan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

düşmənin hücumunu asan dəf etməyin mümkünlüyünü düşündü və Tehranda qaldı. Lakin şübhəsiz ki, onun paytaxtı seçməyə və abad etməyə nə vaxtı, nə səliqəsi var idi, nə fikri, nə də qabiliyyəti. Qısası budur ki, Ağa Məhəmməd xanın Tehranı yaxşı Tehran olmadı". (71, c. 3, s. 250). Bu Avropalı müəllifin fikridir və tarixi hadisələri təhrif edən cəhətləri də vardır. Lord Kerzon yenə həmin kitabın I cildinin 379-cu səhifəsində yazır: "Ağa Məhəmməd şah hakimiyyətinin əvvəllərində Sarini öz paytaxtı etmək qərarına gəldi, lakin tezliklə oranı tərk etdi. Lakin ingilis Marxam "Tarixi-İran" kitabında bu barədə belə yazırdı: "Lütfəli xan Zənd öldürüldükdən sonra (1794) Ağa Məhəmməd xan hakimiyyəti ələ aldı, Tehranı öz paytaxtı elədi. Bu şəhər Mazandarana və Əstərabada yaxın olduğu üçün onu paytaxt seçdi". (71, c. 3, s. 251). Ağa Məhəmməd xanın sonuncu zəndi hakimi Lütfəli xanla mübarizəsi 1789-cu ildən başlamışdır. Həmin il Şirazın kələntəri Hacı İbrahim onu xəbərdar etdi ki, hələ döyüşə başlamaq münasib deyildir, çünki Lütfəli xanın qoşunu çoxdur, hələlik Şirazın alınması başqa vaxta qalmalıdır. Ağa Məhəmməd xan buna qulaq asıb, Tehrana qayıtmışdı. Hacı İbrahim xan Şirazi Lütfəli xanın vəziri təyin olunmasına baxmayaraq Ağa Məhəmməd xanla yaxşı münasibətdə idi, onu Lütfəli xanım planlarından xəlvəti xəbərdar edirdi.

Ağa Məhəmməd xan bir müddət ağır xəstə yatdı və çətin vəziyyətə düşdükdə, (Lütfəli xanın Şirazdan çıxaraq gəldiyini eşitdikdə) qardaşı oğlunu, iyirmi yaşlı Fətəlini (Baba xanı) 5000 atlı və cəsur Mustafa xan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qacar Dəvəlunun sərkərdəliyi ilə onun qarşısına göndərdi.

Bu qarşıdurma zamanı Lütfəli xan əsir düşməmək üçün tez Şiraza qayıtmağa tələsdi. Lakin yolda xəbər tutdu ki, Şiraz Hacı İbrahim xanın əlinə keçmiş, o, zəndilərin şəhərdə olan qarnizonlarını tərksilah etmişdir. Beləliklə, Lütfəli xan Hacı İbrahim xanın tədbirləri və Ağa Məhəmməd xanla bağladığı saziş nəticəsində çöllərdə qaldı. Şiraz zəbt olundu. Ağa Məhəmməd xan 1206-cı ilin zilhiccə ayında (iyul, 1792) Lütfəli xanın ailəsini 12 min Kəlhur, Mafi, Xocavənd və Əbdülməliki ailələri ilə birlikdə Şirazdan Əstərabada köçürdü, bacarıqlı sərkərdələrindən olan Mirzə Məhəmməd xan Laricanini zalım Kərim xanın sümüklərini çıxarıb, Tehrana gətirmək üçün göndərdi. Məqsədi o idi ki, hər gün onun sümüklərinin dəfn olunduğu yerdən keçib qəbrini ayaqlasın. O, bununla Kərim xana olan nifrətini, kinini soyutmaq istəyirdi. Onun əmri ilə sarayda olan bütün qiymətli əşyalar Tehrana gətirildi. Hacı İbrahim də bu xidmətlərinə görə xan titulunu aldı və Fars bəylərbəyisi təyin olundu.

1794-cü ildə Ağa Məhəmməd xan Kirmanı aldıqdan sonra Şiraza daxil oldu. Baba xanı Kirman və Yəzd hökümətlərinə təyin etdi. İbrahim xan Şirazini isə Fars bəylərbəyisi təyin edib, həmin il məhz İbrahim xanın köməyi ilə Lütfəli xanı ələ keçirərək öldürdü.

Ağa Məhəmməd şah 1795-ci ildə Gürcüstanı tutduqdan və Qafqazdan qayıtdıqdan sonra həmin ilin sonlarında Xorasana yola düşdü. Zahirən müqəddəs Məşhəddə yerləşən İmam Rza (ə) ziyarətgahına getmək

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

niyyətində olsa da, əslində məqsədi İranın digər bölgələrini, o cümlədən Xorasanı öz hakimiyyəti altında birləşdirmək və həm də Nadir Şahdan qalmış və kor Şahrux şahın yanında olan xəzinəni əldə etmək idi. O, bu səfər zamanı öz niyyətinə nail oldu və Xorasanı, bütün xəzinəni Şahrux şahdan aldı. Ağa Məhəmməd şah 20 gün Məşhəddə qaldı. O, bu müddətdə İran məmləkətinin sərhədlərini Səfəvilər hakimiyyəti dövründə olan və Nadir Şah Əfşar zamanında yaranmış və bərpa edilmiş böyük dövlətin sərhədlərinə çatdırmaq arzusu ilə yaşayırdı. Əsrlərdən bəri İranın bir hissəsi olmuş, lakin çəkişmələr, müharibələr nəticəsində itirilmiş torpaqları geri qaytarmaq Ağa Məhəmməd şahın amalı idi. Bu məqsədlə etibar etdiyi sərkərdələrdən olan Məhəmmədhüseyn[8] xan Qaragözlünü və İsmayıl ağanı Kabilə, Zaman şahın yanına və Herata, Mahmud Şahın hüzuruna göndərdi. (71, c. 3, s. 253). O, Zaman şahdan Xorasanın 4 şəhərindən biri olan Bəlxi, Mahmud Şahdan isə İran dövlətinə itaət etməyi, Buxara padşahı Begicandan isə Xorasanın dörd şəhərindən biri olan Mərvi təslim etməyi, Mərvdən Buxaraya aparılmış əsirləri geri qaytarmağı tələb etdi. Ağa Məhəmməd şah Qacarın bütün tələbləri yerinə yetirildi. Bu münasibətlə Begican demişdirr: “Axta xan deyir və edir”. Bu xan Ağa Məhəmməd şahın ömrünün axrınadək təşviş və nigaranlıqla yaşamışdır.

Ağa Məhəmməd şahın öz adına vurdurduğu ilk sikkə Kərim xan Zəndin vurduğu sikkə ilə oxşar idi. Fərqi yalnız bunda idi ki, sikkənin yuxarısında “ya

---

[8] M Bamdad onu Məhəmmədhəsən xan kimi yazmaqda səhvə yol vermişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Kərim" sözlərini dəyişib, əvəzinə "ya Məhəmməd" sözlərini həkk etdirmişdi. Aşağıdakı beyt isə dəyişilmədən, olduğu kimi saxlanmışdı.

Ta zər-o sim dər cəhan başəd,
Sikkeye-sahib-əz-zəman başəd.

Ağa Məhəmməd şah Qacar bir müddətdən sonra Kərim xanın həkk etdirdiyi həmin şeiri dəyişdirərək, sikkəyə bu şeiri vurdurdu:

Şod afitab-o-mah-o-zəro-sim dər cəhan
Əz sikkeyi-imam be həqqi-sahib əz-zəman.

Sikkənin yuxarısında əvvəlki kimi "ya Məhəmməd" sözü həkk olunmuşdu.

Bu zaman Avropa dövlətlərinin öz aralarında bağladıqları saziş və müqavilələrdən xəbərsiz olan İran dövləti çətin vəziyyətə düşdü. Rus ordusu qəflətən Qafqaza və Azərbaycana ordu yeritdi. Bəzi xanlar ruslarla danışığa girməklə Ağa Məhəmməd xanın planlarını alt-üst etdilər. O, dərhal Xorasandan qayıdıb, Rus dövlətinin təcavüzünün qarşısını almağa başladı. 1796-cı ilin noyabırında II Yekaterina vəfat etdi və oğlu I Pavel Rusiya imperatoru oldu. Rusiya qoşunları zəbt etdikləri ərazilərdən blokadanı götürərək öz torpaqlarına çəkildilər. Amma İranda baş vermiş hakimiyyət dəyişikliyi, yəni zəndiləri Qacarların əvəz etməsi hadisəsi xarici dövlətlər üçün əlverişli idi. Çünki bu zaman ardıcıl olaraq çarpışmalar, hakimiyyət davası meydanı olan İran dövləti çox zəifləmişdi və xarici dövlətlərin planlarından xəbərsiz idi. Nə qədər ki, Ağa Məhəmməd şah sağ idi, işlər dövlətin xeyrinə cərəyan edirdi. O, öldürüldükdən sonra vəziyyət dəyişdi, hansı

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

xarici dövlət İranın dövlət başçılarına çox pul verirdisə, ölkədə ona da əlverişli şərait yaradılırdı. Ağa Məhəmməd şahın yaratdığı dövlət sarsılmağa başladı. O zaman Ağa Məhəmməd şah Qafqazın xanlarının Rusiya ilə saziş bağladıqlarını eşitdikdə çox qəzəblənmişdi və o, ikinci dəfə Qafqaza yollandı. Ağıllı və uzaqgörən şah yola düşməmişdən əvvəl Şirazda olan qardaşı oğlu Cahanbanini (Fətəli Şah) Tehrana çağırdı, ona tapşırıqlar verildi. O, Mirzə Şəfi Mazandaranini (sonralar, yəni 1800-cü ildə Hacı İbrahim xan Şirazinin əvəzinə Baş nazir təyin olundu-H. T.)  Mirzə Məhəmməd xan Dəvəlu ilə birlikdə Tehranın mühafizəsi üçün şəhərdə qoydu. Özü isə silahlaşmış ordu ilə Azərbaycana, oradan da Qarabağa yola düşdü. Bu hadisə 1797-ci ilin aprel ayında baş vermişdir. Qarabağ hakimi İbrahimxəlil xan Cavanşir artıq Rusiya ilə gizli saziş bağlamışdı. Elə ki, Ağa Məhəmməd şahın Qarabağa gəlməyindən xəbər tutdu, onun yolunu kəsmək üçün Araz çayının üstündə olan körpünü uçurtdu və çayın suyunu Qarabağ ərazisinə tərəf yönəltdirdi. Lakin bu vəziyyət Qacar şahının dəmir iradəsini qıra bilmədi və dərhal tapşırıq verdi ki, çayı keçmək üçün qayıqlar və tuluqlar hazırlansın. Tüğyan edən çayı keçərkən xeyli əsgəri su aparsa da, Ağa Məhəmməd şah əzm və iradə ilə bu çayı keçdi və Şuşa qalasını tutdu. İbrahimxəlil xan isə hələ Ağa Məhəmməd şah Qacar şəhərə daxil olmamış, oranı tərk etmiş və Dağıstana qaçmışdı. Ağa Məhəmməd şah 1211-ci ilin zilhiccə ayının 17-də Şuşaya girmiş, (1797, 15 iyun) həmin ilin 21 zilhiccə ayında, (19 iyun) yəni beş gün sonra öz gözətçiləri tərəfindən 57 yaşında

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

öldürülmüşdür. (71, c. 3, s. 254). Şahın qəflətən öldürülməsi onun ordusunun tamamilə dağılmasına və qarət olunmasına səbəb oldu. Ordunun Araz çayının digər tərəfində qalmış böyük bir hissəsi Fətəli Şahın qardaşı Hüseynqulu xan Qacarın və Süleyman xan Qacar Etizadüddövlə və Hacı İbrahim xan Etimadüddövlənin ixtiyarında idi. Onlar da pərakəndə vəziyyətdə idilər, yalnız Farsın və Mazandaranın tüfəngçiləri Hacı İbrahim Etimadüddövlənin yanında idilər. Onlar Ərdəbil yolu ilə Tehrana gətirildilər.

Fətəli Şah Sadıq xan Şəqaqi ilə vuruşaraq onu məğlub etdikdən sonra 1212-ci ilin rəbiüləvvəl ayında (1797 avqust) Qəzvinə daxil oldu. Bu zaman Ağa Məhəmməd şahın qatilləri müxtəlif şəhərlərdə tutularaq Fətəli Şahın yanına gətirildilər. Fətəli Şah əmr etdi ki, onları tikə-tikə doğrayıb, yandırsınlar. Əmr dərhal yerinə yetirildi. Tarixçilər yazırlar ki, Ağa Məhəmməd şahın qatilləri onun xidmətçisi Sadıq xan Nəhavəndi və iki nəfər digər xəlvət xidmətçisi olmuşlar. Sadıq xan onun sarayında yüksələrək xan titulunu almışdı. Hələ Şuşaya çatmamış Sadıq xan yolda qarətçiliklə məşğul olmuş, bu işə iki fərraşı da cəlb eləmişdi. Şah onların bu əməlindən qəzəblənmiş və ölüm hökmü vermişdi. Bu məlumata baxmayaraq Qacar şahının öldürülməsi səbəbi haqda müxtəlif fikirlər mövcuddur. Mehdi Bamdada görə həqiqətə daha çox uyğun olanı budur ki, abdarxanada (çay, şərbət hazırlanan yer, bufet) küllü miqdarda yeyinti, oğurluq olduğunu bilən Ağa Məhəmməd şah hər üç nəfərin qətlinə fərman vermiş, onların səhər öldürüləcəyini bildirmişdir, onlar da həmin işi tutmuşlar.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bu barədə Baş vəzir Hacı İbrahim xan Şirazi Şərqi Hindistan kompaniyasının nümayəndəsi, ser Con Melkuma belə demişdir: “Son Vaxtlar Ağa Məhəmməd şahda bir qədər əsəbilik halları müşahidə olunur. Adətən kimə ki, ölüm hökmü verirlər, onu dərhal icra edirlər. O isə beləsini azadlıqda qoydu ki, öz işini görsün”. (71, c. 3, s. 255).

Rzaqulu xan Hidayət “Rövzətüs-səfa”nın 9-cu cildində şahın öldürülməsi barədə belə yazır:

“Bu hadisə barədə qısa olaraq belə demək olar ki, Sadıq adlı gürcü, Xudadad adlı isfahanlı və Abbas adlı mazandaranlı, hər üçü xəlvət fərraşı və şahın xidmətçiləri idilər. Onlar öz işlərində laqeydlik və etinasızlıq etdiklərindən şahın qəzəbinə düçar oldular və ölümə məhkum edildilər. Bu üç nəfər canlarının qorxusundan birləşib, qəflətən onun yataq otağına girərək cinayət əllərini şaha uzatdılar”.

Ağa Məhəmməd şah əvvəlcə Şuşada torpağa tapşırılmışdır. Fətəli Şah hakimiyyətə gəldikdən sonra Hüseynqulu xan Qacar İzzəddunlunu Şuşaya göndərdi ki, cənazəni Tehrana gətirsin. Mərhum şah bir neçə gün müqəddəs Şah Əbdüləzimdə saxlanıldıqdan sonra Nəcəf şəhərində dəfn olundu. Ağa Məhəmməd şah Qacar 2112-ci il 26 cəmadiyul-əvvəldə (1797, 18 noyabr) Nəcəfdə, Əli Əmirəlmömininin qəbrindən təxminən 700 metr aralı inşa edilmiş məsciddə dəfn olulmuşdur.

Ağa Məhəmməd şah Qacar şahlar sülaləsinin banisi olaraq fövqəladə bir şəxsiyyət idi. Onun İran dövlətinə ən böyük xidməti tayfaları aradan götürərək məmləkəti birləşbirmək fəaliyyətidir. Özü çox sadə bir

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

həyat sürmüşdür, belə deyirlər ki, döyüşlərə gedərkən ət olmadıqda çörəklə pendir, qatıq yeyırmiş. Libası da çox sadə idi. Lakin qisas alarkən amansız olurdu, çünki xəyanəti, pisliyi bağışlamırdı. Onun bu xüsusiyyətini Çingiz xan və Teymurlənglə müqayisə edirlər. Qeyd etmək lazımdır ki, İran tarixində haqsiz, ədalətsiz olaraq bəzi mənbələr Ağa Məhəmməd şahın yalnız mənfi xüsusiyyətlərini qələmə almışdır.

Bunlar xüsusən Avropa mənbələrində ifrat dərəcəyə çatdırılmışdır. Əslində isə belə deyildi və bu barədə aşağıda bəhs olunacaq.

Ağa Məhəmməd şahın göstərişi ilə Nəcəfdə imam Hüseynin qəbri qızıl və gümüşlə bəzədilmiş, Məşhəddə qədim Astani-Qüdsi-Rəzəvi təmir olunmuşdur. O Tehranı paytaxt elan etdikdən sonra şəhəri hər tərəfdən xəndəklə əhatə etmiş, qalın hündür divar çəkmişdir. Sonralar Nəsrəddin Şah Tehran şəhərini böyütmək qərarına gəlmiş, bu məqsədlə xəndəkləri dolduraraq, şəhərin kənarlarında yenidən xəndəklər düzəltməyi əmr etmişdi. Bu xəndəklər o zaman Tehran şəhəri üçün çox yararlı idi. Sonralar şəhər böyüdükcə xəndəklər şəhərin daxilində qalmış və doldurularaq yeni tikililər salınmışdır.

Ağa Məhəmməd şahın tacqoyma mərasimi barədə müxtəlif fikirlər mövcuddur. Bəzi tədqiqatçılar, o cümlədən Mehdi Bamdad onun 1210-cu ildə, ramazanda (1796, mart) Tehranda taxta əyləşdiyini göstərir, digər tarixçilər isə bu mərasimin Lütfəli xan öldürüldükdən dərhal sonra, yəni 1794-cü ildə qeyd edildiyini söyləyirlər. (71, c. 3, s. 252). Bir sıra mənbələrdə də

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

onun 1791-ci ildə özünü İran şahı elan etdiyi barədə məlumat vardır. (15, s. 266).

Ağa Məhəmməd şahın tacqoyma mərasimi barədə digər mülahizələr də vardır. Çingiz Sasani yazır ki, o, tacqoyma mərasimini Nadir Şah kimi Azərbaycanın Muğan düzündə keçirmiş, lakin başına Nadir Şahın tacını qoymamışdır. Onun istəyi ilə düzəldilmiş tac isə başqa quruluşda, yəni 4 lələkli idi.  Bu da İran, Hindistan, Əfqanıstan və Orta Asiya üzərində hükmranlıq rəmzi idi.  Tacqoyma mərasimi zamanı ona təqdim olunmuş qılınc və çütqabağı Ərdəbildən, Şeyx Səfi məqbərəsindən gətirilmişdi. Bunlar Ağa Məhəmməd şah Qacarın Səfəvi hakimiyyəti ilə varisliyini göstərmək üçün idi. O, Şah İsmayıl Xətainin yaratdığı böyük Səfəvi imperiyasını bərpa etmək arzusu ilə yaşayırdı və bu xüsusiyyət onu qardaşlarından fərqləndirirdi. (15, s. 267).

Iran Tarixçisi, marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə isə Ağa Məhəmməd şah Qacarın tacqoyma mərasimini belə təsvir edir.

“Rəhmətlik Ağa Məhəmməd şah Qacar 1210-cu ildə (1796 mart) Urmiyada başına şahlıq tacı qoyanda belə nitq söyləmişdir: İndi ki, mənim başıma tac qoymaq arzum güclüdür, bilin ki, sizin zəhmətiniz bundan sonra daha da artacaq. Ona görə ki, İran səltənətinin tacını başıma qoyduqdan sonra mən o qədər çalışacağam ki, İranın bütün keçmiş hökmdarlarından da artıq bacarıq, nüfuz, üstünlük və şöhrət qazanım”. (56, s. 3). Sonra Ərdəbilə gələrək Şeyx Səfi rəhmətullahın məqbərəsinin üstündə olan qılıncı götürüb kəmərinə bağladı. Bu

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qılıncı götürməkdə məqsədi o idi ki, din yolunda və şiə məzhəbinin rəvacı üçün bu qılıncı işlədəcək. Şəhid olmuş şahın bu əməlini I Napoleon Bonapart bir neçə ildən sonra təkrar etdi. O, Berlini fəth etdikdən sonra Böyük Fridrixin qılıncını götürərək, öz kəmərinə bağlamışdı.

Ağaməhəmməd şah Qacarın şəxsiyyəti haqqında müxtəlif rəvayətlər yaranmışdır. Bunlardan biri Fərhad Mirzə Qacar tərəfindən qələmə alınmışdır.

"Hicri 1162-ci ildə (1749) Adil şah Əstərabada varid oldu. O halda küçə uşaqları "Şah oyunu" oynamaqda idilər ki, Ağaməhəmməd xan da onlara şah olmuşdu. Adil şahı görərkən uşaqlar qaçdılar, nədənsə Ağaməhəmməd xan qaçmadı. Adil şah təəccüb edərək onun kimin oğlu olduğunu soruşdu. Məhəmmədhəsən xanın oğlu olduğunu dedilər. Adil şah Ağaməhəmməd xanı götürüb öldürmək istədi. Hüzurda olanlar uşaq öldürməyin yaxşı olmadığını söyləyib bağışlanmasını xahiş etdilər. Adil xan dedi ki, gərək Fətəli xanın və Məhəmmədhəsən xanın nəsli kəsilsin və əmr verərək onu axtaladı". (85, s. 223).

Mənbələr göstərir ki, Ağaməhəmməd şah 1790-cı ildə öz vəliəhdi olaraq sevimli qardaşı Hüseynqulu Xan Cahansuzun oğlu Baba xanı (Fətəli Şahı) varisi və vəliəhdi təyin etdi. Bunun səbəbi var idi. Qeyd olunduğu kimi Ağaməhəmməd şah Qacar uzun müddət düşmənlərdən təmizlədiyi torpaqları parçalayaraq hökmranlıq etmək iddiasında olan Murtuzaqulu xan, Mustafaqulu xan və Rzaqulu xanla mübarizə aparmışdır. Qacar şahı torpaqları Rusiya imperatoru ilə əlaqəli olan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Murtuzaqulu xana, kürdlərə arxalanan Rzaqulu xana etibar etmirdi. Onlardan hər biri I Şah İsmayıl Səfəvinin yaratdığı böyük dövləti bərpa etmiş Ağaməhəmməd şahdan sonra azı iki yerə böləcəkdilər. Məhz bu səbəbdən onları zərərsizləşdirməklə, özünün hələ gənc yaşlarından döyüşlərdə hazırladığı, sınadığı və təlim verdiyi Fətəli Şahın hakimiyyəti maneəsiz idarə etməsinə şərait yaratmış oldu. Ağaməhəmməd şahın yolunda bir maneə də var idi. O da digər qardaşı Cəfərqulu Xan idi. Cəfərqulu Xan çox igid bir hərbçi olaraq Ağaməhəmməd şahın sağ əli idi. Onun bir çox uğurlarını Cəfərqulu Xanın adı ilə bağlayırlar. Onun böyük xidmətlərindən biri Qacar Dəvəlu ailələri ilə Qacar Qovanlu tayfaları arasında uzun müddət davam edən düşmənçiliyi aradan qaldırması oldu. O, həmçinin Ağaməhəmməd şahın yolunda böyük maneə olan qardaşlarını məğlub edərək onun hakimiyyətə rəqibsiz yetişməsini təmin etmişdi. Lakin Cəfərqulu Xanın hakimiyyət kürsüsünə əyləşmək arzusu onu gözdən saldı və həyatı faciə ilə bitdi. Bir daha qeyd etməliyik ki, Ağaməhəmməd şah Qacarın zəhmli və qəddar surətini yaratmış bəzi Avropa və Şərq tarixçiləri heç də haqlı deyillər. Qacar şahı xəyanəti və riyakarlığı heç vaxt bağışlamırdı. Ona qarşı vuruşan qardaşı Rzaqulu xan birinci dəfə həbs edilərək Ağaməhəmməd şahın yanına gətirildikdə, o, digər qardaşının xahişi ilə azad edilmişdi. Lakin Rzaqulu xan yenə xəyanət yolunu tutduqda və ələ keçdikdə bağışlanmadı. Tarixi mənbələr əsasında bunu söyləmək olar ki, Ağaməhəmməd şah Qacar talışları ona düşmən olan qardaşı Murtuzaqulu xanı uzun müddət

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

himayə etdikləri üçün cəzalandırdı. 1795-ci ildə Gürcüstan əhalisi II İraklinin ikiüzlü siyasətinin qurbanı olmuş, Kirman əhalisi isə xacəliyi ilə əlaqədar Ağaməhəmməd şahın mənliyini təhqir etdikləri üçün kütləvi qırğına məruz qalmışdır. Bir sözlə Ağaməhəmməd şah Qacarı qəddar adlandıranlar buna səbəb olan amilləri gürmürdülər, yaxud görmək istəmirdilər.

Qərb dövlətləri Ağaməhəmməd şahdan çəkinirdilər və onun böyük bir ərazini öz əlində saxlaması ilə barışmırdılar.

Mehdi Bamdadın sərablı Sadiq xan Şəqaqi (?-1800) haqqında verdiyi məlumatda bir maraqlı və diqqətçəkən məqam vardır. Bu da Ağaməhəmməd şah Qacarın qətlə yetirilməsi ilə əlaqədar ola bilər. Sadıq xanın atası Əli bəy bir müddət Kərim xan Zəndin 1400 nəfərdən ibarət olan tüfəngçilərinin rəislərindən biri olmuşdur. Sadıq xanın özü isə 1790-cı ildə Sərab yaxınlığında Ağaməhəmməd xanla möhkəm döyüşdə iştirak etmişdir, lakin məğlub olaraq Qarabağa getmiş və orada Qarabağ hakimi İbrahimxəlil xan Cavanşirə pənah aparmışdır. Həmin il İbrahimxəlil xanın xahişi ilə Ağaməhəmməd şah Sadıq xanı cərimələrdən azad etdi və bağışladı.

1797-ci ildə Ağaməhəmməd xan yenidən Azərbaycana qoşun çəkdiyi zaman Sadıq xan, onun dəstəsinə daxil olmuş, tədricən etimad qazanaraq, hətta ordu komandiri kimi tanınmışdı. O, Şuşanı fəth etmiş Ağaməhəmməd şahın yanında idi. Cümə günü Ağaməhəmməd şahın nökərlərindən üç nəfəri günah iş

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

tutduqları üçün cəzalanmalı idilər və şah göstəriş verdi ki, hər üçü dərhal öldürülsün. Sadıq xan şahdan cümə günü olduğundan onları səhəri gün öldürməyi xahiş etmişdi. Ağaməhəmməd şah bu işdə ehtiyatsızlıq edərək bu xahişi qəbul etdi, onları həbs etmək əvəzinə, azad buraxdı ki onlar da öz işləri ilə məşğul olsunlar. Səhər edam olunacaqlar. Onlar gecə ikən şahı qətlə yetirdilər. (71, c. 2, s. 164-166).

Çoxsaylı araşdırmalardan bu qənaətə gəlmək olur ki, istər Nadir Şah Əfşarın, istərsə də Ağaməhəmməd şahın sui-qəsdlə öldürülməsi I Pyotrun dənizdən-dənizə siyasətindən xəbərdar olan varislərinin əvvəlcədən hazırlanmış planı idi. Hər iki Azərbaycan imperatoru Rusiya, İngiltərə və Fransanın Şərqə uzanan əllərini bağlayırdı və onlardan bu maneəni aradan qaldırmağı tələb edirdi və aradan qaldırıldı da!

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# HÜSEYN XAN CAHANSUZ

Ağa Məhəmməd şahın vəsiyyətinə görə Fətəli Şah taxt-taca əyləşdi. Onun atası haqqında məlumatda qeyd olunur ki, Hüseynqulu xan Qacarqovanlu 1164-cü ildə (1750/51) anadan olmuşdur. O, Fətəli Şah Qacarın atası, Məhəmmədhəsən xan Qacarın oğludur. Kərim xan Zənd, Məhəmmədhəsən xan öldürüldükdən bir qədər sonra Bəstam xan Zəndi Tehrandan Əstərabada göndərdi ki, onun övladlarını və qohumlarını oradan Tehrana gətirsin. Sonralar 12 yaşlı Hüseynqulu və 21 yaşlı Ağa Məhəmməd xan Şiraza aparıldı. (1762-ci il) Məhəmmədhəsən xanın arvadı və bir neçə övladı Qəzvində yerləşdirilərək nəzarət altında saxlandı. (71, c. 1, s. 445).

Hüseynqulu Xan Cahansuz ləqəbi ilə məşhur idi. O, 1768-ci ildə 18 yaşında olarkən Kərim xan Zənd tərəfindən Damğan hakimi təyin olundu, oraya gətirildikdən sonra isə Qacar elinin yuxarıbaş tayfasında, xüsusən onun bir qolu olan Dəvəlular arasında intiqam almaq hissi alovlandı və Hüseynqulu xan öldürülən atasının intiqamını almağa başladı. Kərim xan Vəkil əleyhinə üsyan yaratdı. O, Gürgan ətrafında qoşun yığmağa başladı. Yuxarıbaş rəislərindən çoxunu, öz atasının qatillərini ələ keçirərək öldürdü. O, Damğanın Himkə kəndini tutdu və əhalisi əsasən yuxarıbaş tayfasından ibarət olan bu kənddə yaşayan Dəvəluları öldürdü, kəndi dağıdaraq yandırdı. Bu tarixdən, yəni

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1769-cu ildən etibarən Cahansuz kimi (dünyaı yandıran) məşhur oldu. Kərim xan Zənd onun üsyanından və düşmən münasibətindən xəbər tutduqda qardaşı Zəki xan Zəndi Cahansuzu əzmək üçün Mazandarana yola saldı. Zəki xan orada qətl və qarətlə məşğul olurdu. Hüseynqulu xan məğlub olub, Gürgana çəkildi, Zəki xan isə əhalinin bir hissəsini əsir alaraq Şiraza apardı. Kərim xan Zəki xanın Mazandaranda apardığı əməliyyatdan xəbər tutduqda, onu məzəmmət etdi və danladı, əsirləri isə azad etdi.

Hüseynqulu xan gənc yaşlarında döyüş meydanlarında oldu, qələbələr qazandı, lakin onun hökmranlığı çox çəkmədi və məğlubiyyətlə nəticələndi. O, 1189-cu ildə (1777) 27 yaşında Gürgana tabe olan Findiriskdə türkman tayfalarından olan göklənli Artəq adlı bir nəfərin əli ilə öldürülmüş və Gürganda dəfn olunmuşdur. Maraqlı faktdır ki, Fətəli Şahın anası Məhdi Ulya Nəcəfdə olan Həzrət Əlinin qəbrini ziyarət etməyə gedərkən qayınatası Məhəmmədhəsən xanın və əri Hüseynqulu xanın sümüklərini də özü ilə apararaq orada dəfn etmişdir. (71, c. 1, s. 446).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# MURTUZAQULU XAN QACAR

Murtuzaqulu xan Məhəmmədhəsən xan Qacarın 3-cü oğlu, Ağa Məhəmməd şah Qacarın doğma qardaşıdır. O, Məhəmmədhüseyn xan Qacar Dəvəlunun bacısı oğlu olub, Gürgan və Mazandaranın bəylərbəyisi (ostandar) idi və uzun illər bu yerlərə görə qardaşı ilə konfliktdə olmuşdur. Məlum olduğu kimi Məhəmmədhəsən xan Qacar 1759-cü ildə öldürüldükdən sonra onun ailəsi və yaxın qohumları Şiraza və Qəzvinə sürgün edildilər.

Murtuzaqulu xan və qardaşı Mustafaqulu xan Məhəmmədhüseyn xan Qacar Dəvəlunun bacısı oğlanları idilər və bu şəxs də Kərim xan Zəndin havadarlarından, həm də Gürgan hakimi olduğundan onların Gürgünda qalmaqlarına icazə verildi.

Kərim xan Vəkil vəfat etdikdən sonra Ağa Məhəmməd xan Qacar da Tehrana qayıtmışdı. O, Gürgan və Mazandarana qoşun yeritməyə hazırlaşırdı. Murtuzaqulu xan isə Kərim xanın vəfatından sonra hadisələrin başqa cür cərəyan etdiyini görüb, Gürgandan Babilə gələrək, oranı tutdu. Sonra qardaşı Ağa Məhəmməd xana bildirdi: "Gürgan mənimdir, Mazandaranı tutmuşam , ona görə də heç kəsin haqqı yoxdur ki, bu yerə gəlsin və bu iki əyalətə iddiaçı olsun". (71, c. 3, s. 70).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

O, Ağa Məhəmməd xanın ordusunun qarşısını kəsmək üçün digər qardaşı Mustafaqulu xanı da Sevadkuha göndərdi.

Bu zaman Ağa Məhəmməd xanla İsfahandan bir yerdə gələn qardaşı Rzaqulu xan Tehrandan Mazandarana gedib, Murtuzaqulu xanla birləşdi və o da qardaşına müxalif olanlara qoşularaq qiyam qaldırdı. Ağa Məhəmməd xan Şirazdan ona qoşulub gəlmiş bacarıqlı hərbçi, cəsur qardaşı Cəfərqulu Xanı həmin qardaşları ilə döyüşə göndərdi və o, qalib gəldi. Rzaqulu xan Babilə, Murtuzaqulu xan isə Gürgana getdilər. Mustafaqulu xan istər-istəməz Ağa Məhəmməd xanın ordusu ilə birləşdi. Ağa Məhəmməd xan Mustafaqulu xanı öz ordusuna cəlb eləmək üçün Murtuzaqulu xanın yanına, Gürgana göndərdi. Lakin Murtuzaqulu xan razı olmaq əvəzinə Rzaqulu xanla birləşərək Ağa Məhəmməd xana qarşı mübarizəyə başladı.

Ağa Məhəmməd xan bir tərəfdən qardaşlarının, xüsusən Murtuzaqulunun qəti olaraq ona qarşı müxalif olduqlarını, Əlimurad xan Zəndin də İsfahandan ona hücum etmək fikrini və digər tərəfdən Zülfüqar xan Xəmseyini fikirləşərək, 1780-cı ildə Mazandarana qayıtdı. Yarı yolda Cəfərqulu Xan Murtuzaqulu xanla döyüşə girdi. Heç biri qalib gəlmədi. Cəfərqulu Xan Vərəskə (Abbasabad-H.T.) getdi və Murtuzaqulu xan Firuzkuhun kəndlərindən birində qaldı. O, sonra doğma qardaşı Mehdiqulu xanla Laricanda birləşərək Girgana yola düşdü.

Ağa Məhəmməd xan 1781-ci ildə Babildə qardaşı Rzaqulu xana əsir düşdükdə, Rzaqulu xan onu və iki

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qardaşı oğlu (Fətəli Şahı və Hüseynqulu xanı) kor edib öldürmək istədiyi vaxt Hacı Xancan Bəndpeyi adlı bir şəxs onların köməyinə catdı. O, Rzaqulu xanın bu əməlinə mane olduqda onları zəncirləyib, Bəndpeyə sürgün etdilər. Lahicanda olan Cəfərqulu Xan Ağa Məhəmməd xana üz vermiş bu hadisədən xəbər tutduqda, Mustafaqulu xana xəbər verdi və onu dərhal Gilandan Girgana, Murtuzaqulu xanın yanına göndərdi ki, yardım üçün hazırlaşsın. Murtuzaqulu xan bu xəbəri, yəni Ağa Məhəmməd xanın əsir düşdüyünü eşitdikdə, ya öz nüfuzunu göstərmək üçün, ya da Rzaqulu xanla düşmən olduğundan dərhal ordusunu döyüsə hazırladı və Sari sərhəddinə gəldi. Murtuzaqulu xan bu döyüşdə qəhrəmanlıq, şücaət göstərərək, Xan Abdal xan Kürd Cahanbəylini məğlub edib öldürdü, sonra Rzaqulu xanın tərəfdarları olan Qara Məhəmmədqulu ilə Ağ Məhəmmədqulunu, Larican sərkərdələrini də məğlub edərək öldürdü. Cəsurluq nümayiş etdirən Murtuzaqulu xan qardaşı Rzaqulu xanın ordusunu tamamilə darmadağın edib, bu döyüşü qələbə ilə başa vurdu, Ağa Məhəmməd xanı azad etdi. Onun bu hərəkəti insanda həm rəğbət, həm də təəccüb hissi doğurur.

Lakin digər qardaşlardan fərqli olaraq Murtuzaqulu xan yenə də Ağa Məhəmməd xana tabe olmaq istəmədi. Beləliklə bir-iki dəfə döyüşdükdən sonra o, məğlub oldu və həbs olundu. Hadisələr cərəyan etdikcə Ağa Məhəmməd xanın qardaşları ilə mülayim və xoş rəftar etmək siyasəti yeritməyə üstünlük verdiyinin şahidi olur, onları müəyyən hədiyyələrlə mükafatlandırdığını görürük. Lakin ona xəyanət edənlərə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qarşı amansız və barışmaz idi, xəyanəti heç vaxt bağışlamırdı.

Artıq bu zaman Əstərabad, Çahar Dangə, Do Dangə və Hezar Cərib də Ağa Məhəmməd xana tabe idi. O, Gürgana yola düşdü, burada sakin oldu. Murtuzaqulu xan 1782-ci ildə Ağa Məhəmməd xanın yanına gəldi və Gürgan hakimi təyin edilərək Gilana göndərildi. Bu zaman Hidayətulla xan özünu məğlub və qəhr edilmiş görərək Ağa Məhəmməd xana söz verdi ki, Gilan hökümətinin vergilərini ödəyəcək o da Hidayət xana qayğı göstərib, Gilanı ona tapşırdı. (71, c. 4, s. 72). Ağa Məhəmməd xanın uğuru ilə barışmayan Murtuzaqulu xan və Rzaqulu xan yenidən sazişi pozaraq, ondan üz döndərdilər və hər ikisi də müxalif olan zəndilərə birləşdilər. Əlimurad xan Zəndin hakimiyyəti dövründə isə Murtuzaqulu xanla Rzaqulu xana bir o qədər də etina edilmədiyi üçün 1784-cü ildə Rzaqulu xan Xorasana, Murtuzaqulu xan da Qəzvin-Gilan-Talış-Quba-Badkubə yolu ilə Rusiya torpağına yola düşdü. Qeyd etmək lazımdır ki, Murtuzaqulu xanın Rusiyaya getməsi tarixini Etimadüssəltənə "Müntəzimi-Nasiri" əsərində Əlimurad xan Zəndin vəfatından əvvəl, Senehr isə "Nasexüt-təvarix" də sonra göstərirlər. Hər halda o, Rusiyada 1787-ci ilədək yaşamışdır. O, 1787-ci ildə Şirvan, Talış, Quba və Bakı hakimləri ilə həmrəylik əldə edərək birlikdə Gilan sərhədlərinə gəlmiş, lakin bu ordu o qədər də qüvvətli və hazırlıqlı olmadığından Ağa Məhəmməd xan tərəfindən məğlub edilərək geri qaytarılmışdı. Murtuzaqulu xan bir ildən sonra Talış xanı Mustafa xanla birlikdə 7 min nəfərlik ordu ilə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yenidən Gilana gəldi və bu dəfə oranı zəbt elədi. Bu zaman Gilan hakimi Ağa Məhəmməd xanın dayısı oğlu Süleyman xan Qacarqovanlu idi. O, özündən güclü düşmənə müqavimət göstərə bilməyib, əsir düşməsin deyə, Rəştdən Qəzvinə qaçdı və hadisəni bibisi oğlu Ağa Məhəmməd xana bildirdi. Ağa Məhəmməd xan göstəriş verdi ki, Murtuzaqulu xanın bir qədər əvvəl Babildə nəzarət altında olan ailəsi Tehrana köçürülsün. Sonra vaxtilə Mazandaran bəylərbəyisi, hazırda isə Ağa Məhəmməd xanın hərbi müşahidəçisi olan Məhəmmədhüseyn xan Qacarqovanlunu 2 min atlının önündə də getmək şərti ilə, Murtuzaqulu xanı məğlub etmək üçün Gilana göndərdi. Məhəmmədhüseyn xan Rəştə çatdıqdan sonra döyüş vaxtı tez qələbə çalmaq, şücaətini göstərmək istədi, lakin ehtiyat və qətiyyəti əldən verərək, arxadan gələn köməyi gözləmədən ağır məğlubiyyətə uğradı. Ağa Məhəmməd xan onun ardınca 10 min nəfərdən artıq bir qoşun göndərsə də, ağır döyüşdə Murtuzaqulu xan qələbə qazandı və bütün Gilan onun hakimiyyəti altına keçdi.

Bu zaman Cəfər xan Zənd Ağa Məhəmməd xanın vəziyyətindən istifadə edərək, 30 min nəfərlik qoşunla Şirazdan İsfahana gəldi. Onun qardaşı Əliqulu xan müqavimət göstərmədən İsfahandan Kaşana qaçdı. Ağa Məhəmməd xan bunu görüb, digər qardaşını, döyüşlərin fatehi, Cəfərqulu Xanı ordu komandiri təyin etdi və qoşunla Gilana yolladı.

Murtuzaqulu xan Cəfərqulu Xanın qoşunu qarşısında heç nə edə bilməyəcəyini düşünərək Rəşti

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

boşaltdı, Pəhləvi limanına (Ənzəli) getdi. Sonra Gilanı da döyüşsüz Cəfərqulu Xana verdi. (71, c.4, s. 73).

Ağa Məhəmməd xan qardaşı Cəfərqulu Xanın dikbaş, itaət etməyən bir şəxs olduğunu bildiyindən və onun üçün ikinci Murtuzaqulu xan olmasın deyə, onunla çox ehtiyyatla rəftar etməyə başladı. Ona görə də dərhal Rəştdən geri çağırdı və etibar etdiyi, həm də ona itaətkarlıq göstərən Əmir Süleyman xanı yenidən Gilan hökümətinə təyin edərək oraya göndərdi.

Murtuzaqulu xan isə Pəhləvi limanından gedərək bir müddət Bakı, Talış və Şirvanda yaşadı. Qardaşı Mustafaqulu xanın Ağa Məhəmməd şah Qacar tərəfindən kor edildiyini eşitdikdə, intiqam hissi onu yenidən Rusiyadan Gilana dönməyə vadar etdi. 1205-ci ildə(1790/91) Gilanı zəbt edərək Ağa Məhəmməd xanın ordusunun sərkərdələrini əsir aldı, əsgərlərini pərakəndə saldı. Ağa Məhəmməd xan yenidən ordu düzəldərək Mustafa xan Qacar Dəvəlunu komandan təyin etdi. Bu sərkərdə Cəfərqulu Xandan sonra onun ordusunun ən cəsur, şücaətli başçısı idi. Ağa Məhəmməd xan Mustafa xanın ordusunun ardınca bir dəstə ilə Gilana yola düşdü.

Murtuzaqulu xan bilirdi ki, Ağa Məhəmməd xanın gəlişi və onunla başlanacaq döyüş yaxşı nəticə verməyəcək. Buna görə də döyüşsüz geri çəkildi və Gilandan qaçdı. Bir müddət Bakıda qaldı, sonra Rusiyaya getdi. O, 1797-ci ildə, Ağa Məhəmməd şah Qacar öldürüldükdən sonra vəfat etmiş, cənazəsi Beynülnəhreynə (Ətəbati-Aliyat) aparılaraq, orada torpağa tapşırılmışdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## CƏFƏRQULU XAN

Ağa Məhəmməd şah Qacarın çox etibar etdiyi qardaşı, Məhəmmədhəsən xan Qacarın 5-ci oğlu olan Cəfərqulu Xan (1751-1791) qüdrətli sərkərdə və qacar şahının yaxın silahdaşı idi. O, qacarlar tayfasının Qovanlu tirəsindən olan şücaətli nümayəndələrindən biridir. Ataları öldükdən sonra Ağa Məhəmməd xan Kərim xan Zənd tərəfindən Şiraza gətirilərkən Cəfərqulu Xan da onun yanında idi.

1779-cu ildə Kərim xan Zənd Şirazda vəfat etdikdən sonra Ağa Məhəmməd xan Tehrana qaçdığı zaman Cəfərqulu Xan da onunla birlikdə yola çıxmışdı. Həmin ilin mart ayında Tehrana varid olan Cəfərqulu Xan ömrünün axırınadək qardaşının xidmətində qaldı.

Cəfərqulu Xanın qardaşına göstərdiyi böyük xidmətlərdən biri Qacar Dəvəlu ailələri ilə Qacarqovanlular arasında olan düşmənçiliyi aradan qaldırması oldu. Belə ki, Qacar Dəvəlu ailələri uzun zamandan bəri Qacarqovanlu tayfaları ilə düşmən münasibətində idilər. Cəfərqulu Xan çox səy etdi, onlarla danışdı və nəhayət Dəvəlu ailələri Ağa Məhəmməd xanla birləşdilər. (47, s. 77). Bu tayfalar Vəramin (Tehrana tabe qəsəbələrdən olub, şəhərin 42 min metrliyində, cənubi-şərqində yerləşir-H.T.) və Xəvar (Fars əyalətidir-H.T.) rayonlarındadır.

Cəfərqulu Xanın qardaşına göstərdiyi ikinci böyük xidməti bundan ibarətdir: Ağa Məhəmməd xan Tehrana

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

varid olduqdan sonra məqsədi Mazandarana və Gürgana gəlmək idi. Lakin Kərim xan Zənddən sonra Ağa Məhəmməd xanın qardaşlarından biri, Murtuzaqulu xan hakimiyyət iddiasında olduğu üçün və özünü buna haqlı saydığından onun oraya getməsinə mane olmağa çalışırdı. O, Kərim xan Vəkilin ölüm xəbərini eşitdikdə, dərhal Girgandan Babilə gələrək qardaşına belə bir sifariş göndərdi:

"Gürgan mənim ixtiyarımdadır və Mazandaranı da öz qolumun və qılıncımın gücünə tutdum. Heç kəsin ixtiyarı yoxdur ki, mənim sahib olduğum yerə əlini uzatsın". (71, c. 1, s. 249-250).

Murtuzaqulu xan özündən böyük qardaşı olan Mustafaqulu xanı hər ehtimala qarşı Ağa Məhəmməd xanın yolunu kəsmək üçün Sevadkuha göndərdi. Ağa Məhəmməd xan vəziyyəti belə görüb, Cəfərqulu Xanı öz qoşunlarının komandanı təyin edərək, qardaşları ilə müharibəyə, Mazandaran tərəfə yola düşdü. Bu çətin döyüşdə Cəfərqulu Xan qalib gəldi. Ağa Məhəmməd xan Cəfərqulu Xanın məhz bu xidmətinin sayəsində Tehrandan hərəkət edib, şahlığa nail oldu.

Ağa Məhəmməd xan Mazandaranda idi və Şirazdan olan zəndilərin ləyaqətli və ağıllı şəxsiyyətlərindən biri olan Əlimurad xanı İsfahan hakimi təyin etdi, eyni zamanda ona Tehran-Qəzvin və Mazandaranın hökümət işlərini tapşırdı. Əlimurad xan Qəzvində Zülfüqar xan Xəmseyini məğlub etdikdən və o hüdudu qaydaya saldıqdan sonra Tehrana qayıtdı. O, bir hissəsi Ağa Məhəmməd xanda, bir hissəsi də digər qardaşlarda olan Mazandaranı tutmaq üçün Tehranda

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olan, zəndilərə qulluq edən Laricani ailələrini Azad xan Gilzayinin oğlu Mahmud xanın başçılığı altında Mazandarana göndərdi. Ağa Məhəmməd xan bu dəfə də Cəfərqulu Xanı onları dəf etmək üçün göndərdi. Vərsək[9] dərəsində hər iki tərəf arasında baş vermiş döyüşdə Əlimurad xanın böyük ordusu məğlub oldu və qaçmağa üz tutdu. Qeyd etmək lazımdır ki, Əlimurad xanın məğlub edilməsində Ağa Məhəmməd xanın tərafdarları olan Sevadkuh ailələri mühüm rol oynadılar.

Əlimurad xan bu hadisədən sonra tam etibar etdiyi Qafur adlı şəxsi Tehran qubernatoru təyin etdi və özü isə İsfahana yola düşdü. Bu vaxt Ağa Məhəmməd xan onun İsfahana yola düşməsindən istifadə edib, Tehranı zəbt eləmək üçün hazırlaşdı. Lakin Rzaqulu xan və Murtuzaqulu xanın ciddi müqavimətinə rast gəldi. Belə ki, Rzaqulu xan Xəvar və Vəramin sakinləri olan Qacar Dəvəlu ailələrini özünə həmrah edərək Tehrana gəldi. Ağa Məhəmməd xan bundan xəbər tutduqda Cəfərqulu Xanı özündən əvvəl yola saldı, sonra özü Vəraminə varid oldu. Cəfərqulu Xanın səyi və tədbirləri nəticəsinda Ağa Məhəmməd xan həmin ailələri özünə birləşdirdi və onlar Rzaqulu xandan üzr istədilər. Rzaqulu xan çarəsiz Mazandarana qayıtdı.

Rzaqulu xan Mazandaranda əhalini qardaşına qarşı qaldırmağa başladı, 1000 yard[10] ərazidə yerləşərək qüvvələri hazırlamaqla müəyyən qədər ordu yığdı, Ağa

---

[9] Vərəsəkin əvvəlki adı Abbasabad olmuşdur.

[10] 1 vard 91.44 sm-ə bərabər ingilis uzunluq ölcüsüdür.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məhəmməd xanla döyüşə başlamaq üçün Sari[11] tərəfə yönəldi. Saridə iqamət etmiş Ağa Məhəmməd xan Cəfərqulu Xanı özünümüdafiə üçün göndərdi. Rzaqulu xan Nur və Koçur rayonlarına getdi və qoşunun sayını artırdı. Cəfərqulu Xan onun ardınca gedib, Xacək mahalında döyüşə başladı. Bu döyüşdə Rzaqulu xan məğlub oldu və ələ keçdi. Cəfərqulu Xan onu Ağa Məhəmməd xanın yanına gətirdi. Sonra digər qardaşın, Əliqulu xanın vasitəçiliyi ilə bağışlandı. Ağa Məhəmməd şahın qəddar qaniçən surətini yaratmış bəzi Qərb və Şədq tarixçiləri öz fikirlərində yanılırlar. O, xəyanəti və riyakarlığı bağışlamırdı. Cəfərqulu Xan 1781-ci ildə qardaşı Mustafaqulu xanla ittifaqa girdi və onlar birlikdə Ağa Məhəmməd xanın tapşırığı ilə Gilanı zəbt eləmək üçün yola düşdülər. Əməliyyat başlayanda xəbər çatdı ki, Ağa Məhəmməd xan Babildə Rzaqulu xanla döyüşə girməli olub. Lahicanda olan Cəfərqulu Xan həmişə olduğu kimi bu dəfə də qardaşının köməyinə tələsdi, Rzaqulu xan məğlub oldu və əsir düşərək öldürüldü. Xain öz cəzasınl almış oldu. Bu uğurlu döyüşdən sonra və Bəstam hakimi Qadir xan Ərəb Sariyə Amiri 1782-ci ildə məğlub edilərək kənarlaşdırıldıqda Ağa Məhəmməd xan həmin hökuməti Cəfərqulu Xana tapşırdı. Cəfərqulu Xan isə bu təklifdən narazı qaldı. O, hakimiyyətdə özünü Ağa Məhəmməd xanla şərik hesab etdiyi və uzun illər ona ləyaqət və sədaqətlə xidmət etdiyi üçün öz qardaşından gözləyirdi ki, Şahrux hökümətini ona tapşırar. O, bu tarixdən

---

[11] Sari-Mazandaranda şəhərdir. Ənuşirəvan övladı İspəhbud Saruyə bin Fərxanın saldığı qədim şəhərdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

(1782) etibarən özünü alçaldılmış və təhqir olunmuş hesab etdi. Ağa Məhəmməd xan çox ağıllı, arif adam idi və o, bu halı, onun münasibətini üzə vurmurdu, əksinə, qayğı ilə yanaşırdi, əvvəlki kimi Cəfərqulu Xanla yaxşı münasibətdə idi, onunla birgə işləyirdi. Həmin il Ağa Məhəmməd xan Gürgandan Sariyə gəldi və Cəfərqulu Xanla Mustafaqulu xanı əsas ordusunun komandanları təyin edərək, Gilana göndərdi. Onlar Hidayətulla xanı məğlub etdilər, o, Şirvana getməyə məcbur oldu. Cəfərqulu Xan Gilanı fəth etdikdən sonra Ağa Məhəmməd xanın tapşırığı ilə Ramazan xan Zəndi məğlub etmək üçün Tehrana yola düşdü. Ramazan xan 3-cü Zəndi hökmdarı olan Əlimurad xan (1782-85) tərəfindən Tehran hakimi Qafur xana kömək etmək üçün göndərilmişdi. Ramazan xan Zənd Cəfərqulu Xanın qarşısında tab gətirə bilməyərək məğlub oldu, ordusu dağıldı. Cəfərqulu Xan Qəzvinə gedib, Mövlaverdi xanı tutdu və nəzarət altında qardaşının yanına göndərdi. Ağa Məhəmməd xan isə onu azad etdi və oğlunu Qəzvin hakimi təyin etdi. Bu münasibət onun ağıllı diplomat olduğunu bir daha nümayiş etdirdi. Ağa Məhəmməd xan 1786-cı ildə Cəfər xan Zənd İsfahandan Şiraza qaçan zaman İsfahana daxil oldu və orada nizam-intizam yaratmaq üçün əmirlərə göstərişlər verdi. O, şəhərdən çixarkən orada və ətrafda olan əmirlərə nəzarət barədə Cəfərqulu Xana tapşırıq və güclü ordu verdi. 1787-ci ildə Bəxtiyaridə iğtişaş və qanunsuzluq baş verən zaman Cəfərqulu Xan oraya göndərilmişdi. Şirazın alınması və Lütfəli xanın məğlub edilməsi bir tərəfdən şəhərin rəisi İbrahimin, digər tərəfdən isə Cəfərqulu Xanın şücaəti

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

sayəsində başa catdı. Beləliklə Ağa Məhəmməd xanın İranda şahlıq taxtına əyləşməsində iki əsas amili qeyd etməmək olmaz. Bunlardan biri Cəfərqulu Xanın qılıncı, digəri Hacı İbrahimin tədbiridir. Cəfərqulu Xan qardaşınım xatirinə fədakarlıqlar göstərmiş, onun yolunda bütün təhlükələri dəf etmiş, onun düşmənləri ilə bütün müharibələrdə qalib çıxmışdır.

Ağa Məhəmməd şah Qacar isə qardaşı oğlu Baba xan Cahanbaniyə (Fətəli Şaha-H.T.) son dərəcə yaxın idi, onu çox istəyirdi, ona inanır, döyüşlərdə sınayırdı, bu səbəbə görə bir neçə qardaşı olduğu halda, 1790-cı ildə vəliəhdliyi qardaşı Hüseynqulu xanın oğlu Baba xana vermişdi. Onun ən fədakar və şahlığa ən yaxın, layiqli, yüksəkliyə layiq sərkərdə qardaşı Cəfərqulu Xan idi. Gözləmək olardı ki, onu vəliəhd təyin etsin, lakin uzaqgörən Ağa Məhəmməd xan bilirdi ki, özündən sonra Cəfərqulu Xan şah olarsa, sevimlisi Baba xan Cahanbani rahatlıqla hakimiyyət sürməyəcək, o biri qardaşları torpağı böləcəkdilər. Və bu səbəbdən Ağa Məhəmməd xan öz fədakar, ona sadiq qardaşını İsfahana yox, Bəstama təyin etmişdi. Həm də Cəfərqulu Xanın İsfahanda nüfuzu çox böyük idi. Cəfərqulu Xanın incikliyini hiss etmiş Ağa Məhəmməd xan nəhayət, onu aradan götürmək qərarına gəlir. Torpağın bütövlüyü qardaşdan irəli oldu. Bunun üçün siyasət işlədərək bir neçə dəfə onu Tehrana çağırdı. Lakin şübhələr Cəfərqulu Xanı qardaşının yanına getməyə qoymurdu. Onun bu hərəkəti Ağa Məhəmməd xanı daha da narahat etməyə başladı. Onda Qacar xanı hiyləyə əl atdı. Əvvəlcə onun anasına mehriban münasibətini artıraraq onu inandırdı ki,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

oğlu Cəfərquludan tam arxayın olsun və ona etibar edə bilər. Belə ki, Cəfərqulu Xan bütünlüklə Ağa Məhəmməd xana güvənə bilər. Ananı o dərəcədə arxayın etdi və özünə inandırdı ki, anası Cəfərqulu Xana məktub yazaraq ona qardaşı Ağa Məhəmməd xana əvvəlki yaxşı münasibətini və inamı bərpa etməyi tapşırdı. Bu məzmunlu məktubları ana vasitəsilə qohumlara və yaxın adamlara da göndərdi. Ağa Məhəmməd xanın quran gətirib, Cəfərqulu Xanın anasının, ailə üzvlərinin və qohumlarının yanında and içməsi onun sonrakı tədbiri oldu. And içdiyi zaman bu sözləri dedi: "Mən İsfahanı ona verirəm və keçmişdə baş vermiş incikliyin tamamilə unudulduğundan arxayın olmaq üçün yaxşı olar ki, o, İsfahana yola düşməzdən əvvəl qardaşlıq xatirinə məni görməyə gəlsin, sonra İsfahanı idarə etmək üçün yola düşsün". (71, c. 1, s. 252). Ağa Məhəmməd xan yenə qurana and içdi ki, "mən onu bir gecədən artıq yanımda saxlamayacağam və mürəxxəs edəcəyəm".

Sonra Ağa Məhəmməd xan Cəfərqulu Xanın anasını və onun dayısı oğlanları Məhəmməd xan və Məhəmmədzaman xan Qacar İzzəddinlunu[12] Bəstama göndərdi ki, onlar mətləbi Cəfərqulu Xana bildirsinlər. Onlar Cəfərqulu Xanı razı salıb, özləri ilə Tehrana gətirməli idilər. Tapşırıq yerinə yetirildi. Cəfərqulu Xan anası və dayısı oğlanları ilə söhbətdən sonra Tehrana, qardaşının yanına gəldi. Ağa Məhəmməd xan fövqəladə mehribanlıqla onunla görüşdü və onu çox yaxşı qarşıladı, hörmət etdi. O, İsfahanla əlaqədar işlər barədə Cəfərqulu Xana lazımi göstərişlər verdi. Ağa Məhəmməd xan

[12] İzzəddinlu aşağıbaş qacar tayfalarındandır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

onunla elə rəftar elədi ki, qardaşı tam arxayın oldu. Cəfərqulu Xan getmək üçün üzr istədi və qapıdan çıxmaq istəyərkən Ağa Məhəmməd xan onu təkrar səslədi və dedi: “Yadımdan çıxdı sənə deyim ki, Baba xan bu yaxınlarda özü üçün təzə bir imarət tikdirmişdir. Yaxşı olardı ki, dilxoşluq üçün onu görəydin, ondan sonra gedəydin”.

Cəfərqulu Xan heç yeri tanımadan, heç nədən xəbəri olmadan, taleyini nə gözlədiyini bilmədən itaətkaranə Baba xanın ardınca onun təzə imarətini görmək üçün yola düzəldi. Qabaqda əmi, etiram əlaməti olaraq onun ardınca Baba xan gedirdi. Bir neçə qapını ötdükdən sonra qəflətən otaqlardan birində gizlənmiş silahlı bir neçə nəfər Cəfərqulu Xana hücum etdilər. Özlərini onun üstünə atdılar, onu öldürdülər, meyidini Ağa Məhəmməd xana apardılar. Ağa Məhəmməd xan dərhal öz vəliəhdini, Baba xanı çağırdı. Kobud sözlər, danlaqlar, xeyli söyüşdən sonra Baba xana dedi: “ Mən ən cəsur, ən yaxşı qardaşımı sənin xətrinə öldürüm ki, sən məndən sonra asudə padşahlıq edəsən. Əgər o, sağ olsa idi, səni heç vaxt qoymayacaq idi ki, padşah olasan”.

Birdən yadına qurana and içməyi düşdü. O, Cəfərqulu Xanı bir gecədən artıq saxlamayacağına and içmişdi. Dərhal göstəriş verdi ki, gecə düşməmiş onun meyidini şəhərdən çıxararaq dəfn etsinlər ki, əhdini pozmasın, andına sadiq olsun. M. Bamdad yazır ki, İran tarixçiləri həmişə olduğu kimi, Cəfərqulu Xanın nə cür öldürüldüyünü həqiqətə uyğun yazmamışlar, müxtəlif mülahizələr söyləmişlər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

“Tarixe gitiqoşa” kitabının müəllifi Mirzə Məmməd Sadıq digər tarixçilərdən fərqlənir və öz mülahizələrində səhvlərə yol versə də, bunu deməyə əsas verir ki, o, həmkarlarından daha əsaslı yazmışdır. Amma ser Con Melkum əcnəbi olduğu üçün baş vermiş hadisəni özünün “Tarixi-İran” əsərinin II cildində digərlərindən yaxşı yazmışdır. Ingilis müəllifi Markham “Tarixi-İran” əsərində yazır:

“Zəndiyyə tayfasından olan düşmənlərinə qalib gələrək, onları məğlub və yox etdikdən sonra öz qohumları içərisində bəzilərini itaət etməyən və narazı, tüğyan edən görüb, onların cəzasını layiqincə verdi. Bu padşahın bütün məqsədi, məramı o idi ki, İranın taxt-tacını öz qardaşı oğluna tapşırsın”. (71, c. 1, s. 253).

Cəfərqulu Xan 1165-ci ildə (1751) Gürganda dünyaya gəlmişdir. Anası İzzəddunlu qacar tayfasından olan qadındır. O, 40 yaşında, yəni 1205-ci ildə (1791) Tehranda öldürülmüşdür. Cəfərqulu Xan qeyd olunduğu kimi Qacarqovanlu tayfasının çox şücaətli və istedadlı şəxsiyyətlərindən biri idi. Təəssüf ki, eyni zamanda Ağa Məhəmməd şah Qacarın məramının yolunda böyük maniə idi. Ona görə də həyatı faciə ilə bitdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## SADIQ XAN ŞƏQAQİ (?-1800)

Sadıq xan Şəqaqi Kərim xan Zəndin 1400 nəfərlik tüfəngçilərinin rəislərindən biri olan Əli bəyin oğludur. O, 1790-cı ildə Sərab böyüklərindən idi və həmin il Ağaməhəmməd şah Qacarın ordusuna qarşı ağır döyüşlər aparmışdır. Lakin Ağaməhəmməd xanın müqabilində məğlub olmuş, Qarabağa çəkilmişdir. Burada İbrahimxəlil xan Cavanşirə pənah apardıqda, onun iltiması ilə Ağaməhəmməd xan tərəfindən bağışlanaraq cərimələrdən azad edilmişdir.

Ağaməhəmməd şah yenidən Azərbaycana qaşun çəkdiyi zaman Sadıq xan onun dəstəsinə daxil olmuş, tədricən etimad qazanmış və hətta onun bacarıqlı komandirlərindən biri olmuşdur. 1795-ci ildə kor Şahrux Ağaməhəmməd şah tərəfindən hakimiyyətdən salındıqdan sonra Xorasan ələ keçirildi və Ağaməhəmməd xan İranın digər ərazilərini birləşdirmək məqsədilə Əfqanıstan və Türkmanistana yola düşmək qərarına gəldi. O, əvvəllər İranın bir hissəsi olan həmin torpaqları geri almaq üçün Məşhəddə olarkən xəbər gəldi ki, ruslar Qafqazda və Azərbaycan sərhədlərindədir. Ona görə də İranın Şərqində və Şimali-Şərqində olan torpaqlarını azad etmək planını yarımçıq qoyaraq rusların qarşısını kəsmək, eyni zamanda Qafqazın

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əmirlərini və xanlarını birləşdirərək özünə tabe etdirmək qərarına gəldi. Lakin məlum olduğu kimi İbrahimxəlil xan müqavimət göstərdi, bununla belə Qacar şahı ordunun bir hissəsini Adinəbazarda saxlayaraq bir hissəsi ilə, o cümlədən Sadıq xanla Şuşaya daxil oldu. Bu zaman Ağaməhəmməd şahın nökərlərindən üç nəfərinin günah iş tutduqları məlum oldu və xan hər üçünün dərhal öldürülməsi barədə göstəriş verdi. Lakin Sadıq xan cümə günü olduğunu bildirdi və onların səhər öldürülməsini israr etdi. (71, c. 2, s. 164-166). Ağaməhəmməd şah onun xahişini qəbul etdi, onları həbs etməkdənsə, azad buraxdı və onlar da öz cinayət əməllərini yerinə yetirdilər. Günahkarlar onu qətlə yetirdilər. Sonra onlar Sadıq xan Şəqaqini faciədən xəbərdar etdilər. Sadıq xan əvvəl onların dediklərinə inanmadı. Qatillər Ağaməhəmməd şahın həmişə özü ilə gəzdirdiyi qiymətli əşyaları gətirib Sadıq xana təslim etdikdə onu inandıra bildilər. Çox qüdrətli, həm də zəhmli şahın adi nökər əli ilə qətlə yetirilməsi heyrət doğurmaya bilməz!

Sadıq xan Şəqaqi bu var-dövləti götürərək hadisəni heç kəsə deməmiş Şuşadan çıxıb öz doğulduğu yerə üz tutdu. Səraba çatdıqda qardaşlarına öz işlərini icra etmək üçün tapşırıqlar verdi. Qardaşlarından birini, Cəfərqulu Xanı Qaracadağ hakimi təyin etdi, digər qardaşı Məhəmmədəli Soltanı isə Təbrizin darğası qoydu. Özü isə paytaxtı tutmaq üçün çoxsaylı ordu ilə Qəzvinə yola düşdü.

Fətəli Şah Sadıq xan Şəqaqinin qarşısını kəsmək üçün özünün qullarağasıbaşı vəzifəsində olan (Rəisi-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qulaman) Hüseyn xan Qacarın sərkərdəliyi ilə ordu göndərdi. Özü də qoşunla onun ardınca getdi. 1797-ci ilin oktyabr ayında Ağaməhəmməd şah Qacarın qətlindən 3 ay sonra Qəzvin yaxınlığındakı Əli torpağı adlanan yerdə iki qoşun arasında qızğın döyüş baş verdi. Bu vuruşda Sadıq xan Şəqaqinin 25 min nəfərlik ordusu məğlub oldu, öldürüldü, əsir alındı, özü isə Səraba qaçdı. Fətəli Şah onun ardınca Azərbaycana üz tutdu, lakin Zəncan şəhərində eşitdikdə ki, o tərəflərdə taun xəstəliyi vardır, əlacsız Tehrana qayıtmalı oldu. Sadıq xan Qəzvində məğlub olduqdan sonra Sərabda öz vəziyyətini düşündü və etiraf etməyə məcbur oldu ki, Fətəli Şahın qüdrəti müqabilində acizdir. Ona görə də özündə olan ləl-cəvahiratı götürərək tabe olmaqdan başqa bir yol görmədiyi üçün Fətəli Şahın yanına gəldi. Bundan sonra o, Sərab və Gərmrud hakimi təyin olundu. Həmin il Sadıq xanla Xoy və Təbriz hakimi Cəfərqulu Xan Dünbüli arasında münaqişə yarandı. Onlar arasında döyüş baş verdi və Sadıq xan məğlub edilib, Muğana, oradan da Şirvana çəkildi. O, bir müddət keçdikdən sonra Urmiya hakimi Məhəmmədqulu xanı özünə həmrəy edib onunla birləşdi. Tarixçi Rzaqulu xan Hidayət "Rövzətüs-səfa" əsərinin 9-cu cildində yazır ki, Məhəmmədqulu xan Əfşar Urməvi də şahlıq iddiasında idi. O, Sadıq xanla Cəfərqulu Xan Dünbülini öz məqsədinə xidmət etdirmək istəyirdi. Fətəli Şah onları dəf etmək üçün özünün sərkərdəsi Məhəmmədəli xan Ərəb Bəstamini və Məhəmmədqulu xan Əfşarın qardaşı oğlu Hüseynqulu xanı onların qarşısına göndərdi. Çox ziddiyyətli bir şəxsiyyət olan Sadıq xan müqavimət

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

göstərə bilmədiyi üçün öz havadarı Süleyman xan Qacarı (Etizadüddövlə) vasitəçi etdi və bu dəfə onun köməyilə əfv olundu. Fətəli Şah onu ordu başçısı təyin etdi.

Fətəli Şah 1798-ci ildə Xorasana yola düşdü, məqsəd Məşhədi tutmaq və Şahrux şahın oğlu Nadir mirzəni aradan götürmək idi. O, Sadıq xan Şəqaqini də özü ilə apardı. Yolda Sadıq xanla Hüseyn xan Qullarağasıbaşını Çinaran adlanan məkanı tutmaq və onun hakimi Məmiş xan Kürd Zəfəranlunu məğlub etmək üçün göndərdi. Sadıq xan burada da Fətəli Şaha xəyanət etdi. O, Hüseyn xanı arxada qoyaraq tez irəli keçdi və xəlvəti, təklikdə Məmiş xanla danışdı, onu Nadir mirzənin tərəfində durmağa məcbur etdi və özünə tabe etdirdi. Məmiş xan isə Fətəli Şahın havadarı rolunu oynayaraq, ona sədaqətini sübut etmək məqsədilə, xəlvəti Sadıq xanın məramını kiçik bir kağıza yazaraq, şaha çatdırdı. Fətəli Şah dərhal bu məsələyə məhəl qoymadı və Sadıq xanın xəyanətini üzə vurmadı. O, göstəriş verdi ki, Sadıq xan Canməhəmməd xan Qacar Dəvəlunun dəstəsinə birləşsin, bir-biri ilə ittifaqda Məşhədin mühasirəsinə başlasınlar. Sadıq xan isə hər şeydən xəbərsiz Fətəli Şahın əmirlərinə qarşı nifaq və ziddiyyət yaradırdı.

Fətəli Şah 1799-cu ildə Sadıq xanı həbs etdirərək, hava daxil olmayan, qapalı bir otağa saldırdı. O, acından və havasızlıqdan öldü. Fətəli Şah onun vəzifəsini və əmlakını onun qardaşları və oğulları arasında böldü.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## CANMƏHƏMMƏD XAN QACAR

XVIII əsrdə yaşamış və qacarlar tayfasından olan Canməhəmməd xan Qacar Dəvəlu[13] Qara xanın oğludur. O, Əli xan Səfa Zəhirüddövlənin (Səfa Əli şah) babasıdır, qohumları Damğanın Həməkə kəndində və onun ətrafında sakin olmuşlar. Əvvəllər, həm də uzun illər digər Qacar Dəvəlular (yuxarıbaş) kimi onlar da Qacarqovanlularla (aşağıbaş) düşmən münasibətdə idilər. Ağa Məhəmməd xan Qacarın atası, Fətəli xanın oğlu Məhəmmədhəsən xan üsyan edərkən nəinki onunla həmrah olmadılar, hətta ona qarşı çıxdılar. Bu cəhətdən Fətəli Şah Qacarın atası Hüseynqulu xan 1769-cu ildə Kərim xan Zənd tərəfindən Damğam hakimi təyin olunduğu zaman Damğana yetişən kimi Kərim xanın əleyhinə qiyam qaldırdı. O, əlinə fürsət düşdüyü üçün Dəvəlular (yuxarıbaş) yaşayan Həməkə kəndini tamamilə dağıtdı və oraya od vurdu. Bu hərəkətinə görə Hüseynqulu xana "Cahansuz" ləqəbi verilmişdir. Lakin Ağa Məhəmməd şah Qacar siyasət adamı olduğundan hakimiyyətə gəlmək üçün Dəvəlu Qacarlarına güzəşt, elədi, Cəfərqulu Xanın vasitəçiliyi ilə barışaraq onlarla

[13] Dəvəlu-Qacar tayfasının 8 qəbiləsindən birinin adıdır.Bu qəbilələr bunlardır: Qovanlu (Kovanlu), Dəvəlu, (Dovalu) İzzəddinlu., Qarasanlu, Şambəyati, Ziyadlu, Kərlu, Sənanlu.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

birləşdi. Dəvəlular istər-istəməz ona qoşuldular. Bu birlik Dəvəlulara çox kömək etdi.

Canməhəmməd xan Dəvəlu Qacarlarının böyüklərindən idi və Ağa Məhəmməd xan 1782-ci ildə Bəstama qoşun çəkən zaman o, Nəməkə çəmənliyindən çıxaraq, Ağa Məhəmməd xanla birləşdi, onunla birlikdə olmağa razılıq verdi. Türkman yomut[14] (71, c. 1, s. 275). tayfası 1786-cı ildə Mazandaran sərhəddində qarışıqlıq salan vaxt Ağa Məhəmməd xan Canməhəmməd xanı onları dəf etmək üçün göndərmişdi. Sonra onu talış Mustafa xanı məğlub etmək üçün göndərdikdə o, ciddi müqavimətə rast gəldiyindən geri qayıtdı. 1207-ci ildə (1792/93) Ağa Məhəmməd xan Şirazdan Tehrana qayıdan zaman Canməhəmməd xan Kərim xan Zəndin vaxtilə əhəng, daş və bişmiş kərpicdən dağ kimi tikdirdiyi Şirazın qala divarlarını tamamilə dağıdaraq yerlə-yeksan etməyi tapşırdı. Canməhəmməd xan qısa bir müddət ərzində ona tapşırılan işi yerinə yetirdi və Şiraz bu tarixdən hasarsız və istehkamsız oldu. Canməhəmməd xan Şiraz qalasını dağıtdıqdan və ətraf xəndəkləri doldurduqdan sonra Tehrana qayıtdı. Lütfəli xan Zəndi 1793-cü ildə yenidən Şiraza üz tutmağa vadar edən səbəblərdən biri şəhərin dağıdılmış həmin divarları olmuşdu.

[14] Yomutlar, təkinlər, ersarılar, salırlar, sarıqlar, göklənlər və başqaları iri türkman tayfaları olub Xəzərin şərqində yerləşmişlər.(10, 275) (11, 411)

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏDVƏLİ XAN

Yuxarıda haqqında bəhs olunan Canməhəmməd xanın oğlu Məhəmmədvəli xan, yaxud Vəli xan Qacar Dəvəlu bacarıqlı və cəsur hərbçi olmuşdir. O, Ağa Məhəmməd şah Qacar və Fətəli xan Qacarın qoşun komandirlərindən idi. Lütfəli xan Zənd 1794-cü ildə Bəmdə əsir düşərkən Ağa Məhəmməd şah dərhal Məhəmmədvəli xanın komandanlığı altında 1500 nəfərdən ibarət qoşunu onu gətirmək üçün göndərdi və Lütfəli xan əl-qolu bağlı Kirmana, şahın hüzuruna gətirildi.

Ağa Məhəmməd şah Qafqazın bir sıra hakim və xanını özünə tabe etdirmək üçün oraya qoşun çəkərkən Məhəmmədvəli xan da orduya başçılıq edirdi. O, Qacar şahlarına sədaqətlə xidmət etmiş, dövlətin sütunlarından biri idi. Qacar şahı Şuşada qəylə yetirilən zaman (1797, 19 iyun) Məhəmmədvəli xan Məşhəd şəhərində idi. O, dərhal 1000 nəfər əsgərlə Tehrana yola düşdü və Fətəli Şahın ordusuna qoşuldu. Fətəli Şah 1797-ci ilin avqust ayında şahlıq iddiasında olan Sadıq xana Şəqaqini dəf etmək üçün Məhəmmədvəlinin komandanlığı altında Qəzvinə qoşun göndərdi. Sadıq xan bu döyüşdə böyük məğlubiyyətə uğradı və Səraba qaçdı. Məhəmmədvəli xan Fətəli Şahla bərabər Tehrana qayıtdı. O, ömrünün

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

axırına qədər Fətəli Şahın ordu başçılarından biri olmuşdur.

## MUSTAFA XAN QARACADAĞİ

Ağa Məhəmməd şah Qacar hakimiyyəti zamanı Urmiya hakimi olan Mustafa xan Qaracadaği Azərbaycanın görkəmli, adlı-sanlı əmirlərindən və xanlarından idi. Ağa Məhəmməd xan 1790-cı ildə Azərbaycan hakimlərini özünə tabe etdirərək xanlıqları birləşdirmək məqsədilə Ərəsbarana (Urmiyaya) yola düşdü. Hakimlərin əksəriyyəti Ağa Məhəmməd xanın yanına gəlib ona tabe olduqlarını bildirdilər. Mustafa xan da itaət edənlər kimi xanla görüşdü. Lakin nədənsə Ağa Məhəmməd xan ona o qədər də arxayın deyildi və buna görə də öz dayısı oğlu Süleyman xanı Əhəri zəbt eləmək üçün göndərdi, o da Əhəri öz əlinə keçirdi. Hər halda ağıllı və uzaqgörən Qacar şahı Mustafa xan Qaracadağinin bizə görünməyən cəhətlərini görərək bu addımı atmışdı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏDQULU XAN ƏFŞAR

Ağa Məhəmməd şah Qacar hakimiyyəti dövrünün hərbçilərindən Məhəmmədqulu xan Əfşar Urmiyada (Rizaiyyə) yaşayan əfşar tayfalarının böyüklərindən olmuşdur. O, qacarlar hakimiyyətinin ilk dövrlərində Rizaiyyə valisi idi. Bu şəxsi Nadir Şahın qatili Məhəmmədqulu xanla səhv salmaq olmaz. Onlar sadəcə eyni adlıdırlar.

Ağa Məhəmməd xan Qacar 1790-cı ildə işlərini bir qədər qaydaya salmışdı və demək olar ki, İranın böyük bir hissəsini öz əlinə ala bilmişdi. O, indi Azərbaycanın ona tabe olmayan bəzi əmr və xanlarını təslim etmək məqsədilə o istiqamətə yola düşdü. Bəziləri Ağa Məhəmməd xanın yanına gələrək itaət etdiklərini bildirdilər. Lakin Məhəmmədqulu xan əvvəlcə qorxdu və İşnu (Əşnu) qalasında gizləndi. Rizaiyyə işğal olunduqdan və bütün var-dövləti müsadirə edildikdən sonra Məhəmmədqulu xan Ağa Məhğmməd xanın işlərinin uğurla getdiyini görərək müqavimət göstərməyin faydasız olduğunu düşünüb, axırda ələ keçəcəyi təqdirdə onu böyük cəza gözlədiyini bilib, özü onun yanına gəldi və ona tabe olduğunu bəyan etdi və o, yenidən Rizaiyyə hakimi təyin olundu. Qacarlar sülaləsinin bamisi Ağa Məhəmməd şah, Qarabağda

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1797-ci ilin iyun ayında qətlə yetirildikdən sonra İranın bir çox hakimləri özbaşınalığa üz tutdular. Rizaiyyə hakimi Məhəmmədqulu xan da onlardan biri idi. O, 1798-ci ildə Sərab və Gərmrud hakimi Sadıq xan Şəqaqinin, Təbriz və Xoy hakimi Cəfərqulu Xan Dünbülinin təhriki və təsiri ilə Fətəli Şahın əleyhinə qiyam qaldırdı. Lakin heç bir nəticə olmadı. Mərkəzin böyük qüvvəsi onu məğlub etdi və o, öz qalasına çəkildi, sonra ələ keçərək tez Tehrana aparıldı. Ona düşmən olan qardaşı oğlu Hüseynqulu xan Urmiya (Rizaiyyə) hakimi təyin olundu.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏDHÜSEYN XAN QACARQOVANLU

Məhəmmədhüseyn xan Qacarqovanlu (?-1807) Ağa Məhəmməd şah Qacarın xalası oğlu və keşikçibaşısı idi. "Dodaq" ləqəbi ilə məşhur olan bu şəxs (qalın dodaqları olduğundan belə adlandırılırdı) qacarlar elinin məşhur sərkərdələrindən olmuşdur. Ağa Məhəmməd şah onu 1786-cı ildə Mazandarana hakim təyin etmişdi. 1787-ci ildə Ağa Məhəmməd şahın sərkərdələrindən Bağır Sultan Nuru onun əleyhinə çıxan zaman Məhəmmədhüseyn xan onunla döyüşə girmiş və onu məğlub edərək, Tehrana gətirmişdi. Onun əleyhinə çıxanı Ağa Məhəmməd xan əzabla öldürdü. Qacar şahının etimadını qazanmış Məhəmmədhüseyn xan 1788-ci ildə Ağa Məhəmməd xanın şəxsi mühafizi təyin olunmuş və Qacar şahının ömrünün sonunadək ona keşikçibaşı (şəxsi qarnizonununrəisi) vəzifəsində qulluq etmişdir. Məlum olduğu kimi 1788-ci ildə Ağa Məhəmməd şahın qardaşı Murtuzaqulu xan ona tabe olmadıqda, Şirvan hakimləri ilə (Talış, Quba, Bakı) birləşib, Gilan sərhəddinə gəlmiş, güclü ordu olmadığından məğlub olaraq geri qayıtmışdı. Lakin həmin ilin sonlarında yenidən Talış xanı Mustafa xanla birlikdə 7000 nəfərlik ordu ilə Gilana gəldi. Bu dəfə qələbə qazanaraq Gilanı tutdu. Məhəmmədhüseyn xan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qüdrətli sərkərdəolduğu üçün həmişə çətin döyüşlərdə iştirak etmişdir. Lütfəli xan Zənd 1791-ci ildə Təbəs höhmdarı Əmir Həsən xan Zənguyinin ixtiyarında olan 30 min ordu ilə Şirazı zəbt eləmək üçün Hacı İbrahim xan Şirazinin üstünə yeridikdə Ağa Məhəmməd xan dərhal Məhəmmədhüseyn xan Keşikçibaşının başçılığı ilə 8000 atlını və 3000 nəfəri Fars əyalətinə göndərdi. Qüvvələrin nisbətinin Məhəmmədhüseyn xanın xeyrinə olmamasına baxmayaraq o, qalib gəldi və Lütfəli xan Təbəsə, Əmir Həsən xanın yanına qayıtdı.

Məhəmmədhüseyn xan Ağa Məhəmməd şahın Azərbaycana, Qarabağa yürüşündə iştirak etmişdir. Bu zaman Xudafərin körpüsünü qorumaq ona tapşırılmışdı. Ağa Məhəmməd şah öldürülən gün onun cəsədini ilk dəfə görən Məhəmmədhüseyn xan və Mirzə Rzaqulu Nəvai Münşiyülməmalik oldu. Qatillər aradan çıxmış və gizlənmişdilər. Ağa Məhəmməd şahın katibi Mirzə Rzaqulunun məsləhəti ilə Məhəmmədhüseyn xan onunla birlikdə çox əziyyət və məşəqqətlə Naxçıvan yolu ilə Tehrana yola düşmüşdülər. Mirzə Rzaqulu onu başa saldı ki, yüksək vəzifədə olduğu üçün düşmənləri bu hadisədən istifadə edərək onu öldürə bilərlər.

Məhəmmədhüseyn xan Qacarqovanlu sonralar Fətəli Şahın şəxsi qarnizonunun rəisi təyin olunmuşdu. O, I Rusiya-İran müharibəsi zamanı (1804-1813) İrəvanda Fətəli Şah Qacar ordusunun qabaqcıl sərkərdələrindən biri kimi fədakarlıq göstərmişdir. Məhəmmədhüseyn xan 1222-ci ildə (1807) vəfat etmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏDHÜSEYN XAN QARAGÖZLÜ

Qacarlar hakimiyyəti dövründə diqqəti cəlb edən Qaragözlülər tayfası Cənubi Azərbaycanın Həmədan əyalətinda yaşayan türk mənşəli Azərbaycan tayfalarındandır. Mənbələrdə adları XVI əsrdən etibarən çəkilən bu tayfa XVIII əsrdə İran və Azərbaycanın ictimai-siyasi həyatında nəzərə çarpacaq dərəcədə fəal iştirak etmişdir. Qacarlar sülaləsi yarandığı ilk dövrlərdən ona itaətkarlıq göstərmiş, Ağa Məhəmməd şah Qacarı müdafiə edənlərdən idilər. Bu tayfanın görkəmli, tanınmış başçılarından və xanlarından biri Məhəmmədhüseyn xan Həmədani Qaragözlüdür. (41, s. 393).

Cəfər xan Zənd 1199-cu ildə (1785) Şirazdan gələrək, İsfahanı işğal etdikdən sonra İranın digər şəhərlərini tutmaq fikrinə düşdü. Bu məqsədlə Həmədən istiqamətində irəlilədiyi zaman Məhəmmədhüseyn xan Qaragözlü və Əli xan Əfşar Xəmseyi Ağa Məhəmməd şah Qacarın göstərişi ilə döyüşə girərək, torpağı müdafiə etdilər. Bu zaman Cəfər xan onları məğlub etdi. Lakin Kürdüstan valisi və Gorus xanları onlara köməyə gələrək, Cəfər xan Zəndi elə məğlubiyyətə uğratdılar ki, əlacsız qalıb, İsfahana, oradan da Şiraza qayıtmalı oldu.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bu tarixdən Qaragözlü tayfası Qacarların havadarı hesab olunmuş və Qacarlar hakimiyyəti dövründə İran ordusunun mühüm dəstəsini təşkil etmişdir. Bu tayfanın rəisləri və xanları cox nüfuzlu və zəngin olmuşlar.

## MUSTAFA XAN DƏVƏLU

Ağa Məhəmməd şah Qacar hakimiyyəti dövrünün ordu başçılarından biri olan fədakar sərkərdə Mustafa xan Dəvəlu Məhəmmədhüseyn xan Qacar Dəvəlunun oğludur. Zəncan və onun ətrafında özbaşınalıq edən Əli xan Əfşar Xəmseyi 1196-ci ildə (1782) Ağa Məhəmməd xan Qacara itaətsizlik göstərən zaman Mustafa xan Zəncana göndərilmiş, onunla döyüşə girmişdir. Bu döyüşdə igidlik nümayiş etdirən Mustafa xan Dəvəlu Əli xan Əfşarı məğlub etdi, Əli xan Azərbaycana getməyə məcbur oldu. Zəncan və onun ətrafı Ağa Məhəmməd xan Qacar və qoşunlarının ixtiyarında qaldı. Mustafa xan özünün bu qələbəsindən sonra Ağa Məhəmməd xanın Qəzvində olan ordusu ilə birləşdi və bununla Qacar xanına öz sədaqətini göstərmış oldu.

Ağa Məhəmməd xan Qacar 1200-cü (1786) ildə Mustafa xanı yaxşı silahlanmış və Şirvandan Rəştə qayıtmış Hidayətulla xan Gilanini məğlub etmək üçün onun qarşısına göndərdi. Bu döyüşdə Hidayətulla xan məğlub oldu və Rəşt Mustafa xan Qacar Dəvəlunun əlinə keçdi. Hidayətulla xan isə Pirbazara və Ənzəliyə (Bəndəri-Pəhləvi) qaçdı. Mustafa xan onu izlədi və o yerlərdə gedən döyüşdə qalib gəldi. Beləliklə Pirbazar və

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Ənzəli Mustafa xan tərəfindən zəbt olunaraq Qacar şahına təhvil verildi. Hidayətulla xanın aqibəti acınacaqlı oldu. O, Bakıya qaçmaq məqsədilə gəmiyə minmək istədikdə dənizə düşdü. Onu Bəndəri-Pəhləvidə (Ənzəli) dəfn etdilər. Mustafa xan Gilanda işləri qaydaya saldıqdan sonra Tehrana çağırıldı. Ağa Məhəmməd xan öz dayısı oğlu Süleyman xanı Gilan hakimi təyin etdi.

Cəfər xan Zənd (zəndilərin 4-cü xanı, 1785-89) 1788-ci ildə Ağa Məhəmməd xan Qacarın, bir müddət Qafqazda və Rusiyada yaşamış qardaşı Murtuzaqulu xanla birləşərək, 7000 qoşunla Gilanı tutmuş Mustafa xan Talış tərəfindən məğlub edilməsini eşitdikdə 30 min qoşunla Şirazdan gələrək İsfahanı tutdu. Ağa Məhəmməd xanın ordu komandiri Mustafa xan Dəvəlu İsfahana yola düşdü. Şəhərin yaxınlığına yetişən zaman Cəfər xan Zənd onun gəlişini eşitdikdə döyüşsüz və müqavimət göstərmədən (bunun faydasız olduğunu bilirdi) İsfahanı tərk etdi və Şiraza qayıtdı. Mustafa xan təcrübəli və bacarıqlı sərkərdə idi və o, Cəfər xan Zəndi tutmaq üçün onun ardınca yola düşdü. Bu tapşırığı o, Ağa Məhəmməd xandan almışdı. Lakin Cəfər xan Zənd elə sürətlə uzaqlaşmışdı ki, Mustafa xan ona yetişə bilmədi və geriyə İsfahana qayıtdı.

Ağa Məhəmməd xan Qacar 1203-cü ilin əvvəlində (1789) Şirazı tutmaq üçün Fars vilayətinə tərəf yola düşərkən, ordusunun görkəmli və cəsur sərkərdələrindən biri həmin Mustafa xan Dəvəlu idi. O, öz ordusunun sağ cinahının təhlükəsizliyini Mustafa xana tapşırmışdı. Bu vaxt mübarizə Zəndlilər sülaləsinin sonuncu hökmdarı Lütfəli xana (1789-1794) qarşı aparılırdı. Mustafa xan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

onunla döyüşdü, lakin qələbə hasil olmadı. Lütfəli xan qalada müdafiə olunurdu. Ağa Məhəmməd xan onu müharibə yolu ilə məğlub edə bilməyəcəyini düşünüb, Lütfəli xanın ətrafındakılarla yazışmağa, onlarla əlaqə yaradaraq aralarına intriqa, ədavət, kin-kidurət salmağa çalışdı və xeyli uğur qazandı. Lütfəli xanın məğlubiyyətində bu siyasətin böyük rolu oldu və düşmənə qalib gəlmək üçün Qacar şahının bu təcrübəsi faydalı tədbirdi. Ağa Məhəmməd xan Tehrana qayıtdı və Mustafa xanı 3 min nəfərlə Lütfəli xanın qarşısını almaq üçün Fars əyalətində, İsfahan istiqamətinda saxladı.

Lütfəli xan Zənd 1205-ci ildə (1790) İsfahanı zəbt eləmək üçün Şirazdan hərəkət elədi. Lütfəli xanın vəziri Hacı İbrahim Şirazi Ağa Məhəmməd xanla yaxşı münasibətdə olduğu üçün onu xəbərdar etdi. Ağa Məhəmməd xan özünün vəliəhdi təyin etdiyi Cahanbani ləqəbli Baba xanı (Fətəli Şahı-H.T.) 5 min atlı ilə Mustafa xanın komandanlığı altında Lütfəli xan Zəndin qarşısına göndərdi. Lütfəli xan da çox hiyləgər, fövqəladə şücaətli olduğundan döyüşdə həmişə qələbə qazanırdı. Lakin onun Hacı İbrahimin qəsdindən və Ağa Məhəmməd xanla birgə planından xəbəri yox idi. Hacı İbrahimin iki qardaşı onun ordusunda xidmət edirdi. Onlar Hacı İbrahimin göstərişi ilə orduda həyəcan və hay-küy saldılar və Lütfəli xanın hərəmxanasına tərəf güllə atdılar. Lütfəli xan hadisədən xəbər tutduqda ata minib, bir neçə nəfərlə Şirazı əldən verməmək üçün şəhərə tərəf qaçdılar. Mustafa xan Dəvəlu onu təqib etdi, lakin ona çata bilmədi. Lütfəli xan yolda xəbər tutdu ki, Şiraz şəhəri vəzir Hacı İbrahimin əlindədir və zəndi

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

xanları zindandadır, qarnizon isə tamamilə tərksilah edilmişdir. Lütfəli xan Şirazı tutmaq üçün cox çalışdısa da, buna nail ola bilmədi. Əlacsız Fars körfəzinə yola düşdü. Hacı İbrahim göstərdiyi xidmətə görə Ağa Məhəmməd xan Qacar tərəfindən xan tituluna layiq görüldü və dövlət işinə təyin olundu. Lütfəli xan yenidən Şiraza hücum etməsin deyə, Ağa Məhəmməd xan Mustafa xan Dəvəlunu 3 min nəfər ordu ilə Şirazın mühafizəsi üçün saxladı. Mustafa xan əlavə olaraq 5 min atlı ilə təmin olundu. Bu dəstəyə Canməhəmməd xan başçılıq edirdi. Lütfəli xan da yeni döyüşə hazırlaşdı. Həmin il (1790) Şiraza yaxınlaşıb, şəhəri mühasirəyə aldı. Ağa Məhəmməd xanın ordusu ilə döyüş bir həftə davam etdi. Nəticədə Lütfəli xan geri çəkilməli oldu və Zərqanda, qalada müdafiə olunmalı oldu. 4 il keçdikdən sonra, 1794-cü ildə Ağa Məhəmməd şah zəndilər sülaləsinin sonuncu şahı Lütfəli xanı aradan götürdü, Kirmanda da qayda-qanun yaratdıqdan sonra Qafqaza hazırlaşdı. O, əvvəlcə Mustafa xan Dəvəlunu, özünün ən görkəmli sərkərdəsini Mustafa xan Talışı əzmək və özünə tabe etdirmək üçün göndərdi. Talış xanı döyüş zamanı məğlub oldu. Onun bir sıra yaxın adamı və qohumları Mazandarana köçürüldü.

Mustafa xan bu döyüşü bitirdikdən sonra Ağa Məhəmməd xanın ordusu ilə birləşdi. Oradan qayıtdıqdan sonra Şirvan hakimi Mustafa xan Şirvanini Ağa Məhəmməd xan Qacara tabe etdirdi. Lakin orada əhaliyə qarşı soyğunçuluq halları baş verdiyi üçün Ağa Məhəmməd şaha şikayətlər olundu və Mustafa xan Dəvəlu Şirvandan geri, Tehrana çağırıldı. Mustafa xan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Dəvəlu yolda Şirvanın nüfuzlu əmir və xanlarından sayılan Xan Çoban tərəfindən öldürüldü. Ağa Məhəmməd xan onun yerinə öz qardaşı Əliqulu xanı təyin etdi. Şübhəsiz ki, Mustafa xan Dəvəlu cəsur ordu başçısı kimi həmişə uğurlar qazandığı üçün onun aradan götürülməsində maraqlı olanlar var idi. Mustafa xan Şirvani Ağa Məhəmməd xan Qacara itaət etməyə və xərac verməyə razı olduğu üçün Şirvan hakimi olaraq qaldı. Əliqulu xan isə Şirvanda qayda-qanun yaratdıqdan sonra geri qayıdaraq, qardaşının ordusuna birləşdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## RZA XAN QACAR

Ağa Məhəmməd şah Qacarın yaxın silahdaşlarından biri, onun bir çox yürüşlərinin iştirakçısı olmuş Rza xan Qacar Dəvəlu Məhəmmədhəsən xan Qacarın qaynı, deməli, birinci Qacar şahının dayısı idi. Məhəmmədhəsən xan Qacar öldürüldükdən sonra Ağa Məhəmməd xan Şirazda Kərim xan Zəndin əsiri olan zaman Rza xan onun həmsöhbəti olmuş, həmişə onun elmi məclislərində iştirak etmişdir. (71, c. 2, s. 11).

Fransız müəllifi Jan Gevr "Xacə Şah" tarixi romanının 1-ci çildində Ağa Məhəmməh şah Qacarın həyat və fəaliyyətindən bəhs edərək yazır: "Kərim xan Zənd xəstələnərək öldükdən sonra Ağa Məhəmməd xan Qacar Şirazdan çıxmamışdan qabaq öz qohumlarına tapşırdı ki, fürsət varkən şəhərdən çıxıb, Şah Mirəli ibn Həmzə məhəlləsində ona qoşulsunlar. Həmin məhəllədə Ağa Məhəmməd xanın alim dostlarından olan Rza xan Qacar adlı bir kişi var idi. Qacar xanı bəzən onun qonağı olardı". (37, s. 163). Şübhəsiz ki, romanda tarixi şəxsiyyətlər, faktlar, o cümlədən Rza xan bədiiləşmiş surət olaraq verilmişdir.

Rza xan bir sıra qacar dəvəlulardan fərqli olaraq həmişə Ağa Məhəmməd xanla həmrah, həmfikir və

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

həmsöhbət olmuş, onun əmrlərini yerinə yetirmişdir. Kərim xan Zənd vəfat etdikdən sonra (1779) Ağa Məhəmməd xan gizlicə Tehrana qaçarkən, Rza xan da onun yol yoldaşlarından biri oldu. O, özünə qarşı çıxan müxalif qardaşlarını məğlub edərək, hakimiyyəti ələ aldıqdan sonra Rza xanı Amil və Larican hökümətlərinə təyin etmişdi. Rza xan onun ordusunun ən etibarlı, etimadlı sərkərdələrindən olmuşdur. O, sonra Məkkəyə getmiş və Hacı Rza xan kimi tanınmağa başlamışdır.

Baba xan (Fətəli Şah H.T) 1204-cü ildə (1790) Ağa Məhəmməd xan tərəfindən Qəzvin, Zəncan və Azərbaycanın digər hüdudlarında nizam-intizam yaratmaq üçün göndərildiyi zaman Hacı Rza xan da 5 min atlı dəstəsinə komandirlik edərək onunla birlikdə yola düşmüşdü. 1205-ci ildə (1791) Ağa Məhəmməd xanın qardaşı və Hacı Rza xanın bacısı oğlu Murtuzaqulu xan qardaşının qorxusundan, onun əlinə keçməmək üçün Qafqazda yaşayırdı. O, hünərli adam kimi tanınmış Mustafa xan Talışla birləşərək Gilana gəldi və oranı işğal etdi. Ağa Məhəmməd xan dayısı Hacı Rza xanın sərkərdəliyi ilə olan ordunu Murtuzaqulu xanın üstünə, Gilana göndərdi. Ağa Məhəmməd xan yeri gəlmişkən yenə siyasət işlətdi və hər iki tərəfi yumşaltmaq məqsədilə Murtuzaqulu xanın anasını və qohumlarından bir neçə nəfəri də qoşunla birlikdə yola saldı. Ordu Rəşt ərazisinə yetişdi və iki tərəf arasında döyüş başladı. Bu döyüş çox ağır keçdi. Gecə hücum edən Şah Pələng Talış adlı sərkərdə böyük uğur qazandı. O, Murtuzaqulu xanın ordusuna başçılıq edərək Ağa Məhəmməd xan Qacarın bütün sərkərdələrini əsir aldı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Beləliklə, başsız qalan ordu dağıldı, əsir düşdü, öldürüldü.

Hacı Rza xan əsir düşdükdən sonra çox əziyyətlərə məruz qaldı. Murtuzaqulu xan başqa əsir komandirləri azad etsə də, dayısi Hacı Rzanı, anasını və digər qohumlarını saxladı. Onlar yalnız Murtuzaqulu xan yenidən məğlub olaraq, Rusiyaya getdikdən sonra Tehrana qayıda bilmişdilər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ RƏZİ TƏBRİZİ

Qacarlar hakimiyyətinin ilk dövrlərində fəaliyyət göstərən tanınmış katib, xəttat və ədib Mirzə Rəzi, yaxud Mirzə Məhəmmədrəzi Təbrizi sufi təriqətinə bağlı ailələrdən idi. Lakin bu etiqad onun və atasının dövlət işlərində yüksək vəzifələrə çatmasına heç də mane olmamışdır. Belə ki, Mirzə Rəzinin atası Mirzə Şəfi Surxabi Təbrizi Nadir Şah zamanında Azərbaycanda vəzir və maliyyə işlərinə baxan məsul şəxs olmuşdur. Mirzə Rəzi 1745-ci ildə anadan olmuşdur. Atası vəfat etdikdən sonra əvvəlcə Kərim xan Zəndin maliyyə işlərinə baxan katibi olmuş, ondan sonra, yəni Ağa Məhəmməd şah Qacarın dövründə də həmin vəzifədə fəaliyyət göstərmişdir. Mirzə Rəzi dövlətin maliyyə işlərini yerinə yetirməklə bərabər, xoş xəttə malik olduğundan şahın verdiyi hökm, fərman və başqa rəsmi sənədləri, risalə və məktubları da yazırdı. Bunlar ərəb, fars, türk və cığatay dillərində qələmə alınmışdır. O, Fətəli Şah hakimiyyətinin ilk illərində artıq məşhur idi, sarayda hörmət sahibi idi. Şahın sərəncamı ilə əvvəlki işlərindən əlavə diplomatik sənədlər tərtibi işinə, dəftərxana rəisi vəzifəsinə təyin olunmuşdu. Tarixçi Nadir Mirzə Bədiüzzaman özünün "Tarix və coğrafiyi-darüssəltəneyi-Təbriz–be zəmimeyi-şəhri-hali-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bozorqon" əsərində yazır ki, Mirzə Rəzi hətta salam verdiyi zaman onun kəmərindən almas xəncəri və kağız lülə asılmış olardı. (91, s. 26).

O zamanlar Mirzə Rəziyə məşhur tarixçilərdən Mirzə Əbdülkərim və Əbdürrəzzaq Dünbüli ilə birlikdə İran tarixini yazmaq tapşırılmışdi. Söhbət birgə əməyin məhsulu və əslində müəllifi Mirzə Rəzi olan "Ziynət-üt-təvarix" əsərindən gedir. Fətəli Şah Qacarın göstərişi ilə yazılmış əsərdə Kəyyumərsdən Fətəli Şaha qədərki tarixi dövrdən bəhs olunur. Qeyd etmək lazımdır ki, bu kitab Fətəli Şah Qacar tərəfindən bəyənilərək, yüksək qiymətləndirilmişdir. Mirzə Rəzi 1805-ci ildə Fransız dilində yazılmış Fransa-Avstriya və Rusiya müharibələrindən bəhs edən kitabın türkcəyə tərcümə edilmiş variantını fars dilinə çevirmişdir. Bunlardan əlavə o, "Eşq və ruh", "Hosn və del" risalələrini xoş xətlə yazmışdır. Mirzə Rəzinin məşhur yazılarından biri də Fətəli Şahın I Napoleona yazdığı geniş məktubudur. Məktubun tam mətni Fərhad Mirzənin "Zənbil" kitabında verilmişdir. (85, s. 27-31).

Mirzə Rəzi "Bəndə" təxəllüsü ilə şeirlər yazmışdır. Bu şeirlər Azərbaycan, ərəb və fars dillərindədir. Rzaqulu xan Hidayət "Məcməül-füsəha"da onun 2 qəsidəsini dərc etdirmişdir. Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan cünglərdə də onun şeirləri vardır.

Mirzə Rəzi 1808-ci ildə, 65 yaşında Tehranda ciyər xəstəliyindən vəfat etmiş, Həcəfdə dəfn olunmuşdur. Azərbaycan şeyxlərinin başçısı Hacı Mirzə Şəfi Siqqətülisiam Mirzə Rəzinin əmisi oğludur. Nəvəsi

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mirzə Rəzi bir çox elmlərdə, xüsusilə inşa və xəttatlıqda öz əsrinin yeganə adamı olmuşdur.

## SÜLEYMAN XAN QACARQOVANLU

XVIII əsrdə İranda Ağa Məhəmməd şah Qacar hakimiyyətinin möhkəmlənməsində və bunun üçün böyük uğurlar qazanılmasında şahın "xalaoğlu" müraciət etdiyi Süleyman xan Qacarqovanlu Qacarlar nəslinin böyük əmirlərindən olmuşdur. (71, c. 2, s. 118).

Kərim xan Zənd 1176-ci ildə (1762/63) Mazandaran və Əstərabadı zəbt etdikdən sonra Ağa Məhəmməd xanı və qardaşı Hüseyinqulu xanı Şiraza köçürdü, öz nəzarəti altında saxladı.

Ağa Məhəmməd xanın dayısıda (Süleyman xanın atası) Şiraza aparılanlar arasında idi. Süleyman xan 1769-cu ildə Şirazda anadan olmuşdur.

Məlum olduğu kimi Ağa Məhəmməd xan həmişə Kərim xan Zəndin işlərindən onun arvadı və eyni zamanda Ağa Məhəmməd xanın bibisi olan Xədicə bəyim vasitəsilə xəbər tutmuşdur. Kərim xan 1779-cu ildə Şirazda vəfat etdi. Qacarlar ailəsi Mazandarana və Gilana qaçmaq istədikdə onların bəziləri yolda öldürüldülər, bəzisi isə qaçmağa müvəffəq oldu. Süleyman xan 10 yaşlı uşaq idi, onu öldürmədilər. O, 1782-ci ildə Mazandaranda idi. Süleyman xan Ağa Məhəmməd xan və Fətəli Şah hakimiyyəti dövründə tanınmış hərbçi, qabaqcıl əmirlərdən sayılmış, çox çətin

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

döyüşlərdə iştirak etmişdir. Bəxtiyari tayfası 1786-cı ildə Ağa Məhəmməd xan əleyhinə qiyam qaldıran zaman 17 yaşlı Süleyman xan ordu komandiri təyin edilmiş, döyüşə göndərilmişdi. Həmin il Gilan hakimi Hidayətulla xan öldürüldükdə Süleyman xan o vilayətə hakim təyin edildi. Ağa Məhəmməd xan Qacarın 1783-1787-ci illərdə Rusiyaya sığınmış qardaşı Murtuzaqulu xan Gilanı tutmaq istədikdə, Süleyman xanın güclü müqavimətinə rast gələrək geri qayıtdı. Süleyman xan bibisi oğlu Ağa Məhəmməd xanın məsləhət və tövsiyələri ilə Gilana dəfələrlə ordu yeridən Murtuzaqulu xana və Talış xanı Mustafa xana qalib gəlmişdir.

Ağa Məhəmməd xan Süleyman xana tam arxayın idi və 1790-cı ildə ona Etizadüddövlə (dövlətin dayağı) ləqəbini verdi və həmin il özü Azərbaycana yola düşərkən, Süleyman xanı 10 min nəfərlik ordu ilə talış tayfalarının zəbt etdikləri yerləri qaytarmaq üçün Zəncandan oraya göndərdi. Süleyman xan bu səfəri uğurla başa vurduqdan sonra Ağa Məhəmməd xan onu Ərəsbarana göndərdi və o, Əhəri tutdu. Azərbaycanda qayda-qanun yaradılmasında, əmir və xanların mərkəzi dövlətə itaət etməyə razı salınmasında Süleyman xanın böyük rolu oldu. Ağa Məhəmməd şah onu 1793-cü ildə Azərbaycanın general-qubernatoru təyin etdi. (71, c. 2, s. 120).

Ağa Məhəmməd xan Azərbaycan xanlıqlarını öz hakimiyyəti altına almaq üçün Qarabağa ordu yeridən zaman Araz üzərindıki sındırılmaş Xüdafərin

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

körpüsünün yenidən düzəldilməsini və körpüyə nəzarət işini Süleyman xana tapşırmışdı.

Qacar şahı Şuşada qətlə yetirildiyi zaman Süleyman xan Araz çayının İran tərəfində saxlanılmış ordu hissələri ilə birlikdə idi. Faciədən xəbər tutduqda onun yanında olan şahzadələrdən Abbas mirzəni, Məhəmmədqulu mirzəni və Hüseynəli mirzəni Fətəli Şahın qardaşı Hüseynqulu xanla birlikdə Tehrana gətirməsi onun böyük xidmətlərindən idi. Süleyman xan Tehrana gəldikdən sonra Fətəli Şah onu yenidən Azərbaycan general-qubernatoru təyin etdi. Həmin il, yəni 1797-ci ildə Fətəli Şah özü də Azərbaycana gəlmiş, Süleyman xanın burada olan problemləri necə nizama salması ilə maraqlanmışdı. Süleyman xan çox ağıllı və tədbirli olduğu üçün, Fətəli Şah öz oğlu Abbas mirzəni 11 yaşında ikən vəliəhd və Azərbaycan hakimi təyin edib Təbrizə yola salarkən, Süleyman xanı onun atabəyisi[15] təyin etmişdi.

1803-cü ildə general Sisianovun komandanlığı altında Gəncəni işğal etmiş Rus ordusu şəhərdə 3 saat əhalini qırmaqla öz pis əməlləri ilə tarixi yaddaşlarda qaldı. Gəncə hakimi Cavad xan Ziyadlu Qacar öz oğlu ilə birilkdə bu döyüşdə mərdliklə həlak oldu. Fətəli Şah 16 yaşlı oğlu Abbas mirzə Naibüssəltənəni və Süleyman xanı mötəbər sərkərdələrlə birlikdə 30000 atlı və piyada qoşunla Tehrandan Azərbaycana yola saldı ki, onlar rusların hücumlarının qarşısını alsınlar. Lakin bu mümkün olmadı.

---

[15] Atabəy-səlcuq sultanları vəliəhdlərinin tərbiyəçisinə deyilirdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Süleyman xan Etizadüddövlə 1220-ci ildə (1805) vəfat etmişdir. Onun nəslindən olanlar "Əmir Süleyman" soyadı ilə tanınırlar.

## İBRAHİMXƏLİL XAN CAVANŞİR

XVIII əsr Qacarlar dövrı azərbaycanlı siyasi xadimlərin ictimai-siyasi fəaliyyətini öyrənirkən Ağa Məhəmməd şah Qacarın hakimiyyətini tanımaq istəməyən və bu səbəbdən ona tabe olmayan, ona müqavimət göstərərək məhv olan Qarabağ xanı İbrahimxəlil xandan qısa da olsa, bəhs etmək zəruridir. İbrahimxəlil xan Cavanşir Qarabağ hakimi Pənah xanın oğludur, təxminən 1726-cı ildə anadan olmuş və 1806-cı ildə Şuşa qalasının xaricində öldürülmüşdür. Ağa Məhəmməd şah 1794- cü ildə Kirmandan qayıtdıqdan və Lütfəli xan Zəndi öldürməklə zəndilərin hökmranlığına son qoyduqdan sonra Azərbaycanın bütün hakimlərini, o cümlədən Qarabağ hakimi İbrahimxəlil xanı Tehrana, öz yanına çağırdı. Bütün əmirlər gəlsələr də, İbrahimxəlil xan gəlmədi və yəqin ki, qorxdu. Bu qorxuya da səbəb o idi ki, hələ 1793-cü ildə Tehrana çağırılan zaman müxtəlif bəhanələr gətirərək oraya getməmiş, əmisi oğlu Əbdülsəmədi öz nümayəndəsi kimi çoxlu hədiyyə və bəxşişlərlə Ağa Məhəmməd xan sarayına göndərmişdi. Ağa Məhəmməd xan Kirmanı tutmaq üçün yola düşərkən bu səfərdə Əbdülsəməd də var idi. Lakin sonra

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

o, Kirmandan qaçmış və Ağa Məhəmməd xanın əmri ilə həbs edilərək öldürülmüşdür. Qeyd etmək lazımdır ki, bəzi tarixçilər Əbdülsəməd xanı İbrahimxəlil xanın qardaşı oğlu, bəzisi isə əmisi oğlu kimi təqdim edirlər. (71, c. 1, s. 10).

İbrahimxəlil xanın qorxuya düşməsinin səbəbi bir tərəfdən əmisi oğlunun öldürülməsi idisə, digər tərəfdən Ağa Məhəmməd xanın Qarabağa və Qafqaza qoşun çəkməsi idi.

Ağa Məhəmməd xan 1795-ci ildə Qafqazın ona tabe olmaq istəməyən xan və hakimlərini cəzalandırmaq üçün hazırlaşdı. Bu vaxt Qafqazda çox nüfuzlu olan İbrahimxəlil xan Cavanşir otuzikilər qəbiləsinin başçısı, Qarabağ hakimi idi. Onun nəsildən-nəslə Qarabağ vilayətinin hakimiyyət taxtında tarixi suveren hüququnu təsdiq edən fərman I Aleksandr (1777-1825) tərəfindən 10 sentyabr 1806-cı il tarixində verilmişdir. İbrahimxəlil xanın atası, Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşir Nadir Şahın ordusunda xidmət etmiş, Adil şah (Nadir Şahın qardaşı oğlu Əliqulu xan-H.T.) tərəfindən Qarabağ hakimi kimi tanınmış, xüsusi fərmanla onu xan titulu ilə təltif etmişdi. I Aleksandrın fərmanında deyilir ki, Əlahəzrət yüksək rütbəli vərəsə general-mayor Mehdiqulu ağanı mərhum atasının (İbrahimxəlil xanın) yerində bərqərar edib, Qarabağ vilayətinin xanlıq taxtında oturması ilə əlaqədar fərmanı təsdiq etdi. Onun atası, mərhum İbrahim xana verilmiş bütün xoş vədələr və şərtlərin hamısının təmini eynilə qüvvədə saxlanılsın. (Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, əmr 58/176, I bölmə) İbrahim xan heç vəchlə Ağa

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məhəmməd xan sarayına tabe olmaq istəmirdi və hər dəfə oraya getməmək üçün bəhanələr tapırdı. Ağa Məhəmməd xan bundan çox qəzəblənirdi və nəhayət həmin il ilk dəfə Qarabağa qoşun çəkdi. O, Qala mühasirədə olarkən İbrahimxəlil xana bir məktub yazaraq, ona itaət etməyi təklif etmişdir. Məktubda aşağıdakı beyt yazılmışdır:

Ze məncəniqe-fələk sənge-fitne mubarəd,
To əbləhane gerizi, dər abgine hesar.
(Fələyin məncəniqindən fitnə daşı yağır,
Sən axmaqcasına şişə hasarda gizlənmisən)

İbrahimxəlil xan da Ağa Məhəmməd xana cavab verərək, bu şeiri yazmış, qasid vasitəsilə ona göndərmişdi:

Gər negəhdare mən  an əst ke, mən midanəm,
Şişeira dər bəğəle səng negəh midarəd.
(Məni qoruyan odur ki, mən bilirəm
Şişəni daşlar öz qoynunda qoruyur.)

Məktub mübadiləsindən sonra Şuşa qalasını ala bilməyən Ağa Məhəmməd xan İbrahimxəlil xan Cavanşirə şifahi sülh danışığı təklif etdi. O da qaladan kənarda yaşayan qardaşı oğlanları Məhəmməd bəy və Əsəd bəy Ağa Məhəmməd xana əsir düşdükləri üçün, sülh danışığına razı oldu. Onlar belə qərara gəldilər ki, Qarabağ xanı bundan sonra İran şahına itaət edəcək və lazım gələrsə, İbrahimxəlil xan özü şəxsən onun

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

hüzurunda olacaq. Ağa Məhəmməd xan da bundan razı qaldı və öz ordusu ilə Gürcüstanı tutmaq üçün yola düşdü. O, Tiflisi tutdu, Gürcüstanda qələbə qazandı. Saysız-hesabsız qətl və qarətdən sonra əsasən qadın və uşaqlardan ibarət 15 min nəfər əsir götürüb, özüilə İrana apardı. Mehdi Bamdad yazır ki, Gürcüstanda qətl və qarət, insanların əsir alınaraq aparılması Ağa Məhəmməd xana xoşa gəlməz, kobud hərəkətlər sahibi adını qazandırdı və bu hərəkət Qafqaz əhalisinin İrana xoş münasibət bəsləyən təbəqələrindən çoxunun narazılığına səbəb olmuşdur. Həmin əməllər və səhv siyasət Qafqaz xanlarının, böyüklərinin Rusiyaya meyl etməsinə səbəb oldu. Xanların Rusiya ilə sazişlər bağlaması çarizmin tədricən bütün Qafqaza yiyələnməsi ilə nəticələndi. (71, c. 1, s. 11).

Lakin tarixi mənbələr bizə bunu deməyə əsas verir ki, Ağa Məhəmməd şah Qacar talışları ona düşmən olan qardaşı Murtuzaqulu xanı uzun illər himayə etdikləri üçün cəzalandırdı, Gürcüstan əhalisi II İraklinin ikiüzlü siyasətinin qurbanı olmuşdur və nəhayət Kirman əhalisi isə şahın xacəliyi ilə əlaqədar onun mənliyini təhqir etdikləri üçün qırğına məruz qaldılar və s. Bir sözlə, onu qəddar adlandıranlar buna səbəb olan amilləri bilmirdilər, ya da bilmək istəmirdilər. Bu barədə yuxarıda deyilsə də, təkrar etməli olduq.

Ağa Məhəmməd şahın 1797-ci ildə, ikinci dəfə Qarabağa yürüşünün səbəbi belə izah olunur: O, Xorasanda olarkən əfşarlar sülaləsinin hakimiyyətinə son qoydu və Xorasanı tamamilə özünə tabe etdirdi. Ağa Məhəmməd şah İran sərhədlərini Səfərvilər və Nadir Şah

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əfşar dövründə olan hüdudlarda bərpa etməyi qərara almışdı. O, o dövrdə mövcud olan vahid dili, vahid irqi də təmin edərək, hərc-mərcliyə son qoymaq istəyirdi. Lakin Rusiyanın İngiltərə ilə apardığı danışıqların nəticəsində rus ordusunun qəflətən Qafqaza və Azərbaycan ərazisinə daxil olması, həmçinin həmin torpaqların xanlarının Rusiya ilə sazişi Ağa Məhəmməd şahın planlarını pozdu, fikirlərini alt-üst elədi. O, dərhal Xorasandan yola düşdü ki, Rusiya dövlətinin həmin əraziyə təcavüzünü dəf etsin. Ağa Məhəmməd şah 1797-ci ilin mayında (1211, zilqədə) özünün qoşun böyükləri və sərkərdələri ilə bərabər Azərbaycana, oradan da Qarabağa gəldi. O burada özünün qeyri-adi, dəmir iradəsini nümayiş etdirdi və Şuşaya daxil oldu. Ibrahimxəlil xan isə artıq qaladan çıxmış, Dağıstana getmişdi. Ağa Məhəmməd xan Şuşada 5 gün qaldı. O, 1211-ci ilin zilhiccə ayının 17-də qalanı tutmuş, 5 gündən sonra 21-də gecə ikən öldürülmüşdür. İbrahimxəlil xan Ağa Məhəmməd şaha üz vermiş bədbəxt hadisədən xəbər tutduqda öz iqamətgahına, Şuşaya qayıtdı və tapşırdı ki, şahın cənazəsini əmanət olaraq orada dəfn etsinlər, ta ki, aparmaq üçün İran şahı tərəfindən adamlar göndərilsin. Burada məqsəd o idi ki, Ağa Məhəhhəd şahın vəliəhdi Fətəli Şahla daimi sülh və barışıq bərqərar olsun. Sonra İbrahimxəlil xan əlaqələri daha da möhkəmlətmək üçün öz qızı Ağabəyimi Fətəli Şaha ərə verdi.

Rus qoşunları komandanı Sisianov 1805-ci ildə İbrahimxəlil xanın razılığı ilə Şuşaya daxil oldu. (Bu Qarabağ xanının böyük səhvi idi) O, Şuşanı İran

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qoşunlarının hücumundan qorumaq bəhanəsi ilə orada ordu qərargahı qurdu, özü isə Gəncəyə qayıtdı. 1806-cı ildə ermənilərin havadarı (56, s. 321). Sisianov Bakıda öldürükdükdən sonra İbrahimxəlil xanın vasitəçiliyi ilə Bakı hakimi təyin edilmiş əmisi oğlu Hüseynqulu xan, İbrahimxəlil xan, şəkili Səlim xan və başqa xanlar ruslardan xilas olduqlarını, onlara hücum edən olmayacağını zənn etdilər. Yenə əvvəlki kimi İran dövlətinə yaxınlaşdılar. İbrahimxəlil xan ruslarla saziş bağladığına peşiman olmuşdu və İran dövlətinə müraciət edərək, Şuşanın rus qoşunlarından təmizlənməsi üçün kömək istədi. Fətəli Şah 1806-cı ildə mötəbər sərkələrdən bir neçə nəfərini, o cümlədən Hüseyn xan sərdar Qacar Qəzvinini, İsmayıl xan Damğanini və Xəmsə hakimi Əmənulla xan Əfşarı kömək üçün Qarabağa göndərdi. Onlardan bir qədər əvvəl Şahsevən elinin böyüklərindən olan Fərəculla xan və İbrahimxəlil xanın oğlu Əbülfəth xan da köməyə tələsdilər. Lakin artıq gec idi. Onlar Şuşaya çatmazdan əvvəl İbrahimxəlil xanın nəvəsi, Həsən xanın oğlu Cəfərqulu Xan ruslara kömək edəcəyi təqdirdə Qarabağın hakimi olacağını düşünərək, gecə 300 nəfər rus əsgəri ilə basqın edib, İbrahimxəlil xanı 31 nəfər ailə üzvləri və yaxınları ilə birlikdə qətlə yetirdilər. Tarixda analoqu olmayan bir xəta baş verdi. Ibrahimxəlil xan öldürüldükdən sonra ruslar Cəfərqulu Xanın əvəzinə İbrahimxəlil xanın oğlu Mehdiqulu xanı (Xurşidbanu Natəvanın atası-H.T) formal olaraq Qarabağ hakimi təyin etdilər. Şuşa qalasında istehkam yaradan ruslar çoxdan arzu etdikləri və nail olduqları Qarabağın sərhədlərini mühafizə etdilər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Rusların təzyiq və zorakılıqlarından bezən Mehdiqulu xan bir neçə ildən sonra, yəni, 1820-ci ildə Tehrana gələrək, İran dövlətinə pənah apardığını bildirdi, o, II Rusiya-İran müharibəsində (1826-1828) İran ordusuna daxil olaraq, Şuşa cəbhəsində ruslara qarşı vuruşdu. Mehdiqulu xan Abbas mirzə Naibüssəltənənin əmri ilə Gəncənin süqutundan sonra oraya göndərilmişdi ki, Qarabağ əhalisinin Qaracadağa (Ərəsbarana) köçürülməsi ilə məşğul olsun.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## FƏTƏLİ ŞAH QACAR (1766-1834)

Fətəli Şah Qacarın hakimiyyətə gəlməsi ilə İran tarixində yeni bir dövr başlanmışdır.

Qacarlar sülaləsinin banisi Ağa Məhəmməd şah öz qardaşı oğlu Fətəlini (Baba xanı) (1766-1834) vəliəhd təyin etməklə ona olan böyük məhəbbətini ifadə etmiş oldu. Cahanbani ləqəbli Baba xan, Fətəli xanın, yəni ulu babasının adını daşıdığı üçün Ağa Məhəmməd xan Qacar onu belə çağırırdı. Məlum olduğu kimi Fətəli xan Qovanlu, yaxud Qoyunlu Şahqulu xanın oğlu olub, Qacarlar sülaləsinin cəddidir. Qeyd etmək lazımdır ki, Baba xanın atası Cahansuz 1770-ci ildə Kərim xan Zənd tərəfindən Damğan hakimi təyin edilmişdi və Fətəli Şah uşaqlığını orada keçirmişdir. Sonralar, yəni 1798-ci ildə Baba xan Fətəli Şah adı ilə İran səltənətinə hökmdar elan olunduğu zaman həmin doğulub yaşadığı yeri abadlaşdırıb, Mövludxana adlandırmışdır. Qacarların Damğanla sıx əlaqəsi bu cəhətdəndir və oraya təyin olunan hakimlər əsasən qacarlardan olurdu. Baba xanın atası Gürganda öldürüldükdən sonra 1774-1779-cu illərdə anası və əmisi Ağa Məhəmməd xan Qacarla birlikdə Şirazda yaşamışdı. 1779-cu ildə əmisi ilə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Tehrana gəlmiş, sonralar Mazandaran və Gürganda sakin olmuşdur. O, əmisi Ağa Məhəmməd şahın ordusunun tərkibində onun bütün yürüşlərində iştirak etmişdir. M. Bamdad yazır: "O, əmisindən tərbiyə alsa da, bir o qədər də istedad və qabiliyyət sahibi deyildi. Ağa Məhəmməd şahın yaxın qohumları arasında qabil insanlar, o cümlədən qardaşı Cəfərqulu Xan kimi adlı-sanlı, cəsur sərkərdələr olsa da, şah qardaşı oğluna o qədər yaxın idi ki, Mirzə Sadıq Mərvəzinin "Tarixi-cahanara" kitabında deyildiyi kimi, 1789-cu ildə Baba xanı özünün vəliəhdi təyin etmişdi". (71, c. 3, s. 62). Hətta Baba xanın təhlükəsiz, asudə hakimiyyət sürməsinin xatirinə öz qardaşı Cəfərqulu Xanı 1790-ci ilin əvvəllərində qətlə yetirmişdi. Ağa Məhəmməd şah, "Tarixi-Cahanara" kitabında deyildiyi kimi, 1789-cu ildə Baba xanı özünün vəliəhdi təyin etmişdir. O, öz taxt-tacının varisinə vəsiyyət edərək belə demişdi:

"Bəylərbəyi Mirzə Məhəmməd xan Dəvəlu-Qacarın qızını taxtın səndən sonrakı varisi olacaq Abbas mirzəyə alarsan. Onların oğluna mənim adımı verib, Məhəmməd Mirzə çağırarsız. Bax, o, öz qanında iki böyük Qacar sülaləsinin qanını daşıyacaq. Mənim dayım Süleyman xan dövlətimiz üçün çox işlər görüb. Öz qızını onun oğluna verərsən. Onların nigahından doğulan qızı isə Məhəmməd Mirzəyə alarsan. Beləliklə Məhəmməd Mirzədən doğulan uşaqlar hər iki tərəfdən sənin nəvələrin olar". Bu vəsiyyəti etməklə qacarların Qovanlu və Dəvəlu qollarını birləşdirmək arzusunda olan Ağa Məhəmməd şah elə bir şəhzadə istəyirdi ki, onun atası Govanlu, anası Dovalu qacarlarından olsun. Buna görə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

də Fətəli Şah sonralar gürcü qızından doğulmuş böyük oğlunu yox, Abbas mirzəni varis təyin etmişdi. Abbas mirzə isə atasından bir il əvvəl dünyasını dəyişdikdə, oğlu Məhəmməd Mirzə vəliəhd təyin edildi. (15, s. 267-268).

Baba xanın vəliəhd seçilməsi ilini tarixçilərdən bəzisi 1794, bəzisi 1796, bəzisi isə 1789-cu il kimi göstərirlər. Mehdi Bamdad sonuncu tarixin düz olduğunu bildirmişdir. Bunu Cəfərqulu Xanın bir il sonra, yəni 1790-cı ildə qətlə yetirildiyi tarix də təsdiq edir. (71, c. 3, s. 63). Baba xan ilk dəfə 1782-ci ildə 16 yaşında o dövrün böyüklərindən olan Qadir xan Ərəb Amiri Bəstaminin oğlu Cəfər xanın qızı ilə evlənmiş, fərmanfərma Hüseynəli Mirzə və Həsənəli mirzə Şücaüssəltənə dünyaya gəlmişlər. 1783-cü ildə, 17 yanvarda Fətəli xan Dəvəlunun qızını almış, onunla izdivacdan Abbas mirzə Naibüssəltənə dünyaya gəlmişdir. (Özünə vəliəhd olaraq məhz Abbas mirzəni təyin etməsi, yuxarıda deyildiyi kimi, onun Qacarlar nəslindən olmasıdır.) Baba xan 38 ildən artıq bir müddət hakimiyyəti dövründə min qadın seçmiş və 1782-ci ildə, yəni 16 yaşında övladı olmuşdur. Hər il 5, yaxud 6 qadından övladı olmuşdur. Lord Kenzon "İran və mövzuyi-İran" kitabının I cildinin 410-cu səhifəsində Fətəli Şahın arvadlarından bəhs edərək yazır:

"Fətəli Şahın hərəmxanası çox dəbdəbəli, təmtəraqlı olmuşdur və Şərq tarixində şöhrət qazanmışdir".

Polkovnik Droyvil Fransəvi 1813-cü ildə İrana gəlmiş, "Müsafirət dər İran" kitabında Fətəli Şahın 700

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qadından 64 oğlu və 121 qızı olduğunu göstərmişdir. Polkovnik K. H. Stuart Fətəli Şahın vəfatından bir il sonra İrana gəlmiş, arvadların sayının 1000 nəfər, övladlarının isə 105 nəfər olduğunu göstərmişdir. Xanım Şeyl Fətəli Şahın 80 oğlu, qizlarının isə saysız-hesabsız olduğunu bildirir. Binninq yazır: "Fətəli Şah 1834-cü ildə vəfat edən zaman onun 170 qızı, 130 oğlu, 5000 nəvəsi, 800 arvadı yadigar qaldı". (71, c. 3, s. 62).

Ser Henri Ravlinson isə Fətəli Şahın 3000 nəvəsinin olduğunu göstərir.

Ağa Məhəmməd xan 1794-cü ildə Kirman şəhərini tutduqdan və Lütfəli xanı zərərsizləşdirdikdən sonra Şiraza gəlmiş və qardaşı oğlu Fətəliyə Cahanbani ləqəbini (Lütfəli xan Zəndin ləqəbi idi-H.T.) vermişdi. Sonra onu Fars-Kirman və Yəzd valisi təyin etdi.

Ağa Məhəmməd şah 1797-ci ildə rusların təcavüzünün qarşısını almaq və Qafqazın əmir və xanlarını mərkəzi hökümətə tabe etdirmək üçün Azərbaycana yola düşməzdən əvvəl Cahanbanini Şirazdan Tehrana çağıraraq tapşırıqlar verdi və onu yenidən Şiraza göndərdi. Baba xan əmisinin Şuşada qətlə yetirilməsi xəbərinin Şirazda eşitmiş və 10 yaşlı böyük oğlunu, Məhəmmədəli mirzəni Fars hakimi təyin edərək, məhərrəm ayının axırlarında Tehrana yola düşmüşdür. Səfər ayını 20-də Tehrana yetişdikdə bu zaman Ağa Məhəmməd şah Qacarın yerində əyləşmək üçün əsasən iki nəfər- Ağa Məhəmməd şahın doğma qardaşı Əliqulu xan və onun mötəbər sərkərdələrindən olan Sadıq xan Şəqaqi mübarizə aparırdı. Əliqulu xan sədr-əzəm Hacı İbrahim xanın göstərişi ilə çağırılaraq

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

kor edildi. Sadıq xan Şəqaqi isə Fətəli Şahın yanında qullarağasıbaşı (rəisi-qullaman) oldu, sonralar isə İrəvan hakimi olmuş Sarı Aslanın qardaşı Hüseyn xan Qacar Qəzvini tərəfindən döyüşdə məğlub edildi və qaçdı. Qacarlar tarixini yazanlar göstərirlər ki, Hüseyn xanın məğlub etdiyi qoşunun əsgərləri arasında Ağa Məhəmməd xanı qətlə yetirənlər də olmuşdur. Onlar Fətəli Şahın əmri ilə əziyyətlə öldürüldülər. Fətəli Şah 1212-ci ilin şəval ayında (1798, mart) hakimiyyət taxtına əyləşmişdir. (48, s. 3). Eduard Braun "Tarixi-ədəbiyyatı-İran" əsərinin 4-cü cildində Fətəli Şah haqqında yazır: "Ağa Məhəmməd şah Qacardan sonra onun qardaşı oğlu, saysız-hesabsız arvadı və övladları olan Fətəli Şah padşah oldu. O, qayğısız, simic, həddən ziyadə gözəllik vurğunu, uzunsaqqal bir şəxsdir. Lakin təbiətən zalım deyil. Deyirlər ki, günahkarı cəzalandırmalı olduqda, bədbəxt məhkuma baxmamaq üçün üzünü yana çevirirmiş". (71, c. 3, s. 65).

Iranda nizami ordu bu şahın zamanında təşkil olunmağa başladı. Bu barədə yuxarıda qeyd olunmuşdur. Fətəli Şah 1834-cü ilin oktyabrında 66 yaşında İsfahanın Həftdəst imarətində vəfat etmişdir. O, Qumda əvvəlcədən özü üçün tikdirdiyi məqbərədə torpağa tapşırıldı. Fətəli Şah Qum şəhərinin abadlaşdırılmasına xüsusi diqqət verirdi. Həzrət Məsumə movzeleyinin günbəzini çiy kərpiclə tikdirib, qızıl suyu çəkdirmiş, burada bir xəstəxana, mədrəsə və bir karvansara tikdirmişdi. Tehranın şimalında Qəsri-Qacar adlanan yaylaq imarət də Fətəli Şah yadigarıdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Fətəli Şah Qacar incə təbə malik şeir həvəskarı idi və “Xaqan” təxəllüsü ilə şeirlər yazırdı. Deyirlər ki, onun savadı olmadığından şeirlərini başqalarına yazdırırdı. “Divanı” çap olunmuşdur.

Fətəli Şah Qacarın hakimiyyətə gəlməsi ilə İran tarixində yeni bir dövr başlanmışdır. İran xarici dövlətlərlə özünün diplomatik münasibətlərini, ticarət əlaqələrini qururdu. XIX əsrin əvvəllərində Rusiya-İran münasibətlərində isə gərgin vəziyyət yaranmağa başladı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# II FƏSİL. XIX ƏSRDƏ İRANDA YAŞAMIŞ AZƏRBAYCANLI İCTİMAİ-SİYASİ XADİMLƏR

## XIX ƏSRDƏ İRANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT

XVIII əsrin sonlarında İranda hakimiyyətə gəlmiş Qacar şahları sülaləsi Ağa Məhəmməd şah Qacarla (1796-1797) başlamış, Əhməd şah Qacar (1909-1925) hakimiyyətinə qədər davam etmişdir. Bu sülalənin 130 ildən artıq bir dövrü əhatə edən fəaliyyəti XIX əsrdə ölkənin ictimai-siyasi həyatında baş vermiş bir sıra tarixi hadisələrlə əlamətdar olmuş, azərbaycanlı dövlət və ictimai xadimlər həmin hadisələrin aparıcı qüvvələri, fəal iştirakçıları və canlı şahidləri olmuşlar.

Qeyd etmək lazımdır ki, azərbaycanlılar çoxmillətli İranda say etibarilə üstünlük təşkil edən ikinci xalqdır. XIX əsrin axırı və XX əsrin əvvəllərində rus və xarici müəlliflər azərbaycanlıları türk, türk-tatar, bəzən də türk-monqol adlandırırdılar. Iri torpaq sahibləri Cənubi Azərbaycandan olub, Tehranda və İranın bir sıra şəhərlərində mühüm dövlət işlərində çalışırdılar. (13, s.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

10). Təkcə bunu qeyd etmək lazımdır ki, 1799-1906-cı illərdə İran Azərbaycanı ancaq Qacarlar tərəfindən idarə olunmuş və valilərdən beşi vəliəhd idi. Bunlar Abbas mirzə Naibüssəltənə, Məhəmməd Mirzə, Nəsrəddin mirzə, Müzəffərəddin mirzə və Məmmədəli mirzədir.

Qacar şahları sülaləsinin hakimiyyəti illərində İran ordusunda azərbaycanlılar böyük qüvvə idilər. 1848-ci ilədək İran ordusu, demək olar ki, əsasən azərbaycanlılardan təşkil olunmuşdur. Bu sahədə Fətəli Şah müəyyən işlər gördü. Onun ikinci oğlu şahzadə Abbas mirzə Naibüssəltənə ordunun Avropa üsulu ilə qurulmasına böyük maraq göstərir, bunun üçün Avropadan, xüsusən Fransadan hərbçi müəllim və mühəndislər dəvət edirdi. XIX əsrin əvvəllərində Azərbaycanda Avropa tipli nizami ordu yaranmağa başladı. Abbas mirzənin bu sahədə gördüyü işlər tarix yazanların nəzərindən qacmamış, çoxlu sayda mənbələrdə bu barədə məlumat vardır.

Sonralar Abbas mirzənin açdığı cığırla böyük islahatçı Mirzə Tağı xan Fərahani (Əmiri-Kəbir), Mirzə Hüseyn xan Müşirüddövlə (Qəzvini) və b. irəliləməyə səy etmişlər. Bu sahədə Sədr-əzəm Mirzə Tağı xan yadda qalan bir şəxsiyyət olmuşdur. O, 1848-ci ildən etibarən ordu təşkilinə səy göstərməyə başlamış, hərbi hissələrin sayı əvvəlcə 50-yə, sonra isə 79-a çatmışdi. Nizami orduya piyadadan başqa topçu hissələri də daxil edilmişdi.

Hərbi hissələr əsasən qaragözlü, əfşar, şahsevən, xələc, bayat, qacar, qaşqay və s. azərbaycanlı tayfalarından təşkil edilirdi. (41, s. 35).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hərbi hissələrin təşkilində Avropadan dəvət olunmuş mütəxəssislərin cəlb olunması işi ilə qəzvinli ictimai-siyasi xadim, Nəsrəddin Şah Qacar hakimiyyəti dövrünün Baş naziri Mirzə Hüseyn xan Müşirüddövlə də məşğul olmuşdur. Bu barədə daha ətraflı bəhs olunacaq.

Avropa dövlətləri ilə rəqabət aparan Rusiya dövləti tərəfindən Tehranda 1879-cu ildə yaradılmış və şah qvardiyası olan Kazak briqadasının tərkibində azərbaycanlılar çoxluq təşkil edirdilər və bu, iki polkdan: mühacir və yerli polklardan ibarət idi. Mühacir polku da Qafqazdan köçənlər (Rusiya-İran müharibələri nəticəsində Şimali Azərbaycanda qalanlar), yaxud vaxtilə köçənlərin xələfləri idilər. Qeyd etmək lazımdır ki, Nəsrəddin Şah mühacirlərə ehtiram göstərirdi, ona görə də həmin hissəni yalnız onlardan təşkil etməyi qərara almışdı. (41, s. 37).

Kazak briqadasının azərbaycanlı hərbçiləri İranın ictimai-siyasi həyatinda, xüsusən, məşrutə inqilabi dövründə, fəal iştirak etmişlər. Onların arasında polkovnik, general rütbəsində olan hərbçilər az deyildi.

XIX əsrdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlərin həyat və fəaliyyəti bilavasitə ölkənin tarixində baş vermiş hadisələrlə əlaqədar olduğu üçün onlardan bəhs etməzdən əvvəl həmin dövrə nəzər salmaq zəruridir.

XIX əsr İran tarixinin yeni dövrüdür. Bu tarix artıq kapitalizmin inkişaf etdiyi Avropa dövlətləri tərəfindən İranın tədricən sənaye kapitalizmi təsirinə düşməsi ilə səciyyələnir. Şərqə aparan yollar üzərində, əlverişli mövqedə yerləşən İran Fətəli Şah Qacar zamanından

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

geniş dünya bazarı axtaran Avropa dövlətlərinin daha artıq maraqlandığı, daimi, müntəzəm diplomatik əlaqələr yaratmağa cəhd etdikləri ölkə olmuşdur. Hindistan və başqa Şərq ölkələrinə yollar İrandan keçdiyi üçün İngiltərə, Fransa və Rusiya bu regionda rəqabət aparırdı.

İran XIX əsrin əvvəllərində ağır iqtisadi çətinliklərlə üz-üzə dayanmışdi. Əsrlər boyu yadellilərin işğalına məruz qalmış, müharibə meydanına çevrilmiş ölkə dağıdılmış və var-yoxdan çıxmış bir vəziyyətdə idi. Digər tərəfdən uzun müddət hakimiyyət uğrunda aparılmış ara müharibələri, daxili çəkişmələr hələ də patrialxal həyatın hökm sürdüyü İranın iqtisadi inkişafını ləngidirdi. Lakin İran XVIII əsrdə Ağa Məhəmməd şah Qacarın yenidən birləşdirdiyi torpaqların müstəqilliyini qoruyub saxlamış, müstəmləkə vəziyyətinə düşməmişdi. Bu dövrdə Avropa dövlətləri İranla yalnız ticarət əlaqələri saxlayır, onun daxili və xarici siyasətinə qarışmırdılar.

XIX əsrin ilk illərində, Fətəli Şah Qacar hakimiyyəti zamanı İran dövləti Avropa tərəfindən siyasət cərəyanına, beynəlxalq siyasət dairəsinə cəlb olunmağa başladı. Fransa Hindistana qoşun göndərmək məqsədilə əlverişli coğrafi mövqedə yerləşən İranla yaxınlaşmağa səy etdiyi zaman İngiltərə dövləti onunla bir sıra müqavilələr bağladı. Rusiya isə Zaqafqaziyada özünün işğalçı siyasətini yeritməyə can atırdı və o, İngiltərə ilə diplomatik əlaqələrə girib yaxınlaşdıqda, İran bundan böyük zərər çəkdi. Rusiya və İngiltərə İranı bölüşdürmək siyasəti yürütməyə başladı. Əsrin əvvəllərində baş vermiş I Rusiya-İran müharibəsi (1804-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1813) Gülüstan müqaviləsi ilə bitdi və Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Talış xanlıqları Rusiya tərəfindən işğal olundu. II Rusiya-İran müharibəsi (1826-1828) isə Türkmançay müqaviləsi ilə bitdikdə Naxçıvan xanlığı, Ordubad dairəsi və İrəvan xanlığı Rusiyanın hökmranlığı altına keçdi və bununla də İran şahı Zaqafqaziyada mövqeyini itirmiş oldu. Bu müharibələrdə görkəmli azərbaycanlı sərkərdələr mərdliklə vuruşdular. Müharibənin İran xalqlarının üzərinə qoyduğu 20 milyon manat borc ağırlığı ölkədə ictimai və siyasi vəziyyəti mürəkkəbləşdirdi.

XIX əsrin 50-ci illərində İranda hökümət Baş nazir (Sədri-əzəm) vasitəsilə idarə olunurdu. Sədri-Əzəm Əmiri-Kəbirin (Mirzə Tağı xan, 1848-1851) apardığı bir sıra islahatlar İranda ingilislərin təcavüzlərini məhdudlaşdırır, iri torpaq sahiblərinin fəaliyyət dairəsini azaldırdı və s. İranda ilk Darülfünun təsis etmiş (1851) bu ictimai xadimin ingilislərin və daxili irtica qüvvələrinin əli ilə qətlə yetirildiyini söyləmək də olar. Lakin həqiqətə çox yaxın olaraq "bu hadisə sarayda yeniliklə köhnəlik arasında, dövrün mütərəqqi məfkurələri ilə köhnə irticaçı məfkurələr arasında, yenicə meydana gəlməkdə olan burjua ünsürləri ilə feodal zadəganları arasında gedən ziddiyyət və mübarizə ilə əlaqələndirilməlidir". (102, s. 23). Baş Nazir Tağı xan öldürüldükdən sonra (1851) 1858-ci ildə Nəsrəddin Şah Qacarın (1831-1896) yaratdığı altı nazirlik: daxili işlər, xarici işlər, maliyyə, qoşun, ədliyyə, övqaf və təqaüd nazirlikləri fəaliyyət göstərirdi. Lakin bunlar əhalinin zəruri ehtiyaclarını ödəmirdi. Iranın inkişafına mane

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olan amillərdən biri və ən əsası xarici dövlətlərin, xüsusən, Rusiya və İngiltərənin bu ölkədə apardıqları rəqabət, müstəmləkəçilik siyasəti idisə, digər amil hökümət və saray dairələrində onların yaratdıqları çəkişmələr, fitnə-fəsad idi. Xarici kapitala qarşı çətinliklər qarşısında qalan əhali arasında narazılıqlar, üsyanlar baş verirdi. 1848-ci ilin sentyabrında Molla Məhəmmədəli Bərfruşi və Molla Hüseyn Bəşruyənin başçılığı ilə Mazandaranda başlayan Babi üsyanı XIX əsr İran tarixində dərin iz buraxmışdır. Bu üsyan kortəbii, qeyri-mütəşəkkil və vahid rəhbərliyin olmaması səbəbindən yatırıldısa da ilk anti-feodal çıxış olub, insanların bərabərliyini, azadlıq və müstəqillik arzusunu ifadə etmişdir.

Iran XIX əsrin ortalarından get-gedə Avropa dövlətlərinin sənaye malları üçün satış bazarına və xammal mənbəyinə çevrilirdi. 1889-1890-cı illərdə ingilislər Şahənşah bankını, Rusiya isə girov-borc bankını yaratmaq imtiyazını əldə etdilər və bununla da ölkənin iqtisadi durumuna hökmranlığı ələ keçirdilər. Dövlətin bu banklardan aldığı borclar onu Çar Rusiyası və İngiltərədən asılı vəziyyətə salırdı. (37, s. 12).

Xarici kapitalın buraya yol açması nəticəsində xırda sənətkarlıq iflasa uğrayırdı. Çünki Avropa malları burada 2-3 dəfə ucuz satılırdı. Bu dövrdən etibarən İranın yarımmüstəmləkə vəziyyətinə düşməsi prosesi başlamışdır.

Iranın ictimai həyatının gərgin dövründə haqsızlığa etiraz edən kiçik bir çıxış amansızlıqla yatırılırdı. Buna baxmayaraq bir sıra vətənpərvər ziyalılar əhalinin bu

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

çətinlikdən çıxması üçün yollar axtarır, bunu dövlət işlərində islahatlar aparmaqda, xalq kütlələrinin oyanaraq, siyasi mübarizəyə qoşulmasında, demokratik dövlət quruluşu yaradılmasında görürdülər. Bu prosesdə milliyyətcə azərbaycanlı ziyalılar fəal iştirak edirdilər. Mirzə Yusif Təbrizi, "Əfqani" və başqaları. Hakim quruluşa qarşı mübarizə əvvəllər əsasən müxtəlif dini cərəyanlar tərəfindən aparılırdı. XIX əsrin II yarısında yaranmış bir sıra siyasi təşkilat və cəmiyyətlər isə (onlar çox vaxt mütərəqqi ruhanilərin, din xadimlərinin nüfuzundan istifadə edirdilər) İranın Avropa yolu ilə inkişaf etməsi, İran istiqlalının qorunması uğrunda mübarizəni genişləndirdilər.

XIX əsrin sonlarında narazılıq doğuran və əhalinin etiraz çıxışlarına səbəb olan hadisə xaricilərə verilən tənbki imtiyazı oldu. Tənbəki imtiyazının, tütünün satın alınması, emalı və satılması haqqında 7 mart 1891-ci ildə imzalanmış imtiyazın ingilis Talbota verilməsi xalqın təzyiqi ilə 5 yanvar 1892-ci ildə ləğv edildi. Böyük əks-səda doğuran bu hadisə ilə əlaqədar Təbriz, Tehran, İsfahan və başqa şəhərlərdə izdihamlı mitinqlər keçirildi. Əgər "Babilər üsyanı" İranın Avropa ölkələrinin sənaye malları üçün satış bazarına çevrilməsi nəticəsində yaranmış sosial ziddiyyətlərə qarşı ilk antifeodal üsyanlar idisə (1848-1852), "Tənbəki üsyanı" xarici dövlətlərin ölkədə apardıqları müstəmləkə siyasətinə qarşı ilk antiimperialist çıxış idi.

Bu dövrün özünəməxsus spesifik xüsusiyyətlərini, ümumiyyətlə, XIX əsr İranın ictimai-siyasi həyatını təhlil edən Tehran Universitetinin professoru İsa Sədiq

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

məhz Nəsrəddin Şah hakimiyyəti dövründə (1848-1896) İranda nisbətən sakitlik bərpa olunduğunu, müharibələr baş vermədiyini qeyd edərək göstərir ki, həqiqətən işğalçı müharibələrin bir-birini əvəz etdiyi əvvəlki dövrlərlə müqayisədə maarif, elm və mədəniyyəti canlandıran şərait məhz bu dövrdə yaranmışdır. Bu zaman Avropa dövlətləri ilə əlaqələr yaranır, orada nəşr olunan elmi ədəbiyyat və qəzetlər İrana gətirilir, kitablar tərcümə olunurdu. Ölkədə ilk Darülfünun açılması, Tərcümə və Nəşriyyat idarələrinin yaranması, Qərbin hərbi-texniki inzibati nailiyyətlərinin öyrənilib tətbiqinə cəhd edilməsi mütərəqqi fikirli ziyalıların fəaliyyəti nəticəsində idi. Bu dövrdə Marağalı Məhəmmədhəsən xan İran dövlətinin ilk Nəşriyyat naziri olmuş, təbrizli Mirzə Yusif xan Müstəşarüddövlə ilk konstitusiya kitabını yazmış, Mirzə Həsən Təbrizi yeni üsulla tədris metodu tətbiq edilən məktəblər açmışdır. Avropa ölkələri ilə qarşılıqlı rəsmi nümayəndəliklərin yaradılması, xarici ölkələrə tələbə göndərmək, nizami qoşun təşkili və s. yeniliklər bu zaman vüsət almağa başlamışdır.

Nəsrəddin Şahı, Qacar şahlarından fərqləndirən bəzi xaralterik xüsusiyyətlər olmuşdur və bu bir neçə cəhətdən səciyyəvidir. Əvvələn, onun hakimiyyəti dövründə azadlıq və maarif nurunun zəif şüası dünyanı bir qədər işıqlandırmağa başlamışdı, bu zaman artıq mütərəqqi millətlər azadlığa, elm, sənaye sahəsində inkişafa doğru gedirdilər. İranlılar tədricən yeni mədəniyyət, ümumi hüquq normaları ilə tanış olurdular

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

və hökümətin mənfi əməllərinə qarşı müqavimət göstərmək əhval-ruhiyyəsi meydana gəlirdi.

Ikincisi, Nəsrəddin Şah əzmli və iradəli şəxs idi və bir qədər çalışsaydı, öz millətini irəli, tərəqqiyə doğru apara bilərdi.

Üçüncüsü, bu şahın hakimiyyəti 50 il davam etmişdir. Bu uzun müddətdə o, ölkəni irəli apara bilən müəyyən xeyirli addımlar atdı. Digər tərəfdən isə bu müstəbiq şah xalqın mədəniyyət karvanından uzaq düşməsinə səbəb olmuşdu, məmləkətin ətrafında istibdaddan hasar hörmüşdü.

Lakin unutmaq olmaz ki, İran adlı dövlətdə mütərəqqi addımların atılması nəticəsində yaranan uğurların davam və inkişaf etdirilməsinə mane olan işğalçı Rusiya və İngiltərə kimi qüvvətli, siyasi cəhətdən yetgin dövlətlər var idi.

Nəsrəddin Şah çox ziddiyyətli bir şəxsiyyət olmuşdur. Onun ətrafında iki dəstə fəaliyyət göstərirdi. Birinci dəstəyə İranda konstitusiya (qanuni-əsasi) fəaliyyət göstərməsinin tərafdarları, (bu cəbhəyə Seyid Cəmaləddin Əsədabadi, Mirzə Yusif xan Müstəşarüddövlə Təbrizi, marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə, Mirzə Mülküm xan, Əminüddövlə və b. daxil idilər), ikinci cəbhəyə isə Baş nazir Əminüssultan və onun ideya tərafdarları, yəni konstitusiya əleyhdarları daxil idilər. Göründüyü kimi birinci dəstəyə daxil olan mütərəqqi şəxsiyyətlər arasında milliyyətcə azərbaycanlı ziyalılar da vardır. Tarixi mənbələri araşdırarkən XVIII əsrdə, olduğu kimi bu əsrdə də İran tarixində adları xatırlanan, xüsusən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1804-1813, 1826-1828-ci illərdə baş vermiş Rusiya-İran müharibələrində fədakarlıq göstərmiş azərbaycanlı hərbçilərin, İranın xarici ölkələrlə diplomatik münasibətlərin qurulmasında iştirak etmiş siyasi xadimlərin və digər görkəmli şəxsiyyətlərin, o cümlədən məramı bütün dünya müsəlmanlarının birliyi olan həmədanlı filosof Seyid Cəmaləddin "Əfqani", təbrizli Mirzə Yusif Müstəşarüddövlə və başqalarının ictimai-siyasi fəaliyyəti nəzər-diqqəti cəlb edir.

İranda hökm sürən feodal quruluşuna, onun mütləqiyyət üsuli-idarəsinə qarşı, ölkənin demokratik siyasi quruluşa çatdırılması üçün Azərbaycan ziyalıları uzun müddət mübarizə aparmışlar. Öz fəaliyyətlərində Qərbi Avropa maarifçilərindən, bu ölkələrin mədəniyyətindən istifadə edən təbrizli Mirzə Yusif xan Müstəşarüddövlə, Seyid Cəmaləddin Əsədabadi "Əfqani", Hacı Zeynalabdin Marağei, Əbdürrəhim Talıbov Təbrizi kimi ziyalılar İranın dövlət dairələrində köhnə feodal quruluşu ilə yeni yaranmaqda olan burjua nümayəndələri arasında gedən siyasi mübarizənin aparıcıları olmuşlar. Onlar İranın Avropa yolu ilə (kapitalizm yolu ilə) inkişaf etməsi və ölkədə insan hüquqlarının, istiqlalın qorunması uğrunda gedən mübarizələrdə iştirak etmişlər. İranın ictimai, iqtisadi və siyasi vəziyyətindən aslı olaraq bu hərəkatda əhali arasında böyük nüfuza malik görkəmli din xadimləri və alimlər ön sırada gedirdilər. Bu dövrdə İranda fəaliyyət göstərən müxtəlif siyasi qurumlar hələ onları bir-birindən ayran sinfi, ictimai və siyasi ziddiyyətlər inkişaf etmədiyinə görə mütləqiyyət və müstəmləkəçilik

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əleyhinə birgə mübarizə aparmışlar. Seyid Cəmaləddin Əsədabadi, Mirzə Yusif xan, Mirzə Həsən Aştiyani ilə yanaşı, Seyid Məhəmməd Təbatəbai, Seyid Hadi Nəcmabadi və başqaları belələrindən idi. Ölkənin demokratik siyasi quruluşa çatdırılması üçün azərbaycanlı dövlət xadimlərindən Mirzə Yusif xan Təbrizi qanuni-əsasi (konstitusiya) yazmış və onun İranda tətbiqi üçün çalışmışdır. O, milli, dini adət-ənənələri nəzərə alaraq hazırladığı bu qanuni-əsasidə eyni zamanda islamın yüksək qanunlarından da istifadə etmişdir.

XIX əsrin sonlarında yeni İran tarixinin, mədəniyyətinin yaranması, ölkənin milli müstəqilliyə çatması üçün adlarını çəkdiyimiz və çəkə bilmədiyimiz azərbaycanlı şəxsiyyətlər böyük ictimai-siyasi fəaliyyət göstərmişlər. Onları öyrənmədən 1905-1911-ci illər İran məşrutə inqilabının yaranması, inkişafı tarixini əsaslı şəkildə öyrənmək mümkün deyildir. Çünki inqilaba zəmin həmin dövrlərdə yaranmışdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# Qacarlar dövrünün azərbaycanlı ictimai-siyasi xadimləri.

## Abbas Mirzə Mülkara (1839-1897)

Abbas mirzə (Naibüssəltənə-Mülkara) Məhəmməd şah Qacarın 2-ci oğlu olub 1255-ci ilin rəcəb ayında anadan olmuşdur. (1839, sentyabr) Deyilənlərə görə Məhəmməd şah ömrünün sonlarında Nəsrəddin mirzəni vəliəhdlikdən kənarlaşdırmaq, əvəzinə Abbas mirzəni öz yerinə təyin etmək fikrinə düşmüşdü. Lakin ömrü vəfa etməmiş, onun bu arzusu həyata keçməmişdi.

Lord Kerzon "İran və məsəleyi-İran" kitabının 1-ci cildinin 394 və 422-ci səhifələrində Mülkara haqqında belə yazır: "Polkovnik Stuartın dediyinə görə Məhəmməd şah Nəsrəddin Şaha qarşı soyuq idi. Əksinə, digər qardaş Abbas mirzə Mülkara isə atasının, eləcə də anasının istəkli və ona yaxın övladı olmuşdur. Məhəmməd şah Abbas mirzəyə o qədər hüsn-rəğbət bəsləyirdi ki, ona Naibüssəltənə ləqəbi vermişdi. Nəsrəddin Şah ona qarşı etinasızlığı hiss etdiyindən və bunun da səbəbi Mülkara olduğundan hakimiyyət taxtına

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əyləşdikdən sonra onu, biçarə qardaşını İraqi-Ərəbə sürgün etmişdi. Onun sürgün və ağır həyatı 28 il çəkmişdir. Uzun səy və cəhdlərdən, müxtəlif vasitələrdən sonra İrana qayıtmışdı. O, Tehranda tənha vəziyyətdə yaşadı. Bir müddət Ticarət naziri, Ali Dövlət Şurasının fəxri rəisi və Qəzvin hakimi oldu. (71, c. 2, s. 223). 1883- cü ildə ticarət naziri təyin edilmiş Abbas mirzə Mülkara işindən heç də razı qalmamışdır. O, saray adamlarının nazirliyin fəaliyyətinə müdaxilə etdiklərindən, ticarət nazirliyinin yalnız tacirlərin şikayətlərinə baxmaqla, pul yığmaqla məşğul olduğundan gileylənirdi. Mənbələr göstərir ki, Məhəmməd şahın vəfatından sonra Nəsrəddin Şah anasının təhriki ilə kin bəslədiyi qardaşı Abbas mirzə Mülkaranı qətlə yetirmək barədə fikirləşirdi. Lakin o, ingilislərin himayəsində olduğu üçün ölümdən qaça bilmiş, 1268-ci ilin zilhiccə ayında (1852 sentyabr) 3 min tümən pul verməklə İraqi-Ərəbə sürgün olunmuş, Bağdadda yaşamışdır. Qeyd etmək lazımdır ki, Nəsrəddin Şahın anası oğlunun hakimiyyətə gəlməsi üçün çox çalışmış və buna nail olmuşdur. Herat məsələsi ilə əlaqədar İngiltərə ilə İran dövlətləri arasında 1273-cü ildə (1857) baş vermiş müharibə zamanı Abbas mirzə ingilislərin tərəfində xidmət etmiş, bir müddət İstanbulda yaşamış, 1295-ci ildə (1878) Tehrana qayıtmışdır. Abbas mirzə Tehrana gəldikdən sonra ona Mülkara ləqəbi verilmiş və ildə 6 min tümən məvacib ona, 1500 tümən isə oğlu Məhəmməd Mirzəyə təyin edilmişdir. Bir müddət keçdikdən sonra Hacı Mirzə Hüseyn xan Sipəhsalari-Əzəmin vasitəsilə Zəncan hakimi oldu.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Lakin çox keçmədi ki, qəflətən şübhə hissi, narahatlıq, keçirərək Qafqaza çıxıb getdi. Abbas mirzə 1296-cı ildə (1879) ona arxa-dayaq olan, təhlükəsizliyini təmin edəcəyinə söz verən Mirzə Hüseyn xan Sipəhsaların köməyi ilə yenidən Tehrana qayıtdı, 1881-ci ildə isə Qəzvin hakimi oldu. (71, c. 2, s. 224).

1857-ci ildə İngiltərə-İran müharibəsi zamanı ingilislər Buşehr yolu ilə Bərazcanadək və Xürrəmşəhr yolu ilə Əhvaza qədər irəliləmişdilər. Onlar Nəsrəddin Şahı hədələyirdilər ki, Abbas mirzənin Bağdaddan İranın cənubuna gəlməsinə icazə versin. Abbas mirzə Nəsrəddin Şah tərəfindən təhlükə olmadığına əmin olduqdan sonra İrana gəldi, İngilislər Nəsrəddin Şahın hakimiyyəti dövründə xüsusən onun iki vəliəhdinin[16] ölümündən sonra da üçüncü vəliəhd olaraq Abbas mirzəni vəliəhd etmək üçün çox səy göstərirdilər, lakin nəticə hasil olmadı.

Fransanın məşhur xarici işlər naziri Kont dü Kebino 1857-ci il sənədlərindən birində bu barədə belə yazırdı. "Dünən sədr-əzəmlə (Mirzə Ağa xan Nuri) görüşüb söhbət etdim. O mənimlə çox səmimi və məhrəmanə danışdı və dedi ki, şah təxirə salmadan qanuni vəliəhdini təyin etməlidir. Sədr-əzəm Rusiyanın məqsədləri ilə əlaqədar söhbəti bitirərək (söhbət Bəhmən Mirzədən gedirdi) özünün Britaniyaya meylini bildirdi, şahın qardaşı Abbas mirzənin də ingilislərə rəğbət bəslədiyini bildirdi. O, indi Kərbəlada sürgündədir və şayiə gəzir ki, o Londona səfər etmək istəyir, lakin hələ getməmişdir. Sədr-əzəm fürsətdən istifadə edərək Abbas mirzənin

[16] Mahmud mirzə və Müinəddin mirzə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Londona səfər etmək fikrini şaha bildirmiş, Nəsrəddin Şah da onun İondona yox, Tehrana gəlməsinə icazə vermişdir, həm də ona 3000 tümən maaş təyin etmək fikrindədir". (71, c. 2, s. 225).

Fransanın xarici işlər naziri daha sonra yazırdı ki, sədr-əzəm bundan çox məmnun idi ki, İran həm İngiltərə ilə silahla vuruşmaqdan, həm də daxili çəkişmə və intriqadan xilas olmaq, Abbas mirzədən xətər gəlməmək üçün şahı təcili olaraq özünə qanuni vəliəhd təyin etməyə məcbur etmişdi. Qərara alındı ki, şahın sevgili zövcəsindən, Ceyrandan olan oğlu (Əmir Qasım xan-H.T) vəliəhd təyin edilsin".

1880-cı ildə kürdlər Nəsrəddin Şaha qarşı qiyam qaldıran zaman ingilis-İran müharibəsində olduğu kimi Abbas mirzə Mülkara yenə həmin düşmən mövqedə durmuşdur. Abbas mirzə bu üsyanın başçısı Şeyx Abdulla ilə yaxşı münasibətdə olmuşdur. Belə ki, şeyx öz nökəri vasitəsilə Abbas mirzəyə göndərdiyi məktubda onu Savucbulaqa dəvət edir, ona vəzifə təklif edərək dövlətə qarşı müharibədə iştirak etməyi xahiş edir. Lakin Abbas mirzə nəinki Şeyx Abdullanın təklifini qəbul etmədi, ehtiyat edərək bunu Nəsrəddin Şaha bildirdi. Nəsrəddin bundan razı qalaraq, onu Qəzvin hakimi təyin etdi. Mülkara 1303-cü ildə (1886) ticarət naziri təyin olunmuşdur. Bu barədə tarixçi Etimadüssəltənə yazır:

"1303-cü il, 16 rəbiülsani, ticarət nazirliyi şahın qardaşı Mülkaraya verildi". Abbas mirzə Mülkara mütənasib qamətli, zərif əndam, xoş qiyafəli, alçaq səslə danışan şəhzadə idi".

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1314-cü ilin ziqədə ayında (1897 aprel) Nəsrəddin Şahın ölümündən bir il sonra 59 yaşlı Abbas mirzə Mülkaranın Dovşantəpədə at yarışı zamanı ürəyi dayanmış, cənazəsi Nəsrəddin Şahın yanında müqəddəs Şah Əbdüləzimdə torpağa tapşırılmışdır.

Məhəmmədhəsən xan Etimadüssəltənə "Məasir və asar" əsərində Abbas mirzə Mülkara haqqında belə yazır: "Bu məmləkətin şöhrətli elmləri olan hədis, təfsir və ədəbiyyat sənətləri üzrə dövrünün fövqəladə şəxsiyyətidir. Qədim və müasir dövrün böyük alimlərindən bəhrələnən kitab mühafizidir. O, həmçinin xarici dillərdən və elmi naliyyətlərdən də faydalanmışdır. (65, s. 191).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ABBAS İRƏVANİ

Abbas (1784-1849), Hacı Mirzə Abbas, yaxud Molla Abbas İrəvaninin təxəllüsü "Fəxri" olmuşdur. O, Hacı Mirzə Müslüm İrəvaninin oğludur. Hacı Mirzə Ağası adı ilə məşhur idi və 14 il Məhəmməd şah Qacarın Baş naziri (Sədri-əzəm) olmuşdur. Onu "Hacı" və ya "Hacı Ağa" adlandırırdılar.

Mirzə Ağasının atası öz ailəsi ilə birlikdə İrəvandan Maku şəhərinə köçmüş, burada güzəranını əkinçilik və təsərrüfatla keşirmişdir. Hacı Mirzə Ağası 1198-ci (1784) ildə həmin şəhərdə doğulmuşdur. Abbas böyüyərək həddi-buluğa çatandan sonra Xoy şəhərinə getmiş və orada təhsil almağa başlamışdır. Oradan Azərbaycanın digər şəhərlərinə səfər etmişdir. Sonra Həmədana gedib, orada Axund Molla Əbdülsəməd Həmədaninin şagirdi olmuşdur. Axund Əbdülsəməd Həmədani məşhur "Bəhrül maarif" kitabının müəllifi olub, dövrünün böyük sufi şeyxlərindən sayılırdı. Abbas bir qədər sonra Axundun müridlərindən olur. Axund

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

həcc ziyarətlərindən birində vəfat edir və Molla Abbas onu əvəz etmək üçün vəsait düzəldib, Məkkəyə yola düşür, həccin qanunlarını yerinə yetirərək Hacı molla Abbas olur. O, Həmədana qayıdır, burada elmləri öyrənir və sufiliyin sirrlərini öyrənir. Hacı Molla Abbas burada öz müəllimi, ustadı və mürşidi Molla Əbdülsəməd Həmədani kimi məşhur olur.

Axund Molla Əbdülsəməd Həmədani vətənindən mühacirət edərək 40 il Kərbəlada yaşamışdır. Hacı Molla Abbas da onun yanında qulluq etmək qərarına gələrək onunla gedib Kərbəlada yaşayır, ta o vaxta qədər ki, ustadı və mürşidi Axund Əbdülsəməd orada vəhabilərin fitnəsi ilə, onlar tərəfindən qətlə yetirilir. Bu hadisə 1216-cı (1801) ildə baş vermişdir. Son nəticədə Abbas İraqdan İrana qayıdaraq mürşidinin ailəsini Həmədana çatdırır, özü isə Azərbaycana gəlir və Təbrizdə yaşamağa başlayır. O, usdadı Axund Molla Əbdülsəmədin təriqətini təlim və inkişaf etdirir və yayır. Bu zaman Hacı Molla Ağası və Hacı Mirzə Ağası kimi məşhur olur.

Bir müddətdən sonra zahid Axund Abbas İrəvani Təbrizdə vəliəhd Abbas mirzə Naibüssəltənənin uşaqlarının o cümlədən Məhəmməd Mirzənin (Məhəmməd şah) müəllimi təyin olundu. Təlim və tədris prossesində tədricən Məhəmməd Mirzəyə aramla nüfuz edərək onu özünə xas olan xüsusiyyətlərə istiqamətləndirdi, onunla yaxın, məhrəmanə ünsiyyət yaratdı. Belə deyirlər ki, bir gün mürşid öz müridlərinə gələcəyi barədə məlumat verərək deyibmiş ki, onun gələcəyi İran dövləti ilə əlaqədar olacaq. Fətəli Şah

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1834-cü ildə İsfahanda vəfat etdikdən sonra baxmayaraq ki, Fətəli Şahın 60 oğlu sağ idi, Abbas mirzənin böyük oğlu Məhəmməd Mirzə, Rusiya ilə İran dövləti arasında 1828-ci ildə bağlanmış Türkmançay müqaviləsinin 7-ci bəndinə əsasən, taxt-taca sahib oldu.

Məhəmməd şah 1834-cü ildə səltənət taxtına əyləşdikdən sonra Mirzə Əbülqasim Qaimməqam Sanini, fazil və alim kimi İranda şox məşhur olan bu şəxsi Baş Nazir təyin etdi. Lakin onun sədarəti yalnız 8 ay çəkdi. Bu müddət ərzində Fətəli Şahın saysız-hesabsız övladlarının hər biri özünü səltənətin varisi hesab edirdi. Nəticədə Məhəmməd şahı vadar etdilər ki, Qaimməqamı aradan götürsün. Qaimməqam öldürüldükdən sonra onun yerinə bir çoxları əyləşməyə çalışırdı. Lakin Məhəmməd şah həmin vəzifəyə öz müəllimi və mürşidi Mirzə Ağasi İrəvanini təyin etdi. Onun isə siyasətdən və dövləti idarə etməkdən xəbəri yox idi. Buna baxmayaraq Hacı Mirzə Ağası 14 il İran dövlətinin sədri-əzəmi olmuşdur. O, Məhəmməd şahın nüfuzlu, onun işlərini dürüst icra edən vəziri idi və “birinci şəxs” ləqəbi ilə məşhur olmuşdu. Bu ləqəb Avropada işlənən Baş nazir sözünün tərcüməsindən əmələ gəlmişdi, ingiliscə “premyer ministr” birinci, əvvəlinci şəxs deməkdir.

Lakin ətrafındakılar onun işindən razı deyildilər. Onlar bir neçə dəfə Məhəmməd şaha xatırlatmışdılar ki, o, bütün işləri Mirzə Ağası İrəvaniyə verməklə dövlətin böhrana doğru getməsinə səbəb olmuşdur. Məhəmməd şah isə bu sözlərə etina etmirdi. Onun barəsində şaha

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yazılan məktubları Mirzə Ağasiyə verdikdə o, bunların onun düşmənləri tərəfindən yazıldığını bildirirdi.

Mirzə Ağası İrəvani Məhəmməd şahın məsləhəti ilə Fətəli Şahın 13-cü qızı olan İzzətnisə xanımla evlənmişdir. Bu qadın həm də Rzaqulu xan Hidayətin bibisi qızı idi, öz əmisi oğluna, Fətəli Şahın qardaşı oğluna ərə verilmişdi. Lakin əri ölmüşdü və həcc ziyarətinə səfər edərkən həmin zəvvarlar içərisində Hacı Mirzə Ağasi İrəvani də dərviş libasında olmuşdur. Bu şahzadə xanımın dul olduğunu bilərək ona meyl etmiş, lakin qadın nökərlərinə göstəriş vermişdi ki, Molla Abbas dərvişə çubuq vursunlar və onu zəvvarların arasından qovsunlar. Elə də etmişdilər.

Hacı Mirzə Ağası Məhəmməd şah vəfat etdikdən sonra (1848) Şah Əbdüləzimdə bəstdə əyləşmiş və mədrəsənin bir hücrəsində qalmağı qərara almışdı. Nəsrəddin Şah Təbrizdən Tehrana gələrək taxta əyləşdikdən sonra Mirzə Ağası onun icazəsi ilə Ətəbata getmiş və 1265-ci (1849) ildə 68 yaşında orada vəfat etmişdir. Onun övladı olmamışdır. (71, c. 2, s. 209).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ HÜSEYN XAN QƏZVİNİ

XIX əsrin II yarısında İranın ictimai-siyasi həyatında diqqəti cəlb edən görkəmli şəxsiyyətlərdən biri Mirzə Hüseyn xan Qəzvinidir. Nəsrəddin Şah Qacar dövrünün Baş naziri, bacarıqlı siyasi xadim Mirzə Hüseyn xan Müşirüddövlə 1828-ci ildə Qəzvində anadan olmuşdur. Onun atası Əmir Divan Mirzə Nəbixan Qəzvini Nəsrəddin Şah hakimiyyətinin əvvəllərində iki oğlunu Mirzə Hüseyn xanla Yəhya xanı təhsil almaq üçün Avropaya göndərmiş, fövqəladə hafizəyə malik olan Hüseyn xan təhsilini vaxtından əvvəl, daha tez başa vuraraq İrana qayıtmışdı. O, Tehran Darülfünununda qədim elmləri öyrənmiş, fransız dilini yüksək səviyyədə mənimsəmişdi. Hüseyn xan hədsiz enerjiyə malik, cəsur, xeyirxah bir insan olmuşdur. Vəzifəsinin öhdəsindən yüksək səviyyədə gəldiyi üçün müxtəlif dövrlərdə İran dövlət dairələrində məsul vəzifə sahibi kimi tanınmış, o cümlədən Ədliyyə naziri, Hərbi nazir, Xarici işlər naziri,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

nəhayət Baş nazir kimi yüksək vəzifələrdə çalışmışdır. Uzun illər çalışdığı Osmanlı sarayında da diplomatik fəaliyyətində dəqiq olmuş, daima öyrənmiş, mütaliə etmiş, özünü hər bir işə hazırlamışdı. Hacı Mirzə Hüseyn xan Müşirüddövlə Mirzə Tağı xan Əmiri-Kəbirdən sonra Qacarlar dövrünün ən qabil ictimai-siyasi xadimi, Sədri-əzəmi idi. Onları bir-birindən fərqləndirən cəhət Mirzə Tağı xanın ruslara, Mirzə Hüseyn xanın isə ingilislərə olan yaxşı münasibəti idi. Mirzə Hüseyn xan da ölkənin inkişafına səy edir, bunun başlıca yolunu islahatda görürdü. Mirzə Tağı xanın yürütdüyü siyasəti davam etdirən nazirin təkidi və təşviqi ilə Nəsrəddin Şah 1873-cü ildə görkəmli şəxsiyyətlərdən ibarət bir heyətlə Avropaya səfər etmişdir. 5 aylıq səfər zamanı Avropada olan yeniliklərlə tanışlıq, şahı qayıtdıqdan sonra ölkədə bir sıra işlər görməyə sövq etdi. Lakin onu da Mirzə Tağı xanın aqibəti gözləyirdi. Belə ki, həyata keçirilən islahatlarda öz fəaliyyətləri üçün maniələr görən bəzi məmurlar Hüseyn xana düşmən kəsildilər.Tehran əhalisi bəzi nüfuzlu adamların, dindarların təhriki və işarəsi ilə Hüseyn xanın əleyhinə çıxdılar, onu dinsiz, allahsız adlandırdılar. Bu xüsusda şaha məktub yazdılar. Təhrikçilərdən biri də Nəsrəddin Şahın əmisi Fərhad mirzə idi. O, vəziyyəti şaha danışdıqda, şah bu xəbərdən qorxuya düşmüş və Müşirüddövləni istefa verməyə vadar etmişdi. Şah özü onu aparıb Rəştdə qoydu, sonra Qəzvindən Hüseyn xan Müşirüddövləyə bir məktub yazdı və bu işdən peşman olduğunu, təəssüfləndiyini bildirdi. Şah yazırdı: “ Mən indi sizin Baş nazir

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olmağınızı məsləhət bilmirəm. Mən şabanın 20-dək sizi Xarici İşlər Nazirliyində vəzifəyə təyin edəcəyəm. (71, c. 1, s. 407). Nəsrəddin Şah sözünə əməl edərək həmin ay onu Xarici İşlər Vəzarətinə təyin etmişdi.

Mirzə Hüseyn xan hələ 1850-ci ildə Baş Nazir Əmiri-Kəbir Mirzə Tağı xanın diqqətini cəlb etmişdi və onu, əvvəlcə Baş konsulun köməkçisi, sonra Baş konsul vəzifəsinə təyin edib Bombeyə göndərmişdi. Hüseyn xan 1853-cüilədək Bombeydə Baş konsul kimi çalışmışdır. Orada olarkən məruzələrindən birində İran dövlətinin diqqətini xaşxaşın geniş sahədə əkilərək ixrac edilməsindən böyük mənfəət götürməyin mümkünlüyünə cəlb etdi. Bu təklif qəbul edildi və İran dövləti bundan böyük gəlir əldə etməyə başladı. Beləliklə ilk dəfə olaraq 1267-ci (1851) ildə Tehranın ətrafında tiryək əkilməsi işinin əsası qoyuldu. (71, c. 1, s. 411).

Hüseyn xan Hindistandan qayıtdıqdan sonra 1854-cü ildə Tiflisdə İranın Baş konsulu təyin olunmuş və üç il orada çalışmışdır. Onun ən uzun müddət çalışdığı vəzifə İstanbulda İranın səlahiyyətli elçisi olmasıdır. Həmin vəzifədə 12 il çalışmış və Müşirüddövlə ləqəbini bu zaman almışdır. O, Böyük Darülşuraya üzv seçilmış Vəziri-muxtar vəzifəsindən (səlahiyyətli nümayəndə-H.T.) səfir rütbəsinə ucalmışdır. Osmanlı sarayında 12 il, yəni 10 il xarici işlər vəziri, son 2 il isə Böyük elçi (səfiri-kəbir) vəzifələrində çalışmışdır. Qeyd etmək lazımdır ki, qəzvinli Hacı Mirzə Hüseyn xan Müşairüddövlə, təbrizli Mirzə Rza xan Ərfəüddövlə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Daneş növbə ilə Bombey, İstanbul və Tiflis şəhərlərində bir-birini əvəz etmişlər.

Mirzə Hüseyn xan İstanbulda böyük səfir olarkən İran dövləti üçün çox faydalı işlər görmüş, İran əhalisinin orada rahat yaşayışı üçün çalışmışdır. O, Nəsrəddin Şaha yazdığı məktublardan birində özünün yenilik tərəfdarı, islahat tələb edən bir şəxsiyyət olduğunu bildirmişdir. O, həmin məktublarda İranın hazırkı ictimai vəziyyətini tənqid edir, o vəziyyətin dünyanın heç bir yerində olmadığını deyir, özünü bir dövlət kimi göstərməsini arzulayırdı. O, xüsusən, İranla Osmanlı dövləti arasında əlaqələrin möhkəmlənməsi üçün çox çalışırdı. Həmin vaxt Hüseyn xanın səyi nəticəsində bu iki dövlət arasında çox gözəl qarşılıqlı əlaqələr yaranmışdı.

Nəsrəddin Şah 1870-ci ildə Hüseyn xanın Ədliyyə, Vəzaif və Ovqaf nazirliklərinə təyin edilməsi barədə fərman verdi və onu Tehrana gətirdi. Burada onunla məsləhətləşən şah Böyük Şura məclisi, yaxud Darülşurayi-dövləti təşkil etdi. Hüseyn xan 7 aydan sonra yəni 1871-ci ildə Sepəhsalari-əzəm titulu alaraq, Hərbi nazir və bir aydan sonra Baş nazir təyin olundu.

Hacı Mirzə Hüseyn xan 11 ay ərzində çox sürətlə yüksələrək nazir, qoşun böyüyü və nəhayət, Baş nazir kimi vəzifəyə çatmışdı. O şahdan sonra məmləkətdə birinci adam idi, hər cür ixtiyar sahibi olduqda ölkə işlərində əsaslı islahata başladı. O cümlədən zülm və istibdadı, rüşvətxorluğu, dövlət məmurlarının qeyri-normal hərəkətlərini aradan qaldırmaq üçün bütün əyalət və vilayət başçılarına çox ali təlimatlar göndərdi. Onların

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bu təlimata əməl etmələrini tapşırdı. Şaha yaxın olan bəzi hakimlər isə bu qərara tabe olmaq istəmədilər, həm də onların arasında Hüseyn xana zidd mövqedə olanlar, var idi və onlar Baş nazirə qarşı çıxdılar, onun təlimatına məhəl qoymadılar. Nəsrəddin Şahın əmilərindən ikisi onun əleyhinə idi, onlardan Heratın fatehi Sultan Murad Mirzə Hüsamüssəltənə (dövlətin qılıncı-H.T.) Xorasan valisi, digəri isə Kürdüstan valisi Fərhad mirzə idi. Şahın razılığı ilə Sultan Murad mirzə işdən azad edildi və Hacı Hüseyn xan Şahsevən  Xorasana vali təyin olundu.

Hüseyn xan Müşirüddövlə Baş nazir olduğu ilk illərdə böyük çətinliklə qarşılaşdı. Ölkədə, xüsusən, Tehranda aclıq baş verdi. Baş nazir xalqı 1871-ci ildə baş vermiş bu çətinlikdən qurtarmaq üçün əlindən gələni edirdi. O, Tehrana axışıb gedən kasıbları Nüsrətabad qalasına toplayaraq, onlara azuqə paylayır, bununla da bir çox insanı acından ölməkdən xilas edirdi.

Mirzə Hüseyn xanın gördüyü bir çox faydalı işlərdən biri də onun 1876-cı ildə fransız və fars dillərində nəşr etdirdiyi "Laparti" adlı qəzet oldu. Lakin ilk nömrələri yayıldıqdan sonra bərabərlik, ədalətpərəstlik mövqeyi tutan və yaltaqlığa zidd ideyalar təbliq edən qəzetin nəşri sarayda olan bəzi qüvvələrin təzyiqi ilə Nəsrəddin Şah tərəfindən dayandırıldı.

Nəsrəddin Şah 1878-ci ildə ikinci dəfə Avropa ölkələrinə səfər edərkən Hacı Miirzə Hüseyn xan Sipəhsaları da özü ilə aparmış və bu səfərin çox müsbət nəticələri olmuşdur. Belə ki, Hüseyn xan Avstriyada danışıqlar apararaq oradan qayıdarkən İranda ordunu qaydaya salmaq üçün 10 nəfər avstriyalı hərbçini 3 illiyə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qulluğa götürdü. Bunlardan biri polkovnik (sərhəng), biri mayor (sərqord), 3-ü kapitan (sərvan) və beşi leytenant (setvan) idi. Bu hərbçilər 1879-cu ilin yanvar ayında Tehrana daxil olaraq öz işlərinə başladılar. Nəsrəddin Şahın Avropaya 2-ci səfərinin nəticəsi olaraq İranda yaranmış Kazak briqadasının təşkilində Baş nazir Hüseyn xanın əməyi böyükdür. Həmin il ruslarla müqavilə bağlandı və Türkman əməliyyatında və türkmanlərlə müharibədə ad qazanmış polkovnik Domantoviç Tehrana gəldi və kazak briqadasının təşkilinə başladı.

Mirzə Hüseyn xan Sipəhsaların həyata keçirdiyi islahatlardan biri də dövlət qulluğunda çalışanların uzun libaslarını qısa libasla əvəz etməsi oldu (şalvar-jilet-sürtük, uzun ətəkli kişi pencəyi). Hərçənd bu işə ondan əvvəl Mirzə Məhəmməd xan Sipəhsalar başlamışdı, lakin Hüseyn xan Müşirüddövlə onu təkmilləşdirdi.

Hüseyn xan Müşirüddövlənin Kazak ordusunu yaradıb, İranda hərbi quruluşu dəyişdirməsi, Xəzər sahilində bəzi yerləri (Firuzə, Axal) ruslara verməsi onun həyatı bahasına başa gəldi, onun ruslarla yaxınlığını görən ingilislər ondan intiqam aldılar. O, 1298-ci ilin zilhiccə ayının 11-də (1881, 16 noyabr) Məşhəddə zəhərlənib öldürüldü.

Hüseyn xan artıq 1880-cı ildə şahın əmri ilə vəzifələrindən azad edilərək, Qəzvinə göndərilmişdi. Bir neçə həftədən sonra Qəzvində Nəqşbəndiyyə firqəsinin başçısı Şeyx Übeydulla Pişvainin xaricilərin təhriki ilə hərəkatı başladı. Nəsrəddin Şah bu fitnəni yatırmaq üçün fərman verib, Mirzə Hüseyn xanı Azərbaycana göndərdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mirzə Hüseyn xan Urmiya və Marağa tərəfdən , Hüseynəli xan Gorusi isə Əfşar və Gorus tərəfdən Qəzvin istiqamətinə qoşun çəkdilər. Nəticədə Şeyx Übeydullanın təbəələri arasında nifaq düşdü və Şeyx Osmanlı torpağına qaçmağa məcbur oldu.

Hüseyn xan 1881-ci ildə Tehrana çağırıldıqdan sonra həmin ilin mart ayında Rusiya çarı II Aleksandrın qətli ilə əlaqədar olaraq İran şahı tərəfindən fövqəladə səfir kimi Rusiya İmperatorunun təziyəsində və eyni zamanda III Aleksandrın tacqoyma mərasimində iştirak etmək üçün Peterburqa ezam olundu. Rus dövləti xidmətlərinə görə ona çox hörmət etmiş, yaxşı qarşılamışdı. O cümlədən Rusiya İmperatoru öz əli ilə boynunda olan ordenlərdən birini Müşirüddövlənin boynundan asmışdı. Hüseyn xan 2 ay Rusiyada qaldıqdan sonra Tehrana qayıtdı və Xorasan əyalətinə hakim göndərildi. O, eyni zamanda Astani-Qüdsi-Rəzəvinin mütəvəllisi oldu. 2 aydan sonra, 57 yaşında zəhərlənib öldürüldü. O, şiələrin 8-ci imamı olan imam Rzanın (ə) yanında, özünün hələ Məşhədə gəldiyi ilk vaxtlarda hazırladığı məqbərədə dəfn olunmuşdur. İran tarixçisi, marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə onun ölümünə sevinən düşmənlərinə ünvanladığı bir beytdə deyir:

“Ey dust, bər cənazeyi-düşmən çu boqzəri  
Şadi məkon ki, bər to həm in macəra rəvəd.

Bu şəxs çox aqil və bilikli idi, Avropa siyasətindən və qanunlarından xəbərdar idi”. (71, c. 1, s. 423).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hüseyn xan Müşirüddövlə İranda çox zəngin olan insanlardan biri idi. O, sağlığında bir mədrəsə və imarət tikdirmiş, sonralar "İmarəti-Məclisi-Şurayi-Milli" adlandırılmışdır, dövlətinin bir hissəsini məscidə və öz mədrəsəsinə vəqf etmiş, qalan dövləti isə qardaşı Yəhya xan Müşirüddövləyə və Nəsrəddin Şaha çatmışdır.

Ingiltərədə 64 il (1837-1901) səltənət taxtında əyləşmiş kraliça Viktoriya (onun hakimiyyət dövrü "Viktoriya əsri" adlandırılmışdır.) özünün "Xatirələr və yaddaşlar" kitabında Nəsrəddin Şahın Avropaya I səfəri zamanı Müşirüddövlə ilə ilk söhbətini xatırlayaraq yazır:

"Mən Sədri-əzəm vasitəsilə müxtəlif suallar verdim, amma şah fransız dilini yaxşı başa düşürdü və bəzi kiçik cümlələrlə danışa bilirdi. Şah Sədri-əzəmi mənə fransızca təqdim etdi. Sədri-əzəm mənim çox xoşuma gəldi, o, fransız dilində çox yaxşı danışırdı". (71, c. 1, s. 421).

Azərbaycanın böyük mütəfəkkürü, dramaturq M.F.Axundov Hüseyn xanla şəxsən tanış idi. O, bir müddət İranın Tiflisdə Baş konsulu olmuş Əli xana (sonralar Azərbaycanda xarici işlər müdiri-H.T.) göndərdiyi məktubda yazır: "Şah əlahəzrətləri Tiflisdən keçərkən mən də dövlət başçıları tərəfindən Poti limanına göndərilmişdim ki, orada şahzadələrlə söhbət edib, onları yola salam. Orada cənab Müşirüddövlə mənim yanıma gələrək əhvalımı soruşdu və çox mehribanlıq göstərdi. Dedim: "Sərkar Sədri-əzəm, mən heç güman etməzdim ki, siz mənim barəmdə bu qədər iltifat göstərmiş olasınız. Soruşdu:

-Mirzə Fətəli, nə üçün belə düşünürsünüz?

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Dedim: - Mümkündür ki, bəzi səhvlər məndə bu fikri oyatmışdır.

Dedi:-Mirzə Fətəli, siz mütləq səhv etmisiniz!

Xülasə bizim aramızda tam sülh və dostluq əmələ gəldi.

Dedim:−Sərkar Sədri-əzəm, siz sədarətdən ibarət olan arzunuza yetişdiniz. Mən isə əlifbanı dəyişdirməkdən ibarət olan arzuma çatmaqdan hələ məhrumam.

Dedi:-Mirzə Fətəli, mən də hələ öz arzuma çatmamışam. Arzuya çatmaq bundan ibarət deyil ki, gəlib Baş nazir kürsüsündə əyləşəsən. Axı bu kürsüdə əyləşərkən bir iş görmək lazımdır. Mən hələ bir iş görməmişəm.

Dedim:-Siz hansı şəxslərin köməyi ilə işə iqdam edəcəksiniz? İranda sizin fikrinizə şərik olan heç kəs yoxdur. Əvvəlcə adam hazırlamalısınız, sonra işə başlamalısınız. Bugün İranda zahirdə nəfəsləri gələn şəxslər, həqiqətdə ölü sayılırlar. Onların qanı soyumuş və hərəkətdən düşmüşdür. Onların damarlarına təzə və isti qan tökmək və hərəkətə gətirmək lazımdır. Ondan sonra işləmək asandır. Təzə qan isə yeni əlifbanı qəbul etmək və Avropa elmlərini öyrənməkdən ibarətdir.

Güldü və dedi:-Görək nə etmək lazım gəlir. (1, c. 2, s. 227).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## SEYİD CƏMALƏDDİN ƏFQANİ

Amalı bütün dünya müsəlmanlarının birliyi və azadlığı olan, bu yolda həyatını qurban vermiş Seyid Cəmaləddinə məşhur alman alimi Henrix Heynenin aşağıdakı sözlərini də şamil etmək olar:

"Doğrusu, bilmirəm ki, mənim məzarım bir vaxt gül dəstələrilə bəzənməyə layiqdir, ya yox. Lakin, siz, mənim məzarım üzərində qılınc qoymalısınız. Çünki mən, insanlığın azadlığı uğrunda gedən müharibədə qəhrəman bir əsgər olmuşam". (102, s. 3). Ömrünü Şərq xalqlarının azadlığı uğrunda, bütün müsəlmanların birliyi yolunda mübarizəyə həsr etmiş Azərbaycan filosofu Seyid Cəmaləddin Əfqani 1838-ci ildə Həmədanın Əsədabad kəndində nüfuzlu din xadimi Seyid Səfdərin ailəsində dünyaya gəlmişdir. O, atasının işləri ilə əlaqədar kiçik yaşlarında Əfqanıstana köçmüş, Kabildə mükəmməl dini təhsil almışdır. Əfqanıstan mübarizələrlə dolu günlərini yaşadığı illərdə ölkənin

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

müstəqilliyi uğrunda çalışan Əmir Dost Məhəmməd qələbə qazandıqdan sonra Seyid Cəmaləddini yanında xidmət etməyə götürmüş, qısa müddətdə Baş vəzir vəzifəsinə təyin etmişdir. Lakin ölkədə vəziyyət dəyişdikdə, yəni Əmir Dost Məhəmməd vəfat etdikdən sonra oradan uzaqlaşdırılmışdır. "Əfqani" təxəllüsünü isə özünün dediyi kimi təqibdən qurtarmaq üçün sonralar qəbul etmişdir. Onun milliyyətcə azərbaycanlı olduğu artıq mötəbər mənbələrə əsasən sübuta yetirilmişdir.Əfqanıstanın İranda ilk səfiri olmuş sərdar Əbdüləziz xan Əfqanıstan istiqlaliyyət qazandıqdan və İngiltərənin əsarətindən qurtulduqdan sonra, yəni 1919-cu ildə, İrana gələrək, uzun müddət İranda olmuş əmisi, eyni zamanda qaynatası olan Sərdar İsgəndər xandan eşitdiklərini İran alimi Mehdi Bamdada söyləmişdir: M. Bamdad yazır: " Bir dəfə Sərdar Tehranda olan Seyid Cəmaləddindən soruşur ki, siz nə üçün özünüzü "Əfqani" kimi tanıtmısınız? Mən Əfqanıstanda olan bütün məşhur ailələri çox yaxşı tanıyıram və siz Əfqanıstanda yaşayan ailələrin heç birindən deyilsiniz! Seyid Cəmaləddin İsgəndər xanın sualına cavab verərək demişdir: "İran dövlətinin xarici ölkələrdə nümayəndələri vardır, onlar mənim həyata keçirmək istədiyim işlərə mane ola bilər və məni həbs edə bilərlər. Bu səbəbdən "Əfqani" olmuşam. Əfqanıstanın isə heç bir yerdə siyasi nümayəndəsi yoxdur və mən öz işlərimi arxayın həyata keçirə bilərəm, heç kəs də məni narahat etməz".

İngilis şərqşünası Eduard Braun Seyid Cəmaləddinin Əfqanıstan əhalisindən olduğu fikrinə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

şübhə ilə yanaşmış, "İnqilabi-İran" əsərinin 3-cü səhifəsində yazmışdır: "Bu müddəa bütün iranlılar, eləcə də general Hautun Şindler kimi böyük tarixçi tərəfindən təsbit edilmişdir ki, o, Kabil yaxınlığında yerləşən Əsədabadda doğulmamışdır və qəti olaraq İranın Həmədan şəhərində, Əsədabad kəndində təvəllüd tapmışdır. Elə bu səbəbdən də özünün dediyi kimi, Əfqanıstanda 1857-ci il və 1868-ci illərdə baş vermiş siyasi hadisələrdə iştirak etməmişdir. Çox güman ki, o, əslən iranlı olduğundan, sünni əhali yaşayan mühitdə asayiş və ruzgarını, əmniyyətini bərqərar etmək istədiyi üçün "Əfqani" olmağı qəbul etmişdir. Digər tərəfdən bununla o, güvənmədiyi İran hökümətinin qısnamalarından uzaqlaşmış olurdu". (71, c. 1, s. 258).

Seyid Cəmaləddindən qalmış və ona verilmiş pasport-vizalar da onun İran təbəəsi olduğunu təsdiq edir. Bu iki pasport ona hələ "əfqani" kimi tanınmadığı zaman verilmişdir. Seyid Cəmaləddin ömrünün son illərində, yuxarıda göstərilən səbəblərə görə "Əfqani" ünvanını özü üçün seçmişdir.

İran dövlətinin xaricilərə verdiyi imtiyazların əleyhinə çıxan Seyid Cəmaləddin dəfələrlə müxtəlif vaxtlarda Rusiya, Əfqanıstan, Misir, Hindistan, Türkiyədə və digər Avropa ölkələrində, bu ölkələrin ictimai-siyasi hadisələrinin iştirakçısı olmuşdur. O, XIX əsrin II yarısında Şərqin məşhur şəxsiyyəti kimi nəzər-diqqəti cəlb etmiş, eyni zamanda Qərbdə də tanınmışdır. Seyid Cəmaləddinin din xadimləri və mədrəsə tələbələrinin arasında yaydığı məktublarda avropalılara verilən imtiyazların yolverilməz və nöqsanlı olduğu

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

göstərilir, tənqid edilirdi. Bu kağızlardan bəzisi ələ keçirilərək, Nəsrəddin Şaha çatdırıldıqda bu, müqəddəs Şah Əbdüləzimdə bəst əyləşmiş Seyidin həbs edilərək, İraqi-Ərəbə sürgün edilməsi ilə nəticələnmişdi. Ümumiyyətlə, onun həyatının çox hissəsi sürgündə, xarici ölkələrdə keçmiş, orada yaşadığı müddətdə daim öz kəskin məzmunlu nitqləri ilə çıxış etmiş, məktubları ilə Şərq və Avropa alimləri ilə əlaqə saxlamışdır. Nəsrəddin Şahın icazəsi ilə onun İrana gətirilməsində yaxından iştirak etmiş tarixçi alim Etimaddüssəltənənin "Ruznameyi-xatirati-Etimadüssəltənə" əsərində bu haqda zəngin məlumat vardır. O cümlədən Avropa alimlərindən E. Braun, Vilfrid Blunt maraqlı faktlarla şıxış etmişlər. (71, c. 1, s. 268-275).

Seyid Cəmaləddin mühacirətdə olarkən iki dəfə İrana gəlmişdir. O, birinci dəfə 1886-ci ilin əvvəllərində Nəsrəddin Şahın teleqramı ilə dəvət olunmuş, Tehrana gəldikdən sonra şah onu Hərbi Nazirliyə təyin etmişdir. Maraqlı burasıdir ki, bu barədə məlumata yalnız Corci Zeydanin "Məşahirül- Şərq" kitabında rast gəlirik. (71, c. 1, s. 266-267).

Seyid Cəmaləddinin İrana ikinci səfəri 1889-cu ildə baş tutmuş, lakin buradan sürgün olunması ilə nəticələnmişdir. Tehranda olarkən camaat dəstə-dəstə onun yanına gəlir, onun dərin məzmunlu, fəlsəfi çıxışlarını dinləyirdilər. Deyirlər ki, hər kəs onun məclisdə söylədiyi nitqini bir dəfə eşitsə idi, valeh olurdu. Onu dinlədikcə insanların gözləri açılır, insanlar ayılırdılar. İngiltərənin xarici işlər naziri ser Ronald Tomson vaxtilə İranda olarkən (1879 iyul-1887 noyabr)

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Nəsrəddin Şaha bildirmişdi ki, nəbadə Seyidi Tehrana qoysun, vaxtilə Misirdə iğtişaşlara o bais olmuşdur. Qeyd etmək lazımdır ki, Seyid Misirdə olduğu zaman dostu Şeyx Məhəmməd Əbdəhlə milyonlarla insanın qiyamına başçılıq etmişdir. Nəticədə o, Misirdən çıxarılaraq Hindistana, oradan isə Londona, sonra Parisə getmiş, 3 il orada yaşamışdır. Parisdə o, yenidən Şeyx Məhəmməd Əbdəhlə rastlaşaraq ərəb dilində həftəlik "Ürvətül-vüsqa" (Möhkəm əlaqə) adlı siyasi məzmunlu qəzeti nəşr etməyə başlamışdır. Qəzet ingilislər tərəfindən qadağan edilmişdi. Seyid Cəmaləddin Parisdə yaşadığı 3 il müddətində fransız dilini mükəmməl öyrənmişdir. O, İngiltərə, Rusiya, Türkiyə və Misir qəzetlərində müxtəlif dillərdə siyasi məqalələr dərc etdirirdi.

E.Braun "İnqilabi-İran" kitabında Seyid Cəmaləddinin İrandan sürgün edilməsi hadisəsini təsvir edərək yazır ki, şahın verdiyi qərarı yerinə yetirmək üçün işə başladıqda onun pənah gətirdiyi və bəstə oturduğu məşhur müqəddəs Şah Əbdüləzimin ətrafında 500 atlıdan ibarət olan divar səddi çəkildi. Xəstə halda olan Seyidi yataqdan çıxarıb, mühafizə dəstəsi ilə Osmanlı sərhəddinə tərəf apardılar. Bu hal ona sitayiş edənlərin böyük həyəcanına səbəb olmuşdu. (71, c. 1, s. 275).

Seyid Cəmaləddin İrandan sürgün olunduqdan sonra Bəsrədə yaşamış, orada qaldığı qısa zaman ərzində bir dəfə Londona getmiş, orada özü, həmçinin başqalarının köməyi ilə ingilis və ərəb dillərində aylıq "Ziyaül-xafiqin" adlı məcəllə nəşr etməyə başlamışdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məcəllənin hər sayında İran həyatını realistcəsinə əks etdirən və “İranda terrorun təntənəsi” adı ilə yazdığı məqalələrini “Seyid” yaxud “Seyid-əl-Hüseyni” imzası ilə dərc etdirirdi. O, Misirdə də bu imza ilə tanınırdı. Qeyd etmək lazımdır ki, Seyid Londonda olduğu müddətdə bir neşə mitinq təşkil etmişdi.

Ingitərənin görkəmli şəxsiyyətləri Seyid Cəmaləddinin qabil insan olduğunu etiraf etməklə yanaşı, onu qorxulu adam hesab edirdilər. Onun islam aləmində yeri, Mehdi Sudani ilə münaqişəsi ingilis alimlərini vadar etmişdi ki, Seyid Cəmaləddinlə görüşsünlər. Ingiltərənin görkəmli siyasi xadimi, liberalların lideri V.E. Qladston belələrindən idi.

Seyid Cəmaləddin 1885-ci ildə “Ürvətül-vüsqa”nın nəşri dayandırıldıqdan sonra yenidən Londona qayıtmış, qısa müddət keçdikdə Rusiyaya getmişdir. O, Londona islam dini rəhbərləri ilə ingilislər arasında həmrəylik münasibətini öyrənmək məqsədilə gəlmişdi. Görüşlər və söhbətlər əsnasında bir çox siyasi əqidəli insanlarla tanış olmuşdu. Seyid Cəmaləddin Türkiyə sultanı II Əbdülhəmidi Osmanlı-İran müqaviləsini, Əfqanıstanı isə Rusiya əleyhinə müqaviləni bağlamağa razı salmağa çalışırdı. Bu məqsədlə Londonda tanış olduğu Volfla İstanbula getmək istəyirdi. Lakin onun bu planı, müsəlmanları birləşdirmək cəhdi baş tutmur və o, Rusiyaya yola düşür, orada “Moskva” qəzetinin redaktoru Katkovla tanış olur. Məhz bu zaman Seyid Avropa səfərində olan Nəsrəddin Şahın dəvətinə baxmayaraq onunla görüşə getməmişdi. Lakin Münxendə olarkən onunla şah arasında görüş baş

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

tutmuş, 1889-cu ilin noyabrında şahın istəyi ilə II dəfə İrana dəvət olunmuşdu. O, burada insanları ətrafına toplayaraq geniş nitqlər söyləyirdi. Bu nitqlər nəsitəhamiz, hikmətli idi, mütəfəkkir filosofun fəlsəfi məna daşıyan çıxışları idi. Bunların bəzisi ərəb, bəzisi isə fars dillərində yazılırdı. Seyid Cəmaləddin dövrünün fazil və alim şəxsiyyəti idi. Cəsur və şücaətli idi, hara ayaq basırdı, orada həyəcanlar yaradırdı. Onun nəfəsi demək olar ki, hər kəsə çatırdı. 1890-cı ilin qış ayında qısa bir müddətdə İrandan Bəsrəyə sürgün olunan Seyid Cəmaləddin tezliklə oradan Londona getmiş, 1892-ci ilin may ayında oradan İraqi-Ərəb və İran üləmalarına ünvanlanmış ərəb dilində bir məktub göndərmişdi.

Osmanlı sultanı II Sultan Əbdülhəmid 1892-ci ilin sentyabr ayında Londonda olan Seyid Cəmaləddini İstanbula dəvət edərək öz iqamətgahına yaxın olan Nişantaşda mənzil vermişdir. Beləliklə o, ömrünün qalan illərini Türkiyədə yaşadı. (1892-1897)

Seyid Cəmaləddin 1896-ci ilin mayın 1-də Nəsrəddin Şaha edilmiş sui-qəsddə şübhəli şəzs kimi həbs olunaraq Yıldız qəsrinə salındı. Orada mühakimə olunsa da, onun bu cinayətdə iştirakı barədə dəlil tapılmadı və azad edildi. Iran hökuməti onun ölkəyə qayıtması barədə göstəriş verdi. Lakin o getmədi və Osmanlı dövləti də onu təslim etməkdən qəti imtina etdi. Seyidin son məktubu Yıldız qəsrində yazılmışdır.

Seyid Cəmaləddinin 1897-ci ilin mart ayında bağırsaq xərçəngindən vəfat etdiyi barədə olan məlumat şübhəlidir. Deyilənə görə onu müalicə edən həkim Əbülhüda Seyidin zəhərləndiyini bildirmişdir. Micer

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Pillot Moryerin "Hacıbaba İsfahani" kitabına müqəddiməsində yazır: "Şahın taleyi sultanı (Əbdülhəmidi-H.T.) qorxuya saldı. Yuxarıda adı çəkilən Seyid Cəmaləddin bir fincan qəhvə içib, qəflətən dünyasını dəyişdi. Bu məlumat mənə məxfi olaraq iranlılar tərəfindən yetişmişdir ki, o, İstanbulda öz evində vəfat etmişdir. Lakin sonralar mənə bu barədə danışan iranlıları görə bilmədim". (71, c. 1, s. 280).

Seyid Cəmaləddin Əfqani əvvəlcə Türkiyədə, Nişantaş yaxınlığında dəfn olunmuşdur. 1944-cü ildə isə Əfqanıstan dövlətinin tələbi ilə Seyidin sümükləri Kabilə aparılmışdır.

Azərbaycan mütəfəkkiri "ümumi müsəlman aləminin siyasi xadimi, inqilabçı, türkçülüyün nəzəriyyəçisi" (M.Ə. Rəsulzadə) Seyid Cəmaləddin ərəb, fars, türk dillərini və Avropa dillərindən bəzilərini bilirdi. Ona görə də hansı ölkədə olursa-olsun, o xalqa müraciət edir, fikirlərini, amalını çatdıra bilirdi. O, yeni Şərq tarixində insanları azadlığı çıxaran birinci şəxs idi. Seyid Cəmaləddin dini təhsil almışdı, lakin onun tələb etdiyi elm şəriət elmi "elmi-ədyan" deyildi, dünyəvi elmlər idi. O, bütün elmi mübahisələrdə deyirdi: "elmə və mədəniyyətə ən yaxşı və ən doğma din islam dinidir". Böyük mütəfəkkir H. B. Zərdabi göstərirdi ki, islam dini elm dinidir. (10, s. 14).

Seyid Cəmaləddin dəfələrlə Kərbəla və Nəcəfin şiə alimlərinin rəhbərləri ilə görüşmüş, İranın bütün nöqtələrində olmuşdur. Seyid ümid edirdi ki, əgər islam millətləri birləşsələr, yer üzünün millətləri onlarla müxalif olmazlar və o çıxışlarında müsəlmanları Əli və

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Ömər kəlmələrinə münasibətdə ixtilafı kənara qoymağa çağırırdı. Ona görə də əqidəsindən asılı olmayaraq kütlə onu sevir, müdafiə edirdi.

Seyid Cəmaləddin səbatlı, sözünün üstündə duran bir insan kimi, öz tutduğu yolda axıradək öndə getdi. Onun proqramının bir hissəsini avropalıların Şərqə uzanan əllərini kəsmək, onu zəbt eləmək cəhdlərinin qarşısını almaq təşkil edirdi. Bunun üçün Avropadan öyrənməyin zəruri olduğunu da göstərir və bu fikri ilk dəfə söyləyən də özüdür. O, Avropaya meyli islami dəyərlər üzərində yüksəlməkdə görürdü. Son illər onun haqqında bir sıra elmi-araşdırmalar aparmış tədqiqatçı-alim, professor Şamil Qurbanov yazır: "Onun siyasi modelinə görə Avropaya meyl, həm Şərq ölkələrini Avropanın istismarından xilas edəcək, həm də Avropanın yeniliyini çəkib, Şərqə gətirəcək, yerli xalqda milli şüuru, milli mənliyi yüksəldəcək". (10, s. 17).

Seyid Cəmaləddin müxtəlif ölkələrin dövlət başçıları ilə görüşməklə öz məqsədinə nail olmağa çalışırdı. Lakin onun dövlət üçün təhlükəli adam olduğu hiss edildikdə dərhal həmin ölkədən uzaqlaşdırılır, sürgün edilirdi. XIX əsrin sonlarında Seyidin iki dəfə İrana dəvət edilib, sonra sürgün olunması İran mütləqiyyətini ifşa etmiş oldu.

Seyid Cəmaləddinin tərəfdarları çoxalırdı. Lakin o və onun məsləkdaşları bir zalım şahı, digər ədalətli şahla əvəz etmək məqsədinə nail olmaq üçün mübarizə aparırdılar. Tədqiqatçı alim, tarix elmləri doktoru T.A. İbrahimov göstərir ki, Cəmaləddinin dünyagörüşündə sinfi anlayış yox idi. Ona görə də ölkəni zülmdən, xarici

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

imperialist dövlətlərə imtiyazlar verərək dövləti talayan nazirlərdən, şahlardan xilas etməyin yolunu bütünlüklə sistemi dəyişməkdə deyil, zülmkar şahı, ədalətli şahla əvəz etməkdə görürdülər. (30, s. 81; 27, s. 18).

Seyid Cəmaləddin son məktubda öz səhvini başa düşərək bu barədə yazırdı: "Uzun müddət mübarizə aparsam da mənim faydalı təkliflərimin heç biri şahlar tərəfindən qəbul olunmadı. Kaş mən öz faydalı fikirlərimi çürümüş, çirkin saraylarda yox, xalq kütlələri içərisində yaymağa çalışaydım. (30, s. 82).

Mehdi Bamdad "Tarixi-ricali-İran" əsərində Seyid Cəmaləddinin yalnız iki kitabının adını çəkir.

1. "Həqiqəti-məzhəbi-Niçəri və bəyani-hali niçəriyan".
2. "Tətimmətül-bəyan fi tarix əl-əfqan".

Hər iki əsər daşbasma üsulu ilə çap olunmuşdur. Iranda və Əfqanıstanda onun həyat və fəaliyyətini əks etdirən bir sıra kitablar da işıq üzü görmüşdür. Azərbaycanda haqqında bir sıra məqalələr yazılmış, onun seçilmiş əsərləri ərəb dilindən tərcümə olunaraq çap edilmiş, Ş. Qurbanov "Seyid Cəmaləddin və türk dünyası" kitabını yazıb nəşr etdirmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏDHƏSƏN XAN MARAĞAİ

Tehran Darülfününunun (1851) ilk yetirmələrindən biri olan görkəmli tarixçi-coğrafiyaşünas alim, dilçi, tərcüməçi marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə 1843-cü ildə Tehranda anadan olmuşdur.

Məhəmmədhəsən xan böyük islahatçı, sədri-əzəm Mirzə Tağı xan Əmir Kəbirin 1851-ci ildə Tehranda təsis etdiyi Darülfünunun ilk məzunlarındandır. Darülfünunun hərbi xidmət mədrəsəsində təhsil almış, tarix, coğrafiya, rəsmxətt, riyaziyyat elmlərini, fars, ərəb, ingilis və rus dillərini öyrənmişdir. Darülfünunu dörd medalla: qızıl, gümüş, bürünc və qızıl suyuna çəkilmiş medalla bitirmişdir. 9 yaşında hərbi xidmətə başlamış Məhəmmədhəsən xan (o, piyada qoşunlar komandanı Əziz xanın yanında qulluq edirdi-H.T.) 1859-cu ildə atası Əli xan İranın Xuzistan və Luristan əyalətlərinə hakim təyin olunduqda onunla birlikdə orada, sərhəng

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

(polkovnik) rütbəsində polk komandiri kimi xidmət etmişdir.

1863-67-ci illərdə Parisdə təhsilini fransız dilində davam etdirən Məhəmmədhəsən xan Tehrana qayıtdıqdan sonra II dərəcəli Şiri-xurşud ordeni almış, Nəsrəddin Şahın şəxsi tərcüməçisi və müşaviri təyin olunmuşdur.

O, XIX əsrin II yarısında İran tarixində ictimai və dövlət xadimi kimi görkəmli yer tutur. Həmin dövrün tanınmış siyasi xadimlərindən Seyid Cəmaləddin Əfqani, Əli xan Əminüddövlə, Mirzə Yusif xan Təbrizi və başqaları ilə yaxşı münasibətdə, onlarla həmfikir və sıx əlaqədə idi və 25 il Nəsrəddin Şahın şəxsi mütərcimi olaraq, dövlətin yüksək səlahiyyətli bir şəxsiyyəti kimi yeri gəldikcə onlara yaxından kömək edirdi. (30, s. 70). 50-dən artıq tarixi-coğrafi, elmi və tərcümə əsərlərinin müəllifi olması onun dünyanın bir sıra dövlətlərində tanınmasına səbəb olmuşdir. Avropa ədəbiyyatından etdiyi tərcümələri İran oxucusunu ilk dəfə olaraq Molyer, Moryer, Jül Vern, Daniel Defo və başqa yazıçılarla tanış etmişdir. O, bir çox xarici ölkələrin elmi cəmiyyətlərinə üzv seçilmişdir, o cümlədən 1878-ci ildə Paris Coğrafiya Cəmiyyətinin, 1885-ci ildən Fransa-Asiya Cəmiyyətinin, 1888-ci ildən Londonda Britaniya Krallığının Asiya Cəmiyyətinin, İmperator Rus Arxeoloji Cəmiyyətinin üzvü kimi bu cəmiyyətlərlə daima əlaqə saxlamış, İranda çap olunan kitabların Avropada yayılması üçün müəyyən işlər görmüşdür. Məhəmmədhəsən xan İranda Tərcümə və Nəşriyyat idarəsini yaratmış, sonra bu idarənin əsasında Nəşriyyat

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

nazirliyi təsis etmiş, ömrünün sonuna qədər İranın Nəşriyyat naziri vəzifəsində fəaliyyət göstərmişdir.

Məhəmmədhəsən xan tarixin dərin qatlarına gedən məşhur nəslin nümayəndəsidir. O, Hacı Əli xanın oğlu, Hüseyn xan Müqəddəm Marağainin nəvəsidir. Hüseyn xan isə Azərbaycan bəylərbəyi Əhməd xan Müqəddəmin əmisi oğludur. Əhməd xanın atası Əli xan Müqəddəm atlı və piyada dəstələri ilə Nadir Şahın Hindistan yürüşündə iştirak etmiş, oğlu Əhməd xan Müqəddəm isə Sadıq xan Şəqqaqidən sonra Fətəli Şah zamanında Azərbaycanın bəylərbəyi olmuşdur. O, ermənilər İrəvanda qarışıqlıq salan zaman vali kimi oraya göndərilmiş və iğtişaşı yatırmağa nail olmuşdur. Əhməd xanın oğlu Hüseyn Paşa xan Heratın mühasirəsində öz qoşunu ilə qalaya daxil olan birinci sərkərdə idi (1837-ci il) Yuxarıda qeyd olunduğu kimi 1837-ci ildə İranın diplomatik nümayəndəsi kimi Paris və London səfirliklərində fəaliyyət göstərmiş Hüseyn xan Nizamüddövlə Müqəddəm də bu tayfadandır. Hal-hazırda Zəncanda yaşayan Müqəddəm ailə və tayfaları bu nəsildəndir. (73, s. 170).

Məhəmmədhəsən xan Etimadüssəltənənin ictimai-siyasi fəaliyyəti mövzusunda namizədlik işi yazılmış, əsərləridə Azərbaycan tarixi məsələlərindən bəhs edən kitab nəşr olunmuşdur. 2001-ci ildə çapdan çıxmış "Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin əsərlərində Azərbaycan tarixi məsələləri" adlı monoqrafiya alimin ictimai-siyasi fəaliyyətini geniş surətdə işıqlandırdığı üçün burada ondan qısa bəhs

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

etmək məqsədəuyğun hesab edildi. Məhəmmədhəsən xan 1896-ci ildə vəfat etmişdir.

Onun "Ruznameyi-xatirati-Etimadüssəltənə" adlı gündəliyinin avtoqraf nüsxəsi Məşhəd şəhərində Astani-Qüdsi-Rəzəvi" kitabxanasında saxlanır. Əsər ilk dəfə 1966-cı ildə İrəc Əfşarın müqəddiməsi ilə Tehranda çap olunmuşdur. 1216 səhifədən ibarət olan bu gündəlik dövrün bir sıra mühüm ictimai-siyasi hadisələrini əks etdirən dəyərli mənbə, ümumiyyətlə XIX əsr İranının güzgüsüdür. Məhəmmədhəsən xanın 4 iyul 1875-ci ildən 15 fevral 1876-cı ilədək və 18 mart 1881-ci ildən 29 mart 1896-cı ilədək yazdığı "Ruznameyi-xatirati-Etimadüssəltənə" İranda yaranmış memuar ədəbiyyatın ilk nümunələrindən biridir. Bu cəhətdən təzkirə yazanların nəzər-diqqətini cəlb etmiş, burada öz əksini tapmış tarixi məlumatlar mühüm məxəzlərdən olmuşdur. Iran alimi Mehdi Bamdad "Yarixi-ricali-İran" adlı bioqrafik əsərini yazarkən Etimadüssəltənənin bu gündəliyinə tez-tez müraciət etmiş, tarixi hadisələri orada əksini tapmış faktlarla işıqlandırmışdır. Ruznaməyə əsasən müəllifin digər mənbələrdə rast gəlmədiyimiz on əsəri müəyyənləşdirilmiş, tarixi mənbə kimi qiymətli olduğu üçün aşağıda adları çəkilir.

1. Politiki-haliyyeyi-rus və ingilis dər Asiya. (70, s. 457).
2. Tarixi-çehelo-do-saleyi-səltənəti-şah. (70, s 694).
3. Tarixi-xanevadeyi-Romanov. (70, s. 1150).
4. Tarixi-Səlmas. (70, s. 570).
5. Tarixi-süduri-Qacariyyə. (70, s. 917).
6. Tarixi-Mərv. (70, s. 1098).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

7. Tarixi-Məğrubül-əqsa. (70, s. 679, 697).
8. Tarixi-Sali-1269. (70, s. 582).
9. Tur de Mond.(tərcümə) (70, s. 957).
10. Hacı Baba (tərcümə, 70, s. 868, 874, 877).

Bu əsərlər tarixi hadisələrdən bəhs etməklə bərabər eyni zamanda müəllifin ictimai-siyasi baxışlarını işıqlandırdığı üçün əhəmiyyətlidir. Onun Fransanın o zaman çox məşhur, tanınmış yazıçısı olan Pol de Kokdan tərcümə və tədbil etdiyi "Əlhimar..." əsəri Tehranda işıq üzü gördükdən sonra siyasi qalmaqala səbəb olmuş və Nəsrəddin Şaha çatdırılmışdı ki, bu əsəri nəşr etməklə Məhəmmədhəsən xan İran xalqının ağır vəziyyətini təsvir etmiş və onu şah hakimiyyətini devirməyə çağırmışdır. (61, c. 1, s. 267). Ümumiyyətlə Avropa dillərinə yaxşı bələd olan Məhəmmədhəsən xan Etimadüssəltənə İran oxucusunu bu ədəbiyyatın görkəmli nümayəndələrinin əsərləri ilə tanış edən ilk şəxslərdən hesab olunur. Onun "Ruznameyi-xatirati-Etimadüssəltənə" əsəri belə faktlarla zəngindir. Bu gündəlikdən məlum olur ki, "Əlhimar..." əsərinin nəşri ilə baş vermiş narahatçılıq keçdikdən sonra "Xatirati-madmuazel Dü Mont Pansiyer"i tərcümə etmişdir. Əsər 14-cü Lui sarayının şahzadə xanımı olan savadlı, həssas və siyasi cəhətdən hazırlıqlı Dü Mont Pansiyernin Fransa sarayını tənqid və ifşa etməsini göstərir. (70, s. 1080). Bu əsərin nəşri də Məhəmmədhəsən xanın həyatını təhlükədə qoymuş, lakin Nəsrəddin Şahın ona bəslədiyi müsbət münasibət Məhəmmədhəsən xanı müxalif olan saray adamlarının bəzisindən qorumuşdur. (73, s. 181). "Ruznameyi-xatirati-Etimadüssəltənə"

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

müəllifinin ictimai-siyasi baxışlarını əks etdirir və dövrünün aynasıdır.

Etimadüssəltənə sarayda yüksək vəzifə daşımasına baxmayaraq sadə həyat sürmüş, firavan yaşamamışdır. O, bununla belə qəzet və kitab nəşrinə maddi köməyini əsirgəmirdi. O, başçılıq etdiyi Darültərcüməyə hər il öz cibindən min tümən pul verirdi ki, bu da xarici ölkələrdən İrana gətirilən texniki və s. kitabların tərcüməsi işinə yardım edirdi. Maddi ehtiyac üzündən sonralar şahın ona bağışladığı Həsənabad kəndini satmağa məcbur olmuşdu. (70, s. 1145).

İranda Rusiya və İngiltərə kimi imperialistlərin mühüm obyektlərin (bank, gəmiçilik, istiqraz) ilhisarını ələ keçirdiklərini görən Məhəmmədhəsən xan bunlara öz etirazını "Politiki-haliyyeyi-rus və ingilis dər Asiya", Risaleyi-məayebi-ingilis" kimi əsərlərində bildirmişdir. O deyirdi: "Əgər bizim ruslarla işləməyə qabil vəzirimiz olsa, çox faydalana bilərik. Təəssüf ki, xarici işlər vəzirimiz ingilispərəstdir. Görkəmli dövlət xadimlərimizin əksəriyyəti ingilisin nökərləridir. Şaha söyləmişəm ki, nəbadə İranı büsbütün ingilislərə təslim edə. İndi ruslardan da ehtiyat etmək lazımdır. Mən rusların dostu kimi tanınmışam... Lakin məmləkətin bir barmaq boyda torpağını belə onlara verməərəm. (70, s. 13). Məhəmmədhəsən xan Nəsrəddin Şahın tapşırığı ilə Türkiyə, Rusiya və İngiltərənin İranda fəaliyyət göstərən diplomatik korpusunun nümayəndələri ilə müxtəlif məsələlərlə əlaqədar olaraq vaxtaşırı görüşlər keçirir ki, bu da onun siyasi cəhətdən tanınmış və nüfuzlu diplomat olduğunu göstərir. (70, s. 461).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Onun qazandığı hörmət və nüfuzu isə baş nazir Əminüssultanda qısqanclıq hissi yaradırdı və o, Məhəmmədhəsən xanı izləyir, ardınca casuslar gəzdirirdi. (70, s. 924).

## SEYİD CƏMALƏDDİNƏ VƏ MİRZƏ YUSİF TƏBRİZİYƏ MÜNASİBƏT

Məhəmmədhəsən xan Etimadüssəltənə Seyid Cəmaləddinlə görüşü barədə yazır: "1308, 20 səfər, təziyədən sonra həzrət Əbdüləzm ziyarətinə getdim. Ziyarətdən sonra fatihə vermək üçün qızımın məqbərəsinə girdim. Seyid Cəmaləddin oradan keçirdi. Məni gördü və məqbərəyə girdi. Təxminən yarım saat söhbət etdik. Sonra şəhərə qayıtdım". (70, s. 786).

Gündəlikdə Seyidlə evində görüşdüyü barədə məlumat da verilmiş, onun İngilislərin tələbi ilə İranı tərk etdiyi göstərilmişdir. O yazır:

"Seyid Cəmaləddinin qaldığı evdə onu hörmətli seyidlər əhatə edirdilər". (70, s. 825).

Görkəmli ictimai-siyasi xadim Mirzə Yusif xan Təbrizi İran nazirliklərində baş verən yarıtmaz işləri tənqid edir, bu barədə İstanbulda nəşr olunan "Əxtər" qəzetində kəskin çıxışlarla məqalələr dərc etdirirdi. Bu yazılarına görə həbs olunmuş Mirzə Yusif xanın vəziyyəti

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məhəmmədhəsən xanın daim diqqətində olmuşdur və bunu gündəlikdə olan qeydlər göstərir. O yazır: "1299, 12 zilqədə, çağırılmış məhkəmə üzvləri gəldilər, Müşirüddövlə mənim yanımda şaha ərz elədi ki, bu iş Yusif xan Müstəşarüddövlənin işidir. Müqəssir hesab olunan bu biçarə bugün həbs olundu. Allah onun aqibətini xeyir eləsin". (70, s. 217-218). Məhəmmədhəsən xan Mirzə Yusif xanı həbsdən qurtarmaq üçün yaxın dostu, tərəqqipərvər dünyagörüşlü, maarifçi Mirzə Əli xan Əminüddövlə ilə görüşmüş, onunla birlikdə tədbir tökərək, iki aydan sonra onu həbsdən azad etdirmişdir. Bundan sonra Mirzə Yusif xan Azərbaycanın Xarici İşlər müdiri vəzifəsində çalışmışdır. (71, c. 4, s. 492).

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Məhəmmədhəsən xanın 16 cild əsəri mühafizə olunur.

Tarixçi-coğrafiyaşünas alim Marağalı Məhəmmədhəsən xan əsərlərini fars dilində yazmışdır, yalnız üç cildlik "Xeyrat-i-hesan" türkcədən tərcümədir. Avropa ölkələrinə səyahət (1873, 1878, 1889-cu illər), o ölkələrdəki xalqların adət və ənənələri, dil və ədəbiyyatı ilə tanışlıq Məhəmmədhəsən xana iri həcmli əsərlər yazmaq üçün çoxsaylı mənbələrə müraciət etməyə, tutduğu vəzifəsi isə dövlət sənədlərindən istifadə etməyə imkan yaradırdı. Bu cəhətlər onu İran tarixşünaslığında Avropa elmi metodunun banisi kimi ümumən XIX əsr İran tarixçilərindən fərqləndirir. (113, s. 92-100, 160, 538). İranda Avropa ədəbiyyatının yayılmasında onun böyük xidmətləri olmuşdur. O, əsərlərini fars dilində

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yazmaqla, Firudin bəy Köçərlinin dediyi kimi, "Ümumiran əhalisinin boynuna böyük minnət qoyubdur". Tarixçi alim Məhəmmədhəsən xan yaradıcılığını üç istiqamətdə davam etdirmişdir:

1. İri həcmli tarixi-coğrafi əsərlər yazmışdır. Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda onun 4 cildlik "Miratül-bildane-Nasiri" ("Nasiri şəhərlərinin aynası"), 3 cildlik "Mətləüs-Şəms ("Günəşin çixması" vəya "Günçıxan"), 3 cildlik "Dirər-it-tican fi tarix-e-vəni əl-əşkan" ("Əşkanilər tarixində dürlər toplusu"), "əl-Məasir və-l-asar" və başqa əsərləri saxlanılır.

2. Tərtüməl əri. Avropanın Pol de Kok kimi məşhur yazıçılarının əsərlərinin İran oxucusuna çatdırılmasında Məhəmmədhəsən xanın böyük xidmətləri olmuşdur. Bu tərcümələrdə onun ictimai-siyasi baxışları ifadə olunmuşdur. Təsadüfi deyil ki, Fransanın XIX əsrdə ən məşhur romannəvis yazıçısı sayılan Pol de Kokun siyasi məzmunlu "Məntiqül vəhş və ya əl-himar yəhmilül əsfarən" (Heyvanın məntiqi və ya kitab yüklü eşşək") əsərini tərcümə və təbdil etməklə həyatını təhlükə altında qoymuşdu. Bu, Tehranda iki dəfə, 1306 və 1320-ci ildə anonim əsər kimi nəşr olunmuşdur. Bu sətirlərin müəllifi 1989-cu ildə bununla əlaqədar tədqiqat aparmış və Etimadüssəltənənin həmin əsərin müəllifi olduğunu tarixi faktlarla sübuta yetirərək mətbuatda çıxış etmişdir. Nəhayət əsər 2000-ci ildə Tehranda Etimadüssəltənəyə aid olduğu kitab kimi çapdan çıxmışdır.

Etimadüssəltənənin fransız və ingilis dillərindən farscaya tərcümə etdiyi digər əsərləri də məlumdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Fransız dilini kamil bilən alim Fransa ədəbiyyatını və mətbuatını Nəsrəddin Şaha birbaşa oxuyurdu.

3. Dilçi-alim kimi fəaliyyət göstərmiş, "Lüğəti-ərəbi be-farsi", "Qrammere fransəvi", "Mükalime əz franse be fransi" və başqa əsərləri yazmışdır. Ümumiyyətlə, Etimadüssəltənənin 50-dən artıq elmi, bədii əsəri məlumdur.

Məhəmməd xan ictimai fəaliyyətinə görə bir çox dövlətlərin orden və medalları ilə təltif olunmuşdur. O, Fransa Elmlər Akademiyası (1878), Yaponiya (1881), Osmanlı dövləti (1883), Bavariya (1889), İngiltərə, Belçika və Rusiya dövlətlərinin orden və medallarına layiq görülmüşdür.

Məhəmmədhəsən xanın sarayda yüksək vəzifələrdə çalışması, onun elmi, ictimai və siyasi fəaliyyətinə mane ola bilməmişdir. Dövrünün baş verən ictimai-siyasi hadisələrinə biganə qalmayan alim eyni zamanda öz evində elmi cəmiyyət təşkil etmiş, əsərlərində yeri gəldikcə həm bu məsələlər, həm də görkəmli şəxsiyyətlər, o cümlədən azərbaycanlı alim və ictimai-siyasi xadimlər haqqında məlumat vermişdir. (Seyid Cəmaləddin Əfqani, Mirzə Yusif Təbrizi və b.)

Ensiklopedik biliyə malik olan alim Məhəmmədhəsən xan Etimadüssəltənənin əsərləri, xüsusən Azərbaycan tarixinin bu və ya digər səhifələrini işıqlandıran dəyərli mənbələrdən hesab olunur. Onun "əl-Məasir vəl-asar" əsəri Cənubi Azərbaycanda yaşamış alim şair, xəttat və diplomat haqqında məlumat verməklə onları tarix səhifələrində yaşatmışdır. Məhz Etimadüssəltənə "Dürər üt-tican fi tarixi-bəni əl-Əşkan"

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əsərində e.ə. 328, eramızın 30-cu illərində Azərbaycanda mövcud olmuş dövləti (Atropatena sülaləsini) İran dövləti hesab etməmiş, onun müstəqil şahlıq olduğunu göstərmişdir. (63, s. 138-139). Onun 4 cildlik "Miratül-buldani-Nasiri", "əl-Məasir vəl-asar" və digər əsərlərində Azərbaycan tarixi, bu torpağın görkəmli şəxsiyyətləri haqqında dəyərli məlumatlar öz əksini tapmışdır. Etimadüssəltənə öz əsərlərində Bakı, Təbriz, Dərbənd kimi Azərbaycan şəhərləri haqqında qədim mənbələrin verdiyi məlumatı işıqlandırmışdır.

O cümlədən Azərbaycanın, adı Tövratda çəkilmiş qədim şəhəri olan Təbrizin tarixindən geniş bəhs etmiş, ilk dəfə olaraq bir sıra Avropa səyyahları və missionerlərinin bu şəhər haqqında yazdıqları "Səfərnamə"lərini fars dilinə tərcümə edərək "Mir atül-buldani-Nasiri" əsərində vermişdir. Bunlardan 1636-cı ildə Təbrizdə olmuş fransız səyyahı Jan Battisti Tavernyenin, 1673-cü ildə Təbrizdə olmuş fransız səyyahı Şardənin, 1801-ci ildə İngiltərə dövləti tərəfindən İrana göndərilərək Təbrizdə olmuş cənab Kinerin səyahətnamələrini, o cümlədən 1807-ci ildə I Napoleon tərəfindən İran sarayına təyin olunmuş diplomat cənab Tankuvanin, 1841-ci ildə Fransanın İrandakı səfirliyinin əməkdaşı, arxeoloq (Təxti-Cəmşidin rəsmini çəkmişdir-H.T.) cənab Flandin Fransəvinin, 1866-cı ildə İranda olmuş cənab Liklama Nijheltin və başqalarının səfərnamələrindən verilmiş tərcümələri göstərmək olar.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MAHMUD TƏBRİZİ

XIX əsrin I yarısında İranda banisi Şeyx Əhməd Əhsai olan şeyxilik təriqəti adlı, dini-siyasi cərəyan yaranmışdır. Bir çox nüfuzlu alimlər şiəlik məzhəbi əsasında yaranmış bu cərəyanın üzvləri olmuşlar. O cümlədən Nizamülüləma ləqəbli məşhur ədib Hacı Molla Mahmud Təbrizi, bu təriqəti qəbul etmiş alimlərdəndir. Mahmud Təbrizi vəliəhd Nəsrəddin mirzənin (Nəsrəddin Şah) müəllimi olmuşdur. 1837-ci ildə Qafqaza gələn Rusiya çarı I Nikolayın qarşılanma mərasimində iştirak etmiş Məhəmməd şah oğlu Nəsrəddin mirzəni və onun müəllimi Mahmud Təbrizini də buraya gətirmişdi.

1847-ci ildə Təbrizdə vəliəhd Nəsrəddin mirzənin hüzurunda Seyid Əli Məhəmməd Babın (1819-1850) müzakirəsi, (bəlkə də mühakiməsi) gedən zaman Mahmud Nizamülüləma da məclisin nüfuzlu şəxsiyyəti kimi burada iştirak etmişdir. Sonralar həmin məclisdə gedən müzakirə və mühakiməni əks etdirən əlyazması

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

risalə şəklində tərtib və nəşr edilmişdir. Həmin məlumat Hacı molla Mahmud Təbrizinin əlyazma nüsxəsinə, yəni öz xətti ilə yazdığı nüsxəyə əsasən nəşr edilərək yayılmışdır. Rzaqulu xan Hidayət "Rovzətüs-səfa" tarixi kitabının "Qacariyyə"cildində və Əliqulu mirzə Etimadüssəltənə "əl-Mütənəbbein" əsərində o məclis haqqında bu mənbəyə əsasən məlumat vermişlər. Məşhur alim Mahmud Təbrizi təxminən 1855-1856-cı illərdə vəfat etmişdir. Onun "Kitab-üş-şəhabüs-saqib fi rəddün-nəvasib" əsəri 1846-cı ildə Təbrizdə nəşr olunmuşdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## QÜRRƏTÜLEYN

Iran tarixində dərin iz qoymuş XIX əsrin 40-cı illərinin Babi hərəkatının qabaqcıl nümayəndələrindən biri əsl adı Fatimə, künyəsi Ümmi Səlimə olan Qürrətüleyndir. (1818-1852) Bəzi mənbələrdə onun adı Zərrintac kimi də yazılır. Qürrətüleyn 1233-cü ildə (1818) Qəzvində anadan olmuş və Hacı Molla Məhəmmədsaleh Bərəğaninin böyük qızıdır. Onun atası nüfuzlu və sağlam nəfsə malik müctəhid idi və həyatının son günlərini Kərbəlada yaşamış, ibadətlə məşğul olmuşdur. M. Bamdad yazır ki, o, Kərbəlada olarkən ibadət etdiyi günlərdən birində seyyidüş-şühəda Hüseyn ibn Əlinin (ə) məqbərəsinin yanında namaz qılmış və orada bir qədər dayandıqdan sonra birdən yerə yıxılmış, sonra adamların çiynində evə gətirilən zaman keçinmişdir. (71, c. 1, s. 205).

Qürrətüleyn adının mənası iki cür yozulur: Deyirlər ki, Fatimə təhsilini atasının və ailə üzvlərinin yanında almış, çox zəkalı şagird olmuşdur. O, ədəbiyyat, fiqh, üsul, kəlam elmlərini, quran ayələrinin təfsirini və islam

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

mədəniyyətini yüksək səviyyədə mənimsəmiş, ərəb və fars dillərində şeirlər yazmışdır. Bəlağətli və fəsahətli nitq qabiliyyətinə malik olmuşdur. Bu cəhətlərinə görə atası ona çox böyük ehtiram bəsləmiş, ona Qürrətüleyn, yəni "gözün nuru", "əziz ovlad" deyə müraciət etmişdir.

Deyilənə görə Qürrətüleyn öz bacısı, kiçik bibisi və məşhur müctəhid Mirzə Əbdülvahabın ailəsi ilə birlikdə Şeyx Əhməd Ehsainin başçılıq etdiyi Şeyxiyyə təriqətini qəbul etmişdilər. Onlar Seyid Kazım Rəştinin şagirdi və canışını olmuş Şeyx Əhməd Ehsai ilə dostluq edir, onunla məktublaşırdılar. Bir dəfə Seyid Kazım Rəşti şeyxiyyə üləmalarından xahiş edir ki, onlar Şeyx Əhməd Ehsainin əzəmət və ismət məqamı haqqında bir risalə yazsınlar. Hər kəs də öz bilgisinə görə bu xüsusda bir risalə yazaraq məlumat vermişdi. Seyid Kazım Qürrətüleynin yazdığı risaləni elmi əhatəsinə, mülahizələrinin vüsətinə, qələminin ifadəsinin qüdrətinə görə çox bəyənmiş, bir sözlə, elminə, dünyagörüşünə görə Qürrətüleyn (nuri-çeşm) ləqəbini vermişdir. Seyid Kazım Rəşti yazdığı məktublarda ona Qürrətüleyn deyə müraciət edirdi. Qürrətüleyn Bağdad valisinin icazəsi ilə Bağdadın müftisi, 14 cilddən ibarət olan "Təfsiri-ruhil-məani" kitabının müəllifi Seyid Mahmud Əlusinin evində qalaraq 2 ay müddətində onun tərifini, hörmətini qazanmışdır. O, Qürrətüleynin tərcümeyi-halını yazarkən onun adının Fatimə olduğunu, Seyid Kazım Rəştinin məktublarında isə Qürrətüleyn adlandırıldığını göstərmişdir.

Qürrətüleyn çox ağıllı və məlumatlı olduğu kimi də çox gözəl bir qız idi. Atası Hacı Molla Saleh onu

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qəzvində hörmətli şəxslərdən olan, alim və fəqih kimi tanınmış qardaşı oğluna, Hacı Molla Məhəmməd Tağının oğlu Molla Məhəmmədə ərə vermişdi. Məhəmməddən 2 oğlu, 1 qızı olmuşdu.

İranda və İraqi-Ərəbdə şeyxiyyə üləmaları ilə üsuliyyə müctəhidləri arasında qızğın mübahisələr baş verən zaman bu mübahisə Qəzvinə də yetişmişdi. Hacı Molla Saleh, yəni Qürrətüleynin atası və əmisi (qaynatası), həmçinin Qürrətüleyn də şeyxiyyə təriqətinin tərəfdarları idilər. Hacı Molla Saleh bitərəf qaldı, qardaşı Molla Məhəmmədtağı isə şeyx Ehsai və Seyid Kazım Rəştinin əleyhdarlarından və düşmənlərindən oldu. Qürrətüleynin əri Molla Məhəmməd də atasının təsiri altında öz arvadının əqidə və görüşlərinə zidd mövqe tutdu. Beləliklə 3 övladları olmasına baxmayaraq ər ilə arvad arasında ixtilaf yarandı. Onlar ayrıldılar və Qürrətüleyn atası evinə qayıtdı. Bir müddət keçdikdən sonra övladlarını ərinə tapşırıb, Kərbəlaya, Seyid Kazım Rəştinin görüşünə getdi ki, ondan daha artıq öyrənsin. O, bir müddət burada qalmış və sonra Seyidin evində dərs deməyə başlamışdır, tələbələri onun dərsinə böyük həvəslə gəlirdilər.

Bu zaman Şirazda Mirzə Əli Məhəmməd adlı şəxsin babiliklə bağlı səsi ucaldı və hamının diqqətini cəlb etdi. Kərbəlada üləmalar arasında Babin irəli sürdüyü qanunlar ətrafında müzakirələr olurdu. Bəziləri onu müdafiə edir, bəziləri isə əleyhinə çıxırdı. Qürrətüleyn də şiəlik təriqəti əsasında yaranmış şeyxilər təriqətinə mənsub olduğu zaman Seyid Əli Məhəmməd

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Şirazinin məzhəbini qəbul etmişdir. O, babilik təriqəti qanunlarının ən qabaqcıl, alovlu təbliğatçısı, müdafiəçilərdən biri olmuşdur. Babın qanunlarını bəyənən Qürrətüleyn İran alimlərini, o cümlədən atasını və əmisini bu qanunları qəbul etməyə çağırır, bu məqsədlə onlarla yazışırdı. Onun alovlu təbliğatını görən Şeyxi təriqətinin alimlərindən Molla Hüseyn Gövhər, Mirzə Mühit, Seyid Əli Kirmani və üsuliyyə təriqətindən Şeyx Məhəmməd Həsən Nəcəfi və bir çox başqa Kərbəla müctəhidləri əhalini Qürrətüleynin əleyhinə qaldırdılar. Yaranan düşmənçilik nəticəsində onu izləməyə başladılar. Bağdad valisinin göstərişi ilə Kərbəla hakimi onu tutmaq üçün yollar axtarırdı. Bir müddət keçdikdən sonra Qürrətüleyni və Molla Əli Bəstamini tutdular. Onu məsləkdaşları ilə birlikdə 1847-ci ildə İrana sürgün etdilər.

Əli Məhəmməd Bab Kərbəlada yaşayarkən məktublarından (bunlar əlvah, lövhə adlanırdı) birində ona "Tahirə" deyə müraciət etmişdi. Lakin o, Qürrətüleyn ləqəbi ilə daha məşhur idi.

Qürrətüleyn İrana varid olduğu zaman Qəzvinədək yolüstü olan şəhərlərdə insanlara yeni məzhəb təbliğ edirdi və ona görə də dildə-ağızda dolaşırdı. Qəzvinə çatdıqda onunla ailəsi arasında, xüsusən, əri və qaynatası arasında kəskin ziddiyyət və mübahisə yarandı. Molla Tağı və oğlu Məhəmməd əvvəllər yalnız Şeyx Ehsainin, Seyid Rəştinin və onların ardıcıllarının əleyhinə idilər. İndi onlar Babiliyə qarşı qalxdılar. Sonda Molla Məhəmməd Tağı babiliyin sadiq tərəfdarlarından olan Ağa Hadi vasitəsilə öldürüldü, 1847-ci ildə baş vermiş

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bu hadisədən sonra vəziyyət daha da gərginləşdi. Qürrətüleyn bu qətldən sonra şübhəli şəxs qismində həbs olundu və bir müddət Qəzvinin hökümət idarəsində saxlanıldı. Burada onun həyatı təhlükə altında olduğundan həmin Ağa Hadi vasitəsilə Tehrana qaçırıldı. O, bir müddət Tehranda qaldıqdan sonra bütün babilərlə və ona sadiq olanlarla birlikdə Xorasan istiqamətində yola düşdü və Şahruxdan 7 km şərqdə yerləşən Bidəşt kəndinə gəldi. Qürrətüleyn burada çadrasız minbərə çıxaraq nitq söylədi. Burada Hacı Məhəmmədəli Qüddus və Mirzə Hüseynəli Bəha daxil olmaqla 81 nəfər babi arasında müzakirə, mübahisə və mülahizələr on gün davam etdi. Bu zaman Qürrətüleynlə Hacı Məhəmmədəli Qüddus arasında hərəkat rəhbəri olmaq üstündə mübahisə yarandı. Babilər üç dəstəyə ayrıldılar. Bir dəstə Qürrətüleynin ətrafında cəmləşdi, digər dəstə Qüddusun tərəfində oldu. Üçünçü dəstə isə bu parçalanmanı görüb, babilikdən uzaqlaşdı. Babilər arasında yaranan bu ilk ayrılıqdan əlavə, Qürrətüleyn barədə camaat arasında bir sıra şayiələr də gəzirdi. Onda Babın bu məzmunda məktubu həmin şayiələrə son qoydu, "Çe quyəm dər həqq nəfəsi ke xodavənd u ra Tahire namidə". (Bir halda ki, Allah-təala onu Tahirə (pak) adlandırmışdır, mən nə deyə bilərəm).

İki dəstəyə ayrılmış babilərə ayrı-ayrılıqda Qürrətüleyn və Qüddus rəhbərlik edirdi. Onların arasında yaranmış söz-söhbət sazişə gəlməklə əvəz edildi və tərəfdarları ilə gəcavələrə əyləşərək Mazandarana yola düşdülər. Babilər Niyalaya yetişdikdə (1262 şaban, 1846 iyul) həmin yerin əhalisindən 500

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

nəfəri qarət məqsədilə onlara hücum etdi. Qürrətüleyn öz tərəfdarları ilə Mazandaranın kənd və qəsəbələrinə gedərək babilik ayinlərinin təbliği ilə məşğul oldu. Onun qohumları və düşmən qüvvələr Qürrətüleyni öldürmək üçün axtarırdılar. Ona görə də əlacsız qalıb Şeyx Əbu Turab İştehardi ilə birlikdə Babilə getdi. Burada mollalar istədilər ki, ona əziyyət versinlər, onu camaatla görüşməyə qoymadılar. O, Nura tərəf yola düşdü və bura çatdıqdan sonra çox keçmədi ki, babilərin Təbərsi qalasında yığışaraq, böyük dövlət qüvvələrinə qarşı vuruşduqlarını eşitdi. O, Nurdan Babilə qayıtdı ki, Təbərsi qalasında babilərlə birləşsin. O, qalanın bütünlüklə dövlət qoşunları tərəfindən mühasirəyə alındığını gördü. Dövlət məmurları Qürrətüleyni tanıdıqları üçün tutub mühafizə dəstəsilə Tehrana göndərdilər. Tehranda onu və bütün babiləri şəhər polis rəisi (kələntər) Mahmud xanın evində həbs etdilər. Burada onları evin yuxarı mərtəbələrində saxlayırdılar ki, xariclə əlaqə yaratmasınlar. Onlar bu vəziyyətdə 5 il (1848-1852) həbsdə qaldılar.

1852-ci ildə Nəsrəddin Şaha uğursuz sui-qəsd edildi və bunun babilər tərəfindən baş verdiyi məlum olduqda, onları zindandan çıxarıb Baş nazir Mirzə Ağa xan Nurinin yanına aparmaq bəhanəsi ilə atlara mindirdilər. Indi İran Milli Bankı yerləşən məhəllədəki məşhur Elxani bağına apararaq, orada boğub bir quyuya atdılar. Quyunu torpaqla doldurdular.

Qürrətüleynin öz əmisi oğlu olan ərindən üç ovladı var idi. Iki oğlu, Şeyx İbrahim və şeyx İsmayıl molla təhsili görmüş və hər üç övlad analarının əqidəsinə zidd

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

tərbiyə almışdılar. Qürrətüleyn o dövrün tələblərinə zidd olaraq, minbərə çadrasız çıxır, atəşin nitqlər söyləyirdi. O, qadın azadlığı, onun hüququ, qadının kişilərlə bərabər hüquqlu olması tələbilə çıxış edirdi. Müsəlmanlar, əvvəllər şeyxiyyə təriqətini qəbul etmiş insanlar babilərin qanunlarını, xüsusilə, insanların hüquq bərabərliyi məsələsini qəbul etmirdi. Xüsusilə üsuliyyə və şeyxiyyə təriqətindən olan mollalar onların qanunlarına mənfi münasibətdə idilər və babilərin fikirlərini qeyri-adi bir hal hesab edirdilər. Eduard Braun "İnqilabi-İran" kitabında iranlıların əqidə və imanlarında möhkəm iradəyə malik olduqlarından bəhs edərək yazır ki, "eləcə də gözəl Qürrətüleynin saysız-hesabsız işgəncələrə dözümlülüyünü şərh edərək yaymağa ehtiyac yoxdur". ("İnqilabi-İran", səh 28-29) Eduard Braunun kitabının fars dilində tərcüməsinin sonunda Qürrətüleynin şəkli verilmiş, şəklin altında onun adı Zərrintac yazılmış və iki beyt şeiri dərc olunmuşdur.

Tovo molko cahe Sekəndəri,
Məno rəsmo rahe qələndəri
Əgər an xoş əst to dərxori,
Və gər in bəd əst məra seza

Tərcüməsi

Sənin mülkün və İsgəndərin cah-cəlalı
Mənim qayda-qanunlarım dərvişlik məqamları
O xoşdursa, sən ona layiqsən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əgər bu pisdirsə, mənim cəzamdır. (71, c. 1, s. 209).

Tahirə Qürrətüleynin həyat və fəaliyyəti neçə-neçə tədqiqat əsərinin mövzusu olmuş, bədii əsərlərdə öz əksini tapmışdır. Azərbaycanın qadın yazıçılarından olan f.e.d. Ə. Cəfərzadə ona "Zərrintac-Tahirə" adlı tarixi roman həsr etmişdir.

## SÜLEYMAN TƏBRİZİ

XIX əsrin II yarısında İranda davam edən babi hərəkatı Nəsrəddin Şah Qacar tərəfindən amansızlıqla yatırılmışdır. Bu hərəkata qoşulan və həyatını təhlükə qarşısında qoyan qorxmaz insanlar çox olmuşdur. Onlardan biri də Azərbaycan xanlarından təbrizli Yəhya xanın oğlu Hacı Süleyman idi. Babın tərəfdarları İranın hər bir tərəfində fəaliyyət göstərirdilər. Ona görə də İran dövləti 1850-ci ildə qərara aldı ki, babizmin banisi və rəhbəri Seyid Əli Məhəmməd Şirazini aradan götürərək Azərbaycanda Çehriq qalasında zindana salsın, beləliklə baş verən inqilablar sakitləşsin.

Bu zaman Abbas mirzə Naibüssəltənənin 16-cı oğlu Həmzə mirzə Azərbaycan valisi idi. O, Babı Çehriqdən Təbrizə gətirdib, onun iştirakı ilə şəhərdə alimlərdən və görkəmli adamlardan ibarət bir məclis yaratmışdı. (71, c. 2, s. 113). Bu məlumat "Zühurül-həqq" kitabında verilmişdir. Kitabda Süleyman xanın babi firqələrindən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olan bəhaiyyə[17] firqəsinə mənsub olması barədə belə yazılır: "Yəhya xanın oğlu Süleyman xan Təbrizin ən möhtərəm, adlı-sanlı böyüklərindən olub, əvvəl Abbas mirzənin pişxidməti idi, sonra isə Məhəmməd şahın, daha sonra isə vəliəhd Nəsrəddin mirzənin pişxidməti olmuşdur. O, Təbrizdə məşhur böyük bir tayfadan idi. Gənc yaşlarından ibadətə rəğbət, dövlət işlərində yüksək məqam tutmağa isə nifrət bəslədiyindən İraqi-Ərəbə mühacirət etmişdir. Süleyman müqəddəs Ətəbat ətrafında yaşamağı seçmiş Seyid Kazım Rəştinin, şeyxi təriqətinin tərəfdarı olmuşdur. Əvvəllər Seyid Kazım Rəştinin şagirdləri olmuş və indi bab tərəfdarı olan bir neçə nəfər şeyx üləmanın vasitəsilə babi təriqətini qəbul etmişdir. O, Babın sadiq, fədakar tərəfdarlarından biri olmuş və təriqətin inkişafı və yayılması üçün səy göstərmişdir. Bab qətlə yetirilən zaman onu ölümdən qurtarmaq üçün çox səy göstərmiş, lakin onun səyləri bir nəticə verməmişdi. Bab öldürüldükdən sonra Süleyman xanın səyi və himməti nəticəsində Babın və Mirzə Məhəmmədəli Ənisin Təbriz darvazasından xarıcdə dərəyə atılmış cəsədləri Təbrizin polis rəisi Hacı Mirzə Mehdi Bağmişeyinin icazəsi ilə çıxarılıb gizlədilmiş və yenə Hacı Süleyman xanın köməyi ilə Tehrana aparılmışdı". (71, c. 2, s. 114).

Süleyman xan cəsədləri Tehrana apardıqdan sonra özü də orada qalmış və onun evi babilərin yığıncaq yeri olmuşdur.

[17] Bəhaiyyə-İranda Babi üsyanlarının məğlubiyyətindən sonra təqibdən qaçan babilərin təriqətidir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1851-ci ildə Nəsrəddin Şaha Niyavərani-Şəmiranda güllə atıldı və ona babilərin sui-qəsd etdiyi xəbəri yayıldı. Bu hadisədən sonra güllənin şaha zərər vurmadığına baxmayaraq, İranda bütün babilərə divan tutuldu və onları faciəli surətdə məhv etməyə başladılar. Süleyman xan da həbs edildi. Babilərin başçılarından olan və evi onların məclisinə çevrilmiş Süleyman xanın mənzili talan edilərək dağıdıldı, özü isə zindana atıldı. Bir neçə gündən sonra onun sinəsini deşib 4 yanan şam taxaraq, küçə və bazarda gəzdirdilər, sonra dörd yerə şaqqalayıb, hər şaqqanı Tehranın bir darvazasından asdılar. İngilis alimi Eduard Braun "İnqilabi-İran" kitabının dibaçəsində iranlıların (azərbaycanlıların-H.T,) çətinliyə düşəndə və işgəncələrə məruz qalanda göstərdikləri dözümlülük, səbat barədə söhbət açır və Süleyman xan haqqında belə yazır: "Süleyman xan sinəsində yanan şamlar olduğu halda ayağını yerə vuraraq rəqs edir və bu şeiri oxuyaraq ölümə gedirdi:

Yek dəst cam bade və dəsti bezolfe yar,
Rəqsi çenin miyane midanəm arzust,
Anke daim həvəse suxtəne ma mikərd,
Kaş miyaməd-o əz dur tamaşa mikərd"
(71, c. 2, s. 115).

Tərcüməsi:

Bir əlimdə badə, birində yarın zülfü,
Arzum belə rəqs etmək idi
Daim yandırmaq həvəsində olan yar

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Kaş indi gəlib uzaqdan tamaşa edəydi.

Filologiya elmləri doktoru, professor Əzizə Cəfərzadə "Zərrintac-Tahirə" adlı tarıxı romanında general Süleyman xan Əfşardan bəhs etmiş, onun bədii obrazını yaratmış, onun güclü əfşar qəbiləsi başçılarından olduğunu, babiliyə rəğbət bəslədiyini və işgəncə ilə öldürüldüyünü qələmə almışdır. (9, s. 156-163).

## MƏHƏMMƏDƏLI HÜCCƏT

Iranda baş vermiş Babi üsyanının rəhbərlərindən biri də Molla Məhəmmədəli Hüccət və ya Hüccətülislamdır. O, Axund Molla Əbdürrəhimin oğlu olub, Zəncan əhalisinin hüsn-rəğbətini qazanmış ilahiyyatçı alimlərdəndir. O, 1812-ci ildə anadan olmuş, ibtidai təhsilini Zəncanda almışdır. Təhsilini Beynülnəhreyndə (İraq)  təkmilləşdirmiş, orada ustad alimlərdən, fəqihlərdən dərs almış, görkəmli şəxsiyyətlərin tələbəsi olmuşdur.

"Nasexüt-təvarix" müəllifi Sipəhr "Tarixi-Qacariyyə" cildinin 554-cü səhifəsində belə yazır:

"Molla Məhəmməd Zəncani, Şərifülüləma Mazandaranının tələbəsi olmuşdur. Bir neçə il onun yanında oxuduqdan sonra fiqh və üsulun bəzi məsələlərini öyrənmiş, nüfuzlu müctəhid kimi Zəncana qayıtmışdır". Tarixçi Sipəhr əsərində həmçinin

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məhəmmədəlinin Zəncanda qazandığı etibar və nüfuzdan bəhs edərək göstərir ki, ona təzyiqlər edilən vaxt, yəni babi hərəkatının Zəncanda başçısı kimi onu Zəncandan kənarlaşdıraraq Tehrana göndərmək istəyən vaxt Nəsrəddin Şahın dayısı, Zəncan hakimi Əmiraslan xan onun nüfuzuna hörmət etmiş, bu hərəkətə yol verməmişdi.

Məhəmmədəli Hüccət öz müridləri ilə tanınırdı. O, ətrafına 15 minə yaxın adam toplayıb, bir əncümən (məclis, cəmiyyət) yaratmışdı. Burada yeni dini əqidələrlə bəzi ruhanilərə qarşı çıxırdı. O, namaz qılmaq üçün məscidə gedən zaman onunla 10 min adam gedirdi.

Məhəmmədəli Hüccət 2 min müridi ilə hökümət əleyhinə üsyan etmişdi. Hökümət bu üsyanı yatırmaq üçün 1851-ci ildə Zəncana silahlı qüvvə göndərdi. 6 ay sürən ağır döyüş zamanı hər iki tərəfdən ölən oldu. Bu döyüşdə 40 yaşlı Hüccətülislam öldürüldü. Onun 1900 nəfər müridi də öldürüldü. Dövlət qalib gəldi, babilər Zəncanda məhv edildilər.

Fransız yazıçısı və tədqiqatçı Kent Kubino 1858-ci ildə Fransaya qayıdarkən Zəncandan keçmiş, 1859-cu ildə nəşr etdiyi "Se sal dər Asiya" kitabında yazır:

"Zəncanda hələ babi üsyanının izləri qalır. Üsyançılar Zəncan şəhərində elə müqavimət göstərmişdilər ki, dövlət onları təslim etmək üçün şəhərin yarısını qırmağa məcbur oldu və şəhərdə dağıntılar vardır. Əhali şəhəri təmamilə tərk etməsin deyə, qalanlar təqib olunmadı. Dövlət sərbazlarının amansızlığı sağ qalan əhalidə Nəsrəddin Şaha qarşı nifrət yaratmışdır". (71, c. 3, s. 428).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məhəmmədəli Hüccət məqsədinə çatmağa can atan, əqidəsinə sadiq bir şəxsiyyət idi və öz əqidəsi yolunda məhv oldu.

## MİRZƏ CAVAD TƏBRİZİ

Hacı Mirzə Cavad Təbrizin müctəhidi, Mirzə Əhməd Təbrizinin [18] oğlu olub, Seyid Hüseyn Kuhkəmərinin şagirdlərindən idi. O, əslən İrəvanlı olub, bütün Azərbaycanda nüfuzlu və seçilən, hamının itaət etdiyi bir şəxs olmuşdur. O, 1871-ci ildə Nəcəf şəhərindən qayıtdıqdan sonra Nəsrəddin Şahın fərmanı ilə Azərbaycanın cümə imamı təyin edilmişdir.

Cavad ağa "tənbəki üsyanı" hadisəsi ilə əlaqədar Azərbaycanda baş vermiş iğtişaşlardan əvvəl özünü nüfuzlu din xadimi kimi tanıtmış, məlum hadisələr zamanı asayişi yaradan ruhani kimi birinci şəxs olmuşdur.

Məlum olduğu kimi İranda ilk antiimperialist xalq hərəkatı olan bu üsyan Nəsrəddin Şah Qacarın 9 mart

[18] Mirzə Əhməd Təbrizini bəzi mənbələrdə Muğani, bəzilərində Xoyi kimi yazırlar.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1891-ci ildə tənbəkinin alınıb-satılması, emalı və ixracı üzərində inhisar yaratmaq imtiyazını ingilis kapitalisti Talbota verməsi nəticəsində baş vermişdi. Lakin şah, xalq kütlələrinin təzyiqi altında Talbotla bağlanmış müqaviləni 1892-ci ilin 5 yanvarında ləğv etməyə məcbur olmuşdu. Ingilislər bu imtiyazdan istifadə etmək istədikdə, bütün İranda başdan-başa etiraz səsləri ucalmağa başladı. Xüsusən Tehran və Təbriz əhalisi arasında digər yerlərdən fərqli olaraq bu siyasətə qarşı zidd çıxmaq, üsyan hərəkatı daha güclü idi. Təbrizin müctəhidi olan Cavad ağa bu zaman, deyildiyi kimi, həmin imtiyaza etirazını bildirərək Azərbaycan əhalisini və mərkəzi dövləti buna qarşı çıxmağa hazırlayırdı. Tehran və Təbriz əhalisi də qətiyyətlə dayanaraq geri çəkilmirdi. Dövlət, yəni şah bu imtiyazla bağlı İran əhalisinin ciddi müqavimətinə rast gəldiyindən, məcbur olub, xeyli ziyana düşərək (əlbəttə, biçarə millətin kisəsinin hesabına) Reji kompanıyasına verdiyi imtiyazı ləğv etdi. Etimadüssəltənə bu hadisəni öz gündəliyində qələmə alaraq yazır: “21 məhərrəm 1309. Məhərrəm ayının 7-si Təbrizdən ingilis, rus və osmanlı səfirliyinə belə bir teleqram daxil oldu ki, təfsilatı belədir: Biz, Təbriz əhalisi, aşura günü Təbrizdə olan bütün avropalıları və isəviləri qətlə yetirəcəyik. İndi sizi xəbərdar edirik. Şah ölkəni Avropaya satır. Müctəhid deyir ki, səbr edin”. (70, s. 765). Etimadüsslətənə yazır ki, müctəhid bu vəziyyətdən çıxmaq üçün əvvəlcə ölkənin şahına müraciət etməyi məsləhət görür, “Günahsız minlərlə insanın qanını tökmək olmaz” deyirdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Təbrizdən gələn məktub öz təsirini göstərdi. Camaat sakitləşdi, molla, tacir və başqalarının adından şaha məktub yazdılar. Məktubda deyilirdi: "42 ildir ki, səltənəti idarə edirsiniz. Tamahkarlıq edib, öz məmləkətini hissə-hissə avropalılara satırsan, bunu özün bilirsən. Amma bizlər, Azərbaycan əhli özümüzü avropalılara satmırıq. Nə qədər canımız sağdır, buna çalışırıq. Məlumdur ki, ruslar da bir qədər fitnəkardılar, onlara imkan verilsə, Azərbaycanda və bəlkə də bütün İranda böyük fitnələr edərlər. Ya gərək 5-6 min insan tələf olsun, ya da gərək şah tənbəki kompaniyasında 2 kürur (1kürur yarım milyona bərabərdir-H.T.) ziyan versin". (70, s. 766). Beləliklə şah 1892-ci il yanvar ayının 5-də xaricilərə verilmiş tənbəki imtiyazını ləğv etməyə məcbur oldu.

Haqsızlığa qarşı etiraz səsini vaxtında ucaltmış xalqın önündə olan ruhani Hacı Mirzə Cavad ağa 1896-ci ildə vəfat etmişdir. Ehtiram əlaməti olaraq Təbrizdə ona 40 gün təziyə saxlanıldı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ MAHMUD TƏSUCİ

Ictimai xadim Mirzə Mahmud Mollabaşı Təsuci (Urmiya gölünün şimal sahilində bir qəsəbədir. Bəziləri Urmiya gölünü Təsuc gölü də adlandırırlar. (89, s. 1091). söz və şeir ustadlarından olmuşdur. O, Nəsrəddin Şahın oğlu, vəliəhd Müzəffərəddin mirzənin təhsili ilə məşğul olmuşdur. 1878-ci ildə vəfat etmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ HƏSƏN RÜSDİYYƏ (1851-1944)

XIX əsrdə tanınmış ictimai xadim, maarifpərvər Hacı Mirzə Təbrizi Rüşdiyyə kimi tanınmış, İranda yeni üsullu məktəblərin banisidir. O, 1851-ci ildə Təbrizdə anadan olmuş, 1944-cü ildə 96 yaşında Qumda vəfat etmişdir. Mirzə Həsən Mehdi oğlu Təbrizi XIX əsrin 80-cı illərində İrəvanda azərbaycanlılar üçün yeni üsullu ilk məktəb açmışdır. 1887-ci ildə İrana qayıdan Rüşdiyyənin Təbriz və Tehranda açdığı yeni üsullu məktəblər dəfələrlə hücumlara məruz qalmış, bağlanmış və qarət edilmişdir. Mirzə Həsən Rişdiyyə Təbrizdə 1887-ci ildə açdığı mədrəsəni bağlayaraq Qafqaza qaçmağa məcbur olduğu zaman Azərbaycanda vəliəhd Müzəffərəddin mirzənin işlər müdiri vəzifəsini icra edən Əli xan Əminüddövlə vasitəsilə Təbrizə gətirilmişdir. O və Əli xan birlikdə öz xərcləri ilə yenidən məktəb açmışdılar. (30, s. 85).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Müzəffərəddin şah 1897-ci ildə Əli xan Əminüddövləni Baş nazir (Sədri-əzəm) təyin etdikdə, ona "heç kəsdən qorxmayaraq ölkənin irəli getməsi üçün çalışmasını" tapşırdı. Bu zaman Əminüddəvlə Mirzə Həsən Rüşdiyyəni də özü ilə Tehrana gətirmiş, burada yeni üsulla mədrəsə açaraq, onu müdir təyin etmişdir. Əminüddövlənin təşəbbüsü ilə məktəblərdən birinə dəvət olunmuş Müzəffərəddin şah buraya 36000 tümən pul bağışlamışdır. Pulun bir hissəsi məktəbin ehtiyaclarına, bir hissəsi isə Əminüddövlənin təşəbbüsü ilə yaradılmış "Əncüməni-maarif" təşkilatına xərclənmişdi. Mirzə Həsən Rüşdiyyənin tətbiq etdiyi qabaqcıl təlim üsulu İranda geniş yayılırdı. Rüşdiyyə 1323-cü ildə (1905) Təbrizdə "Vətən dili" adlı dərslik nəşr etdirdi. Onun 1902-1903-cü illərdə Tehranda buraxdığı "Məktəb" və "Tehran" qəzetlərində metodik məqalələri ilə yanaşı, mütləqiyyət üsul-idarəsini ifşa edən yazıları da dərc olunurdu. Bu yazılarına görə Xorasan əyalətinə sürgün olunan Mirzə Həsən Rüşdiyyə İran inqilabı dövründə (1905-1911) Tehrana qayıtmış, ictimai-pedaqoji fəaliyyətini davam etdirmişdir. Mirzə Həsən Rüşdiyyə Cənubi Azərbaycanda sövti üsulla (səs, fonetika) yazılmış ilk əlifba dərsliklərinin ("Vətən dili", "Ana dili") müəllifidir. Onun açdığı məktəblərdə Azərbaycan, fars, fransız dilləri, sərf-nəhv, ədəbiyyat, riyaziyyat və s. fənlər tədris olunurdu. Mirzə Həsən Təbrizi İranda və Azərbaycanda yeni tədris üsulunun yayılmasında mühüm işlər görmüşdür.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏD İBRAHİM XAN MƏHƏLLATİ

Məhəmməd İbrahim xan Məhəllati Xəlvəti təxəllüs olub, Əhməd Məhəllatinin oğludur. Bu nəsil, əslinin Xacə Nəsrəddin Tusi ilə qohumluq əlaqəsi olduğunu bildirmişdir. Məhəmməd İbrahimin atası Əhməd bir müddət Hindistanda yaşamışdır. Sonra oğlu Məhəmməd İbrahimlə birlikdə Bombeydən Tehrana gəlmiş, əvvəlcə şahzadələrin tərbiyəçisi, sonra şahın pişxidməti olmuşdur. Məhəmməd İbrahim şair və yazıçı idi. Onun ədəbi irsindən "Kitabi-adabi-nasiri" və şeirlər "Divan"ı yadigar qalmışdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏD MEHDİ

Məhəmməd Mehdi Şəmsülüləma öz əsrinin fazil şəxsiyyətlərindən olub, axund Hacı Ağa Qəzvininin oğludur. O, yeddi cildlik " Nameyl-daneşvərani-Nasiri" əsərinin əsas müəlliflərindən biri olmuşdur. Qəzvin kəndlərindən olan Əbdürrəbbabadidə dünyaya gəlmiş, 1889-cu ildə vəfat etmişdir.

Mirzə Məhəmməd xan Qəzvini "Xatirələr" kitabında Eduard Braunun "İnqilabi-İran" əsəri haqqında yazdığı məqaləsində Şəmsülüləmadan bəhs edərək yazır:

"Əsl adı Şəmsülüləma Şeyx Məhəmməd Mehdi olub, Qəzvin yaxınlığındakı Əbdürrəbbabaddandır. O, İranda ən dərin bilikli, daim axtarışda olan tədqiqatçılardan biridir. Şəmsülüləma 1909-cu ildə dar ağacından asılmış ruhani Hacı Şeyx Fəzlullah Nurinin ən yaxın dostlarından biri idi. Çətin günlərində Ruhanini evində gizlətməsi onun, məşrutə inqilabını tanıyan aqil

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bir şəxs olduğunu göstərir. O, İkinci Məclisin rəis müavini olan Hacı Seyid Nəsrulla Əxəvini də himayə etmiş, mücahidlərin əlində məhv olmasına imkan verməmişdi. Şəmsülüləma İranda fars və ərəb ədəbiyyatı tarixinin görkəmli bilicisi olan şəxsiyyətlərdən biri idi". (71, c. 4, s. 7). Qeyd etmək lazımdır ki, onun nəşr etdiyi "Nameyi-daneş vərani-Nasiri" kitabları əlyazma nüsxəsi əldə olmayan əsərlərin zəmanəmizə gəlib çıxmasında müstəsna rol oynamışdır.

## MƏHƏMMƏDƏLİ XAN QARAGÖZLÜ

XIX əsrdə İran dövlətinin bir sıra idarələrində bacarıqlı katib-xəttat kimi çalışan azərbaycanlı şəxsiyyətlər olmuşlar. Onlardan biri Mirzə Məhəmmədəli xan Qaragözlü Həmədanidir. O, 1847-ci ildə Həmədanda anadan olmuşdur və Əbdülhüseyn xanın oğludur. Allahqulu xan Elxanı Həmədan hakimi təyin olunduğu zaman Məhəmmədəli xanı öz münşibaşısı, (rəisi-dəftəri-hökümət), yəni Həmədan hökümətinin dəftərxana rəisi vəzifəsinə təyin etdi. O, gözəl xəttə malik idi və 1876-cı ildə Allahqulu xan başqa işə təyin olunaraq, Tehrana dəvət olunduqda onun yanında münşi-xəttat vəzifəsini icra etməyə başlamışdır.

Allahqulu xan Elxanı 1881-ci ildə Zəncan hakimi təyin olunduğu zaman Məhəmmədəli xan da öz əvvəlki peşəsi ilə onun yanında xidmət etməyə başladı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məhəmmədəli xan 1882-ci ildə Allahqulu xan vasitəsilə Londondan Tehrana qayıtmış İranın səlahiyyətli nümayəndəsi Mirzə Mülküm xanla tanış olmuş, sonra isə İngiltərə səfirliyinə münşi vəzifəsinə təyin olunaraq onunla Londona getmişdir, 6 il İranın Londonda fəaliyyət göstərən səfirliyində çalışmışdır. O, bu müddət ərzində nümayəndə kimi iki dəfə Tehrana gəlmişdir. Mirzə Məhəmmədəli xan burada fəaliyyət göstərərkən Mirzə Mülküm xanın İranın İşlər Nazirliyinə göndərdiyi məlumat və raportları səlis xətlə yazır, eyni zamanda "Qanun" qəzetinin nəşrində fəal iştirak edirdi. Mirzə Məhəmmədəli xan Londonda nəşr olunan və İrana gətirilməsi qadağan edilmiş "Qanun" qəzetində fəaliyyətinə görə Nəsrəddin Şahın göstərişi ilə həbs olunmuşdu. Məlum olduğu kimi bu qəzet İranda hökm sürən haqsızlıqları, o cümlədən şah üsul-idarəsini açıq tənqid etdiyi üçün qadağan edilmişdi. Burada dərc olunan yazıların Mirzə Məhəmmədəli xanın qələmindən çıxdığı güman edildiyi üçün bir neçə adamı, o cümlədən onu Qəzvinə sürgün edib, 22 ay orada saxladılar. Qeyd etmək lazımdır ki, Nəsrəddin Şahın qatili Mirzə Rza Kirmani də onların arasında idi.

Məhəmmədəli xan Həmədani həbsdən azad edildikdən sonra yenidən Avropaya getmiş, 1892-1902-ci illərdə orada çalışmış, yaşamışdır. O, 1903-cü ildə Avropadan qayıtdıqdan sonra Fəridülmülk (dövlətin misilsiz, yeganə adamı) ləqəbinə layiq görülərək, Kirmanşaha göndərilmiş və orada xarici işlər üzrə kargüzar və pasport işləri rəisi vəzifəsinə təyin olunmuşdur. Məhəmməd xandan "Yaddaşthayi-ruzaneyi

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

xətti" adlı gündəlik yadigar qalmışdır. O, gündəliyin bir yerində belə yazır:

"Şükür edirəm ki, burada (Kirmanşahda-H.T.) heç kəs məndən narazı və şikayətçi deyildir. Yaxşı ad qazanmağı dünya malından və insanlara əziyyət verməkdən üstün tutdum. Kirmanşahda qazandığım yazdıqlarımdır". (71, c. 1, s. 462). O, iki il Həmədanda kargüzarlıqla məşğul olmuş, çətin şəraitdə yaşamışdır. Məhəmmədəli xan Həmədani 1334-cü (1915) ildə, 71 yaşında vəfat etmişdir.

## ABBASQULU XAN (?-1861)

Abbasqulu xan Cavanşır (vali, Mötəmədüddövlə) Qarabağın keçmiş hökmdarı İbrahimxəlil xan Cavanşirin nəvəsi, kiçik oğly Əbdülfəth xanın oğludur. Yüksək vəzifələrdə çalışmış, ağıllı siyasi xadim olmuşdur. O, 1252-ci ildə (1836) Kaşan höküməti valisi vəzifəsindən azad edildikdə Bəhmən Mirzə Bəhaüddövlə (Fətəli Şahın 37-ci oğlu) onun yerinə Kaşan hakimi təyin olunmuşdur.

Abbasqulu xan bir müddət işsiz qaldıqdan sonra 1257-ci ildə (1841) Fəzləli Qarabağinin yerinə Kirman hakimi təyin olunmuş, 1843-cü ilədək həmin vəzifədə çalışmışdır. O, insanlarla olduqca ədalətli rəftar edirdi, istəyirdi ki, özündən əvvəlki hakim və məmurların səfalətə düçür etdiklərinə yardımçı olsun və sıxışdırdıqlarının əvəzini çıxsın.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Abbasqulu xan 1843-cü ildə vəzifəsindən kənarlaşdırılmış və əvvəlki hakim Fəzləli Qarabaği yenidən onun yerinə təyin edilmişdir.

Məhəmməd şah Qacar 1848-ci ildə vəfat etdikdən sonra vəliəhd Nəsrəddin Şahın Təbrizdən Tehrana gəlməsinə qədər yəni, 45 gün ərzində hakimiyyəti Nəsrəddin Şahın anası Məhdülya Məlikcahan xanım idarə etmişdir. Ağıllı və tədbirli qadın olan Məlikcahan xanım 45 günlük hakimiyyəyi dövründə bir sıra məmurların işinə nəzarət etmiş, dövlətin varının itgiyə məruz qalmaması və gələcəkdə ölkənin məhrumiyyətə və iqtisadi çətinliyə, böhrana düşməməsi üçün həmin işlərin idarəsini Abbasqulu xan Cavanşirə tapşırmışdı. (71, c. 2, s. 228). Abbasqulu xan Nəsrəddin Şah hakimiyyəti dövründə, yəni 1265-ci ildə (1849) Ərdəbil və Meşkin hökümətlərinə hakim təyin olunmuş, 1850-ci ildə başqa işə keçmişdir. Nəsrəddin Şah 1275-ci ildə(1858) Baş Nazir Ağa xan Nurini vəzifədən kənarlaşdırdıqdan sonra ölkədə 6 nazirlik yaratdı. O vaxta qədər hökümət Baş nazir (Sədri-əzəm) vasitəsilə idarə olunurdu. Nəsrəddin Şahın yaratdığı nazirliklər bunlar idi: daxili işlər, xarici işlər, maliyyə, qoşun, ədliyyə, ovqaf və təqaüd nazirlikləri. Bu nazirliklər ölkə işlərini öz aralarında bölmüşdü, o cümlədən Ədliyyə Nazirliyi Abbasqulu xan Cavanşirə tapşırılmışdı, ona bununla əlaqədar olaraq Mötəmədüddövlə (dövlətin etimad edilən adamı) ləqəbi verildi. O, bu vəzifədə ömrünün sonuna qədər, yəni 1278-ci iədək (1861-62) qaldı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Abbasqulu xan 1276-cı ildə (1859) Ədliyyə naziri vəzifəsini aparmaqla bərabər Nəsrəddin Şahın təşkil etdiyi Dövlət Şurasının üzvi seçilmişdi. O, vəfat etdikdən sonra vəzifəsi və həmçinin Mötəmədüddövlə ləqəbi qardaşı Məhəmməd İbrahim xan Cavanşirə verilmişdir. Abbasqulu xan Mötəmədüddövlə ağıllı, ədalətli siyasətçi, möhtərəm bir insan, zəmanənin vəzifəli şəxsiyyətlərinin bir çoxlarına xas olan təcavüzkar xüsusiyyətlərdən uzaq idi. Onu əvəz edən qardaşı Məhəmməd İbrahim xan Əmiri-Divan, yaxud vəziri-divanxana az bir müddətə həmin vəzifədə olmuşdur. O, vəzifəsindən kənar edilmiş, onun yerinə isə Hacı Əlixan Müqəddəm Hacibüddövlə (tarixçi-coğrafiyaşünas alim Məhəmmədhəsən xan Etimadüssəltənənin atası-H.T.) təyin olunaraq Ziyaülmülk ləqəbini almışdır.

Məhəmməd İbrahim xan vəzifəsindən kənar edildikdən sonra Nəsrəddin Şah onu yenidən Ədliyyə nazirliyinə təyin etmiş və Mötəmədülmülk ləqəbini vermişdi. O, bu tarixdan Əmiri-divan kimi məşhurlaşmışdı. (71, c. 2, s. 229).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## CƏFƏRQULU XAN CAVANŞİR

Cəfərqulu Xan Cavanşir Həsən xanın oğlu, Qarabağ hakimi İbrahimxəlil xan Cavanşirin nəvəsi idi. 1806-cı ildə İbrahimxəlil xan ruslarla bağladığı sazişdən peşiman olaraq, yenidən İran dövləti ilə yaxınlaşmaq məqsədilə, rusları Qarabağdan çıxarmaq üçün bu dövlətin ona yardım göstərməsini xahiş etmişdi. Iran dövləti özünün mötəbər sərkərdələrini, o cümlədən Hüseyn xan Sərdari-Qacar Qəzvini, İsmayıl xan Sərdari-Damğanini və Əmanulla xan Əfşar Xəmseyni ona kömək üçün göndərdi. Lakin İran sərkərdələri gəlib yetişməmiş, ruslar ələ aldıqları Cəfərqulu Xanın yardımı ilə İbrahimxəlil xanı 31 nəfər ailə üzvləri və yaxınları ilə birlikdə gecə ikən öldürdülər. Cəfərqulu Xan onların şirin vədinə inanaraq güman edirdi ki, rus dövləti

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

İbrahimxəlil xanın yerinə Qarabağa onu hakim təyin edəcəkdir. Lakin baba öldürüldükdən sonra vilayətin idarə olunması formal olaraq, Mehdiqulu xana, İbrahimxəlil xanın oğluna tapşırıldı. Cəfərqulu Xan isə necə deyərlər, papaqsız qaldı və onu oyundan kənar etdikləri üçün ruslardan bərk incidi, tutduğu əməldən peşiman oldu. Bu arada ondan şübhələndikləri üçün onu tutub Tiflisə apardılar və oradan Sibirə sürgün etdilər. Cəfərqulu Xan yolda onu aparan əsgərin atını ələ keçiribmiş. Belə ki, əsgər onu Tərtər çayından keçirərkən birdən əsgərin atını əlindən almış, özü atın yalına yatıb, çayı keçmiş və özünü İran tərəfə gedən bir köçün arasına salaraq İrana pənah aparmışdı. Abbas mirzə Naibüssəltənə onun bu cəsarətini bəyənərək, Qaracadağ (Ərəsbaran) quberniyasının idarəsini ona tapşırmış və hər il ona 4 min tümən məvacib vermişdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## AĞA ƏLİ ZÜNUZİ

Ağa Əli Zünuzi 1819-cu ildə Təbrizdə anadan olmuşdur. Onun atası məşhur Abdulla Müdərris Təbrizidir. Əli Zünuzi uzun müddət Tehranda Mirzə Məhəmməd xan Sipəhsalar Qacarın mədrəsəsində əqli və nəqli elmlərdən (rəvayətə əsaslanan-H.T.) dərs demişdir. Zəmanəsinin alimləri içərisində yüksək düşüncələri və hörməti ilə seçildiyi kimi, boyunun gödəkliyi və bədəninin arıqlığı ilə də seçilirdi. O, 1890-cı ildə Tehranda vəfat etmişdir.

Onun Tehranda, bəlkə də İranda nadir alimlərdən biri olduğunu qeyd edən Mehdi Bamdad yazır ki, Ağa Əli Zünuzi Qasım xanın (Ağa Məhəmməd şah Qacarın dayısı-H.T.) Humayun xiyabanında tikdirdiyi mədrəsədə fəlsəfə və hikmət elmlərindən dərs demişdir. XVIII əsrdə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

inşa edilmiş bu mədrəsə sonralar "Madərşah" adlandırılmışdır ki, bu da Nəsrəddin Şahın anası Məhdi-Ülyanın sonralar binanı təmir etdirməsi ilə əlaqədar onun şərəfinə verilmiş addır. (71, c. 2, s. 379).

## ZEYNALABDİN ŞİRVANİ

Zeynalabdin Şirvani "Təmkin" təxəllüslü olub, 1780-cı ildə Şamaxıda anadan olmuş, 1837-ci ildə vəfat etmişdir. 6 yaşında olarkən atası axund İsgəndər vətəni tərk edərək, ailəsi ilə Kəlbəla şəhərinə köçmüş və Zeynalabdın 17 yaşına qədər orada təhsil almaqla məşğul olmuşdur. Bundan sonra Nemətullahi [19] təriqətinin dərvişlərindən olan Məsum Əlişah Hindi və Nurəlişah İsfahani ilə tanış olmuş, onlarla birlikdə Mazandaran-Xorasan-Qəhistan-Zabilistan və Əfqanıstana səyahət etmişdir, səyahət etdiyi ölkələrin

[19] Nemətullahiyyə-Şah ləqəbini daşıyan Səyyid Nurəddin Nimatullah Valinin (1331-1421)adı ilə bağlıdır. İranda Kirmanda Qadiriyyə-Hafiiyyyədən nəşət etmiş yeganə İran şiə təriqətidir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

üləmaları, məşhur alicənab insanları ilə görüşüb söhbət etmişdir.

Hacı Zeynalabdin Şirvanı Hacı Məhəmmədcəfərin müridlərindən idi.

Onun çox qiymətli əsəri "Riyazüs-səyahə" (Cənnət bağı səyahətləri) 1821-ci ildə, "Bustanüs-səyahə" (Səyahət bağı) isə 1832-ci ildə yazılmışdır. "Hədayiqüs-səyahə" (Səyahət bağları) də onun əsərlərindəndir. Mehdi Bamdad yazır ki, bu əsərlərdən "Riyazüs-səyahə"nin bir qismi, "Bustanüs-səyahə" isə tam çap olunmuşdur. Hacı Zeynalabdin Şirvaninin əsərləri XIX əsrdə yaranmış qiymətli tarixi-coğrafi əsərlərdən hesab olunur. Qeyd etmək lazımdır ki, Azərbaycan alimi, coğrafiyaşünas-səyyah, tarixçi, etnoqraf, şair Hacı Zeynalabdin əsərlərində Yaxın və Orta Şərq ölkələri, Hindistan, Orta Asiya, o cümlədən Azərbaycan və s. ölkələrin cöğrafiyası, tarixi, mədəniyyət abidələri haqqında qiymətli məlumatlar almaq olar. Onun şeirlər "Divanı" Tehran universitetinin mərkəzi kitabxanasında saxlanılır. Əsərlərinin əlyazmaları dünyanın müxtəlif elmi mərkəzlərində, Londonda, Britaniya Muzeyinin kitabxanasında, Paris Milli kitabxanasında, Tehran Universitetinin mərkəzi kitabxanasında, Misirin Xidiviyyə kitabxanasında, Rusiya EA Şərqşünaslıq İnstitutunun Sankt-Peterburq şöbəsi kitabxanasında, Gürcüstan respublikası Əlyazmalar İnstitutunda mövcuddur. Azərbaycan MEA Məhəmməd Füzulu adına Əlyazmalar İnstitutunun qədim çap kitabları xəzinəsində "Bustanüs-səyahə" əsərinin 1892-ci ildə çap olunmuş Tehran nüsxəsi də mühafizə olunur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MAHMUD MİRZƏ QACAR

Iran şahı, “Xaqan” təxəllüslü Fətəli Şah Qacar ədəbiyyat və şeir həvəskarı olmuşdur. Onun övladlarından bir çoxu şair, rəssam, tarixi əsərlər müəllifi kimi tanınırdılar. Bəhmən Mirzə, Mahmud mirzə və başqaları dövrümüzə gəlib çatmış bir çox kitabların müəllifidirlər. Fətəli Şahın 15-ci oğlu Mahmud mirzə (1799-1852) Xaqanın fazil və alim övladlarından biridir. Onun “Təzkireyi-Mahmud”, “Səfineyi-Mahmud”, “Gülşəni-Mahmud” kitablarında bir çox şair, ədib, dərviş və sufilərin tərcümeyi-halları öz əksini tapmışdır. Mahmud mirzə şair təbiətli və çox səxavətli bir insan idi. Nəhavənd hakimi olan Mahmud mirzə 1822-ci ildə məşhur tarixşi, “Nasex-üt-təvarix”

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əsərinin müəllifi, sonralar (1857) Nəsrəddin Şah tərəfindən “Lisanülmülk ləqəbinə layiq görülmüş Mirzə Məhəmmədtağı Kaşanini Nəhavəndə dəvət etmiş, onunla tanış olmuş və ona “Sipəhr” (səma) təxəllüsünü vermişdir. Mahmud mirzə bir neçə il Nəhavənd hakimi olmuş və burada bir çox tikinti, abadlıq işləri görmüşdür, o cümlədən Ruindej qalasını tikdirmişdir. 1825-ci ildən etibarən 10 il müddətinə Laristan hakimi olan Mahmud mirzə Fətəli Şahın vəfatına qədər, yəni 1834-cü ilədək bu vəzifədə qalmışdır. Fətəli Şahdan sonra Məhəmməd şah 1250-ci ilin ramazan ayında (1834) səltənət taxtına əyləşdi. Şahzadələrdən əksəriyyəti bununla barışmadılar. Məlum səbəblərə görə taxt-tac sahibi olmuş şah onları ölkənin müxtəlif şəhərlərindən Tehrana gətirtdi. Mahmud mirzə bu zaman Laristan hakimi idi. Baş nazir Mirzə Əbülqasim Qaimməqam şahın sərəncamı ilə onu da Tehrana gətirdi. Mahmud mirzə də qardaşı oğlu olan Məhəmməd şahın əleyhinə idi. Şahzadələrdən 11 nəfər həmin ildə Ərdəbilə sürgün olundular. Lakin burada taun xəstəliyi başladıqda onlar Təbrizə aparıldılar. Taun qurtardıqdan sonra onları yenidən Ərdəbilə qaytardılar. Bəziləri bu arada Əlinağı xan Rüknüddövlənin (Fətəli Şahın 8-ci oğludur-H.T.) başçılığı ilə gizli yolla Rusiyaya qaçdılar. Mahmud mirzə isə özünün gələcəkdə təqsirsiz olduğunu sübut edə biləcəyini düşünərək və əks təqdirdə işgəncələrə məruz qalmasın deyə bu işə getmədi. Zindanda qalan şahzadələr Təbrizə gətirildilər və güclü nəzarətdə saxlanıldılar. Zaman keçdikcə onların əksəriyyəti Təbrizdə vəfat etmişdir. Mahmud mirzənin 34 övladı olmuş və bunlardan yarısı oğlan, yarısı da qız

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

idi. O, Təbrizdə vəfat etmişdir. Tarixçi, ingilis alimi Stori onun 1799-cu ildə anadan olub, 1852-ci, ya da 1853-cü ildə vəfat etdiyini güstərir. Mehdi Bamdad isə "Taraxi-ricali-İran" əsərində Mahmud mirzənin 1836-ci ildə 36 yaşında vəfat etdiyini yazır. (71, c. 4, s. 53). Hər halda Storinin göstərdiyi tarix həqiqətə daha yaxındır. Mahmud mirzə Qacar İran tarixini yaxşı bilən şair və ədiblərdən olmuşdur. Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda onun tarixin müəyyən səhifəsini işıqlandıran iki əsərinin nəfis əlyazma nüsxəsi mühafizə olunur. M-262 şifri altında saxlanan "Gülşəni-Mahmud" təzkirəsinin yazıldığı tarix 1820-ci ildir. Yaxşı vəziyyətdə olan və nəstəliq xətti ilə yazılmış bu əlyazma qələmdani cildə tutulmuş, həcmi 77 vərəqdir. Burada Fətəli Şah Qacar övladlarından olan 47 şair, rəssam haqqında məlumat və onların şeirlərindən nümunələr verilir. Əlyazmanın avtoqraf olduğu güman edilir.

Mahmud mirzə Qacarın M-235 şifrli "Təzkirətüs-səlatin" əsəri 115 vərəqdən ibarət olub, nəstəliqlə yazılmış ornamentli cildə tutulmuşdur. Əlyazmasında Pişdadiyan sülaləsindən Fətəli Şah Qacar hakimiyyəti dövrünə qədər olan İran şahlarının tarixindən bəhs edilir. Mahmud mirzənin qardaşı oğlu general Əmir Kazım mirzə (Bəhmən Mirzənin oğlu-H.T.) bu əsərin sonuncu vərəqində olan avtoqraf qeydləri ilə əlyazmanın taleyindən, onun coğrafiyasından xəbər verir. Həmin mətnin farscadan tərcüməsi belədir:

"Hicri 1336-cı ildə (1917) Rusiyada baş vermiş inqilab və qalmaqallardan sonra hərc-mərclik əmələ gəldi. Gəncə və Badikubə vilayətlərindən ibarət olan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Azərbaycan məmləkətində müstəqil, arzu olunan bir hökümət yarandı. Mən də xidmət əmri ilə Gəncəyə gəlib, İshaq adlı bir gəncəlinin evini özüm üçün mənzil etdim. Bir gün kitabətdən söhbət düşdü və ev sahibi bu kitabı göstərdi, oxumağa başladım. Böyük meyl və şövqlə bitirdim. Əmir Kazım mirzə ibn şahzadə Bəhmən Mirzə 1918”.

Hər iki əlyazma Azərbaycan tarixinin bu və ya digər dövrünü (Atabəylər, Səfəvilər, Qacarlar) işıqlandırdığı üçün dəyərlidir.

## BƏHMƏN MİRZƏ

XIX əsrdə yaşamış görkəmli ictimai xadim, tarixçı-təzkirəçi, Azərbaycan hakimi Abbas mirzə Naibüssəltənənin 4-cü oğlu Bəhmən Mirzə Qacarın həyatı məlum olduğu kimi Şimali Azərbaycanla bağlı olmuşdur. O, Qacar şahzadələrinin savadlı, istedadlı nümayəndələrindən biri olub, fəzilətli və kitabsevər idi. Elm və ədəb sahibi olan Bəhmən Mirzənin mötəbər, çox zəngin və qiymətli kitabxanası olmuşdur. Kitabların əksəriyyəti gözəl xətlə yazılmış, nəfis kitablar idi. Bunların bəzisi fars dilində özünün yazdığı əsərlər və eyni zamanda onun təşəbbüsü ilə çap olunmuş kitablardır. Bəhmən Mirzə bir neçə kitabın, o cümlədən qardaşı Məhəmməd şaha həsr etdiyi və “Təzkireyi-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məhəmmədşahi" adlandırdığı "Təzkirətüş-şüəra"nın müəllifidir. Təzkirə 1249-cu ildə (1834) tamamlanmışdır. Qeyd etmək lazımdır ki, M. Bamdadın yazdığına görə qacar şahzadələrindən xüsusilə dörd nəfəri savadlı və fazil şəxsiyyət olmuşlar: Bəhmən Mirzə, Əliqulu mirzə, Fərhad mirzə və Əbülhəsən mirzə. Lakin Abbas mirzə Naibüssəltənənin bütün qacar şahzadələrindən ağıllı, düşüncəsi və uzaqgörənliyi ilə seçildiyini avropalılar da etiraf etmişlər. (71, c. 1, s. 195).

Məhəmməd Mirzə 1834-cü ildə şahlıq taxtına əyləşdikdən sonra qardaşını, Ərdəbil hakimi Bəhmən Mirzəni Tehrana hakim təyin etdi. Bir ildən sonra isə Bürucerdi və Seylaxoru onun ixtiyarına verdi. Bəhmən Mirzə 1839-cu ildən 1847-dək Təbrizdə əyləşmiş, Azərbaycan valisi olmuşdur.

Bir tarixçinin yazdığına nəzər salaq:

"Xəstəliyin şiddətindən əzab çəkən qardaşının (Məhəmməd şahın-H.T.) hakimiyyətinin axırı yaxınlaşan zaman Nəsrəddin mirzə vəliəhd təyin edildi. Bu zaman o, azyaşlı uşaq idi və onu vəliəhdliyə layiq bilməyən Bəhmən Mirzə səltənət xəritəsini özü üçün çəkməyə başladı, dövlət adamlarından ibarət bir çox dəstəni öz tərəfinə çəkdi". (71, c. 1, s. 195). Başqa bir mənbə isə xəbər verir ki, o zaman İranın baş naziri (sədri-əzəmi) Hacı Mirzə Ağası idi. Bəhmən Mirzə onun pis niyyətli siyasətini görüb, Xorasanı əllərində saxlamış Allahyar xan Asəfüddövlə və onun oğlu Məhəmmədhəsən xan Salarla birləşib, sədri-əzəmə zidd mövqe tutdu. Hacı Mirzə Ağası bu ittifaqdan xəbər tutdu

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

və 1847-ci ildə Xosrov xan Gürcünü Kürdüstan valisi Rzaqulu xanı tutmaq üçün göndərdi. Bəhmən Mirzəyə xəbər çatdı ki, Xosrov xan onu tutmaq üçün Kürdüstandan Azərbaycana gələcək. O, bundan qorxub istədi ki, gizlicə özünü Tehrana çatdırsın və Məhəmməd şahdan aman istəsin. Lakin Hacı Mirzə Ağasının ona qarşı münasibətindən narahat olduğu üçün tutulacağından xoflandı, ehtiyat etdi. Elə həmin il Rusiyanın İranda olan səfirliyinə gedərək sığınacaq istədi. Bundan sonra Rusiyanın səlahiyyətli nümayəndəsi Bəhmən Mirzə ilə qardaşı Məhəmməd şah arasında vasitəçi oldu. Qərara aldı ki, şahzadə katibləri, nökərləri və ailəsi ilə birlikdə kazakların və rus ordusunun müşayəti və himayəsi ilə Gilan yolundan Qafqaza getsin. Beləliklə anlaşılmazlıq üzündən didərgin düşən Bəhmən Mirzə İrandan getdikdən sonra 3 il Tiflisdə yaşamış, 1850-ci ildən isə Qarabağın hakiminin əyləşdiyi Şuşa şəhərində özünə iqamətgah yaradıb, ömrünün axırınadək, yəni 1884-cü ilədək təmtəraqlı, firavan həyat sürmüşdür. O, Rusiya təbəəsi olaraq müəyyən məbləğdə məvacib almış, övladları da Rusiya ordusunda pullu xidmət etmişlər. Fransanın səlahiyyətli nümayəndəsi Kon de Qobineaunun dediyinə görə ruslar həm Məhəmməd şahın hakimiyyəti dövründə və həmçinin Nəsrəddin Şahın iki vəliəhdi (Mahmud mirzə və Müinəddin mirzə) öldükdən sonra Bəhmən Mirzəni səltənətə gətirib, vəliəhd etmək üçün səy göstərmişdilər, lakin bu, baş tutmamışdı. (71, c. 1, s. 197).

Bəhmən Mirzə 1839-1847-ci illərdə Azərbaycan hakimi olarkən bir çıx yadda qalan işlər görmüşdür.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Onun “Şükürnameyi-Şahənşahi” və “Təzkireyi-Məhəmmədşahi” əsəri tarixin müəyyən səhifələrini, bu səhifələrdə yaşayan ictimai xadimlərin fəaliyyətini işıqlandırdığı üçün qiymətli mənbələrdir.

Bəhmən Mirzənin təşəbbüsü ilə Şərqin möhtəşəm ədəbi abidəsi olan “Əlif leyla və Leyla” (Min bir gecə) əsəri ərəbcədən fars dilinə tərcümə olunmuşdur. Mətnin nəsrlə olan hissəsinin tərcüməsi Molla Əbdüllətif Təsucinin, ərəbcə nəzmlə olan hissələrin tərcüməsi isə Mirzə Məhəmməd xan Sürüş İsfahaninindir. Bu iş uğurla yerinə yetirilmişdir. Maraqlı cəhət budur ki, ərəbcədə olan şeirlərin bəzisinin yerinə farsın ustad şairlərinin şeirləri daxil edilmişdir. Bu da “Minbir gecə”nin nəzər-diqqəti cəlb edən qiymətli cəhətidir. “Əlif Leyla” Nəsrəddin Şahın dövründə çap olunmuşdur. Bəhmən Mirzə 1810-cu ildə anadan olmuş, 1884-cü ildə Şuşada vəfat etmişdir. Bəhmən Mirzənin övladları təhsil görmüş ziyalı kimi yetişmişlər. Onun oğlanları arasında yüksək rütbəli zabitlər var idi. Qızları maarifçilik fəaliyyəti ilə məşğul olmuşlar. Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin “Ruznameyi-xatirati-Etimadüssəltənə” əsəri XIX əsr İranın ictimai-siyasi həyatını reallıqla əks etdirən bir güzgüdür. Orada əksini tapmış maraqlı bir faktda Bəhmən Mirzənin bir ziyalı qızı haqqındadır və həmin dövr üçün şox diqqətəlayiqdir. O yazır:

“h.q. 1307 (1889) (Avropadan qayıdan Nəsrəddin Şah) Naxçıvandan İran torpağına keçərkən İsmayıl xan Naxçıvaninin zövcəsi olan Bəhmən Mirzənin qızı Nəvvabə xanım şahın hüzuruna gəldi. Onun bəzək

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əşyaları ilə zəngin olan, bəzədilmiş başı və sinəsi açıq idi, erməni libasında [20] idi. O, üzünü heç kəsdən gizlətmirdi. Rus dilində çox səlis danışırdı. (70, s. 662).

## MİRZƏ CƏFƏR QARACADAĞİ

Mirzə Cəfər Qacardağı Münşi Fətəli Şah Qacarın 58-ci oğlu, “Nameyi-Xosrovan” müəllifi Cəlaləddin Mirzənin münşisi (katibi) idi. O, Mirzə Fətəli Axundovun yeddi əsərini (6 dram əsəri və “Aldanmış kəvakib” povesti) azərbaycan dilindən fars dilinə tərcümə etmişdir. Kitab “Təmsilat” adı ilə 1276-cı ildə (1859) Tiflisdə nəşr olunmuşdur.

[20] XIX əsrdə İranda xaçpərəstlərə, qeyri-müsəlman olanlara erməni deyilirdi.Eləcə də alman, fransız, ingilis, polyak və başqalarına firəng deyildiyi kimi Almaniya, Fransa Polsa və sairə də Firəngistan adlanırda.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ MƏHƏMMƏDBAĞIR HƏRƏVİ

Mirzə Məhəmmədbağır Hərəvi əslən qəzvinlidir. O, şair təbiətli olub, "Cövhəri" təxəllüsü ilə şeirlər yazmışdır. Onun fars dilində yazdığı "Tufan-ül-buka" ("Tüğyanlı ağlama") adlı əsər o zaman sadə xalq tərəfindən maraqla qarşılanmışdı, çox məşhur bir əsər olduğunu isə onun bir neçə dəfə çap olunması sübut edir. Mirzə Məhəmmədbağır təxminən 1833-cü ildə İsfahanda vəfat etmiş və orada dəfn olunmuşdur. Onun şeirlərindən nümunələr, tərtib olunmuş bir çox şeir toplusuna daxil edilmişdir. Məhəmməd Füzuli adına Əlyazmalar institutunda saxlanılan Məhəmmədpaşa ibn-Ələsgər Əfşarın M-292 şifrəli "Gülçin" toplusunda və bir sıra cünglərdə onun şeirlərindən nümunələrə rast gəlmək olar.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ SƏLİM AXUNDOV

XIX əsr İran tarixini, xüsusən tibb tarixini araşdıran tədqiqatçılar bu dövrdə fəaliyyət göstərmiş ictimai xadimlər arasında azərbaycanlı həkimlərin adlarına da rast gələcəklər.

Mirzə Səlim Axundov Qarabaği, əsli Cənubi Azərbaycanın Xoy şəhərindən olan Mirzə Məhəmməd Qoboli, Mirzə Hacıbaba Əfşar və başqaları bu dövrün görkəmli, adlı-sanlı, məşhur hakimlərindən olmuşlar.

Azərbaycan alimi Mirzə Səlim Axundov Qarabaği XIX əsrin II yarısında yaşayıb-yaratmışdır. Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda alimin tibbə aid Tehranda çap olunmuş iki kitabı mühafizə olunur. "Tədbir ül-həvamil" və "Kəşkülək" adlı bu əsərlər 1893-cü və 1897-ci illərdə işıq üzü

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

görmüş, daxili xəstəliklər, kimya, zoologiyaya, eləcə də tarixə aid maraqlı, elmi məlumatla zəngindir. Mirzə Səlim Qarabağının bu əsərlərinin Tehranda nəşr olunması təsadüfi hadisə deyildir. 1890-1894-cü illərdə Tehranda baş vermiş vəba xəstəliyi zamanı onun göstərdiyi xidmətlər İran dövləti tərəfindən yüksək qiymətləndirilmişdir.

Belə ki, o, bu yoluxucu xəstəliyə qarşı ciddi mübarizə aparılmasında fəal iştirak etmiş, yüzlərlə insanın həyatıni xilas etmişdir. Bu hadisə ilə əlaqədar bir dövlət sənədində belə deyilir:

"Mirzə Səlim Axundov Qarabaği tibb elmində, bu fənni-şərifdə öz əməli səviyyəsini təkmilləşdirmişdir. Insanları müalicə etməklə məşğuldur. Bundan əlavə son iki ildə aşkar olunmuş dəhşətli xəstəlik olan vəba Darülxülafədə (Tehran-H.T.) tüğyan edən zaman o, böyük cəsarət və igidliklə vəbaya yoluxmuş xəstələrə nəzarət etmiş, onları müalicə edərək, kasıblara özünün təbiətində olan qayğı və mərhəməti, xeyirxahlığı göstərmişdir. O, çoxlarını bu bəladan xilas etmişdir. Ağa Mirzə Səlim bu gün mahir, sədaqətli, sınanmış və hər qism müalicəyə qabil bir həkimdir". 1311, şəvval. (1894) (60, s. 104).

Mirzə Səlim Axundovun tarix elminə etdiyi xidmət onun "Kəşkülək" əsərində "Təshihi-iştibah" (Bir səhvə düzəliş) adlı tədqiqatıdır ki, burada Qəhqəhə qalasının yerləşdiyi ərazi dəqiqləşdirilmiş, onun Qarabağda deyil, Qaradağda (Cənubi Azərbaycan) mövcud məşhur qala olduğu göstərilmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ MƏHƏMMƏD QOBOLİ

XIX əsr Azərbaycan tibb tarixini araşdıran tədqiqatçı heç şübhəsiz ki, Mirzə Məhəmməd Təbib Qobolinin də adına rast gələcəkdir. Mirzə Məhəmməd Təbib XIX əsrin II yarısinda yaşamışdır. (71, c. 3, s. 241). Onun həkim Qoboli ləqəbi ilə məşhur olmasının səbəbi budur ki, o, həddindən artıq qəlyana aludə olduğundan hətta səfərə çıxanda da özü ilə "qubul-mənqəl" (qəlyan çəkmək vəsaiti və manqal) apararmış. Mirzə Məhəmməd, Əbdüssəbur Azərbaycaninin oğlu olub, əsli Xoy şəhərindəndir və Təbrizdə yaşamışdır. Həkim Qoboli Abbas mirzənin müasiri olan alim və ədiblərdən, fazil və təbiblərdən idi. O, əvvəlcə Məhəmməd şahın şəxsi həkimi, sonra isə Nəsrəddin Şahın həkimbaşısı olmuşdur. Həkim Qoboli tibb elmini

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

İsfahanda öyrənmişdir və bir çox elmi əsərlərin müəllifi kimi tanınmışdır. Məşhur Azərbaycan alimi Məhəmmədəli Tərbiyətin babası olan Mirzə Mehdi xanın "Sənqulax" əsərini Abbas mirzə Naibüssəltənə üçün ixtisar edib, "Xülaseyi-Abbasi" adı ilə ona təqdim etmişdir. Qoboli İngilis həkimi Karmekdən "Çiçəkdöymə qaydaları" adlı əsəri tərcümə etmiş və "Təlimnamə dər əməli a blezədən" adı ilə 1829-cu ildə Təbrizdə çap etdirmişdir. Mirzə Məhəmməd Qobolinin 1834-cü ildə Məhəmməd şahın adına yazdığı "Məcməul-hikməteyn və camiut-tibbeyn" (İki hikmətin və iki tibbin bir yerdə toplanması) əsərinin əlyazması Tehranın "Məqul-Mənqul" institutunda saxlanılır. Qoboli Nəsrəddin Şahın adına cərrahiyyə elmindən bəhs edən bir kitab da yazmış, onu rəsmlər və şəkillərlə bəzəmişdir.

Qeyd olunduğu kimi Qoboli dövrünün fazil ədiblərindən idi. O, Kəb ibn Züheyrin məşhur qəsidəsini xülasə ilə ərəbcədən azərbaycancaya çevirmiş və bu qəsidənin hər beyti üçün bir rübai nəzmə cəkmişdir.

Məsələn:

Banət Suad fəqəlbi əlyövmə məbtulu,
Mətimun əsəruha ləm yəfid məkbulu.

ərəbcə beytini bu rübai ilə tərcümə etmişdir:

Suad, o sərv boylu dilbər məndən ayrıldı
Könlüm onun ardınca dəli olub sarsıldı
Əsir kimi bağlanmış qırılmayan zəncirə
Fidyəsiz qul kimidir, zəncirindən asıldı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Həkim Qobolinin iki oğlu da dövrün tanınmış ziyalılarından olmuşdur: Cəlil xan Nasirülhükəma və Səburi təxəllüslü Mirzə Rzaxan Ərfəülhükamə. (72, s. 386). Həkim Qobolinin elmi fəaliyyəti haqqında Azərbaycanda namizədlik dissertasiyası yazılmışdır.

## MİRZƏ BABA ƏFŞAR

Avropada ilk ali tibb təhsili almış azərbaycanlı həkim Mirzə Baba Əfşar, yaxud Mirzə Hacıbaba Əfşar isə Azərbaycan valisi Abbas mirzə Naibüssəltənənin ordusunun zabitlərindən birinin oğludur. O, şahzadə Abbas mirzə tərəfindən 1811-ci ildə Avropaya tibb elmini və rəssamlıq sənətini öyrənmək üçün göndərilən iki gəncdən biri olmuşdur. Abbas mirzə 1811-ci ildə onun hüzuruna, Təbrizə gəlmiş İngiltərənin xarici işlər naziri ilə görüşərək nazir ser Harford Consdan xahiş etdi ki, iki gənci, Mirzə Baba Əfşarı və Nəqqaşbaşı oğlu Məhəmməd Kazımı özü ilə bərabər Londona aparsın. Səfir müasir elmləri öyrənməyin zəruri olduğunu düşünən Abbas mirzənin bu fikrini müsbət hal kimi qarşılamışdı. Hər iki gənc Azərbaycanın tanınmış, adlı-sanlı ailəsindən idilər. Abbas mirzə Naibüssəltənə bu iki

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

gənci ser Harford Consla Londona yola salarkən demişdi:

"Bu iki gənci təhsil almaq üçün aparın ki, qayıdandan sonra mənə, özlərinə və öz məmləkətlərinə fayda versinlər".

Nəqqaşbaşı oğlu Məhəmməd Kazımın rəssamlıq sənətində fövqəladə bir istedadi var idi. Buna görə də onu bu sənətin görkəmli ustadlarının yanında təhsil almaq üçün qəbul etdilər. Mirzə Baba isə tibb elminin ibtidasını öyrənməklə məşğul olmağa başladı. Məhəmməd Kazım 18 ay təhsil aldıqdan sonra 1813-cü ildə vərəm xəstəliyindən vəfat etdi. Mirzə Hacıbaba isə 6 il Londonda orta təhsil aldıqdan sonra həkimlik sənətini öyrənməyə başladı. Yuxarıda qeyd olunduğu kimi Mirzə Hacıbaba İranda ilk həkimdir ki, Avropada bu sənətə mükəmməl yiyələnmişdir. O, 1819-cu ildə İrana qayıtdıqdan sonra Abbas mirzə Naibüssəltənənin və onun oğlu Məhəmməd Mirzənin Həkimbaşısı təyin olunmuşdur. Belə ki, Məhəmməd Mirzənin sağlamlığı bu həkimin tam ixtiyarında idi. Mirzə Hacıbaba məşhur həkim, Məhəmməd şahın həkimbaşısı olduqdan sonra adından Hacı kəlməsini ataraq, Mirzə Baba Həkimbaşı kimi tanınmağa başladı.

Altı il İranda İngiltərə səfirliyinin səlahiyyətli nümayəndəsi kimi çalışmış Ceyms Moryer siyasi xadim olmaqla bərabər, həm də yazıçı idi. O, Londona qayıdarkən Hacıbaba ilə tanış olmuş, özünün "Sərgüzəşti-Hacıbaba İsfahani" əsərinin qəhrəmaninin adını da Mirzə Hacıbaba Həkimbaşının adından götürmüşdür. Ceyms Moryerin "Hacıbaba" kitabı nəşr

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olunduqdan bir neçə il sonra Iranda olmuş bir nəfər ingilis, həkimbaşı Hacıbaba ilə tanış olmuş və onun bu xəbərdən çox dilxor olduğunu görmüşdü. Hacıbaba Ceyms Moryerdən incimiş və əsərində nə üçün məhz onun adını seçdiyinə təəcüblənmişdi. Iran alimi Mehdi Bamdad yazır: "Ceyms Moryer öz kitabına Hacıbabanın adını verdiyi üçün çox güman ki, o, bundan bərk dilxor olmuşdur. Buna görə də əsərin qəhrəmanı ilə öz arasında oxşarlıq olmaması üçün "hacı" kəlməsini öz adından atdı və o, həmin vaxtdan Mirzə Baba kimi tanındı. (71, c. 4, s. 192).

Abbas mirzə Naibüssəltənə Azərbaycanın gözəl, abad kəndlərindən olan və Təbrizdən 25 km. aralıda yerləşən Xacə kəndini Mirzə Babaya bağışlamışdı. Mirzə Baba bu kəndin gəliri ilə varlı bir şəxs oldu.

Mirzə Baba 1244-cü ildə (1829) Rusiyanın İrandakı səfiri A. Qriboedovun qətli ilə əlaqədar Rusiyaya üzrxahlıq üçün göndərilmiş nümayəndə heyyətinin tərkibində idi. O, bu səfərə nümayəndə heyyətinin başçısı şahzadə Xosrov Mirzənin şəxsi həkimi kimi göndərilmişdi.

Mirzə Baba 1833-ildə Təbrizdə yerləşmiş Rusiya və İngiltərənin səfirliklərinə ezam olunmuş və Naibüssəltənənin bu ölkələrə səfərini hazırlamaq işi ilə məşğul olmuşdur. Lakin məlum olduğu kimi Abbas mirzə 1833-cü ildə xəstələnib vəfat etdiyi üçün bu səfər baş tutmamışdır. Doktor Mirzə Hacıbaba 1252-ci ildə (1836) Tehranda vəfat etmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ RZA KƏLHUR

Nəsrəddin Şah Qacar dövrünün görkəmli şəxsiyyətlərindən biri olan xəttat Mirzə Rza Kəlhur[21] (1829-1892) Azərbaycanda nəstəlik xəttinin tanınmış və məşhur ustadlarındandır. Xəttatların çoxu onun xəttini Mir İmad Qəzvininin xəttindən üstün tuturdular. Məlum olduğu kimi Mir İmad Qəzvini bu xətt növünün böyük ustadı hesab olunur. Məhəmmədhəsən xan Etimadüssəltənə 1889-cu ildə yazdığı "əl-Məasir vəl-asar" əsərində öz müasiri haqqında belə yazır:

"Mir İmad Qəzvinidən sonra nəstəliq xətti ilə yazmaqda ona bərabər olan yoxdur. Bu incəsənətin böyük ustadları onun xəttini Mirin xətti ilə müqayisə

---

[21] Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Kəlhur tayfasının kəngərli qəbiləsindən olduğu barədə sənəd saxlanılır. Bax: hibənamə №.11/455, II bölmə.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

edirlər. Dərviş təbiətli, xoşxasiyyət, zarafatcıl bir adamdır. Xarici görkəmi və fitri istedadı ilə bütün xəttatlardan seçilir. Digər xəttatlardan üstün, şöhrətli olmasına baxmayaraq, hələ də, yüksək dairələrdən özünə vəzifə və yardım almır, öz əllərinin zəhməti ilə dolanır". (65, s. 203).

1829-cu ildə anadan olmuş Mirzə Məhəmmədrza Kəlhur Kəlhurun atlı dəstəsinin başçılarından olan Məhəmməd Rəhim bəyin oğludur. Atasının sənətinə o qədər də həvəsi yox idi və bu cəhətdən ona rəğbət bəsləmirdi. Gəncliyindən xəttatlığa meyli onu həddən artıq şövqlə bu sahədə çalışmağa sövq edirdi. Ömrünün gənclik illərində Mirzə Məhəmməd Xansarinin yanında (bu sənətkar Tehranda Şah məscidinin eyvanını bəzəyən kitabələrin müəllifi olan Ağa Məhəmməd İsfahanının şagirdidir) öyrənmiş, məşq etmişdir. O, 1884-cü ildən Tehranda çıxan "Şərəf" ruznaməsinin xəttatı kimi fəaliyyət göstərməyə başlamışdı və qəzet Etimadüssəltənənin rəhbərlik etdiyi Nəşriyyat nazirliyinin nəzarəti altında çap olunurdu.

Kəlhur haqqında ilk məlumatı onun şagirdi, tarixçi alim Abdulla Mustofi vermişdir. Onun xatirələrindən müəlliminin açıq ürəkliliyini, xəttatlıq sənətinə məhəbbətini, şagirdləri ilə xoş rəftar edən müdərris olmasını öyrənirik.

Kəlhur köhnə əlyazmaların üzünü köçürməklə İsfahan və Qəzvində Mir İmadın xəttini öyrənmiş, sənətkarlıqda öz ustadını ötmüşdü. Onun şöhrəti Nəsrəddin Şaha çatdıqda, onu Tehrana dəvət edərək, nəşriyyat nazirliyində işləməyi təklif etmişdi. Kəlhur

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Nəsrəddin Şaha xəttatlıq sənətini öyrədirdi. O, iri həcmli mətnləri köçürməyi xoşlamırdı, əsasən kiçik vərəqlərdə yazırdı ki, bu nümunələr də çox təəssüf ki, qalmamışdır. Onun xətt nümunələrini litoqrafiya üsulu ilə çap olunmuş kitablarda axtarmaq lazımdır. Məsələn, Firuqi "Divan"ı ilə bir yerdə cap olunmuş Qaani "Divan"ı onun ilk işlərindəndir. Kəlhur İranın Nəşriyyat naziri Məhəmmədhəsən xan Etimadüssəltənənin nəşriyyatla əlaqədar bir sıra işlərinə kömək edirdi. Məhəmmədhəsən xanın nəşr etdirdiyi və Nəsrəddin Şahın Xorasana 2-ci səfərinə həsr olunmuş "Orduye Humayun" qəzeti və "Rəsmli səyahətnamə" məcmuəsi Kəlhurun incə xətti ilə yazılmışdır. (125, s. 44).

Kəlhur çox zaman xəttatlıqla məşğul olarkən siyasətdən danışar və dövlətin kobud, yersiz rəftarını gizlətmədən, açıq-aydın, sadə xalq dilində tənqid edərdi. Onun Tehran alimlərindən yalnız Ağa Məhəmməd Həcmabadiyə (İranda mütləqiyyət və müstəmləkəçilik əleyhinə mübarizə aparan məşhur din xadimi) etiqadı var idi. Digərlərinə ümumiyyətlə biganə idi.

Kəlhur 1892-ci ilin avqust ayında 65 yaşında vəba xəstəliyindən vəfat etmişdir və Tehranda Həsənabad qəbiristanında dəfn edilmişdir. Onun çap olunmuş işləri bunlardır: "Məxzənül-inşa", "Feyzəd-dümu", "Ruziameyi Şərəf", "Səfərnameyi-Xorasan və İraqi Nəsrəddin Şah", "Divani-Füruqi-Bəstami".

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ MEHDİ

Mirzə Mehdi, yaxud Mirzə Məhəmməd Mehdi xan doktor Hikmət (rəisül-hükəma) kimi məşhur olmuşdur. O, görkəmli alim Məhəmməd Cəfər Təbrizinin oğludur. Zəimüddövlə (mühüm dövlət məmuru-H.T.) kimi titulu var idi. Mirzə Mehdi Qahirə sakini olarkən "Hikmət" adlı qəzet nəşr etdirmişdir. Bu qəzetin əsası 1892-ci ildə qoyulmuş və o dövrdə çox geniş yayılmışdır. Qəzet Məşrutə inqilabının əvvəllərinə qədər işıq üzü görmüşdür.

Məhəmməd Mehdi Təbrizi dərin fəlsəfi biliyə malik alim idi. Onun ərəb dilində yazdığı "Tarixi-miftahi-Bab əl-Əbvab" əsəri Bab-Babiyyə-Bəhaiyyə və Əzəliyyə təriqətlərinin tarixindən bəhs edən samballı əsərlərdəndir və müəllifi bitərəf olaraq bu mövzuda yazmış ən məşhur alimlərdən hesab olunur. Maraqlı cəhət budur ki, əsərdə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

verilmiş məlumata görə, Seyid Əli Məhəmmədin yanında alimlərin apardığı elmi mübahisələrdə Məhəmməd Mehdi Təbrizinin də ata-babası iştirak etmişdir. Həmin əsər 440 səhifədən ibarət olub, 1903-cü ildə Misirdə nəşr olunmuş, geniş yayılmışdır. Məhəmməd Mehdi Təbrizi uzun ömür sürmüş və 1914-cü ildə vəfat etmişdir

## XIX əsrdə İranda yaşamış azərbaycanlı hərbçilər

Iranda nizami ordunun təşkili XIX əsrin əvvəllərinə, daha doğrusu, Fətəli Şah Qacar hakimiyyəti dövrünə təsadüf etsə də, yuxarıda qeyd olunduğu kimi, hələ XVIII əsrdə Nadir Şah Əfşarın Azərbaycanın və bütün Qafqazın Naibüssəltənəsi təyin etdiyi, sərkərdə Əmiraslan xan Əfşar torpaqların müdafiəsində mərdliklə vuruşmuş, Nadir Şahın və onun nəslinin intiqamını alaraq şəhid olmuşdur. Nadir Şah ordusunda bir çox mərd döyüşçülər yetişmiş, onun qələbələrinin təminatçısı və iştirakçısı olmuşlar.

XIX əsrdə Avropa tipli nizami ordu ilk dəfə Azərbaycanda yaranmağa başlamışdır. Azərbaycanın valisi Abbas mirzə Naibüssəltənənin bu işə təşəbbüs göstərməsi və böyük diqqəti sonralar da davam

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

etdirilmişdir. Ordunun tərkibi 1848-ciilədək demək olar ki, əsasən azərbaycanlılardan təşkil olunmuşdur. Qaragözlü, əfşar, şahsevən, xələc, bayat, qacar, qaşqay və başqa tayfalar yüksək döyüş bacarığına malik olmuşlar. Onlar 1804-1813 və 1826-1828-ci illərdə baş vermiş Rusiya-İran müharibələrində şücaət göstərmişlər. Öz istedadı ilə avropalı diplomatların nəzər-diqqətini cəlb etmiş şahzadə Abbas mirzə Qacar, Həsən xan (Sari Aslan) və onun qardaşı Hüseyn xan Rusiya imperatorunu heyrətləndirmiş, Azərbaycanın hərb tarixinə diqqətəlayiq səhifələr yazmışlar. Abbas mirzə ilə görüşməyə böyük maraq göstərən xarici nümayəndələrdən biri onun haqqında belə demişdir: "Mən onun qədər Avropa elminə və siyasətinə diqqət edən başqa İran şahzadəsi tanımıram. İran və ərəb elmlərinə bələd olan Abbas mirzənin atası Fətəli Şah dövründən etibarən İranda Fransa həyatına maraq artmışdır. Şahzadənin özü mənə nəql edir ki, o, on yeddi yaşında olarkən atası onu Azərbaycana və onun ordusuna rəhbərlik etməyi tapşırmışdır. O, bir neçə dəfə Gürcüstana qoşun göndərmişdir. Bu hərəkətlə onun məqsədi həmin dövləti zəbt eləmək olmasa da Rus dövlətinin əsgərinə göstərdi ki, güclü qolu olan düşmənlə rastlaşarsa, həmişə onun üzərində zəfər və qələbə çalmağı bacarır".

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ABBAS MİRZƏ NAİBÜSSƏLTƏNƏ

Abbas mirzə Naibüssəltənə (1789-1833) İran tarixinin bu dövrü üçün (1804-1828) mühüm simalarından biri olmuşdur. Fətəli Şah Qacarın 2-ci oğlu, ictimai xadim və sərkərdə Abbas mirzə İran səltənətinin Ağa Məhəmməd şahın vəsiyyətilə Fətəli Şah tərəfindən təyin edilmiş vəliəhdi idi. O, 1789-cu il avqustun 28-də Mazandaranın Nəvai qəsəbəsində anadan olmuşdur. 1799-cu ildə, tərbiyəçisi Süleyman xan Qacarın, Mirzə Bozorğ kimi tanınmış Mirzə İsa Fərahaninin və sərdar İbrahum xan Qacarın müşayiətilə vəliəhd və hökmdar kimi Azərbaycana göndərilmişdir. Qeyd etmək lazımdır ki, Abbas mirzənin atabəyisi (lələsi) Süleyman xan Qacarqovanlu Ağa Məhəmməd şah Qacarın dayısı oğlu olub, bu nəslin böyük əmirlərindən idi. O, 17 yaşında şah tərəfindən ordu komandanı təyin olunmuş, Rusiya

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

imperatriçəsi Ekaterinaya sığınaraq qardaşı Ağa Məhəmməd şaha qarşı mübarizə aparan Murtuzaqulu xanla, talış xanı Mustafaqulu xanla döyüşmüş, bir müddət Gilan hakimi də olmuşdur. O, şah tərəfindən Azərbaycana göndərilərək, Təbrizdə əmir və xanların əksəriyyətini mərkəzi dövlətə itaət etməyə razı salmış, 1792-ci ildə Azərbaycanın general-qubernatoru təyin olunmuşdur. Ağa Məhəmməd şahın Qarabağa yürüşü zamanı İbrahim xan tərəfindən sındırılan körpünü bərpa etmək və oradan ordunun müəyyən hissəsini keçirmək işini bacarıqla yerinə yetirmişdir. Lakin məlumdur ki, bu yürüş zamanı Qacar şahı nökərləri tərəfindən öldürüldü və ordu bütünlüklə dağıldı. Süleyman xanın bu zaman ən böyük xidməti orduda olan şahzadələrdən Abbas mirzəni, Məhəmmədqulu mirzəni və Hüseynəli mirzəni Tehrana gətirməsi oldu. Süleyman xan Tehrana gəldikdən sonra Fətəli Şah onu yenidən Azərbaycan ostandarı (hakimi) təyin etdi. 1799-cu ildən vəliəhd Abbas mirzə ilə yenidən Azərbaycana gəldi və Təbrizdə yaşadı.

1804-cü ildə ruslar general Sisyanovun komandanlığı ilə Gəncəni işğal edərkən Fətəli Şah 16 yaşlı oğlu Abbas mirzəni və Süleyman xanı 30 min atlı və piyada qoşunla Azərbaycana yola saldı ki, onlar rusların hücumlarının qarşısını alsınlar. Lakin bunun xeyri olmadı. Süleyman xan 1805-ci ildə çox cavan, 36 yaşında vəfat etmişdir. Onun nəslindən olanlar "Əmir Süleyman" soyadı ilə tanınırlar. Bir sıra tarixçilər Abbas mirzənin vəliəhd təyin edilməsi hadisəsinin 1799-cu ildə baş verdiyini yazdıqları halda, Lord Kerzon həqiqətə uyğun olmayaraq "Kitabi-İran və mövzui-İran" əsərinin

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

521-ci səhifəsində belə yazır: “Təbriz h.q. 1220-ci (1805) ildə Qacarlar vəliəhdini qəbul etdi”. (71, c. 2, s. 215).

Abbas mirzə I-II Rus-İran müharibələri (1804-1813, 1826-1828) zamanı Azərbaycan ordusunun cəsur sərkərdəsi kimi ləyaqətlə vuruşmuşdur. Lakin imperialist dövlətlərin İrana müdaxiləsi onun bütün cəhdlərini boşa çıxarırdı. Digər tərəfdən, İran-Rusiya münasibətlərinin pisləşdiyi və müharibənin başlandığı vaxt ölkə daxilində, həm hökümət dairələrində, həm də ümumi vəziyyət yaxşı deyildi. Iranda sərhəd yaxınlığında yaşayan əhalinin böyük hissəsini feodallar, nüfuzlu xanlar, elat və köçəri tayfa başçıları təşkil edirdilər, onlar öz şəxsi maraqlarını düşünərək, mövqe və üstünlüklərini saxlamaq üçün müqavimət göstərir və hökümət qüvvələrinin mərkəzləşdirilməsinə mane olurdular. Onlar dövlətə vergi verilməsi, qoşun toplanması, hərbi xərcin təmin edilməsi və bu kimi prosesləri ləngidir, öz nüfuz və qüdrətlərini qorumağa çalışırdılar. Iran tarixçisi Nasir Nəcmi yazır ki, müharibə şəraitində ordunun istifadə edəcəyi müəssisələrdə və hökümət idarələrində nizam-intizam və mərkəziyyət yox idi. Bu müəssisə və hökümət dairələrində keçmiş dövrdə törədilmiş qarma-qarışıqlıq və özbaşınalıq əhval-ruhiyyəsi hökm sürürdü. (42, s. 26). İran qoşunlarının baş sərkərdəsi Abbas mirzə çox səy edərək xanların arasında birlik yaratmağa çalışmış, elat arasına və şəhərlərə bacarıqlı adamlar göndərmişdi.

1811-ci ildə Rusiya ilə İngiltərə arasında dostluq və birlik haqqında müqavilə imzalandı. İran dövlətinin

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

başçıları isə adəti üzrə dünyada baş verən siyasi hadisələrdən xəbərsiz və məlumatsız idilər. Həmin il ruslara qabaqcadan xaincəsinə verilmiş dürüst məlumat nəticəsində İran dövlətinin Abbas mirzənin sərkərdəliyi ilə Aslandüz adlanan yerdə olan ordusu qəflətən hücuma məruz qalaraq, döyüşdə məğlub oldu, ordu böyük tələfat verdi və Abbas mirzə əlacsız Təbrizə qayıtmağa məcbur oldu. Bu zaman Rusiya dövləti Fransa ilə müharibə edirdi və Napoleon Rusiyanı işğal etmək üçün Moskvaya qoşun çəkmişdi. Rusiya dövləti ilə müttəfiq və yaxın olan İngiltərənin İrandakı səfiri ser Qore Ouzeley ingilislərə rəğbət bəsləyən Baş nazir Mirzə Məhəmməd Şəfi ilə danışıqlara başladı və Rusiya Fransa ilə müharibə etdiyi halda İran dövlətini Rusiyanın xeyrinə sülh bağlamağa vadar etdi və 1813-cü ildə Gülüstan sülhü ilə müharibə dayandı. Nəticədə müqavilənin 3-cü bəndinə əsasən Qarabağ, Gəncə, Şəki, Şirvan, Quba, Dərbənd, Bakı və Talışın bir hissəsi, bütün Dağıstan, Gürcüstanın Şurəgil, Açıqbaş, Kurnə, Mengril mahalları, Abxaziya bütövlükdə Rusiyaya verildi.

Abbas mirzə II Rusiya-İran müharibəsi zamanı (1826-28) bütün İran qoşunlarının komandanı təyin edilmişdi. Müharibə başlayan vaxt Araz çayını keçərək rəşadət göstərdi və ilk vaxtlar ruslara qalib gəldi, onları geri oturtdu. O, orduya qəhrəmanlıqla sərkərdəlik edirdi və rusların 1805-ci ildə işğal etdiyi Şuşanı, Qarabağ hakiminin iqamətgahını geri aldı. Ordunun bir hissəsini böyük oğlu Məhəmməd Mirzəyə (Məhəmməd şaha) və xalası oğlu Əmir xan sərdar Qacara tapşırdı, onlar Gəncə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

və Tiflisi tutmağa yola düşdülər. Lakin bu ordu Rusiyanın çoxsaylı nizamı ordusunun müqavimətini qıra bilmədi və çoxlu itgi verərək məğlub oldu. Bu döyüşdə ordu komandiri Sərdar Əmir xan öldürüldü.

Abbas mirzə vəziyyəti belə gördükdə Şuşanı buraxaraq, Tiflisi tutmaq üçün getdi. Bu hadisə o zaman oldu ki, general İvan Paskeviç general Yermolovun əvəzinə Qafqazdakı rus qoşunlarının komandanı təyin edilmişdi. O, yeni qüvvə ilə Abbas mirzəyə qarşı döyüşə başladı. Çox ağır döyüşdə Abbas mirzənin qoşunu yaxşı vuruşsa da, topla silahlanmış nizami rus əsgərləri qarşısında İran ordusu tab gətirə bilmədi. Abbas mirzə bir neçə min əsgər itgi verərək Araz çayının kənarına, geri çəkildi. Irəvan qalasının müdafiəsində isə iki qardaş, Hüseyn xan və Sarı Aslan ləqəbli Həsən xan 4 ay mühasirədə qalaraq mərdliklə vuruşduqdan sonra təslim olmağa məcbur oldular, çətinliklə qələbə qazanan Paskeviçə isə Rus dövləti tərəfindən "İrəvan fatehi" ləqəbi verildi.

Ruslar Təbriz şəhərinə girdikdən sonra zənn edirdilər ki, Tehrana tərəf gələrək paytaxtı işğal edə bilərlər. Lakin bu zaman İngiltərə dövləti araya girərək onları dıyandırdı və sülh danışıqlarına başlamaq üçün vasitə oldu.

Abbas mirzə ağıllı sərkərdə idi, vəziyyəti belə görüb, yəni rusların Təbrizə daxil olduğunu gördükdə döyüşdən əl çəkib, sülh danışığına razılıq verməyə məcbur oldu. Tərəflərin görüşü Dehxarqana təyin olundu. Naibüssəltənə ətrafındakılardan bir neçə nəfərlə oraya getdi ki, rus qoşunlarının komandanı general Paskeviçlə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

görüçsün, sülh müqaviləsi bağlamaq haqqında müzakirələr aparsınlar.

Abbas mirzənin bu qərarına zidd olaraq belə bir hadisə baş verdi. Təbrizin işğal olunması xəbəri Tehrana yetişdiyi zaman Fətəli Şah bütün şahzadələri və hakimləri, ona tabe olan qüvvələri Tehrana çağırdı. Xorasan hökmdarı, şahzadə Həsənəli mirzə Şücaüssəltənə qara bayrağı Astani-Qüdsi-Rəzəvidən götürüb, ordu ilə Tehrana gəldi. Abbas mizənin ruslarla danışığa girməsini xəyanət kimi qəbul edən əleyhdarları, yəni digər şahzadələr Şücaüssəltənənin ətrafında yığışaraq etirazlarını bildirdilər. Onlar Abbas mirzənin vəliəhdlikdən məhrum olunmasını tələb edirdilər. Bu xəbər Paskeviçə çatdı. O, sülh bağlamaq haqqında danışığı dayandırmaq əmrini verdi. Abbas mirzə şahzadələrin Tehrana yığışdığını gördükdə vəziyyəti başa düşdü. Müharibənin yenidən başlanacağını və vəliəhdlikdən məhrum edilə biləcəyini görərək, qərara aldı ki, ruslarla bir neçə şərtlə saziş bağlasın. Beləliklə 10 fevral 1828-ci il tarixdə imzalanmış Türkmançay müqaviləsi qalib Rusiya dövlətinin tələblərini əks etdirən sənəd oldu. Iran dövləti çarəsiz qalıb bunu qəbul etdi. İngiltərənin xarici işlər naziri Makdonald Kinner ser Con Malkolmla İranda olmuş və İranın tarixi coğrafiyasına aid yazdığı əsərdə Paskeviçin Rusiya ilə İran arasında görüşündən və sülh sazişindən bəhs etmişdir. O, bu sazişin bağlanmasında Londonla Peterburqun rolunu da xatırladaraq yazır ki, Türkmançay müqaviləsi həqiqətdə İranın məğlubiyyətini və yoxluğunu başa çatdırdı. Iran bu tarixdən sonra biganələr

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

nəzərində quyruqsuz, başsız və bədənsiz şirə çevrildi və Rusiya ilə Hindistan arasında bufer qorxaq dövlət oldu. (71, c. 2, s. 219-220). Həsən Ənsari "Tarixi-İsfahan və Rey" kitabında yazır:

"O günlər sanki Rusun rəqibi olan siyasətçilər üçün İranın kiçilməsi Rusiyanın böyüməsindən daha mühüm oldu". Türkmançay müqaviləsindən sonra 1828 və 1830-cu illərdə Kirman və Yəzd hüdudlarında inqilab və iğtişaşlar baş verdi. Fətəli Şahın iki oğlu, Hüseynəli mirzə və Həsənəli mirzə Şücaüssəltənənin ona itaət etməmək və üsyan hazırlamaq məqsədləri barədə xəbər gəldi. Fətəli Şah Abbas mirzəni Azərbaycandan çıxararaq Yəzd və Kirmana göndərdi. Yəzd, Kirman döyüşsüz və qan tökülmədən alındı.

Abbas mirzə 1831-ci ilədək Azərbaycan hökmdarı oldu. Yəzd və Kirmanda qayda-qanun yaratdıqdan sonra 1832-ci ildə Xorasan vilayətinə göndərildi. O, hələ Azərbaycan hakimi olarkən Məşhəddə bərk xəstələnmişdi və ingilis həkimi Kormik onu müalicə etmək üçün Tehrandan oraya göndərildi, lakin həkim özü Xorasan yolunda tif xəstəliyindən vəfat etdi, vəliəhdi müalicə etmək üçün Məşhədə çatmadı. Beləliklə xəstəlik öz işini gördü. Abbas mirzə 1833-cü il oktyabrın 15-də vərəm xəstəliyindən vəfat etmiş, İmam Rza (ə) məqbərəsində dəfn olunmuşdur. (71, c. 2, s. 221).

Qacar şahzadələri içərisində işgüzar, ağıllı olan Abbas mirzə Azərbaycan valisi olan zaman bu vilayətdə çox işlər görüldü. Onun bu xüsusiyyətləri xarici dövlət nümayəndələrinin də diqqətini cəlb etmiş və İranda olmuş səfirliklərin diplomatlarının və səyyahların

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

maraqlı fikirləri bir çox kitablarda öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, əvvəllər Abbas mirzə ingilis siyasətinin tərəfdarı olmuşdur. Lakin ingilislərin ruslarla İran əleyhinə gizli danışıqları və bu səbəbdən İranın ardıcıl məğlubiyyətləri, Türkmançay müqaviləsi, onun ağır nəticələri Abbas mirzəni istər-istəməz ruslara meyl etdirdi. Bu həm də onun siyasi uzaqgörənliyini göstərirdi. Rusların ordu komandirləri və siyasi məmurları tez-tez İrana qonaq gəlirdilər. Bu münasibətə görə ruslar Xoy şəhərini boşaltmaq qərarına gəldilər. Bir qədər sonra rus dövləti vəliəhdi Rusiyaya, İmperator I Nikolayla rəsmi görüşə dəvət etmişdi və qərara alınmışdı ki, bu görüşdən sonra İranın müharibə nəticəsində olan borcu 1 milyon tümən bağışlansın. Abbas mirzə Rusiyaya getməyə hazırlaşırdı və şah bu səfər üçün 30000 tümən pul ayırmışdı. Lakin bu zaman Tehranda Rusiyanın səfiri, erməniləri rus çarına dəqiqliyi ilə tanıdan, onların çox təhlükəli və hiyləgər olduğunu bildirən A.Qriboedovun qətlə yetirilməsi ilə vəziyyət dəyişdiyindən (1829) Abbas mirzənin səfəri dayandırıldı. Abbas mirzənin Rusiyaya baş tutmayan səfəri barədə belə mülahizə yürüdülürdü ki, o, Paskeviçlə yaxşı münasibətdə idi və Lənkəran və İrəvanın qaytarılması barədə onunla danışırdı. Çox güman ki, Rusiya həmin şəhərləri İrana qaytarmaq istəyirdi. Paskeviç bu mövzunu imperatorun nəzərinə çatdırmışdı. Ona görə də Abbas mirzə Peterburqa gedib, bu barədə şəxsən özü İmperator I Nikolayla danışmaq arzusunda idi ki, bir nəticə hasil olsun. Abbas mirzə vəfat etdikdən sonra vəliəhd təyin etmək xüsusunda çox söz-söhbətlər yarandı və Fətəli

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Şah oğlanlarından birini təyin etmək istədikdə, Rusiya dövləti bundan xəbər tutdu. Aristov adlı nümayəndə Nikolay tərəfindən Tehrana gəldi və Türkmançay müqaviləsinin 7-ci maddəsini Fətəli Şaha xatırladaraq, Abbas mirzənin böyük oğlu Məhəmməd Mirzənin vəliəhdliyini şahdan təkidlə tələb etdi. Fətəli Şah da Məhəmməd Mirzəni Xorasandan çağırıb, fərmanla vəliəhd təyin etdi.

Abbas mirzə Naibüssəltənənin siyasi fəaliyyəti bir çox İran, Türk və Avropa mənbələrinin mövzusu olmuşdur. Bu mənbələrdə qeyd olunur ki, Abbas mirzə Fətəli Şah Qacar sarayının öz zamanının və mühitinin mövcud vəziyyətindən bir neçə addım qabaqda gedən, İranın ən layiqli şahzadələrindən olmuşdur. (47, s. 78). Iran alimi, tarixçisi Nasir Nəcminin "Abbas mirzə, yaxud Qacar sülaləsinin qəhrəman, vətənpərvər oğlu və onun başçılıq etdiyi İran-Rusiya müharibələri" (Tehran, 1326/1910) adlı kitabı XIX əsrin I yarısında Rusiya-İran və Azərbaycan münasibətlərini təhlil edən dəyərli bir mənbədir.

Ağa Məhəmməd şah Qacarın səyi ilə hakimiyyət taxtına əyləşmiş Fətəli Şah dövründə İran-Rusiya müharibələri baş verdi. I və II Rusiya-İran müharibələri zamanı yuxarıda qeyd edildiyi kimi İran ordusunun komandanı və həm də Azərbaycan valisi vəliəhd Abbas mirzə Naibüssəltənənin ordusunda xidmət etmiş, onun bir sıra döyüşlərində iştirak etmiş azərbaycanlı hərbçilər də olmuşlar. Hüseyn xan Qəzvini və onun qardaşı, Sarı Aslan ləqəbi ilə məşhur olan Həsən xan Azərbaycan ordusunun fəxridirlər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## HÜSEYN XAN İRƏVANİ

Hüseyn xan Qacar Qəzvini, yaxud Hüseyn xan Sərdar İrəvani (1742-1830) İrəvan bəylərbəyisi (general-qubernatoru), qalanı mühasirə edən Sisianovu geri çəkilməyə məcbur etmiş Məhəmməd xan İrəvaninin oğludur. O, Nadir Şahın hakimiyyəti dövründə, təxminən 1742-ci ildə anadan olmuşdur. Baba xan Cahanbani (Fətəli Şah-H.T.) 1794-1796-cı illərdə Fars vilayətinin hakimi olarkən Sərdar Hüseyn xan da onun yanında xidmət edirdi və hakimin ordusunda yüzbaşı idi. Ağa Məhəmməd şah Qacar 1797-ci ilin iyun ayında Şuşada qətlə yetirildikdə, Baba xan Hüseyn xan yüzbaşını 600 nəfər seçmə, döyüşkən atlı dəstəsinə sərkərdə təyin etdi və onlar Tehrana yola düşdülər. Bu zaman Kürd Sadıq xan Şəqaqi şahlıq iddiasında idi. O, zahirən baş vermiş hadisəni Fətəli Şaha çatdırmaq üçün, əslində isə Tehranı tutmaq üçün Şuşadan hərəkət

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

edərkən Hüseyn xan Qacar  Sadıq xanın qarşısını kəsdi. Onlar Qəzvin şəhəri yaxınlığında, Əli torpağı deyilən yerdə qarşılaşdılar. Sadıq xan bu döyüşdə məğlub olaraq Səraba qaçdı. Bununla Fətəli Şahın rəqibi Hüseyn xan tərəfindən zərərsizləşdirildi.

Fətəli Şah Qəzvindən qadıtdıqdan sonra Hüseyn xanı bir neçə Qacar sərkərdələri ordusunun tərkibində Bəsrədən gələrək, İsfahanı zəbt etmiş Məhəmməd xan Zəndi dəf etmək üçün İsfahana göndərdi. Məhəmməd xan məğlub oldu və İsfahan azad edildi. Hüseyn xan Məşhədin Fətəli Şah tərəfindən alınmasında da iştirak etmiş, şah tərəfindən Xorasan ordusunun komandiri təyin olunmuş, bu zaman Fətəli Şah üçün təhlükəli şəxs olan Şahrux şahın oğlu Nadir mirzənin tutularaq Tehrana göndərilməsini həyata keçirmişdir.

Bu dövrdə Hüseyn xan Heratın 8 fərsəxliyində (1 fərsəx-6-7 km-dir) yerləşən Quryanı tutdu və onu İshaq xana tapşırdı, hökümət işlərini də qardaşı oğlu Yusif Əlixana tapşırdı, özü isə Xorasan valisi şahzadə Məhəmmədvəli mirzənin yanında qulluq etdi. Hüseyn xan 1806-cı ildə Tehrana çağırılmış, sərdar və Sipəhsalar rütbəsinə (baş komandan) ucaldılmışdı. Iran dövləti 1806-cı ildə Qarabağ hakimi İbrahimxəlil xan Cavanşirə rusları Şuşadan çıxarmaqda kömək etmək məqsədilə Hüseyn xanı bir neçə nəfərlə oraya göndərdi. Lakin müvəffəqiyyət hasil olmadı. Çünki onlar Şuşaya yetişməzdən əvvəl müdhiş hadisə baş vermişdi, ruslar İbrahimxəlil xanı və yaxınlarını qətlə yetirmişdilər. Hüseyn xan 1806-cı ildə İran əleyhinə ruslarla saziş bağlamış Şirvan hakimi Mustafa xanı ortadan götürmək

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

üçün, həmçinin əhalini o ətrafdan Qaradağa (Ərəsbarana) və Muğana köçürmək üçün göndərildi. Həmin il Hüseyn xan İrəvan sərdarı təyin olundu və bu tarixdən Hüseyn xan İrəvani kimi məşhur oldu.

Hüseyn xan Sərdar bu vəzifədə 1828-ci ilədək, qardaşı Həsən xanla (Sarı Aslan) ittifaqda çalışmış, həmin il İrəvan ruslar tərəfindən 4 ay mühasirədə qalmışdı. O, ömrünün sonlarında bəxtiyari elinin hakimi idi. Hüseyn xan 1839-cu ildə vəfat etmişdir. Yeri gəlmişkən Həsən xan da Fətəli Şah dövrünün şücaətli hərb xadimi idi və bu barədə məlumat verərkən qeyd etmək lazımdır ki, o, müxtəlif vaxtlarda İran qoşununun sərkərdələrindən olmuş, işğalçı rus qoşunlarına qarşı ağır döyüşlərdə iştirak edərək ad qazanmışdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## HƏSƏN XAN (SARI ASLAN)

Hələ 1804-cü ildə rus qoşunu İrəvanı zəbt etmək fikrinə düşən zaman Həsən xan qardaşı Hüseyn xanın müavini, qulamlardan ibarət ordunun yüzbaşısı idi. O, kəşfiyyata gedərək qayıtdıqdan sonra qoşunu yüksəklikdə yerləşdirməyi təklif etdi və bununla da cərəyan edən hadisələri müşahidə etmək mümkün oldu. Ordu Həsən xanın xidməti sayəsində təhlükədən qurtuldu. Bundan sonra İran ordusu rusları təqib etməyə başladı. Irəvan müdafiə olundu. 1806-cı ildə ruslar yenidən İrəvan xanlığına təcavüz etmək istədikdə Həsən xan qardaşı, İrəvan sərdarı Hüseyn xana kömək etmək üçün göndərildi. Rus ordusu 1808-ci ildə Qudoviçin komandanlığı ilə İrəvana yürüş etdikdə, Həsən xan da şəhəri müdafiə etdi, ağır döyüş oldu. Bu dəfə də ruslar qələbə qazana bilmədikləri üçün general Qudoviç Gürcüstana qayıtdı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Həsən xan 1821-ci ildə 70 min nəfərlik Osmanlı ordusuna qarşı döyüşdə qalib gələrək “Sarı Aslan” ləqəbini aldı. Bu hadisə belə baş vermişdi: 1820-ci ildə Osmanlı dövləti İranın şimal-qərbində yerləşən Çehriqi öz torpağına birləşdirmək məqsədilə biraya qoşun yeritmək istədi. Həsən xan Sərdar onlarla döyüşə getdi, çox uğurlu, parlaq qələbələr qazandı. O, Osmanlı torpağında bir neçə şəhəri tutdu, əsirlər götürdü, sursat əldə etdi və osmanlılara xeyli tələfat verdi. Bir il keçdikdən sonra 1821-ci ildə mötəbər Osmanlı padşahlarından bir dəstəsi 70 min nəfərlik əsgərlə İran ordusunun əvvəllər qələbə ilə tutduğu yerləri almaq üçün İran sərhədlərinə yaxınlaşdı. Abbas mirzə Naibüssəltənə onlarla döyüşə tələsdi və Tehrandan da Allahyar xan Dəvəlu Qacar (Asəfüddövlə) 10 min nəfərlə Abbas mirzənin köməyinə göndərildi. Bu döyüşdə Həsən xan və Hüseyn xan İrəvanı kimi cəsur komandirlər iştirak etmişlər. Döyüş İran ordusunun qələbəsi ilə nəticələnmiş, Azərbaycan ordusunun rəşadətli komandiri Həsən xan Sarı Aslan (şiri-zərd) ləqəbini qazanmışdı. (71, c. 1, s. 330).

Həsən xan II Rusiya-İran müharibəsində öz əsgəri vəzifəsini yerinə yetirən komandir və sərkərdələrdən oldu, axır saatadək ruslarla vuruşdu. Azərbaycan hakimi Abbas mirzə Naibüssəltənə 1828-ci ildə Sarı Aslanı Sərdarabad qalasının mühafizəsi üçün İrəvana göndərmişdi. Bu zaman rus general-feldmarşalı İ.F.Paskeviç qalanı mühasirədə saxlayırdı. Qala zəbt olunana yaxın Sarı Aslan İrəvana çəkildi. Sərdarabad zəbt olunduqdan sonra Paskeviç İrəvanı mühasirəyə aldı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Belə bir maraqlı fakt da diqqəti cəlb edir ki, İrəvanı uzun müddət ələ keçirə bilməyən Paskeviç Peterburqa bir-birinin ardınca məktublar göndərib, şəhərin hündür qala ilə əhatə olunduğunu və belə güclü istehkamın dağılması üçün ona çoxlu döyüş sursatı və əlavə qövvələr lazım olduğunu bildirmiş, imperatordan bir neçə dəfə əlavə sursat və qoşun almağa nail olmuşdu. Sonralar 1835-ci ildə İrəvana gəlmiş rus çarı I Nikolay (1796-1855) həqiqəti görəndə gözləri böyümüşdü. Paskeviç öz imperatorunu aldatmışdı, şəhər çox alçaq və davamsız qala divarları ilə əhatə olunmuşdu. Irəvanlılar çox da hündür, boy-buxunlu olmayan bəstəboy Sarı Aslan və Hüseyn xan İrəvani kimi komandirləri ilə düşməni dəfələrlə məğlub edib, geri oturda bilmişdilər. Uzun sürən müdafiədən sonra İrəvan ermənilərin ruslarla gizli ittifaqı nəticəsində təslim oldu. Sarı Aslan və qardaşı Hüseyn xan müharibə qurtardıqdan sonra Türkmançay müqaviləsinin 13-cü maddəsinə müvafiq olaraq azad edilərək, İrana qayıtdılar. Fətəli Şah onları Xorasanda asayişi bərpa etmək üçün göndərdi və onlar bir müddət orada çalışdılar.

Xorasandan qayıtdıqdan sonra Həsən xan yolunu Ətəbata (Beynünnəhreyn-İraq) saldı. Hüseyn xan Tehrana gəldi və Bəxtiyari elinə hakim təyin olundu. Çox keçmədi ki, o, 1830-cu ildə 90 yaşında vəfat etdi. Onun xeyriyyəçilik fəaliyyəti olaraq İrəvan, Qəzvin və Kərbəlada tikilmiş bir sıra məscid, mədrəsə və böyük su ambarları uzun müddət mövcud olmuşdur.

Həsən xan Nəsrəddin Şah hakimiyyətinin ilk illərində, yəni 1848-ci ildə Yəzdin hakimi təyin

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olunmuşdu, 1851-ci ildə isə eyni zamanda Kirman-Bəlucistan hakimi oldu. O, 1855-ci ildə Kirmanda ürək xəstəliyindən vəfat etmiş, Nəcəf şəhərində həzrət Əlinin (ə) yanında torpağa tapşırılmışdır. Oğlanlarından Yusif xan sərtib bir müddət Yəzd hakimi olmuşdur. Həsən xanın oğlanları Əbdülfəth xan və Əbdülhəsən xan Abbas mirzə Naibüssəltənənin qızı Fəxrüddövlə ilə izdivacdan dünyaya gəlmişlər.

Ruslar Türkmançay müqaviləsinin 12-ci maddəsinə əsasən bu iki qardaşın İrəvanda qalmış bütün əmlaklarını müsadirə etdilər. Bununla belə onlar İranda mal-mülk sahibi olaraq qaldılar və zəngin şəxslər hesab olunurdular. Onlara həmişə böyük ehtiram bəslənilmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ƏMANULLA XAN

Fətəli Şah hakimiyyəti dövründə Rusiyanın Zaqafqaziyada ələ keçirmək istədiyi torpaqların müdafiəsində azərbaycanlı hərbçılər diqqətəlayiq fəaliyyət göstərmişlər. Bunlardan biri, gec də olsa öz səhvini başa düşmüş Qarabağ hakimi İbrahimxəlil xan Cavanşirin xilas edilməsi üçün Fətəli Şah tərəfindən Azərbaycana göndərilmiş Əmanulla xan Əfşar olmuşdur. O, Zəncan ərazisində məskunlaşmış əfşar tayfalarının başçılarından biri idi və Fətəli Şah səltənətinin əvvəllərində bir müddət Xəmsə hakimi olmuşdur. (Xəmsə əfşar tayfalarının qışlaq yerlərindən idi.)

Iran dövləti 1806-cı ildə Əmanulla xanla birlikdə Damğan sərdarı İsmayıl xanı İbrahimxəlil xana köməyə Şuşaya göndərmiş, lakin onlar müvəffəqiyyət qazana bilməmişdilər. Çünki onlar Şuşaya çatana qədər ruslar artıq İbrahimxəlil xanı 31 nəfər arvad-uşağı və

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qohumları ilə birlikdə qətlə yetirmişdilər. Fətəli Şah bunu eşitdikdə Əmanulla xanla İsmayıl xanı, bu iki sərkərdəni ruslarla birləşərək, İran əleyhinə müqavilə bağlamış Şirvan hakimi Mustafa xanın üstünə göndərdi. Sonra onlara o hüdudun elatını Qaracadağa (Ərəsbaran) və Muğana köçürmək tapşırıldı.

## CAVAD XAN.

Mustafa xandan fərqli olaraq torpaq təəssübü çəkən Gəncə hakimi Cavad xan Ziyadlu[22] Qacar həyatının son anınadək ruslarla mübarizə aparmış, onlara təslim olmamışdır. Cavad xan bir neçə il, Ağa Məhəmməd şah və Fətəli Şah hakimiyyəti dövründə Gəncə hakimi təyin olunmuşdur. Iran alimi Mehdi Bamdad yazır ki, Gəncə Nizami Gəncəvinin anadan olduğu və yaşadığı məkandır. Ruslar Gəncəni işğal etdikdən sonra şəhər rus çarlarının zamanında Yelizavetpol, Sovetlər vaxtında isə Kirovabad adlandırılmışdır. (71, c. 1, s. 287).

Rus qoşunları 1803-cü ildə Bərdə və Qarabağ tərəfə gəldilər. Bu zaman Cavad xan dərhal Tehranı vəziyyətdən xəbərdar etdi. Rusların Qafqaza hərəkət etdiklərindən xəbərsiz Fətəli Şah bu hadisəni yoxlamaq üçün Səid xan Damğanini Gəncəyə göndərdi.

[22] Ziyadlular Qacar tayfasının 8 qəbiləsindən biridir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Hələ 1801-ci ildə Rusiya ilə İngiltərə arasında müttəfiqlik barədə müqavilə imzalanmışdı və bu iki dövlət İran əleyhinə qüvvələrini birləşdirmək qərarına gəlmişdilər. Iran dövləti də həmişə olduğu kimi, dünya dövlətlərinin siyasətindən gec xəbər tuturdu, bu işdən də xəbərsiz idi. Rus qoşunları Sisianovun (1754-1806) komandanlığı altında Qafqaz şəhərinə gəldilər və bir-birinin ardınca onları işğal etdilər. O cümlədən, 1804-cü ildə Gəncəyə hücum edərək, 3 gün əhalini qırdılar, Cavad xanı və oğlunu qətlə yetirdilər. Rus əsgərləri tərəfindən törədilmiş bu 3 günlük qırğın digər xanları Sisianovla təmkinli rəftar etmək yolunu seçməyə vadar etdi. Sonralar, yəni 1826-1828-ci illərdə baş vermiş II Rusiya-İran müharibəsi zamanı Cavad xanın Uğurlu[23] adlı oğlu Abbas mirzə Naibüssəltənənin ordusunda ruslara qarşı vuruşaraq qalib gəlmiş və Gəncədə azad hakimiyyəti bərpa edə bilmişdi. Lakin bu qələbə və İran ordusunun müvəffəqiyyəti müvəqqəti oldu. Çünki ruslar bir qədər sonra Gəncəni yenidən işğal etdilər. (71, c.1, s. 288). Gəncədə baş vermiş qırğın zamanı öldürülən insanlar əsasən şiəməzhəb idilər. Bu hadisə ilə əlaqədar tarixçilər və səyyahlar ziddiyyətli fikirlər söyləmişlər. Hacı Zeynalabdin Şirvanı "Bustanüs-siyahə" kitabının 484-cü səhifəsində belə yazır: "Gəncə böyük və yaxşı bir şəhərdir, İranın şəhərlərindəndir. Azərbaycanda yerləşir. Suyu yüngül, havası səfalı və ürəkaçandır. Uca yerdədir. Bu barədə belə deyirlər: İranda bir neçə şəhər vardır ki, hər yerdən ucadır, insanları çox musiqisevərdirlər.

---

[23] Uğurluxan (M. Bamdad onu Oğuzlu xan kimi yazır) 1804-cü ildə azyaşlı olduğu üçün 18 Sisianov onu öldürməmişdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Gəncənin ab-havası xəzinədir. Oradan İraq, Xorasan, Tus və Mərvə İsfahani musiqisi yayılmışdır. Təxminən 25 il olar ki, Rusiya oranı zorla işğal etmiş, əhalini özünə tabe etdirmişdir. Əhalidən qırılan olmuş, o diyar qarət olunmuşdur, dağıdılmışdır. Bu torpaqda mərifət sahibi olan insanlar yetişmişlər. O cümlədən "Xəmsə" müəllifi Şeyx Nizami, Şeyx Əxi Fərəc Zəncaninin müridi və şair Əbül Üla Gəncədəndirlər, Rzaqulu xan Hidayət (1800-1871) "Rövzətüs-səfa" kitabının 9-cu cildində yazır: "Gəncə şəhəri zikr olunan ilin şaban ayının əvvəlində işğal olundu və o şəhərin hər yerində üç gün qətli-am baş verdi". Etimadüssəltənə "Müntəzəmi-Nasiri" əsərində baş vermiş hadisə barədə belə yazır: "Sisianovun komandanlığı altında olan rus qoşunu Qafqaza yola düşdü. O, Tiflisi istila etdikdən sonra Gəncəyə qoşun çəkdi və bu şəhəri tutdu, şəhər alındıqdan sonra orada üç gün qətli-am oldu". (71, c. 1, s. 288).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## FƏRƏCULLA XAN

I Rusiya-Iran müharibəsi zamanı Azərbaycan ordusunun bacarıqlı sərkərdələrindən Fərəculla xan Şahsevən elinin[24] adlı-sanlı tanınmış şəxsiyyətlərindən idi. Fətəli Şah Qacar, 1806-cı ildə rusların təcavüzünə məruz qalmış İbrahimxəlil xan Cavanşirin köməyinə göndərdiyi hərbçilərdən biri olan Fərəculla xana sonra Şəkidə asayişi bərpa etməyi və Şəki xanı Səlim xanı müdafiə etməyi tapşırdı. Yuxarıda göstərildiyi kimi Səlim xan Fətəli Şah Qacarın dövründə Şəki hakimi olmuşdur. Şəhər 1806-cı ildə rusların hücumuna və təcavüzünə məruz qaldığı zaman Fətəli Şah rusları qabaqlamaq məqsədilə Şahsevən elinin böyüklərindən olan Fərəculla xanı Səlim xanın köməyinə göndərdi.

---

[24] Şahsevənlər Azərbaycanlıların etnoqrafik qrupuna daxildir. Cənubi Azərbaycanın şimali-şərqində, Savalan dağı və Qarasu çayı arasındakı ərazidə, qismən də Şimali Azərbaycanın cənubunda məskunlaşmışlar.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Lakin rusların hücumları müqabilində bunun faydası olmadı və onların Bakı hakimi Hüseynqulu xan üçün qurduqları planları Səlim xan üçün də quruldu. Belə ki, ruslar Bakı əhalisini Hüseynqulu xanın əleyhinə qaldıraraq onu şəhəri tərk etməyə məcbur etdilər. Eləcə də Şəki əhalisi Səlim xanın əleyhinə qalxdığından o, məcbur oldu ki, Hüseynqulu xan kimi doğma ata-baba yurdunu tərk edib, əhli-əyalı ilə Təbrizə gedib, orada yaşasın.

## CAHANGİR MİRZƏ

Rusiya dövlətinin Qafqazda apardığı işğalçı siyasətinə qarşı mübarizə aparan İran dövlətinin vəliəhdi Abbas mirzə Naibüssəltənənin başçılıq etdiyi Azərbaycan ordusu öz sərkərdəsinin oğlanlarını və yaxınlarını da cəsur hərbçi kimi yetişdirdi. Onlardan biri Abbas mirzənin 3-cü oğlu Cahangir Mirzədir. O, 1810-cu ildə anadan olmuş, 43 yaşında, 1853-cü ildə Xoy şəhərində vəfat etmişdir.

Cahangir Mirzə xüsusi təhsil görmüş bilikli, fazil şahzadələrdən olmuşdur. O, II Rusiya-İran müharibəsi zamanı atası, Azərbaycan hakimi Abbas mirzə Naibüssəltənənin sərkərdəliyi altında olan İran ordusunun komandirlərindən biri idi. Abbas mirzə 1827-ci ildə Cahangir Mirzəni Xəzər sahilində yerləşən Salyan cəbhəsinə göndərmiş, Cahangir Mirzə orada igidlik göstərmişdir. O, Salyan qarnizonunu əsir alaraq, rusların

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

toplarını dənizə tökmüşdü. Məhəmməd Mirzə 1834-cü ildə vəliəhd kimi Azərbaycana göndərildikdə, Tehrandan yola düşərkən Cahangir Mirzə və Xosrov Mirzəni Təbrizdə həbs edib, nəzarət altında Ərdəbilə göndərdi. İran tarixçisi Mehdi Bamdad yazır ki, o, Tusərqanda olarkən Cahangir Mirzənin evində onun Ərdəbil hakimi təyin olunması barədə Abbas mirzənin fərmanını görmüşdür. Bu fərmana əsasən 1831-ci ildə Xoy və Urmiya (Rzaiyyə) hökümətləri də Ərdəbil hökümətinə aid edilirdi. (71, c. 1, s. 285).

## ƏMİR XAN

Qafqazda gedən döyüşlərdə mərdliklə vuruşmuş Əmir xan Sərdar Qacar böyüklərindən olan Fətəli xan Dəvəlu Qacarın oğlu, Abbas mirzə Naibüssəltənənin dayısı oğludur. O, çox qoçaq və igid bir insan olub, İran ordusunun bacarıqlı sərkərdələrindən biri idi. 1817-ci ildə Rzaiyyə sərhəddində Bilbas[25] kürdlərinin hücumları zamanı oranın əhalisinə ziyan dəymişdi. Abbas mirzə Naibüssəltənə həmin ildə Əmir xan Sərdarı kürdlərə qarşı mübarizəyə göndərdi. Əmir xan bir qədər ordu ilə oraya getdi, kürdləri məğlub edərək dağıtdı və onlar əvvəlki yerlərinə, yəni Osmanlı torpağına qayıtmağa məcbur oldular. 1822-ci ildə Osmanlı kürdləri yenidən İran torpağına qayıtdılar və Səlmas sərhəddində təcavüzlər etdilər. Abbas mirzənin ordusu kürdləri məğlub etdikdən sonra həmin il Əmir xan Sərdarı Xoy

[25] Bilbas Savucbulaq (Mehabad) yaxınlığında kürdlərin yaşadığı mərkəzdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

hakimi, həm də Xoy və ona aid yerlərin və Kürdüstanın qoşun böyüyü təyin etdi.

1827-ci ildə II Rusiya-İran müharibəsi zamanı Gəncə İran qoşunları tərəfindən geri alındıqda (bu qələbədə Cavad xanın oğlu Uğurlu xan da iştirak etmişdir-H.T.) Əmir xan Sərdar və hərbçi komandirlərdən bir neçəsi Gəncəni qorumaq üçün oraya göndərildi. Bu zaman rus ordusuna xidmət edən erməni Mədətov şəhəri İran qoşunlarından geri almaq üçün qoşun başçısı təyin olunmuşdu. Əmir xan Məhəmməd Mirzə ilə (Məhəmməd şah) birlikdə Mədətova qarşı çıxmağa tələsdilər və şiddətli döyüş başlandı. Mərdliklə vuruşan Əmir xan bu döyüşdə öldürüldü. Gəncə qarnizonu bu hadisədən sonra Mədətovun hücumunun qarşısını ala bilmədi və Gəncə rus qoşunu tərəfindən zəbt olundu. Əmir xan ölümündən sonra sərdar (baş komandan) titulunu almışdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏDZAMAN XAN QACAR

Abbas mirzə Naibüssəltənənin ordu sərkərdələrindən biri də Məhəmmədzaman xan Qacardır. O, Naibüssəltənənin böyük etimad və etibarını qazanmışdı. Abbas mirzə 1830-cu ildə ona qarşı çıxan qardaşı Həsənəli mirzə Şücaüssəltənəni onun vasitəsilə özünə tabe etdirərək Tehrana gətirmişdi.

Məhəmmədzaman xan Qacar Abbas mirzənin ordusu ilə bir sıra uğurlu yürüşlər etmişdir. O, 1831-ci ildə Nişapur şəhərini zəbt etmiş Rzaqulu xan İlxani Zəfəranlunun zərərsizləşdirilməsində iştirak etmiş, döyüşdə qalib gələrək şəhəri azad, Rzaqulu xanı isə Abbas mirzəyə təslim etmişdir. Abbas mirzə onu bu tarixdən Nişapur şəhərinə hakim təyin edərək özü Məşhədə yola düşmüşdür.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏD QARAGÖZLÜ

Abbas mirzə Naibüssəltənənin ordusunda Nəhavənddən olan Hacı Məhəmməd xan Qaragözlü də vicdanla xidmət etmiş, çox ağıllı və cəsur komandirlərdən biri olmuşdur. O. 1826-1828-ci il II Rusiya-İran müharibəsində iştirak etmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏDƏMİN XAN

Deyilənlərdən məlum olur ki, Rusiya-İran müharibələri zamanı Abbas mirzə Naibüssəltənənin başçılığı ilə müdafiə olunan İrəvan qalasında bir çox azərbaycanlı hərbçilər rəşadət göstərmişlər. Hüseyn xan və Həsən xan qardaşları ilə çiyin-çiyinə vuruşan və şəhərdəki qalaları müdafiə edən döyüşçülərdən biri də Məhəmmədəmin xan Qacar olmuşdur. O, Məhəmmədhəsən xan Dəvəlu Qacar Nəsəqçibaşının[26] oğlu və nüfuzlu Dəvəlu Qacarlarındandır. Abbas mirzə Naibüssəltənə II Rusiya-İran müharibəsi zamanı onu və bəxtiyarilərin atlı dəstələrinin komandiri Abbas xanın Kəlbəli xan Naxçivaninin oğlu, qarnizon rəisi Ehsan xana dayaq və kömək olmaq üçün hərbi istehkam olan Abbasabad qalasının mühafizəsinə göndərdi. Ehsan xan çox təəssüf ki, vətənə xəyanət edərək rus komandanı

[26] Nəsəqçi qayda-qanunu nizama salan məmur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Paskeviçlə sazişə girdi və onun Abbasabad qalasını mühasirə etməsinə şərait yaratdı. Məhəmmədəmin xan və Abbas xan isə həbs edilərək zindana salındılar. Qalanı mühafizə edən əsgərlər Ehsan xanın əmri ilə qapıları Paskeviçin üzünə açdılar və hər şey Paskeviçə təslim edildi. Paskeviç Məhəmmədəmin xanı, Abbas xan və başqa bəxtiyari xanlarını tutub, nəzarət altında Tiflisə göndərdi, Ehsan xan isə bu "xidmətinə" görə Naxçıvan hakimi təyin olundu.

## ƏSGƏR XAN ƏFŞAR

I Rusiya-İran müharibəsi (1804-1813) zamanı Bakı qalasının hakimi Hüseynqulu xanın çətin günlərində ona köməyə gəlmiş Urmiyada əfşar tayfalarının böyüklərindən olan, Əsgər xan Əfşarın adı tarix səhifələrində qalmışdır. O, Fətəli Şah Qacar dövrünün görkəmli sərkərdələrindəndir. Rus ordusu general Sisianovun başçılığı ilə 1805-ci ildə Qafqazın müxtəlif ərazilərinə daxil olaraq İran dövləti ilə müharibə edən zaman bir neçə hərbi gəmini və əsgərlərini də Gilana göndərdi və Pəhləvi (Ənzəli) limanını zəbt etdi. Ruslar burada Gilan əhalisinin rəşadət və mərdliklə döyüşləri müqabilində xeyli itgi verdilər. Sağ qalanlar da öz gəmilərinə oturub Bakı istiqamətində yola düşdülər.

Bakı hakimi Hüseynqulu xan Gilandan qayıdan rusların Bakıya gedib, dağıntı və qırğın törədəcəyindən

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ehtiyat edərək, İran dövlətindən kömək istədi. O, tədbirli və uzaqgörən insan idi. Doğrudan da elə ki, ruslar Bakının yaxınlığına yetişdilər, şəhərə girməyə cəhd etdilər. Fətəli Şah tərəfindən Bakının müdafiəsi üçün göndərilən və rəşadətlə vuruşan Əsgər xan öz ordusu ilə ruslarla ağır döyüşə başladı. Bu zaman Qafqazın digər hakim və xanları, O cümlədən qubalı Şeyx Əli xan, ləzgi Surxay xanın oğlu Nuh bəy və başqaları öz qoşunları ilə Hüseynqulu xanın köməyinə gəldilər. Onlar bu dəfə rus sərkərdəsini qaçmağa məcbur etdilər.

1807-ci ildə İran və Fransa dövləti arasında müqavilə bağlandı. Bundan sonra Fətəli Şah Əsgər xan Əfşarı səfir kimi Napoleon sarayına göndərdi. Əsgər xan 1809-cu iləd ək Parisdə diplomatik fəaliyyəti davam etdirmiş, çalışmışdır. (71, c. 2, s. 336). Məhəmmədhəsən xan Etimadüssəltənə “Müntəzəmi-Nasiri” əsərində bu tarixi 1811-ci il kimi göstərmişdir. Əsgər xan Parisdən qayıtdıqdan bir neçə il sonra Abbas mirzə Naibüssəltənə tərəfindən Rzaiyyə (Urmiya) hakimi təyin olunmuşdur. Deyilənlərə görə Fətəli Şah Qacar hakimiyyətinin əvvəllərində İranda Framason təşkilatı yarandığı vaxt Əsgər xan bu təşkilatın böyüklərindən və rəhbərlərindən biri olmuşdur. Farmason XVIII əsrin əvvəllərində “Azad bənnalar” təşkilatı formasında İngiltərədə əmələ gəlmiş, sonralar başqa ölkələrə də yayılmışdır. (30, s. 13). Əsgər xan 1807-1811-ci illərdə Fransa dövlətində çalışarkən framason təşkilatının üzvü olmuşdur. Deməli, o, İranda yaşamış ilk azərbaycanlıdır ki, həmin təşkilata üzv olmuşdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ƏŞRƏF XAN

Əşrəf xan Dəmavəndi piyada qoşunlar sərkərdəsi olub, Abbas mirzə Naibüssəltənənin Azərbaycan və Qafqaz ordusunda xidmət etmişdir. Məlum olduğu kimi Hüseyn xan Qacar Qəzvini 1806-cı ildə İrəvan hakimi idi. O, 1807-ci ildə qullarağasıbaşı (rəisi-qulaman) təyin edilərək, Fətəli Şahın yanına gətirilən zaman Əşrəf xanı öz qardaşı Həsən xanın (Sarı Aslanın) köməkçisi təyin etmiş və İrəvanın müdafiə olunması üçün oraya göndərmişdir. Ruslar 1808-ci ildə general Qudoviçin başçılığı ilə İrəvana hücum edərkən Əşrəf xan və İrəvanın digər sərkərdələri birləşərək müdafiəyə qalxdılar, Çox çətin və ağır döyüşdə ruslar məğlub oldular. General Qudoviç məyus halda Gürcüstana qayıtdı. (71, c. 1, s. 145).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏDQULU XAN QAŞQAYİ

Məhəmmədqulu xan Qaşqayi (1809-1868) Canı xan Elxanı Qaşqayinin 5-ci oğlu olub, bu elin böyüklərindən idi. Qeyd etmək lazımdır ki, qaşqaylar Azərbaycan mənşəli türklərə mənsub olan, dili və musiqisi Azərbaycan dili və musiqisi olan xalqdır. (31, s. 7-8). M. Bamdad yazır ki, Qaşqaylar Çingiz xanın ordusunun Qafqazda qalıb yaşamış nəslindən olub, sonralar bir hissəsi Ərdəbilə gələrək burada məskunlaşmışdır. Şah İsmayıl Xətai Səfəvi hakimiyyətə gəldikdən sonra onları Ərdəbildən Fars vilayətinə köçürmüşdür. Həmin tarixdən qaşqayi tayfaları daimi olaraq burada sakin olmuşlar. (71, c. 3, s. 471).

Qaşqaylar çox cəsur, torpaq təəssübü çəkən və mərd, vətən yolunda canlarını əsirgəməyən insanlar kimi tarixdə qalmışlar.

Məhəmmədqulu xan Qaşqayi 1224-cü ildə (1809) anadan olmuşdur. O, 1834-cü ildən Qaşqay tayfasının

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

elbəyisi seçilmiş, 1852-ci ildən isə elxani (köçəri tayfa başçısı-H.T.) olmuşdur. O, 1868-ci ildə vəfat etmişdir. Məhəmmədqulu xan çox istedadlı, bacarıqlı tayfa başçısı idi. 1856-1857-ci illərdə baş vermiş İngiltərə-İran müharibəsi zamanı İran ordusunun sərkərdələrindən biri olmuş, bu müharibədə öz əsgərləri ilə birlikdə mərdliklə vuruşmuşdur.

Hüseyn xan Nizamüddövlə Fars vilayətinin valisi olarkən (1848) Əmir Kəbir Mirzə Tağı xanla ədavət edirdi. Bu münasibət Məhəmmədqulu xanın nəzərindən qaçmadı və onu narahat etdi. Mirzə Tağı xan böyük islahatçı olub, İranın tərəqqisi, onun geri qalmasını aradan qaldırmaq üçün daim narahat olan şəxsiyyət idi, ona görə də Məhəmmədqulu xan Fars əhalisini Mirzə Tağı xanı müdafiəyə qaldırdı və Hüseyn xan Nizamüddövlədən tələb etdi ki, əyaləti tərk etsin. Nizamüddvlə buna razı olmadıqda Fars əyalətinin üsyançıları 40 gün döyüşərək, onu kənarlaşdırmağa və yerinə Abbas mirzə Naibüssəltənənin oğlu Bəhram mirzənin təyin edilməsinə nail oldular. Bu üsyana Məhəmmədqulu xan Qaşqayi rəhbərlik edirdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## QULAMRZA XAN ŞAHSEVƏN

Nəsrəddin Şah Qacar hakimiyyətinin yüksək dərəcəli zabiti, general-mayor Hacı Qulamrza xan, Hüseyn xan Nizamüddövlə Şahsevən İnanlunun [27] oğludur. Atası Hüseyn xan Nəsrəddin Şahın hakimiyyəti zamanı topxana rəisi olmuşdur. Qulamrza da gənclik illərindən topxanada hərbi xidmətə başlamışdır.

O, 1878-ci ildə Kirman və Bəlucistan, 1881-ci ildə Mazandaran hakimi təyin olunmuşdur. Qulamrza xan 1885-ci ildə artillerya generalı olduğu halda Hərbi nazir, Nəsrəddin Şahın oğlu Kamran mirzə tərəfindən polku əlindən alındıqda bu ədalətsizliyə qarşı etiraz etmiş, üsyan əlaməti olaraq bəst əyləşmiş, nəhayət haqqı ona qaytarılmışdı.

---

[27] İnanlular, zərgərlilər, quzatlılar, rzabəylilər, poladlılar, talış mikayıllılar, novruzəlibəylilər, dursunxocalılar, məstalıbəylilər və b. azərbaycanlıların etnoqrafik qrupu olan Şahsevənlərin tayfa, tirə və qollarıdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## HƏBİBULLA XAN

Azərbaycan hərbçilərindən olan Həbibulla xan Məhəmməd şah Qacar hakimiyyəti dövründə əmiri-topxana idi. O, Əliqulu xan Şahsevənin oğlu olub, Məhəmməd şahın Herat yürüşündə ad-san qazanmışdır. Şah o istiqamətə yola düşərkən Həbibulla xanı 60 top yüklənmiş araba karvanına avanqard təyin etmişdi. Həbibulla xan bacarıqlı hərbçı olduğu üçün çətin döyüşlərdə iştirak edirdi. 1840-cı ildə Kirman hakimi Fəzləli xan Qarabağinin xahişi ilə ona yardım etmək üçün mükəmməl silahlanmış ordu ilə o istiqamətə gedən Həbibulla xan, Kirman vilayətini zəbt eləmək niyyəti ilə hücum edən düşmənin qarşısını məharətlə almış, onu qaçmağa məcbur etmişdi.

Həbibulla xanın xidməti sayəsində Bəlucistanda[28] da asayiş bərpa olundu və əvvəllər baş verən iğtişaşlara son qoyuldu. O, hətta Qəndəhar yaxınlığınadək getdi və

---

[28] Bəlucistan İran vaylasının cənubi-şərqində vilayətdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

o hüdudu fəth eləmək istədi. Dövlət isə ona mane olaraq Tehrana çağırdı. Bunun ardınca Fəzləli xan Qarabağini Kirman hökumətindən azad edib, yerinə Abbasqulu xanCavanşiri təyin etdilər.

Həbibulla xan Tehrana qayıtdıqdan sonra özünün Şahsevən elindən olan biri ilə evlənmək qərarına gəldi və toy üçün böyük mərasim təşkil etdi. Lakin nigah günü vəfat etdi, toy mərasimi yasa çevrildi. Bu qəziyyə təsadüfən baş vermişdi, ya yox? Bunu heç kəs bilmədi.

## MUSTAFAQULU XAN QARAGÖZLÜ

Iran dövlətinin sərhədlərinin qorunmasında və asayişin bərpa olunmasında komandan, qoşun rəisi Mustafaqulu xan Qaragözlünün xidmətləri böyükdür. Həmədanlı hərbi xadim çox vaxt qoşun rəisi kimi bir çox ölkədaxili döyüşlərdə də iştirak etmişdir. O, 1850-ci ildə Babın yaxın adamlarından olan Seyid Yəhya Darabini və onun tərəfdarlarını məğlub etmək üçün Şirazdan Təbrizə göndərilmiş və qələbə qazanmışdı. 1880-cı ildə Azərbaycanın cənub-qərbində və İran Kürdüstanında Şeyx Abdulla Nəqşbəndinin başçılığı, xarici dövlətlərin təhriki ilə qiyam qalxdığı zaman onun tərəfdarları Azərbaycan ordusunun komandanı olan Mustafaqulu xan Qaragözlü tərəfindən zərərsizləşdirilmişdi. Iran dövləti tərəfindən Sainqalanı kürdlərdən təmizləmək də Mustafaqulu xan Qaragözlüyə və Hacı Mirzə Hüseyn xan Sipəhsaların göndərdiyi Həsənəli xan Gorusiyə qismət oldu. Bir sözlə, Şahsevən və Gorus qoşunlarının

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

köməyi ilə Şeyx Abdullanın sərkərdələri Qadir ağa və Həmzə ağa ölkədən xaric edildilər.

Mustafaqulu xan 1298-ci ilin şəvval ayında (1881, sentyabr) Urmiyada vəfat etmişdir. Tarixçi coğrafiyaşünas, marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə öz xatirələrində onun mirpənc (general), Əmir tuman (on minbaşı), Azərbaycan ordusunun komandanı kimi xatırlamış, ondan bəhs etmiş həmin tarixdə vəfat etdiyini bildirmişdir. (70, s. 110).

## İRAN KAZAK DİVİZİYASININ AZƏRBAYCANLI ZABİTLƏRİ

Nəsrəddin Şah Qacar hakimiyyəti dövründə xarici dövlətlərə, o cümlədən Rusiyaya verilmiş imtiyazlardan biri də İranda Kazak diviziyasının təşkili barədə olan imtiyaz idi. Bu divizyanın təşkili ideyası şahın 1878-ci il Avropaya 2-ci səfəri zamanı aparılmış danışıqlar nəticəsində yaranmış, 1921-ci ilədək fəaliyyət göstərmişdir. 1879-cu ildə rus polkovniki Domantoviçin başçılığı ilə zabitlərdən ibarət olan bir heyyət Tehrana gəldi və beləliklə tərkibi əsasən İranda mühacirətdə olan insanlardan ibarət 850 nəfərlik atlı rus kazak diviziyası yaradıldı. Bu mühacirlər kimlər idi? II Rusiya-İran müharibəsi 1828-ci ildə bağlanmış Türkmançay müqaviləsi ilə başa çatdıqda Rusiya tərəfindən zəbt olunmuş Güzey Azərbaycanı şəhərlərinin sakinləri arasında dini birliyi əsas amil hesab edərək, həm də İran ordusunda Rusiyaya qarşı vuruşduqlarını düşünərək,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

İran torpağında qalmağı münasib hesab edənlər burada mühacir olmağı qərara aldılar.

Kazak briqadasının tərkibində çalışan azərbaycanlı hərbçilərdən yüksək rütbəli Əsədulla xan Əbülfətzadə və İbrahim xan Münşizadə haqqında məlumatı nəzər-diqqətə çatdırmaqla hərb tariximizin bir səhifəsini işıqlandırmaq yerinə düşərdi.

Əsədulla xan Əbülfətzadə əslən Naxçıvanın Şərurlu tayfasından olan mühacir Əbülfət xan Mirpəncin oğludur. II Rusiya-İran müharibəsindən sonra bir çox insanlar kimi onlar da rus dövlətinə tabe olmayaraq İrana mühacirət etdilər. Əsədulla xan əvvəlcə Kazak diviziyasının əsgəri olmuş, burada general rütbəsinə qədər yüksəlmişdir. O, Məşrutə inqilabının (1905-1911) ilk dövrlərindən milyonlarla insanlara qoşularaq Məhəmmədəli Şah əleyhinə çıxmış, kazak divizyasından istefa verən hərbçilərdən biri olmuşdur. Əbülfətzadə Əsədulla xan 24 iyul 1908-cı ildə Məclis topa tutulan gecə Məşrutə inqilabının fəal mücahidlərindən biri kimi məclisin müdafiəsində iştirak etmişdir. O, bu hadisədən sonra milli-azadlıq hərəkatına qoşulan milyonlardan biri kimi tanınırdı. 1907-ci ildə də mücahidlərin Tehrana daxil olması üçün millətin Tehran və Qəzvinə tərəf hərəkətinin təşkili işində fəal iştirak etmişdir. Əbülfətzadə Tehran fəth olunduqdan sonra İdarə heyəti tərəfindən şahzadə Məsud mirzənin yanına göndərilmişdi.

Inqilab yatırıldıqdan sonra Avropaya qısa müddətli səfər etmiş Əbülfətzadə 1912-ci ildə amerikalı Morqan Şusterin əvəzinə baş xəzinədar təyin olunmuş belçikalı

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mornard tərəfindən Savucbulaq və Şəhriyara dövlət vergilərini yığmağa göndərilmiş, burada maliyyə işləri ilə məşğul olmuşdur. Az bir müddət keçdikdən sonra kəndlilərlə onun arasında narazılıqlar yarandığından o, bu işdən çıxarıldı. Onun vəzifədən uzaqlaşdırılması səbəbini rəqibləri bununla əlaqələndirdilər ki, guya nəslinin və qohumlarının bəhai təriqətinə mənsubiyyəti məlum olmuşdur. O guya bu təriqəti təbliğ edirmiş. Iran alimi Mehdi Bamdad yazır ki, Əsədulla xan Əbülfətzadənin düşüncə və baxışları bu ehtimaldan çox-çox yüksəkdir.

Nəsli bəhailikdə təqsirləndirilirdisə, onun bununla əlaqəsi yox idi, çünki bəhai təriqəti başçıları öz üzvlərinin siyasətlə məşğul olmasının tam əleyhinə idilər. Əbülfətzadə isə kamilən siyasət aləminə daxil olmuşdu və onun gördüyü işlər bəhailər tərəfindən qadağan olunmuş, onların əqidəsinə zidd işlər idi.

Ruslar 1915-ci ildə Tehrana hücum edərkən Əsədulla xan mücahidlərlə birlikdə şəhərdən çıxaraq Kirmanşaha tərəf getmişdi. Bir ildən sonra vaxtilə Kazak diviziyasında polkovnik rütbəsində olmuş yaxın dostu İbrahim xan Münşızadə ilə birlikdə "Cəza komitəsi" (komiteyi-mücazat) təşkil etdilər. Sonra Məhəmmədnəzər xan Mişkatül-məmalik də onlara qoşuldu və beləliklə "Cəza komitəsi" həmin üç nəfərin səyi ilə təşəkkül tapdı. Komitə bir neçə nəfərin hesabına təkmilləşdi. Bunun vasitəsilə əhalini istismar edən bir neçə nəfər öldürüldü.

Komitənin təşkilatçılarından biri olan polkovnik İbrahim xan Münşizadə 1878-ci ildə İrəvanda anadan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olmuşdur. Onun atası Kərim xan Münşiyev İranda yaradılmış Kazak divizyasının zabitlərindəndir. Nəsrəddin Şah Qacar Avropaya 3-cü səfərindən qayıdarkən Kərim xan Münşiyev şahdan xahiş edir ki, ona İran vətəndaşlığını qəbul edib İrana gəlməsinə icazə versin. Şah bu xahişi qəbul etmişdi. Münşizadənin babası Mirzə Məhəmməd münşi olduğu üçün İrəvanda onların soyadı Münşiyev idi. İrana mühacirət etdikdən və İran vətəndaşlığını qəbul etdikdən sonra Münşiyev kəlməsi Münşizadə ilə əvəz olunmuşdur. Kərim bəy 1889-cu ildə 11 yaşlı oğlu İbrahimlə Tehrana gəlmiş və kazak diviziyasında xidmət etməyə başlamışdır. Ondan sonra İbrahim xan da kazak dəstəsinə daxil olmuşdur. Ata-oğul xidmət etdikləri müddətdə həmişə rus əsgərlərindən narazı olmuşlar. Rus zabitləri də onların hərəkətlərini izləyirdilər və onlardan şübhələnirdilər. Polkovnik Münşizadə 1907-ci ilin əvvəllərində dostu və həmkarı general Əsədulla xan Əbülfətzadə ilə birlikdə kazak divizyasındakı xidmətindən kənarlaşdırıldı. Onlar məşrutəçilərə qoşuldular. Məşrutə inqilabı qələbə çaldıqdan sonra, Münşizadə ölkədə müxtəlif vəzifələrdə xidmət etmişdir. O cümlədən 1910-cu ildə Firuzkuhda və başqa yerlərdə polis rəisi işləmişdir.

1916-cı ildə Münşizadənin təşəbbüsü ilə ölkənin xainlərindən intiqam almaq üçün "Cəza komitəsi" təşkil olundu. Komitə onun göstərişi ilə fəaliyyət göstərirdi. Onun üzvləri əvvəlcə məmləkətə xəyanət edənləri və anqlofilləri aradan götürməyə başladılar. Komitəyə təsadüfi, mənfəətgüdən tamahkarlar daxil olduqda komitənin bütün sirləri açıldı. Komitə üzvləri

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Kürdüstana, Bani şəhərinə sürgün olundular, 9 ay zindanda qaldıqdan sonra azad edildilər. Lakin həmin il, yəni 1918-ci ildə Həsən Vüsuq (Vüsuqüddövlə) Baş nazir təyin olundu və dərhal "Cəza komitəsi"nin bütün üzüvlərini həbs etdi. Komitə üzvləri dar ağacından asıldılar. Genaral Əsədulla xan Əbülfətzadə və polkovnik İbrahim xan Münşizadə zahirən Xorasan tərəfdə olan Kelata sürgün edildilər. 1918-ci ilin sentyabr ayında yolda ikən Vüsuqüddövlənin tapşırığı ilə Simnanla Damğan arasında güllələndilər.

## ƏBDÜLQADİR XAN

Nəsrəddin Şah Qacar dövrünün azərbaycanlı hərbçilərindən olan Əbdülqadir xan diviziya komandiri (Əmiri-tuman) idi. O, əslən Şimali Azərbaycanın Şəki əhalisindəndir. Əbdülqadir xan 1306-cı ildə (1889) Tehranda vəfat etmişdir. Bu tarixlə əlaqədar İran tarixçisi, marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə xatirələrində belə yazır:

"Cümə, 14 cumadəlsani, 1306 (16 fevral 1889-cu il). Bu gün tanınmış şəxsiyyətlərdən biri olan Əbdülqadir xan Şücaülmülk vəfat etmişdir. Onun əsli Şəkidəndir. (Şəki Azərbaycanda vaqedir və ruslar Nuxa deyirlər). Əmiri-Tuman idi". (70, s. 49).

Göründüyü kimi İran tarixinin Nəsrəddin Şah Qacar dövründə fəaliyyət göstərmiş hərbçilər sırasında azərbaycanlılar üstünlük təşkil etmiş, fərqlənmişlər. Bu şəxsiyyətlərdən bir neçəsi barədə qısa məlumat vermək məqsədəuyğun olardı.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## ALLAHVERDI XAN

General-leytenant (mirpənc) Allahverdi xan Nəsrəddin Şah hakimiyyətinin sonlarında artilleriya komandanı (topçubaşı) idi. O, Qasıməli xan Baharlının oğludur. Əmiri-topxana, yaxud rəisi-topxana vəzifəsində çalışmışdır. 1887-ci ilin, fevral ayında vəfat etmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# MIRZƏ İSMAYIL XAN

Adyutantbaşı Mirzə İsmayıl xan (1849-1909) Zəncan əhalisindən olub, Mirzə Ələkbər xan adyutantbaşının oğludur. O, 1883-cü ildə general rütbəsi alaraq, Nəsrəddin Şah tərəfindən topxanaya adyutantbaşı təyin edilir. O, uzun illər bu vəzifədə çalışmışdır.

1889-cu ildə Zəncan və Kirmanşah əhalisindən ibarət təşkil edilmiş alay bir müddət onun nəzarəti altında olmuşdur. Bu alayda artilleriya rəisi vəzifəsini daşıyırdı. Çox cəsur və qorxmaz insan olan general İsmayıl xan həm də savadlı və xoş xəttə malik, şair təbiətli idi. 1897-ci ildə baş vermiş hadisədən sonra İsmayıl xan öz məğrurluğu və cəsarəti ilə bu gün də xatirələrdə yaşayır. O hadisə ilə əlaqədar məlumatlara bir çox müəlliflərin yazılarında rast gəlmək olar. Mehdi Bamdad yazır ki, həmin il Hərbi nazir, şahzadə Vəcihulla mirzə ilə Mirzə İsmayıl arasında xoşagəlməz əhvalat baş verdi. Adyutantbaşı Mirzə İsmayıl xan

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

hamının qarşısında şahzadənin pis əməllər sahibi olduğunu söylədi. Əmir xan sərdar ləqəbli olan Vəcihulla mirzə şahın və baş nazir Əminüddövlənin icazəsi ilə ona çubuq vurdurdu. Ismayıl xan hətta falaqqanın altında da şahzadəyə ağır sözlər deyir, təslim olmurdu, onun pis keçmişini və nöqsanlarını xatırladırdı.

Iranda Kazak briqadasının rəisi polkovnin Kosoqovski bu hadisə ilə əlaqədar yazır ki, Hərbi nazirin iştirakı ilə generalın, artilleriya rəisinin Qəzvinin Cere topxanasında mühakiməsi oldu. Sədaqətli topçu əsgərlər öz rəislərinin təhqir edilməsindən o qədər qəzəblənmişdilər ki, özlərini zorla saxlayırdılar. Onlar hətta maaşlarından imtina edərək hərbi nazirliyin binasını tərk etmişdilər. Sərdar Əmir xanın əmri ilə İsmayıl xan və qardaşı həbs olundular. Onların ayaqlarını falaqqaya saldılar, işgəncə verdilər.

Ismayıl xan II Dərəcəli (Anna) İmperator nişanına layiq görülmüş hərbçi idi. Onun qardaşı mirpənc (general-leytenant) Məhəmməd İbrahim xanın I dərəcəli Şiri-Xurşid nişanı vardı.

Bu nəcib insanlara çox ağır cəza vermək istədikdə Baş nazir Əli xan Əminüddövlə müdaxilə edərək mane olmuşdur. Talış xanı, onlar zindanda qaldıqları müddətdə yemək və dərman göndərmiş, bu da onların tezliklə sağalmalarına çox kömək etmişdi...

Mirzə İsmayıl xan 1901-ci ildə Azərbaycana gəlmiş, Təbrizdə də artilleriyanın baş adyutantı vəzifəsində çalışmışdır. (71, c. 1, s. 126). O, 1906-cı ilədək bu vəzifədə olmuşdur. 1906-cı ilin 2 avqustunda

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

inqilab məhkəməsində mühakimə olunaraq edam edilmişdir.

## KƏRƏM XAN

Azərbaycanın Qazax qəzasından olan Kərəm xanın, yaxud Qaçaq Kərəmin Nəsrəddin Şahla görüşü İran mənbələrində də işıqlandırılmışdır. Həyatının son illərini Tehranda keçirmiş Kərəm xan əvvəllər Qazaxın Qıraq Kəsəmən məliklərindən olan Kərbəlayevin rəiyyəti olmuş və ağa ilə kəndlilər arasında narazılıqlar baş verəndə münaqişə zamanı Kərəm bəy İsrafil bəy Kərbəlayevin qohumlarından birini öldürmüş, ələ keçməmək üçün yurdundan qaçaq düşmüşdür. Kərəmin düşmən qazanmasının digər səbəbini də belə izah edirlər ki, Qiraq Kəsəmənin ərbab və əyanlarından biri olan İsrafil bəy Kərəmin atası İsgəndəri öldürmüş və iyirmi yaşlı Kərəm atasının intiqamını almaq üçün İsrafil bəyi öldürmək qərarına gəlmiş, bu səbəbdən ətrafına bəydən narazı, özü ilə həmfikir və silahlı adamları toplayaraq qaçaq düşmüşdür. O öz dəstəsi ilə yol kəsir, varlıların

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

əlindən aldıqlarını kasıblara paylayırdı. Kərəm bəy bu tarixdən Qafqazda Qaçaq Kərəm adı ilə məşhur olmuşdur. Kərəm xan yol kəsmək və qiyam etməklə bərabər tanınmaz qiyafədə müqəddəs Nəcəf və Kərbəla ziyarətgahlarına gedirdi.

O zaman Rusiyanın işğalı altında olan Qafqazda qala bilməyən Kərəm İran torpağına keçməyi qərara alır. O, Araz kənarında Avropaya 3-cü səfərindən qayıdan Nəsrəddin Şaha rast gəlməklə həyatını xilas etmiş olur. 1889-cu ilin avqust ayında Arazı keçərək İran torpağına daxil olan şah bir nəfər kazak əsgərinin bir neçə atlı ilə ona yaxınlaşdığını gördükdə təəccüblənir. Kərəm xan yaxınlaşıb atdan düşür və özünü təqdim edir: “Mən Kərəməm və sizə pənah gətirmişəm” Mehdi Bamdad məlumat verir ki, Nəsrəddin Şah Kərəm haqqında əvvəllər də eşitdiyindən bir qədər fikirləşib, onu özü ilə Tehrana aparmağa razılıq verir. Rusiya dövləti də onun İrana pənah aparmasına bir şərtlə razı olur ki, o, bir daha Qafqaza qayıtmasın, həmişəlik İranda qalsın. Sonralar Kərəm xanın özündən kiçik beş qardaşı da: Əsəd xan, Həmid xan, Məcid xan, Mədəd xan  və İsgəndər xan Qafqazda düşmən əlindən qurtularaq, tədricən İrana, onun yanına gəldilər. Kərəm xanın İrandakı nəsli və qohumları Zaltaş kəlməsini özləri üçün soyad kimi qəbul etmişlər.

Kərəm xan haqqında İran tarixçisi, marağalı Məhəmmədhəsən xan yazır ki, şah onu Tehrana apararaq öz silahlı dəstəsinə daxil etmiş və ildə 1200 tümən məvacib təyin etmişdir. Kərəm 1889-cu il 19 oktyabrda Nəsrəddin Şahı “Yengi İmam” ziyarətində müşayiət

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

edərkən, söhbət zamanı yüzdən artıq zalım düşməni öldürdüyünü Məhəmmədhəsən xan Etimadüssəltənəyə söyləmişdir. Qaçaq Kərəm sonralar baş nazir Əminüssultanın mühafizə dəstəsində xidmət etmişdir. Cəsur və məğrur bir insan olduğundan ona qibtə edənlər də tapılmışdır.

Nəsrəddin Şahın şəxsi həkimi fransız Fevriye Qaçaq Kərəmi görmüş, sonralar yazdığı "Se sal dər dərbari-İran" kitabında onu belə təsvir etmişdir: "Əslən iranlı olan Qaçaq Kərəm (Müəllif burada 1813-cü il Gülüstan müqaviləsindən əvvəlki dövrü nəzərdə tutur-H.T.) İrəvan hüdudlarında məşhurdur. Bu günə qədər rus ordusuna böyük zəhmətlər vermişdir. O, rus ordusu ilə vuruşmada yaralanmış, İrana, Maku hakimi Teymur ağanın yanına qaçmışdır. Teymur ağa rusların onu həbs etmək tələbinə baxmayaraq, onu yanından buraxmağa cürət etməmişdir. Kərəm, xüsusən, İrəvan hakiminin düşmənidir, arabir ona xəbər göndərir ki, əhvalı yaxşı olan kimi onun xidmətinə yetişəcək və beyninə bir güllə çaxmaqla intiqamını alacaq".

Fevriye Kərəm xanı ilk dəfə gördüyünü belə xatırlayır: "1889, avqust. Qarabağda şahın çadırına daxil olduqda yaxınlıqda ərəb atının üstündə kazaka oxşayan sahibmənsəb çevik bir şəxs gördüm, yanında səkkiz nəfər silahlı atlı var idi. Onlar çadırın yaxınlığında yerə endilər. Onların başçısı atının cilovunu yanındakına verdi və özü tək çadıra yaxınlaşdı. Bu ucaboylu, yaraşıqlı şəxsin otuz yaşı olardı. Üzünün dərisinin rəngindən onun uzun müddət açıq havada, çöldə yaşadığı hiss olunurdu. Bir neçə yerdən güllə ilə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

dəlinmiş paltarı Qafqaz çərkəslərinin geyminə oxşayırdı. Başına qoyduğu papaq Buxara dərisindən idi. Mən sonradan bildim ki, rus zabitinə və yaxud gürcü şahzadəsinə oxşatdığım bu şəxs məşhur Kərəmdir". (71, c. 3, s. 165-166).

Kərəm xan Tehranda vəfat etmiş, Rey darvazası xaricində, Qasım xanın "Abe anbar" deyilən torpağında dəfn edilmişdir. Onun vəfat tarixi müxtəlif illərlə qeyd edilir. Məsələn, Mehdi Bamdad "Tarixi-ricali-İran" əsərində Kərəmin 1901-ci ildə 43 yaşında beyninə qan sızmasından vəfat etdiyini göstərdiyi halda, Azərbaycan Sovet Ensiklopediyasında bu tarix 1909-cu ildir. (71, c. 3, s. 167; c. 2, s. 104).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## HÜSEYN XAN ŞAHSEVƏN

Nəsrəddin Şah Qacar hakimiyyəti dövrünün adlı-sanlı hərbçilərindən olan Hüseyn xan Şahsevən elindən olub, 1855-ci ildə yüzbaşı vəzifəsinə layiq görülmüşdü. 1857-ci il Herat yürüşü və bunun İran dövlətinin xeyrinə həll olunması ordunun sərkərdələrindən olan iki azərbaycanlı hərbçinin də, Hüseyn xanın və Əmir Hüseyn xan Zəfəranlunun general rütbəsinə qədər yüksəlməsi ilə yaddaqalan oldu. Bu yürüş nəticəsində Herat İranın ixtiyarına keçdi və onlar Tehrana dəvət olunaraq təltif edildilər. Hüseyn xan bir ildən sonra poçt naziri təyin olunmuşdur. Hüseyn xan 1866-cı ildə Xorasan sərhəddində türkmanlərin basqınının da qarşısını müvəffəqiyyətlə almış və Kirman hakimi təyin olunaraq, bu vilayəti 9 il bacarıqla idarə etmişdir. O, yüksək vəzifələrdə, general-qubernator, əmiri-topxana (bütün artilleriya rəisi), Xorasan hakimi olmuş, nəhayət

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Nizamüddövlə ləqəbini alaraq ömrünün axırınadək, yəni, 2 mart 1875-ci ilədək Xorasanın hakimi olaraq qalmışdı.

Tarix bu adlı-sanlı hərbçiləri yaddaşlarda saxlamış, tarixçilər də onların qələbələrini qələmə almışlar.

## XIX ƏSRDƏ İRANDA YAŞAMIŞ AZƏRBAYCANLI DİPLOMATLAR

XIX əsrdə İran dövlətinin Avropa ölkələri ilə diplomatik münasibətlərinin yaranmasında və inkişafında azərbaycanlı ictimai-siyasi xadimlərin mühüm rolu olmuşdur. Xarici dövlətlərlə əlaqələrin əsaslı şəkildə qurulması ənənələri hələ XVI əsrin sonlarında, I Şah Abbas Səfəvi hakimiyyəti dövründə (1587-1629) yaranmağa başlamışdir. İ Şah Abbas itirilmiş torpaqların taleyini Osmanlı İmperiyasının hücumlarını gözləyən xarici dövlətlərlə yaxınlaşmaq, onlarla diplomatik əlaqələri yaratmaq siyasətini həyata keçirməklə həll etmək qərarına gəlmişdi. Bu məqsədlə 1599-cu ildə I Şah Abbasın göstərişi ilə Avropanın səkkiz dövləti ilə: Almaniya, Roma, İspaniya, Fransa, Polşa, Venesiya, İngiltərə və Şotlandiya kimi dövlətlərlə əlaqələr yaratmaq üçün qızılbaşların Bayat elindən olan azərbaycanlı Oruc bəy (Don Juan adı ilə tanınmışdır) də

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

daxil olmaqla 20 nəfərdən ibarət səfir heyəti təşkil olunmuşdu. Bu missiyanın vəzifəsi Səfəvilər dövlətinin xarici siyasətinin məqsəd və vəzifələrini həyata keçirmək üçün həmin dövlətlərlə əlaqələr qurmaq idi.

Fətəli Şah Qacar hakimiyyəti dövründə də İran dövlətinin Avropa ilə qurulmağa başlayan diplomatik əlaqələri özünün yeni təzahürlərini göstərməyə başlamışdı. Bu əlaqələrdən istifadə etməklə Avropa eyni zamanda Şərqə daxil olmaq səyini artırırdı. Öz maraqlarına görə Fransa dövlətinin Fətəli Şah sarayına diqqəti daha artıq idi. I Napoleon Bonapart (1769-1821) Misiri işğal etdikdən və Avropanın bir sıra dövlətləri üzərində qələbə qazandıqdan sonra İngiltərə və Hundistanı zəbt eləmək üçün İran dövləti ilə yaxınlaşmaq və müqavilə bağlamaq qərarına gəldi. O, həmçinin İran dövlətini silahlandırmaqla, onu Hindistan üzərinə hücum etməyə hazırlamaq fikrində idi. Napoleon əvvəlcə özünün Jan Gevr adlı nümayəndəsini danışıq aparmaq və müqavilə bağlamaq üçün Fətəli Şah sarayına göndərdi. Fransa dövləti bu zaman Rusiya dövləti ilə düşmən münasibətdə idi və İran da Rusiya ilə yaxşı münasibətdə olmadığından Fransa elçisini şadlıqla qarşıladı.

İran alimi marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə "Miratül-buldani-Nasiri " əsərində müxtəlif dövrlərdə Təbrizdə olmuş səyyah və diplomatlardan Jan Battisti Toverniye, Şardən, Coze Vayt, Kiner, Tankuva Flandin və Liklama Nijheltin, o cümlədən 1805-ci ildə I Napoleon tərəfindən İran sarayına göndərilmiş cənab Jan Gevrin səfərnaməsinin

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

fars dilinə tərcüməsini dərc etmişdir. Uzun illər Şərqdə yaşamış və fars, ərəb, türk dillərini yaxşı bilən Jan Gevr Napoleonun tərcüməçisi kimi onunla Misirə getmiş, Şərq, o cümlədən İran tarixinə aid bir neçə tarixi, bədii əsər yazmışdır.

1806-cı ildə Fətəli Şah Mirzə Rza Qəzvini adlı diplomatı Jan Gevrlə birlikdə Fransaya, I Napoleon sarayına göndərir. Əvvəllər şahzadə Məhəmmədəli mirzənin məsləhətçisi olan Mirzə Rza təcrübəli, xarici ölkələrin adət-ənənələri ilə yaxından tanış olan bir şəxs idi və o, Fransa sarayında İran səfirliyinə təyin edildi. Mirzə Rza Qəzvininin Avstriyada İmperator Napoleonla görüşü baş tutduqdan sonra danışıqların nəticəsi olaraq fransız generalı Qardan 1807-ci ildə 70 nəfər zabit və mühəndis-müəllimlə və Mirzə Rza Qəzvini ilə birlikdə İrana gəldilər. İran dövləti həmin il Rizaiyyədən (Urmiya) olan Əsgər xan Əfşar Ürməvini Mirzə Rza Qəzvininin əvəzinə Fransa sarayına, diplomatik missiyasını icra etmək üçün göndərdi. Fransadan gələn hərbçi və müəllimlər İranda və Azərbaycanda nizami ordunu təşkil etməyə başladılar. Əsgər xan 1224-cü ildə (1809) Parisdən qayıtdıqdan sonra Urmiyaya göndərildi.

Beləliklə, Fətəli Şah 1807-ci ildə İran və Fransa dövlətləri arasında bağlanmış müqavilədən sonra Əsgər xan Əfşarı diplomatik missiyanı yerinə yetirmək üçün Napoleon sarayına göndərdi. Məlum olduğu kimi o, 1809-cu ilədək fəaliyyətini davam etdirdi. Əsgər xan Yrumi və yaxud Urməvi Urmiyada yaşayan əfşar tayfasının böyüklərindən idi. (71, c. 2, s. 336). O, Fətəli şah Qacar dövrünün ordu komandirlərindən, görkəmli

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

sərkərdələrindən biri kimi Bakının rus qoşunlarından müdafiəsində iştirak etmişdir. Rus generalı Sisianov 1805-ci ildə Qafqazın müxtəlif ərazilərinə daxil olaraq, İran dövləti ilə müharibə edən zaman İran ordusunu bu və ya digər cəbhədə məğlub etmək məqsədilə, bir neçə hərb gəmisini və əsgərini Gilana göndərmişdi və Pəhləvi limanı zəbt olunmuşdu. Lakin Gilan əhalisi rəşadət və mərdlik göstərərək ruslara xeyli itgi verdi və onlardan sağ qalanı öz gəmilərinə oturaraq, Bakı istiqamətinə yola düşdülər. Bakı hakimi Hüseynqulu xan Gilandan qayıdan rusların Bakıya girib, dağıntı, qırğın törədəcəklərindən ehtiyat edərək və bunu onlardan gözlədiyi üçün İran dövlətindən kömək istədi. Fətəli Şah da Əsgər xanı ordu ilə onun köməyinə göndərdi.

Hüseynqulu xan uzaqgörənlik etmişdi. Ruslar Bakıya girmək istədikdə Hüseynqulu xan və Əsgər xan ruslarla ağır döyüşə girdilər. Qafqazın digər hakimləri və xanları da Hüseynqulu xana köməyə gəldikdə rus sərkərdələri qaçmağa məcbur oldular. Şeyx Əli xan, Surxay xanın oğlu Nuh bəy və başqaları kömək edən müttəfiqlər idilər. Əsgər xan Parisdən 1809-cu ildə qayıtdıqda Abbas mirzə Naibüssəltənə tərəfindən Urmiya hakimi təyin olunmüşdu.

Deyilənlərə görə Fətəli Şah Qacar hakimiyyətinin əvvəllərində İranda Framason təşkilatı yaranan vaxt Əsgər xan təşkilatın rəhbərlərindən biri olmuşdur. İranşünas alim, t.e.d. T.A. İbrahimov (Şahin) yazır ki, Framason XVIII əsrin əvvəllərində "Azad bənnalar" təşkilatı formasında İngiltərədə əmələ gəlmiş, sonralar başqa ölkələrə də yayılmışdır. (30, s. 13). Tarixi

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

mənbələr göstərir ki, Əsgər xan hələ 1807-1809-cu illərdə Fransada İran dövlətini təmsil edən vaxt framason təşkilatının üzvi olmuşdur. Deməli, Əsgər xan iranlı olan ilk şəxsdir ki, bu təşkilata üzv olmuşdur. Bəziləri də Mirzə Saleh Şirazini hesab edirdilər. İranda ilk framasyon cəmiyyətinin Fətəli Şah dövründə 1800-cü ildə yarandığı barədə məlumat da vardır. Bəzi tarixçilər isə onun 1818-ci ildə Mirzə Saleh Şirazinin Londondan İrana qayıtdıqdan sonra yaratdığını yazırlar. (71, c. 2, s. 337).

## HÜSEYN XAN MARAĞEYİ

XIX əsr İran tarixi, baş vermiş bir sıra mühüm hadisələrlə yanaşı, bu hadisələrin təşkilatçısı və iştirakçısı, görkəmli siyasi xadimləri, diplomatları ilə də əlamətdar olmuşdur.

Qeyd olunduğu kimi Avropa ölkələri ilə diplomatik münasibətlərin yaranmasında və inkişafında azərbaycanlı ictimai-siyasi xadimlər də fəaliyyət göstərmişlər. Hüseyn xan, yaxud Məhəmmədhüseyn xan Müqəddəm Marağei belə şəxsiyyətlərdən biri olmuşdur. Hərbi xadim, diplomat Hüseyn xan adyutantbaşı, Nizamüddövlə, Sahibi-ixtiyar ləqəblərinə malik olub, Fətəli Şah, Məhəmməd şah və Nəsrəddin Şah dövründə yaşamışdır. Əvvəlki iki padşahın dövründə mühüm dövlət işlərində xidmət etmişdir. O, məşhur Səfəvi əmirlərindən, otuzikilər tayfasından olan Ağa xan Müqəddəmin nəslindəndir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Məhəmmədhüseyn xan Müqəddəm 1826-1828-ci illərdə baş vermiş Rusiya İran müharibəsi zamanı Abbas mirzə Naibüssəltənənin komandanlıq etdiyi Azərbaycan ordusunun sərkərdələrindən olan , əmiri-nizam Məhəmməd xan Zənginənin təklifi ilə orduya baş yavər təyin olunmuş və Abbas mirzə vəfat etdikdən sonra da həmin vəzifədə qalmışdı. O, Məhəmməd şah zamanında Azərbaycan qoşununun baş komandanı kimi 1837-ci ildə Herata göndərilmişdi. Herat yürüşündə uğurla çalışdığı üçün Məhəmməd şah özü Simnan şəhərində 20 min Azərbaycan ordusuna baxış keçirərək, baş adyutant Hüseyn xanı general-mayor rütbəsinə yüksəltmiş, ona qiymətli daş-qaşla bəzədilmiş xəncər və qırmızı lent bağışlamışdır.

Fövqəlada səfir Hüsey xanın Avropada diplomatik fəaliyyəti uğurlu olmuşdur. Məhəmməd şah və onun sədr-əzəmi (Baş nazir) Mirzə Ağası İrəvanı 1838-ci ildə Hüseyn xanı İstanbul və Parisə nümayəndə kimi danışıqlar aparmağa göndərmişdir. Böyük Britaniya kraliçası Victoriya (1819-1901) səltənət taxtına əyləşən zaman İran dövləti adından onu təbrik etmək şərəfi Hüseyn xana nəsib olmuşdu.

İranın İngiltərədə səlahiyyətli nümayəndəsi təyin olunan Hüseyn xan 1838-ci il sentyabrın 25-də Təbrizdən yola düşərək Avropaya getmiş, diplomatik fəaliyyətini bir müddət Londonda davam etdirmişdir.

O, eyni zamanda İranla Fransa dövlətləri arasında əlaqələr yaratmaq üçün danışıqlar aparmış və müzakirələr nəticəsində iki dövlət arasında diplomatik münasibətlər yaranmışdır. Fransanın İranda Le Kont de

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Sersinin başçılığı ilə fövqəladə səfirliyinin təşkil olunması bu danışıqların nəticəsi idi.

Bu zaman Herat məsələsi ilə əlaqədar İranla İngiltərə arasında nifaq və münaqişələr başlandığına görə (İngiltərə heratı mühasirəyə almış İranla konfiliktdə idi) İngiltərənin xarici işlər naziri Lord Palmerston Hüseyn xanı rəsmi qəbul etməyə hazır deyildi. Ona görə də Hüseyn xan ingilis nümayəndəsi ilə danışıqları Londonda yox, bir müddət İstanbulda və daha sonra Vyanada (Avstriyanın paytaxtı) aparmalı oldu. Lakin bir nəticə hasil olmadığından Avstriyanın Baş naziri, məşhur şəxsiyyət olan Metternixlə qoşunların birgə təlimi barədə danışmış, həm də ondan xahiş etmişdi ki, İran-İngiltərə münasibətlərinin yaxşılaşmasına yardımçı olsun. Onu bacarıqlı diplomat kimi tanıyan Metternix Avstriyanın Londondakı səlahiyyətli nümayəndəsi Hammer vasitəsilə Hüseyn xanın, daha doğrusu, Iran dövlətinin notasını Londona göndərmişdi. Siyasi xadim olan Metternix Hüseyn xanın diplomatik fəaliyyətini yüksək qiymətləndirmiş, onun haqqında demişdir:

“Hüseyn xan, bizim əqidəmizə görə, olduqca yüksək mühakimə yürütmək qabiliyyətinə malik, zəngin hafizəsi olan bir insandır. Avropada olan vəziyyət haqqında məlumatı hərtərəfli və genişdir. O öz əqidəsinin bəyanında sözünün hakimidir. Demək olar ki, illərlə mütəmadi olaraq dünyanın bir çox mədəni mərkəzlərində iqamət etmişdir. Biz səy edirik ki, burada onun notası barədə məlumat verək. Onun mülahizələrinə dərindən diqqət yetirsək, belə qənaətə gələrik ki, belə insana Şərq ölkələri xalqları arasında nadir hallarda rast

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

gəlmək olar”. (71, c. 1, s. 427). M. Bamdad yazır ki, tanınmış şəxsiyyət olan Metternix çox məğrur insan idi və öz müasirləri olan siyasət adamlarına həqarət gözü ilə baxırdı və onları biçarə, düşüncəsiz, beyinsiz, hoqqabaz və yüngül hesab edirdi. Belə olan halda onun Hüseyn xan Müqəddəm haqqında söylədikləri yüksək fikirlər ona hüsn-rəğbət bəslədiyindən irəli gəlirdi. Hüseyn xan 1 il 4 ay Avropada olarkən ordu quruculuğu ilə maraqlanmış və bunu İranda tətbiq etmək istəmiş, 1839-cu ildə Təbrizə qayıdan zaman bir dəstə Avstriya əsgərini xidmətə qəbul edib özü ilə gətirmişdi. Lakin bu zaman Məhəmməd şah xəstə idi və Baş Nazir Hacı Mirzə Ağası isə hərbi məsələlərdə savadsız olduğundan onun həyata keçirmək istədiyi işlərə mane oldu. Məlum olduğu kimi Mirzə Tağı xan Əmir Kəbir baş nazir olana qədər İran hərbi qüvvələri əsasən tayfa-süvari dəstələrindən və qeyri-nizami piyadalardan ibarət idi. Məhəmmədhüseyn xan Müqəddəm Marağeinin Avropada ezamiyyətdə olarkən gördüyü işlər, müzakirə olunan siyasi məsələlər barədə onun münşisi Mirzə Əbdülfəttah Gərmrudinin yazdığı “Çəhar fəsil” kitabında məlumat verilmişdir. O, Avropadan qayıtdıqdan sonra Tehrana gedərək öz diplomatik fəaliyyəti barədə şaha məruzə etmiş və Məhəmməd şah ona Nizamüddövlə ləqəbini vermişdi. Hüseyn xan 1840-cı ildə Yəzd hakimi təyin edilmiş, Hüseyn xan Nizamüddövlə İranın tanınmış siyasətçisi, ağıllı, işgüzar hakimlərindən olmuşdur. Onun idarə etdiyi vilayətlərdə ilk növbədə oranın abadlığı diqqəti cəlb edirdi. O, Yəzddə hakim olduğu 4 il ərzində bir-birindən 120 km məsafədə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

yerləşən Üqda və Nain arasında 3 yeraltı suvarma kanalı çəkdirmiş, zəvvarlar üçün karvansaralar tikdirmişdi. Həmin işləri Şirazda da görmüşdür. Başqa şəhərlərin hakimləri ondan öyrənirdilər.

Hüseyn xan Nizamüddövlə ilə böyük islahatçı Əmiri-Kəbir Mirzə Tağı xan arasında olan soyuqluq barədə isə Mehdi Bamdad belə yazır:

"Müəllifə məlum olmadı ki, Əmiri-Kəbir Mirzə Tağı xanla İranın iftixarı olan bu təcrübəli siyasətçi arasında olan ədavət şəxsi kin-küdurətdənmi idi, yoxsa siyasi mühitdən yaranmışdı. Böyüklər də səhv edə bilərlər. Məsələn, həmin Mirzə Tağı xan Mirzə Ağa xan Nurinin necə adam olduğunu çox yaxşı bildiyi halda, onu özü ilə həmrah etmişdi, hakimiyyətə onun üçün yol açmışdı və bunun aqibəti də məlum oldu. Hüseyn xan Nizamüddövlə isə hər cəhətdən Ağa xan Nuridən üstün olduğu halda, Tağı xan onu özündən uzaqlaşdırmış, gözdən salmış və ev dustağı etmişdi". (71, c. 1, s. 428-429).

Hüseyn xan Nizamüddövlə 1865-ci ildə vəfat etmişdir. Onun Əli xan adlı oğlu məşhur siyasətçi olmuşdur. O, Müşirülvüzarə ləqəbli olub, general rütbəli, baş konsul kimi bir sıra xarici dövlətlərdə işləmişdir. Əli xan işgüzar diplomat olaraq İranın səlahiyyətli nümayəndəsi kimi 3 il (1864-1866) Parisdə işləmiş, İrana qayıtdıqdan sonra 1866-cı ildə Tiflisdə Baş konsul təyin olunmuşdur. Bu vəzifədə isə 5 il, yəni 1870-ci ilədək çalışmışdır. Ondan sonra, yəni 1870-ci ildə İranın Tiflisdəki Baş konsulu vəzifəsinə Peterburqda

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

səfirliyin birinci katibi olan Mirzə Əsədulla xan təyin olundu.

Əli xan tarixçi Məhəmmədhəsən xan Etimadüssəltənənin yazdığına görə çox qabiliyyətli bir cavan idi. O, 1874-cü ildə Xarici işlər müdiri təyin olunaraq, Azərbaycana göndərilmiş və bu vəzifədə 10 il, yəni 1884-cü ilədək çalışmışdır. 1884-cü ildə Tehrana qayıdan Əli xan ürək xəstəliyindən vəfat etmişdir. Böyük Azərbaycan dramaturqu M.F.Axundovun Azərbaycan MEA Əlyazmalar İnstitutunda mühafizə edilən arxivində ədibin həmyerlisi Hüseyn xan Nizamüddövləyə və onun oğlu Əli xana yazdığı məktublar vardır. Bu məktublardan aydın olur ki, Axundov uzun müddət onlarla əlaqə saxlamış və ata-oğulla çox yaxşı münasibətdə olmuşdur. Mirzə Fətəli 1858-ci ildə Hüseyn Nizamüddövləyə yazdığı məktubda özünün də onun kimi ata və ana tərəfdən Müqəddəm elindən olduğunu bildirmiş və həyata keçirmək istədiyi əlifba islahatı işində İranda ona yardımçı və vasitəçi olmağı xahiş etmişdi. Axundov məktublarından birində İranın Tiflisdəki Baş konsulu Əli xanın "aligövhər bir cavan olduğunu, ona son dərəcə məhəbbəti və mehribanlığı" olduğunu yazmışdır. Əli xanın Mirzə Fətəliyə yazdığı cavab məktubundan aydın olur ki, o, əlifba islahatı məsələsində ona kömək edəcəyini, bu işi başa çatdıracağını qarşısına məqsəd qoymuşdu. 1870-ci ildə Əli xanın Tiflisdən getdiyinə çox kədərlənən Axundov yazmışdır:

"Sizin Tiflisdə olmamağınız hamıya, xüsusilə mənə çox ağır təsir edir. Sizin qədrinizi ayrılıqdan sonra

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

bildim. Sizin Tiflisdə qaldığınlz üç il ərzində keçən günlər, mənim ömrümün hesabında Qədr gecəsinin ilin başqa gecələrinə görə qiymətli və əziz olduğu qədər qiymətli və əzizdir. Kaş dövləti-əliyyeyi-İranın bütün xarici ölkələrdə xasiyyətinin yaxşılığı, himmətinin yüksəkliyi, dünyanın işlərindən geniş xəbərdarlığı, iş bacarığı və sağlam fikir sahibi olması ilə Əli xana oxşayan bir çox məmurları olaydı”. (1, c. 3, s. 154).

İngilis alimi Ç.A. Stori marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin babası Hüseyn xan Müqəddəm Marağeini, onların nəslindən olan və Tiflisdə İranın Baş konsulu Əli xanın atası Hüseyn xan Nizamüddövlə müqəddəm Marağei ilə səhv salmış, nəticədə böyük dolaşıqlığa yol vermişdir.

Hüsen xan Nizamüdövlənin Avropada fövqəladə səfir missiyasının iştirakçısı və onun müavini Mirzə Əbdülfəttah Gərmrudi əvvəlcə Azərbaycan hakimi Abbas mirzə Naibüssəltənənin münşilərindən olmuşdur. Abbas mirzə vəfat etdikdən sonra o, Məhəmməd şah sarayında yazı işləri ilə məşğul olmuşdur.

Herat hadisələri ilə əlaqədar olaraq diplomat Məhəmmədhüseyn xan Nizamüdövlə İranın Avropa dövlətləri üzrə fövqəladə səfiri vəzifəsində yola düşərkən Mirzə Əbdüllfəttah da onun müavini təyin olunaraq diplomatik heyətdə getmişdir. Onun görkəmli, təqdirəlayiq işlərindən biri 1838-ci ildə bu səfər barədə yazdıqlarıdır. “Çəhar fəsil” adlandırdığı kitabında siyasi heyyətin Osmanlı-İsveçrə-Fransa və İngiltərə dövlətlərində gördüyü işlərdən bəhs olunur. Onun digər kitabı “Şəbnamə” adlanır. Bu kitab Avropa şəhərlərində

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olan həyat tərzi, burada yaşayan insanlara xas olan geyim, mətbəx işləri və s. haqqında yazılmışdır.

Yuxarıda qeyd olunduğu kimi, Məhəmmədhüseyn xan Müqəddəm bir il dörd ay Avropada çalışdıqdan sonra 1839-cu ilin dekabr ayında Təbrizə qayıtdı və oradan Tehrana yola düşdü. Burada ezamiyyəti barədə Nəsrəddin Şaha məlumat verdikdən sonra şah tərəfindən verilən fərmanla Nizamüddövlə ləqəbinə layiq görüldü. Bir il sonar, yəni 1840-cı ildə Yəzd hakimi təyin edilmiş, 1844-cü ildə Sahibi-ixtiyar ləqəbinə layiq görülərək Fars hakimi təyin olunmuşdur. Nizamüddövlə Yəzd və Fars hökümətində olduğu müddətdə Əbdülfəttah mirzə 8 ilə yaxın onunla həmrah idi. O, həmin şəhərlərdə qaldığı dövrdə də bir neçə faydalı risalə və kitablar yazmışdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## XOSROV MİRZƏ QACAR

Xosrov Mirzə Qacar Abbas mirzə Naibüssəltənənin 7-ci oğludur. Atasına çox bağlı idi, ona hüsn-rəğbət bəsləyirdi. Rusiya dövlətinin İranda fövqəladə səfiri A. Qriboedov (1795-1829) 1829-cu ildə cavanlığından istifadə edərək səhlənkar və amiranə hərəkətinə görə Tehranda, 34 yaşında, camaatın əli ilə öldürüldü. Rusiya ilə aparılan iki müharibənin, xüsusən ikinci Rusiya-İran müharibəsinin yaraları sağalmamış bu hadisə Tehranda, sarayda Fətəli Şahı, Təbrizdə isə Abbas mirzə Naibüssəltənəni narahat etdi və artıq 3-cü Rusiya-İran müharibəsinin başlanması təhlükəsi var idi. Bu hadisə ilə əlaqədar müharibəni udmuş Paskeviçlə Abbas mirzə arasında 13 gün məsləhətməşmə və söhbətləşmə davam etdi. Belə qərara gəldilər ki, Qacar şahzadələrinin ən layiqlisi mötəbər bir heyətlə baş vermiş hadisə ilə əlaqədar üzrxahlıq üçün Rusiya dövlətinə göndərilsin.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Əvvəlcə qərara alındı ki, Xarici işlər vəziri, "elçi" adlandırılan, həm də vaxtilə Rusiyanın paytaxtında İranın səfiri olmuş Mirzə Əbdülhəsən xan Şirazi nümayəndə heyətinin başçısı kimi Rusiya İmperatorunun sarayına göndərilsin. Sonra Mahmud xan Dünbülini, şahın quryasovulbaşısı və 1821-ci ildə Xarici işlər vəziri olmuş Mirzə Əbdülvahab xanı göndərmək barədə söhbət oldu. Lakin bu məsələ çox mühüm olduğu üçün qərara aldındı ki, Abbas mirzənin böyük oğlu Məhəmməd Mirzə (Məhəmməd şah) Mirzə Əbdülqasim Qaimməqam Fərahani ilə birlikdə göndərilsin. Bir çox müzakirələrdən və dəyişən fikirlərdən sonra Paskeviçin təklifi ilə Xosrov Mirzə mürəkkəb bir heyətlə: Mirzə Məhəmməd xan Zəngine Əmiri-nizam, Mirzə Məsud Gərmrudi, Mirzə Saleh Şirazi, Mirzə Təqi xan Fərahani (sonralar Əmiri-Kəbir), Mirzə Mustafa Əfşar, Mirzə Baba həkimbaşı, dəftərxana üzvlərindən katib Mirzə Məsudla Rusiya İmperatoru I Nikolayın hüzuruna getdilər. (71, c. 1, s. 482).

Xosrov Mirzənin İrandan Rusiyaya səfəri 10 ay 15 gün çəkmişdir. (1829-cu il 22 apreldən 1830-cu il 27 fevrala qədər) Rusiya dövləti bu zaman Osmanlı dövləti ilə müharibə aparırdı. O, İran dövlətinin itirdiyi torpaqlar üçün intiqam alacağından və Osmanlı dövləti ilə sazişə girəcəyindən qorxaraq şahzadə Xosrov Mirzəni və onunla birlikdə gələnləri çox xoş və yaxşı qarşıladı. Rus dövləti II Rusiya-İran müharibəsindən sonra İranın Rusiyaya olan 1 milyon tümən borcunu nəinki tələb etmədi, hətta yarım milyonu şahzadənin gəlişinə peşkəş olaraq, İrana bağışladı və qalan 500 min tümənini

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

ödəmək üçün 5 il möhlət verdi. Lakin imperatorun dostcasına etdiyi şikayəti bundan ibarət oldu:-bir halda ki, İran dövləti Rusiyadan kömək istəyir, ona dost əlini uzatmışdır. Deməli Rusiyanın Osmanlı dövləti ilə müharibə şəraitində olduğunu bildiyi halda İran İstanbula səfirini göndərməz, nə yaxşı ki, İran bu işi tutmur. Xosrov Mirzə isə bu xüsusda məlumatı olmadığını bildirdi. Imperator şahzadənin ifadəsini məlumatsızlıq kimi qəbul edib, ətrafındakılara gileyləndi.

Abbas mirzə Naibüssəltənə 1830-cu ildə Yəzd və Kirmanda nizam-intizam yaratmaq üçün oraya gedərkən Xosrov Mirzəni də özü ilə aparmışdı. Ümumiyyətlə, o, bir çox əməliyyatlarda atası ilə olmuşdur. Xosrov Mirzə özünün başçılıq etdiyi ordu və topla qardaşı Məhəmməd Mirzə ilə birlikdə Herat yürüşündə iştirak etmişdir.

Xosrov Mirzə təmkin və vüqarda atası Abbas mirzə Naibüssəltənəyə oxşayırdı və böyük qardaşı Məhəmməd Mirzədən fərqlənirdi. O da Xosrov Mirzə ilə ehtiyat və təmkinlə davranırdı. Abbas mirzənin sağlığında iki qardaş sülh şəraitində yaşayırdı. Elə ki, ata vəfat etdi, iki qardaş arasında küdurət şiddətləndi. Cahangir Mirzə özünün "Tarixe nou" kitabında yazır ki, bu qəziyyəyə təhrik edən, qızışdıran əsasən Baş nazir Mirzə Əbülqasim Qaimməqam olmuşdur. Xosrov Mirzə 1833-cü ildə Ağdərbənddə (Sərxəsin kəndlərindəndir-H.T.) türkmanlərlə müharibə etdi və onlara qələbə çaldı. Xorasan valisi olan Məhəmməd Mirzə bu hadisəyə heç bir qiymət vermədi. Xosrov Mirzə isə qardaşından icazəsiz (etiraz əlaməti olaraq) Məşhəddən Tehrana yola

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

düşdü. Fətəli Şah xəbər tutduqda onun bu əməlindən xoşu gəlmədi və Xosrov Mirzəni danladı. Qərara alındı ki, Xosrov Mirzə nəzarət altına alınsın və əmisi Zilli Sultanın evində yaşasın.

Fətəli Şah Məhəmməd Mirzəni vəliəhd təyin etdikdən sonra göstəriş verdi ki, Xosrov Mirzəni Məhəmməd Mirzənin yanına aparıb, küdurəti xoş münasibətlə əvəz etsinlər. Bundan ötəri gərək Xosrov Mirzə Məhəmməd Mirzə ilə Azərbaycana getsin. Xosrov Mirzə vəliəhdlə bərabər Azərbaycana getdi. Məhəmməd Mirzə Təbrizə varid olduqdan sonra 4 doğma qardaşından: Cahangir Mirzə, Xosrov Mirzə, Əhməd mirzə və Mustafaqulu mirzədən şübhələndiyi üçün onları tutub, Ərdəbil qalasına göndərdi və zindana saldırdı. Bu hadisə 1834-cü ilin iyul ayında baş vermişdir. 4 aydan sonra Fətəli Şah vəfat etdi (24 noyabr 1834-cü il) və şahlıq taxtına əyləşmiş Məhəmməd şah Cahangir Mirzənin və Xosrov Mirzənin gözlərini çıxartdırdı. Xosrov Mirzə bu vəziyyətdə qocalaraq dünyasını dəyişdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ YUSİF TƏBRİZİ

Tacir Hacı Mirzə Kazımın oğlu Mirzə Yusif Təbrizi XIX əsrdə İranın sosyal-siyasi problemlərini yeni qayda ilə həll etməyə çalışan, geniş dünyagörüşünə malik olub, "Adəmiyyət cəmiyyəti"nin başçılarından biri idi. O, İctimai mənşə etibarilə ticarət burjyaziyasına mənsub olsa da, ölkədə əsaslı dəyişikliklər tərəfdarı, demokratik, azad fikirli ziyalılardan olmuşdur. Mirzə Yusif xan Müstəşarüddövlə öz əqidəsi yolunda çox zəhmətlərə qatlaşmış, dəfələrlə həbs olunmuş, zindanlara atılmışdır. Diplomatik fəaliyyətinə gəncliyində Təbrizdə başlamış, ingilis konsulluğunda əvvəlcə münşi (katib) vəzifəsini icra etmiş, Xarici işlər nazirliyində çalışmış, sonra Həştərxan, Peterburq, Tiflis şəhərlərində konsul olmuş, 1867-ci ildən 1871-ci silədək Parisdə İranın səfiri vəzifəsini daşımışdır. Mirzə Yusif xan Rusiyada və Fransada olduğu müddətdə bu ölkələrin siyasi-ictimai

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

vəziyyəti ilə yaxından tanış olmuş, 1871-ci ildə Fransanın 1789-cu ildə qəbul edilmiş 19 maddədən ibarət konstitusiyasından iqtibasən “Yek kəlmə” əsərini yazmışdır. İranda ilk konstitusiya yazmış Mirzə Yusif Təbrizi onun müddəalarını bu ölkədə tətbiq etməyə çalışmış, bu təşəbbüsü ilə çox məhrumiyyətlərə düçar olmuşdur. “Yek kəlmə” əsəri Mirzə Yusif xanın yüksək siyasi fikirlərinin təzahürü idi. Bu fikirlər demokratik cəbhəyə, xalqın mənafeyinə xidmət edirdi.

O, dövlət quruluşunun bütün siniflərin mənafeyini təmsil etməli olduğu ideyasını irəli sürürdü. Məhz bu nöqteyi-nəzərdən Mirzə Yusif xan başqalarının əslində toxunmadığı məsələləri-demokratik seçki sistemi, siyasi partiyaların, o cümlədən zəhmətkeşlərin öz siyasi partiyası olması zəruriliyini qeyd edirdi. (13, s. 285). Lakin “Yek kəlmə” əsərinin hakim dairələr tərəfindən mənfi qarşılandığını, təklif etdiyi qanunların həyata keçmədiyini gördükdə bu onu ruhən sarsıtmış və ölümünə yaxın vəliəhd Müzəffərəddin mirzəyə məktub yazaraq, bu tarixi sənədin Nəsrəddin Şaha çatdırılmasını xahiş etmişdi. O, məktubda göstərirdi: “nə qədər ki, İranda zülm və şəxsiyyət məhrumiyyəti hökm sürür, İran tərəqqi və əmin-amanlıqdan çox uzaq olacaq və ayaqlarda sürünəcək... İranda qanun hökm sürməli, hamı bu qanuna tabe olmalıdır... insanlar qanun qarşısında bərabər olmalıdır. Qanun qarşısında şah və gəda bərabərdir. (61, c.1, s. 282). Qeyd etmək lazımdır ki, “Yek kəlmə” əsəri 1905-ci ildə Tehranda yaranmış “Əncümənе məxfi” (gizli cəmiyyət) tərəfindən siyasi proqram kimi qəbul olunmuşdur.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mirzə Yusif Təbrizi Azərbaycanın görkəmli ziyalılarından Mirzə Kazım bəy və M.F. Axundovla məktublaşırdı. O, M.F. Axundova göndərdiyi məktublardan birində "Yek kəlmə"yə işarə edərək yazırdı: "Mən əlifbanı dəyişdirməkdən daha əhəmiyyətli olan, xalqa və dövlətə daha artıq fayda verən böyük bir işlə məşğulam. Əgər tale mənim və mənimlə həmrəy olan iş yoldaşlarımın səyinin səmərə verməsinə yardım edərsə bizə və həmvətənlərimizə ən gözəl nemətlər nəsib olacaqdır". (1, c. 3, s. 283). M.F. Axundov "Yek kəlmə" əsərinin liberal ruhda yazılmasını tənqid etmiş, onun faydalı məsləhət olduğunu, lakin "ölmüş millət üçün" yazıldığını göstərmişdir. Çünki o vaxt İranda zalıma "Səltənət və hökümət büsatından əl çək!" deməyə qüdrəti çatan yox idi və nəsihət zalımın təbiətinə təsir etməzdi. Axundova görə xalq əvvəlcə bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik əsaslarını əldə etməli, sonra zalıma müraciət edərək deməlidir: Səltənət və hökümət büsatından əl çək! Ondan sonra konstitusyonu millət özü ümumi iş və ədalətin icrası üçün icad edər". (1, c. 2, s. 172, 176).

Lakin zənnimcə, o dövrdə İranda hökm sürən gərgin istibdadın çox örtülü və yumşaq tənqidi belə qəbul etməməsi nəzərə alınsa, Mirzə Yusif Təbrizinin "Yek kəlmə" əsərinin qiyməti bilinər.

Mirzə Yusif xanın həqiqi qiyməti Fətəli Şah Qacarın oğlu Cəlaləddin Mirzənin bu sözlərində verilmişdir: "Aydındır ki, əgər İranda beş nəfər ağıllı adam olarsa, onlardan biri sizsiniz və əgər iki nəfər olsa, yenə də biri sizsiniz". (1, c. 2, s. 287).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mirzə Yusif Müstəşarüddövlə (bu ləqəbi Fransadan Tehrana qayıtdıqdan sonra Ədliyyə naziri Mirzə Hüseyn xanın yanında məsləhətçi işlədiyi zaman almışdır.) "Yek kəlmə" əsərindən başqa "Rəmzi-Yusif", "Təlimül-ətfal", "Kitabi-hesab", "İslahi-xətti-islam" (İslam xəttinin islah edilməsi lüzumu haqqında), "Kitabi-bənəfş" (əsərdə dəmir yolunun ölkənin abadlaşmasında mühüm rola malik olmasından bəhs olunur) əsərlərinin müəllifidir.

Tədqiqatçı alim, tarix elmləri doktoru T.A.İbrahimov (Şahin) yazır ki, Mirzə Yusif Təbrizi ictimai qüdrətin mənbəyinin xalqda və xalqın iradəsində olduğunu elan etmiş birinci iranlı ictimai xadimdir. (30, s. 46).

Mirzə Yusif Təbrizi demokratik fikirlərinə görə Qəzvinə sürgün edilmiş, bir neçə ildən sonra azad olunaraq Tehrana gəlmiş və 1313-cü ildə (1895/96) burada vəfat etmişdir. Sürgün edilərkən "Yek kəlmə" kitabını başına o qədər vurmuşlar ki, gözlərinə qara su gəlmişdi. (71, c.4, s. 493).

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ RZA DANEŞ (1853-1937)

XIX əsr İranın ictimai-siyasi həyatında nəzər-diqqəti cəlb edən görkəmli şəxsiyyətlərdən biri də Mirzə Rza xan İrəvanidir. Sərtipi-əvvəl (general mayor), baş adyutant, müinül-vüzəra, əmiri-Tuman, Ərfəüddövlə, prins, sərdar və əmiri-nuyan (knyaz) kimi bir neçə ali rütbəyə və titula malik olan ictimai xadim yüksək mərtəbələrdə xidmət etmiş, mühüm vəzifələrdə çalışmışdır. Hacı Şeyx Həsən İrəvaninin oğlu Mirzə Rza xan 1853-cü ildə Təbrizdə anadan olmuşdur. İlk təhsilini atasından almış, sonra Tiflisə gedib, orada İran dövlətinin Baş konsulu, həmyerlisi Mirzə Mahmud xanın köməkçisi kimi qulluq etmişdir. O, 1883-cü ildə artıq səfirlikdə Baş konsulun birinci müavini vəzifəsini icra etməyə başlamışdır. Rza xan sonralar Peterbuq, İstanbul və İsveçdə konsul müavini, Baş konsul və səfir təyin olunmuşdur. Onun ictimai xadim kimi formalaşmasında Mirzə Mahmud xanın böyük rolu

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

olmuşdur. Tiflisdə işləyərkən rus dilini öyrənməyə başlamış, ona mükəmməl yiyələnmişdi, xidmətçilikdən konsulun tərcüməçisi, bir qədər sonra konsulun birinci müavini vəzifəsinə qədər yüksəlmişdir.

Mirzə Rza xanın "Daneş" kimi məşhur olması tarixi isə belədir: Müsəlmanlığı qəbul etmiş diplomat Mirzə Mülküm xan bir müddət Tiflisdə İran səfirliyinin müşaviri işləmiş və burada Mirzə Rza xanla tanış olmuşdur. O, 1882-ci ildə Mirzə Rza xana xüsusu bir məktub yazmış və bildirmişdir: "Siz böyük və zəngin biliyə, məlumata maliksiniz və Avropada tanınırsınız. Ona görə də "Daneş" ləqəbini seçsəniz, bu çox yaxşıdır. Mən bundan sonra sizə məktub yazanda "Mirzə Rza xan Daneş" yazacağam".

M.Bamdad bunu ciddi hesab etmir və yazır: "Belə görünür ki, Mirzə Mülküm xan onu ələ salmışdır". (71, c. 1, s. 508).

Hər halda Mirzə Mülküm xanın belə bir fikri olsa da onun dedikləri həqiqətdir.

Mirzə Rza xan Mülküm xanın təkifini qəbul etdisə də, "Daneş" təxəllüsündən sonralar yalnız öz şeirlərində istifadə etmişdır. 1895-ci ildə verilmiş "Ərfəüddövlə" ləqəbini isə soyadı kimi qəbul etmişdir.

Daneş Tiflisdə çalışarkən Mahmud xanın təklifi, vəliəhd Müzəffərəddin mirzənin fərmanı ilə adyutant təyin olunur. 1886-cı ildə Xorasanda ruslarla ərazi məsələsinin həlli zamanı İran tərəfdən Süleyman xan Əfşar və ona tərcüməçi təyin olunmuş Mirzə Rza xan iştirak etmişdir. Bu zaman İran dövlətinin razılığı ilə ruslara bir hissə torpaq verilmişdi.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mirzə Rza xan Xorasandan 1886-cı ildə qayıtmış və Nəsrəddin Şahın baş adyutantı vəzifəsinə təyin olunmuşdur. Həmin il İran dövlətinin Tiflisdə Baş konsulu olan Mirzə Mahmud xan işlər vəkili[29] təyin olunaraq İranın Peterburqdakı səfirliyinə yola düşür. Sonralar onun vasitəsilə İranın xarici işlər nazirliyinə göndərilən bir sıra teleqramlarda Peterburq səfirliyinə dilləri bilən, işgüzar bir adamın tələb olunduğu göstərilirdi və təbii bu əlamətlərlə o şəxsin məhz Mirzə Rza xan olduğu məlum idi. Xarici İşlər Nazirliyi Nəsrəddin Şahın icazəsi ilə Mirzə Rza xanı Peterburqa tərcüməçi və katib vəzifəsini icra etməyə göndərdi.

Nəsrəddin Şahın şəxsi həkimi Fevriyer "Se sal dər dərbari-İran" əsərində yazır ki İranın Peterburqdakı səfirliyinin katibi olan Mirzə Rza xanın gələcəyi çox parlaqdır, çünki o, Baş nazirin diqqətini cəlb etmişdir və sədri-əzəm onu mühüm vəzifəyə təyin edə bilər. Sonrakı illərdə Rza xanın xarici ölkələrdə mühüm vəzifələrə təyin olunması bu uzaqgörənliyi təsdiq etmişdir.

Iran tarixçisi, marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə 1890-cı ildə general-mayor rütbəsini almış şahın baş adyutantı, Peterburqda səfirliyin məsləhətçisi və Müinül-Vüzarə (vəzirlərin arxası, köməkçisi-H.T.) ləqəbli Mirzə Rza xanın Qafqazda İranın Baş konsulu təyin edilməsini yüksək qiymətləndirir və yazır:

"15 rəbiül-sani 1307 (1889, dekabr) İranın Peterburqdakı nümayəndəsi Mirzə Rza xan Nəsrəddin Şahı Avropaya bu səfərində müşayiət edir. Mən onun

[29] İşlər vəkili elçidən bir rütbə aşağı diplomatik nümayəndədir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

İranın Tiflisdə Baş konsulu olduğu barədə yazmışam. Onun əsli irəvanlıdır. Mirzə Mahmud xan Tiflisdə olarkən Mirzə Rza xan qıvrım saçlı bir gənc idi və onun şagirdlərindən idi”. (70, s. 674). Qeyd etmək lazımdır ki, Mirzə Rza xan Tiflisdə Baş konsul vəzifəsini 1889-1895-ci illərdə icra etmişdir. 1895-ci ildən isə o, Mirzə Mahmud xanın əvəzinə İranın Rusiyada səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuşdur. O, həmin ildə Ərfəüddövlə (dövlətin yüksək adamı) ləqəbinə layiq görüldü. Mirzə Rza xan Rusiya dövləti ilə yanaşı İsveç və Norveçdə də İranın səlahiyyətli nümayəndəsi olmuşdur. Müzəffərəddin şah 1900-cü ildə Avropaya ilk səfəri zamanı Peterburqda, səfirlikdə olmuş, Rza xanla görüşərək ona “Prins” ləqəbini vermişdir. Şahın bu barədə imzaladığı fərmanda deyilir:

“Bu gün, rəbül-əvvəlin 25-idir və biz Ərfəüddövlənin mənzilində, yəni bizim Peterburqdakı səfirliyimizdə qonağıq. Üzərinə düşən işin öhdəsindən həqiqətən bacarıqla gəldiyi üçün ona “prins” ləqəbini məsləhət buyururuq. 1318 (1900)”. (71, c. 1, s. 511).

Mirzə Rza xan fəal ictimai xadim kimi İranı bir sıra xarici dövlətlərdə təmsil etmişdir. Elə həmin il II Sultan Əbdülhəmid xanın taxta əyləşməsinin 25 illiyini təbrik etmək üçün şahın nümayəndəsi kimi İstanbula getmişdir. 1901-ci ildə isə İstanbil səfirliyinə təyin edilmiş, bu zaman İran şahının diplomatik nümayəndəsi olaraq İspaniya kralı XIII Alfonsun tacqoyma mərasimində iştirak etmişdir.

Mirzə Rza xan Daneş işgüzar və bacarıqlı diplomat kimi İstanbulda da işlərini uğurla davam etdirmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Onun səfirlikdə uzun müddət işləməsi (1901-1910-cu illər) müsbət hal idi. O, 1910-cu ildə işdən azad olunduqdan sonra Monakoya (Cənubi Avropada Aralıq dənizi sahillərində Fransa ilə həmsərhəd dövlətdir) getmiş və özünə qəsrə bənzər ev tikdirərək orada yaşamağa başlamışdır. Həmin evə "Daneşgah" (Daneşin iqamətgahı) adı verilmişdir.

Mirzə Rza xan dövrünün tanınmış ictimai xadimi idi. O, 1899-cu ildə Niderlandın Haaqa şəhərində keçirilmiş 1-ci Beynəlxalq sülh konfransının İran dövlətini təmsil edən ilk nümayəndəsi kimi iştirakçısı olmuş, orada müharibələrin dinc yolla həlli üçün müharibə qanunları və adətləri haqqında bir sıra Beynəlxalq konvensiyaların, bəyannamənin qəbul olunmasından təsirlənərək "Məsnəviyi-sülh" poemasını qələmə almış, həmin poemanı konfransda fransız dilində oxumuşdur. Qeyd etmək lazımdır ki, 1901-ci ilin iyul ayında Rusiyanın məşhur ədibi L.N. Tolstoy İranın ölkəsində səfiri, şair və diplomat, prins Mirzə Rza xan Daneşdən bir məktub və "Sülh" poemasının rus dilində makinadan çıxmış surətini almışdır. Poemanın rus dilinə çevirən müəllifin özü idi. Al. Şifman 1960-cü ildə Moskvada çapdan çıxmış "Lev Tolstoy və Şərq" kitabında yazır ki, Tolstoy Mirzə Rza xanın məktubuna cavab yazmış və bu poemanı diqqətlə oxuduğunu bildirmiş, onun müharibəni pislədiyini, sülhü müdafiə etdiyini bəyənmiş və bu əsərin nəinki İran üçün, eləcə də bütün dünya dövlətləri üçün böyük əhəmiyyətə malik olduğunu göstərmişdir. Bununla bərabər rus ədibinin Mirzə Rza xanla fikir ayrılığı da var idi. Bu da poemanın

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

müəllifinin şah və hakimiyyət məmurlarının əl-ələ verərək ədalətli ola biləcəkləri təqdirdə sülhü bərha edəcəklərinə və bununla da insanların güzəranının yaxşılaşacağına inamı idi. Tolstoy isə yazırdı ki, sülhü bərqərar etmək, müharibə təhlükəsini aradan qaldırmaq, xalqın iradəsindən asılıdır. Mirzə Rza xan Tolstoya yazdığı məktubda böyük ədibin də onun kimi sülh tərəfdarı olduğunu, qanlı müharibələrə son qoyulmasını arzuladığını vurğulamış, bunu alqışlamış, Sülh poemasını qələmə almış müəllifin hisslərini, can atdığı arzularını başa düşəcəyi təqdirdə qabaqcadan ona öz minnətdarlığını bildirmişdir. Mirzə Rza xanın "Sülh" poemasında müharibənin səbəbləri və onu aradan qaldırmaq yolları haqqında beynəlxalq konfransda söylənmiş fəlsəfi düşüncələri öz əksini tapmışdır. Əsərdə personajlardan birinin dili ilə deyilmiş bu fikirlər maraqlıdır:

"Əgər şahlar müharibələrin dəhşətlərini nəzərə alsalar və qəlblərinin səsinə qulaq asaraq hərəkət etsələr, onların xalqları bütün bu bədbəxtliklərə düçar olmaz və ölkələri çiçəklənərdi". (124, s. 389). Bu söhbətlərə qoşulan hərbçi isə söyləyir: "İnsanları sülh şəraitində yalnız güclü və vahiməli silahlar yaşada bilər. Müharibə üsullarını və müharibəni elə bir səviyyədə qurmaq lazımdır ki, heç kəs qorxudan beynəlxalq hüquq normalarını poza bilməsin. (124, s. 390).

Tolstoy Mirzə Rza xanın məktubuna cavab yazaraq əsəri diqqətlə oxuduğunu və müəllifin əsas fikrini, yəni müharibəni pislədiyini, sülhü mədh etdiyini bəyəndiyini və təsdiq etdiyini bildirmişdir. Lakin zorakılıq üzərində

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qurulmuş və bunun daima tərəfdarı olan dövlət, qardaşlığı nəinki dəstəkləməz, hətta qardaşlığın ziddinədir. Müharibələr xalqın özü tərəfindən dayandırıla bilər, əgər öz gücünü bilərsə, -deyə Mirzə Rza xanın bəzi mülahizələri ilə razılaşmadığını bildirirdi. (124, s. 391-392). Yazıçı babi hərəkatının boğulmasını, onun tərəfdarlarının təqib olunmasını misal göstərir.

Mirzə Rza xan İrəvaninin dünyanın bir çox ölkələrinin orden və medalları ilə təltif olunması, onun diplomatik missiyasının, ictimai-siyasi fəaliyyətinin, bu dövlətlər tərəfindən tanınaraq təsdiq edilməsinə əyani sübutdur: Onun təltiflərinin siyahısı belədir:

Osmanlı dövləti tərəfindən:

IV dərəcəli "Məcidi ordeni", 1880-cı il
II dərəcəli "Məcidi ordeni", 1893-cü il
I dərəcəli "Məcidi ordeni", 1896-cı il
I dərəcəli "Osmanlı ordeni", 1898-ci il
"Nişani-imtiyaz" gümüş medalı, 1900-cü il
"Nişani-imtiyaz" qızıl medalı, 1900-cü il
Qiymətli daş-qaşla bəzədilmiş I dərəcəli "Məcidi ordeni", 1900
Qiymətli daş-qaşla bəzədilmiş I dərəcəli "Osmanlı ordeni", 1902
Qiymətli daş-qaşla bəzədilmiş "İftixar" ordeni, 1903

Rusiya dövləti tərəfindən:

III dərəcəli "Müqəddəs Stanislav", ordeni, 1879
III dərəcəli "Müqəddəs Anna", ordeni, 1883
II dərəcəli "Müqəddəs Anna", ordeni, 1886
II dərəcəli brilyant "Müqəddəs Anna", ordeni

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

II dərəcəli “Stanislav”, 1893
I dərəcəli “Anna”, ordeni, 1900
I dərəcəli “Ağ qartal”, ordeni, 1901
I dərəcəli “Aleksandr Nevski”, 1902
I dərəcəli “Aleksandr Nevski”, brilyant ordeni, 1904

İtaliya dövləti tərəfindən:

III dərəcəli “İtaliya Tacı” (çələng), 1887

Fransa dövləti tərəfindən:

IV dərəcəli “Legion Denur ulduzu” ordeni, 1889
II dərəcəli “Legion Denur ulduzu”, 1905

Belçika dövləti tərəfindən:

III dərəcəli “Leopold”, ordeni, 1889
II dərəcəli “Leopold”, 1900
I dərəcəli “Leopold” ordeni, 1905

İspaniya dövləti tərəfindən:

I dərəcəli “3-cü Şarl”, ordeni, 1901
I dərəcəli “Ləyaqəti-Nizami”, ordeni, 1902

Serbiya dövləti tərəfindən:

I dərəcəli “Takvu ordeni” 1901

Rumıniya dövləti tərəfindən:

I dərəcəli “Rumıniya ulduzu”, 1904

Buxara Əmirliyindən:

I dərəcəli “Buxara mükəmməl almas ordeni”, 1896

Həbəş dövləti tərəfindən:

I dərəcəli “Süleyman üzüyü” ordeni, 1896

Avstriya dövləti tərəfindən:

II dərəcəli “Fransua Jozef”, 1889
I dərəcəli “Korun Dofer”, 1900

İngiltərə dövləti tərəfindən:

“Viktoriya ordeni”, 1889

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Bavir dövləti tərəfindən:

II dərəcəli "Ulduzlu Sen Mişel nişanı", 1889

Vertemberq dövləti tərəfindən:

Idərəcəli "Ulduzlu Fridik Komandor" ordeni, 1889

Baidinbar dövləti tərəfindən:

II dərəcəli "Şirzaherneqr" ordeni, 1889

İsveç dövləti tərəfindən:

I dərəcəli "Şimal ulduzu", 1900

Göründüyü kimi bu mükafatlar Mirzə Rza xan Daneşə əsasən XIX əsrin sonlarında verilmişdir.

Mirzə Rza xan 1331-ci ildə (1913) Tehrana gəlmiş və bir neçə ay Mirzə Məhəmmədəli xan Əlaüssəltənənin təşkil etdiyi Kabinədə Ədliyyə naziri vəzifəsinə təyin olunmuşdur. O, kabinənin süqutundan sonra zilqədə ayının 10-da (1913, 12 oktyabr) Monako şahzadəsinə İran dövlətinin Qüds nişanını təqdim etmək üçün yenidən Avropaya getmiş, qayıtdıqdan sonra ona İran dövləti tərəfindən 56 min tümənə yaxın vəsait təyin edilmişdir. Mirzə Rza xan Ərfəüddövlə xurşidi 1316-cı ildə (1937), 84 yaşında Tehranda vəfat etmişdir. Hərbçi və diplomat məşhur alim kimi şöhrət qazanmış, "Müntəxəbati-Daneş", "Divani-Gövhəri-Xavəri" və s. əsərlərin müəllifidir. Onun "Məsnəviyi-sülh" poeması 15 dilə tərcümə olunmuş və ilk dəfə 1903-cü ildə Dərsəadətdə çap edilmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MAHMUD XAN HƏMƏDANİ

Dövlət xadimi Mahmud xan Həmədani (?-1887) Qacarlar səltənətini görkəmli şəxsiyyətlərindən olan Qaragözlü tayfasının böyüklərindən idi. O, Əbülqasim xan Nasirülmülk Naibüssəltənənin babasıdır.

Mahmud xan İran dövlətini bir sıra xarici dövlətlərdə təmsil edən bacarıqlı diplomatik nümayəndə kimi fəaliyyət göstərmişdir. O, 1852-ci ildə İranın Sankt-Peterburqdaki səfirinin I müavini, sonra işlər vəkili təyin edilmiş və bu zaman ona "cənab" ləqəbi verilmişdir. (Cənab ləqəbi nazirlərə və bu vəzifəyə bərabər olan şəxslərə verilirdi) O, bu vəzifədə 1855-ci-ilədək qalmış, sonra Tehrana çağırılaraq, burada hərbçi kimi fəaliyyət göstərmişdir. Ona Nasirülmülk ləqəbi isə (dövlətin köməkçisi-H.T.) mirpənc rütbəsini (general-leytenant-H.T.) aldıqdan sonra verilmişdir. (1858-ci il). (71, c. 4, s. 54). Bu vaxtdan etibarən paytaxtın hərbi işləri, hərbi sənayesi ona tapşirilmiş, Nəsrəddin Şah ölkədə olmadığı

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

müddətdə isə mərkəzi hərbi qüvvənin ixtiyarı Mahmud xan Həmədanidə olmuşdir.

İran dövləti 1858-ci ilədək Baş nazir (sədri-əzəm) tərəfindən idarə olunurdu. Həmin il Nəsrəddin Şahın fərmanı ilə ölkəni idarə etmək üçün 6 nazirlik yaradıldı: Daxili işlər, xarici işlər, maliyyə, qoşun, ədliyyə, ovqaf və təqaüd nazirliyi.

Mahmud xan 1859-cu ildə yeni yaradılmış ticarət və sənaye naziri təyin olundu. Bu tarixdən nazirliklərin sayı 7-ə çatdı. O, həm də Dövlət Şurasına üzv seçildi. 1860-cı ildə İran dövləti Gilan yolunun tikilməsinin başa çatdırılması məqsədilə Mahmud xanı bu işə cəlb etdi. Hər bir sahədə olduğu kimi burada da özünün təşkilatçılıq bacarığını göstərən, ictimai xadim Mahmud xan 1862-ci ildə İranın İngiltərədə səlahiyyətli nümayəndəsi təyin olunaraq Londona yola düşdü. O, 1864-cü ildə Tehrana çağırılmış, lakin yenidən Londona qayıtmışdır.

Nəsrəddin Şah 1871-ci ildə dövlət quruluşunun təkmilləşdirilməsi ilə əlaqədar olaraq Darülşuraya yeni üzvlər daxil etdiyi zaman Mahmud xan Nasirülmülk də onlardan biri oldu. Bir li keçdikdən sonra İran dövlətinin Baş naziri Mirzə Hüseyn xan Müşirüddövlə Mahmud xanı öz müavini təyin etdi. Bununla da hərbi nazirliyin işləri onun sərəncamına verilmiş oldu. O, əslində hərbi nazir idi və hərbi şuranın rəisi vəzifəsini aparmağa başladı. Nəsrəddin Şah Qacar 1873-cü ildə Avropaya ilk səfər etmiş və yola düşməzdən əvvəl ölkənin idarə olunmasını əmisi Fərhad Mirzənin rəhbərliyi ilə 18 yaşlı

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

oğlu Kamran mirzəyə tapşirmışdı. Mahmud mirzə isə ordunun bütün işlərinə rəhbərlik edirdi.

Mahmud mirzə bacarıqlı təşkilatçı və ictimai xadim olmuşdur. O, Nəsrəddin Şahın Avropaya 2-ci səfəri zamanı (1878-ci il) nümayəndə heyətinin tərkibində şahı müşayət etmişdir. Bu zaman həm də Gilan hakimi idi.

Nəsrəddin Şahın böyük oğlu Məsud mirzə Zilli Sultan Kürdüstan və Kirmanşahın hakimi olan zaman Mahmud mirzəyə hər iki hökümətin hərbi işlərini tapşirmışdı.

Iranın xarici işlər naziri Mirzə İsmayıl xan Ənsari 1884-cü ildə vəfat etdikdən sonra bu vəzifəyə, bir çoxlarının istəyi olduğu halda, ingilis dövlətinin təsiri ilə Mahmud xan təyin edilmişdi. O, artıq Avropa dövlətlərində tanınmış bir şəxs idi. Nəsrəddin Şah 1886-cı ildə Xorasanda iğtişaş baş verən zaman orada asayişi bərpa etmək üçün əvvəlcə öz bacısının əri Yəhya xan Müşirüddövləni göndərmək istədi, lakin ingilislərin onunla münasibəti yaxşı olmadığı və onu ruspərəst hesab etdikləri üçün bundan vaz keçdi. Mahmud xan həmin il Xorasanın general-qubernatoru (ostandar) təyin olundu və fərmanfərma ləqəbini aldı. O, bu vəzifədə 18 ay qaldı, 1887-ci ilin sentyabr ayında Tehrana qayıtdı və iki aydan sonra iflic xəstəliyindən vəfat etdi. Onun bütün var-dövləti, ləqəbi, ordenləri nəvəsi Əbülqasim xana verilmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MƏHƏMMƏDƏLİ XAN XOYİ

Bağdadda dünyaya gəlmiş Məhəmmədəli xanın əsli Qərbi Azərbaycanın Xoy şəhərindəndir. O, İranın Xarici işlər nazirliyinin əməkdaşı Mirzə İbrahim xan mühəndisin oğlu idi və atası bir müddət İranın Bağdadda konsulu kimi fəaliyyət göstərmişdir. Mirzə İbrahim xan 1858-ci ildə vəfat etmişdir.

Məhəmmədəli xan diplomatik fəaliyyətə başlamazdan əvvəl adyutantbaşı müavini vəzifəsində çalışmış, Sonra İranın Bombeydə səfiri təyin olunmuşdur. O, bu vəzifədə 11 il, yəni 1859-cu ildən 1870-ci ilədək fəaliyyət göstərmişdir. 1870-ci ildə Tehrana çağırıldıqdan sonra Gilan hakiminin müavini təyin olunmuşdur. Məhəmmədəli xan 1870-cu ildə İran dövlətinin Bağdadda elçisi (səfiri) təyin olunmuş, bir qədər sonra isə Baş konsul olaraq Tiflisə göndərilmişdir. Həmin vəzifədə 1889-cu ilədək fəaliyyət göstərmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

1889-cu ildən isə Londonda İran dövlətinin səfiri təyin olunmuşdur. İran tarixçisi marağalı Məhəmmədhəsən xan Məhəmmədəli xanın Londona səfir təyin olunması hadisəsini belə şərh etmişdir ki, Məhəmmədəli xan 1889-cu ildə həmin vəzifəyə Mirzə Mülküm xanın əvəzinə təyin olunmuş və ona Əlaüssəltənə ləqəbi də bu zaman verilmişdir. Mirzə Mülküm xan isə bütün titullardan məhrum edilərək geri çağırılmışdır. (71, c. 3, s. 447; 70, s. 674).

Məhəmmədəli xan İngiltərə ilə İran dövləti arasında səlahiyyətli nümayəndə vəzifəsini icra edən zaman prins ləqəbinə layiq görülmüşdür. O, 1905-1911-ci illər Məşrutə inqilabı dövründə müxtəlif kabinələrə üzv seçilmişdir. Məhəmmədəli xan İranda 5 dəfə Xarici İşlər naziri, 3 dəfə Ümumi Gəlirlər naziri, 1 dəfə Ticarət naziri və 4 dəfə Maarif naziri təyin olunmuşdur. İlk dəfə olaraq 1913-cü ildə Baş nazir təyin olunaraq kabinəni 7 ay idarə etmişdir.

Mirzə Məhəmmədəli xan Bağdadda anadan olmuş, 1936-cı ildə Tehranda vəfat etmiş, Həzrət Şah Əbdüləzimdə torpağa tapşırılmışdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MİRZƏ ƏSƏDULLA XAN

Təbrizli Mirzə Əsədulla xan Nəsrəddin Şah Qacar hakimiyyəti dövrünün ictimai xadimləri içərisində öz bacarığı və nüfuzu ilə seçilən şəxsiyyət olmuşdur. Əsədullla xan Azərbaycanın tanınmış sülalələrindən olub, Xarici İşlər nazirliyinin əməkdaşı idi və İranı bir sıra xarici dövlətlərdə diplomat kimi təmsil etmişdir. Mirzə Əsədulla xan Azərbaycan alimi Mirzə Məhəmmədrəfi Nizamülüləmanın qardaşı, Mirzə Ələsgər Mustofi Təbrizinin oğludur. (70, s. 206). O, 1884-1887-ci illərdə İranın Peterburqda səlahiyyətli nümayəndəsi olmuş və Vəkilülmülk ləqəbini almışdır. 1887-ci ildə Peterburqdan geri çağırılaraq, vəfat etmiş Mustafa xanın yerinə Ərdəbil və Xoy hakimi təyin olunmuşdur. O, hələ Peterburqdan əvvəl, yəni 1877-ci ildə Tiflisdə Baş konsul kimi çalışmışdır.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mirzə Əsədulla xan 1890-1892-ci illərdə İranın İstanbulda səfiri olmuş və Nizamüddövlə ləqəbini almışdır. O, sonralar da mühüm dövlət vəzifələrində çalışmışdır. 1895-ci ildə Fars vilayətinin general-qubernatoru olmuş, bu vəzifədə 1895-ci ilədək, yəni Ədliyyə naziri vəzifəsinə təyin edilənədək çalışmışdır. Həmin il Tehranın hakimi vəzifəsi də ona tapşırılmışdı.

Mirzə Əsədulla xan 1899-cu ildə Böyük Dövlət Şurasına başçı təyin olunmuş, ömrünün sonunadək burada çalışmışdır. O, 1901-ci ildə vəfat etmişdir. Oğlu Mirzə Yəhya xan sonralar onun vaxtilə daşıdığı Nizamüddövlə ləqəbinə layiq görülmüşdür. Görkəmli Azərbaycan alimi Əbdürrəhim Talıbov Təbrizi ondan bəhs etmiş, onu fazil bir şəxsiyyət kimi yüksək qiymətləndirmişdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## MAHMUD XAN

Mirzə Əsədulla xanın kiçik qardaşı, XIX əsrin sonlarında Azərbaycan hökümətinin idarə olunmasında yaxından iştirak etmiş Mahmud xan 1258-ci ildə (1842) anadan olmuşdur. O, Mirzə Qafar xanla Tiflisə getmiş, oradan qayıtdıqdan sonra Təbrizdə hökümət idarəçiliyində çalışmış, Azərbaycan valisi tərəfindən maliyyə işləri üzrə məsul vəzifəyə təyin olunmuşdur. Bu vəzifəyə görə "Vəkili-dəftər" ləqəbini almışdır. Mahmud xan Azərbaycanda bir qədər işlədikdən sonra Tehrana çağırılıb, oradan London sarayına ezam olunmuşdur. O, 6 ay orada çalışdıqdan sonra geri qayıdır. Bu zaman Mahmud xanın böyük qardaşı Əsədulla xan İranın Tiflisdə Baş konsulu vəzifəsində idi. İran hökümətі 1873-cü ildə Mahmud xanı Həştərxanda İran səfirliyinə göndərmişdir. Bir qədər sonra əvvəlcə konsul, sonra isə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Baş konsul təyin olunmuşdur. Mahmud xan 4 il Həştərxanda Baş konsul kimi çalışmışdır. 1877-ci ildə Tiflisdə Baş konsul olan qardaşı Mirzə Əsədulla xan İranın Peterburqda İşlər vəkili vəzifəsinə seçildikdə həmin il Mahdud xan qardaşının əvəzinə Tiflisdə İranın Baş konsulu təyin olunmuşdur. O, 6 il bu vəzifədə çalışmışdır.

Mahmud xan 1883-cü ildə İran dövlətinin Peterburqdakı səfirliyində müstəşar (məsləhətçi-H.T.) vəzifəsinə göndərildi.

Mahmud xanın qardaşı Mirzə Əsədulla xan Vəkilülmülk Peterburqda İranın səlahiyyətli nümayəndəsi vəzifəsini icra edərkən o, müvəqqəti olaraq Tehrana çağırılmışdı. Qardaşı olmadığı müddətdə Mahmud xan səfirlikdə işlər vəkili vəzifəsində çalışmış, bu tarixdən o, Mahmud xan Kardar kimi məşhur olmuşdur. O, 1303-cü ildən (1885/86) İranın Peterburqdakı səfirliyinin 1-ci katibi seçilmiş, bir il sonra 1886-cı ildən özü vəziri-muxtar (səlahiyyətli nümayəndə) təyin olmuşdur. O, yaxşı işinə görə İran dövləti tərəfindən Əlaülmülk ləqəbinə layiq görülmüşdür.

Mahmud xan Əlaülmülk 9 il İranın Rusiyada səfiri olmuş (1886-1895) və bundan sonra İstanbulda səfir vəzifəsini bacarıqlı diplomat kimi icra etməyə başlamışdır. Peterburqa isə irəvanlı Mirzə Rza xan Daneş Ərfəüddövlə təyin edilmişdir.

1896-ilin may ayında Nəsrəddin Şaha ikinci dəfə sui-qəsd edildi və şah aldığı güllə yarasından vəfat etdi. Səfir Mahmud xan İran dövlətindən İstanbulda

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

gizlənmiş qatillərin tapılıb həbs edilməsi barədə göstəriş aldı. Mirzə Həsən xan Xəbirülmülkün axtarışı ilə əlaqədar Osmanlı dövləti ilə danışıqlar başlandı. Nəhayət, hər üç nəfər Mahmud xanın nəzarəti altında sərhəddə gətirilərək, İran məmurlarına təhvil verildi.

Mahmud xan 7 il İranın İstanbulda səfiri olmuş, 1901-ci ildə onu Mirzı Rza xan Daneş əvəz etmişdir. O, həmin il Tehrana çağırılaraq Kirman hakimi təyin olunmuş və o istiqamətə göndərilmişdir.

Mahmud xan uzun müddət xarici ölkələrdə diplomatik missiyasınl uğurla yerinə yetirmişdir. O, Kirman hakimi olarkən insanlarla çox mülayim və yaxşı rəftar edirdi. Qeyd etmək lazımdır ki, deyilənlərə görə zamanəsinin və İran dövlətinin qəbul etdiyi sərt qanunları ilə işləməyən və son dərəcə sadə olan bu şəxsiyyət birinin görüşünə gedərkən, digər hakimlərdən fərqli olaraq əllərinə çomaq almış yüz nəfər fərraşı özündən əvvəl və arxada geyməyə vadar etmirdi. O, özü ulağa minərək yanı ilə bircə nökərlə (o da ulağın və yaxud atın üstündə olardı) lazım olan yerə yola düşərmiş. Bu səbəbdən xalq arasında məşhurlaşmışdı. Kirman əhalisi Mahmud xana zarafatla "Hakimi-do xəre" adını vermişdi. (İki uzunqulaqlı hakim)

Mahmud xan il yarım Kirman hakimi olmuş, 1902-ci ildən azad edildikdən sonra bir müddət işsiz qalmışdır. 1907-ci ildə Ata bəyin (Mirzə Əliəsgər xan Əminüssultan-H.T.) təşkil etdiyi kabinədə 4 ay Ədliyyə naziri vəzifəsində çalışmışdır.

Mahmud xan ömrünün axırlarında Tehranda yaşamışdır. O, 1344-cü ildə (1926) 87 yaşında vəfat

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

etmiş Qum şəhərində, ailə məqbərəsində dəfn olunmuşdur. Mahmud xan da digər qardaşları kimi çox zəngin bir şəxs olmuşdur. Lakin o, çox sadə və adi bir insan idi.

## XƏLİL XAN QƏZVİNİ

XIX əsrin əvvəllərində İran dövlətini xaricdə təmsil edən ilk diplomat kimi Xəlil xan Qəzvininin fəaliyyəti məhdud olsa da adını qeyd etmək lazımdır.

Xəlil xan Koroğlu Qəzvini (?-1802) İranın tacirlər təbəqəsinə mənsub olub, məliküttüccar (tacirbaşı) tituluna malik idi. Avropa diplomatı ser Con Məlkum 1800-cü ildə ilk dəfə Hindistan dövləti tərəfindən İrana göndərildiyi zaman İngiltərə-Hindistan-İran dövlətləri arasında bağlanan 5 maddədən ibarət müqavilənin müəllifi kimi fəaliyyət göstərmişdir. Bi müqavilə İranın zərərinə olan bir saziş idi. Fətəli Şah Qacar Xəlil xan Koroğlunu ser Con Məlkumla birlikdə Hindistana göndərir. Xəlil xan İranın siyasi nümayəndəsi kimi bir müddət Bombey şəhərində çalışmışdır. (47, s. 141). Lakin onun diplomatik fəaliyyəti uzun sürməmişdir,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

çünki o, 1802-ci ildə evinin qarşısında öldürülmüşdür. Bu hadisəni belə şərh edirlər ki, günlərin birində Xəlil xanın İranlı şəxsi nökərlərindən iki-üç nəfəri budaqlarda oturmuş bir neçə quş görürlər və güllə atırlar. Bu hal isə hindli ayinlərinə zidd bir hərəkət olduğundan əsgərlərlə nökərlər arasında münaqişə yaranır, sonra vuruşma başlayır. Xəlil xan hadisədən xəbər tutub həyətə çıxır ki, mübahisəyə son qoysun. Elə bu zaman qəflətən atılan güllə ona dəyir və o ölür. Bu hadisədən o zaman fəaliyyət göstərən Şərqi-Hind kompaniyası, Hindistan hökümәti xeyli narahat olur və İran hökümətindən üzrxahlıq etmək üçün Tehrana bir heyət göndərir. Hacı Xəlil xanın oğlu Məhəmməd İsmayıl xana da atasının, İran nümayəndəsinin qan bahası olaraq 50.000 tümən verildi. Əlavə olaraq İngiltərə dövləti tərəfindən onun üçün aylıq pul təyin edildi. İsmayıl xan bu pulla İrandan gedərək Paris və Londonda yaşadı. O, Avropada ömrünün axırınadək qaldı və bu müddətdə daim İranın qədim, milli geyimini özündə saxlamışdı. Bu geyimlər şaqren ayaqqabı (yumşaq dəridən ayaqqabı), hündür dəri papaq və uzun xalat və arxalıqdan ibarət idi. Məhəmməd İsmayıl xan 1863-cü ildə Parisdə vəfat etmişdir.

Hacı Xəlil xan öldürüldükdən sonra İran dövləti onun əvəzinə 1804-cü ildə bacısı oğlu Məhəmməd Həbi xan Şirazini Hindistana göndərdi.

Hacı Xəlil xanın ölümü Hindistanda fövqəladə narahatçılıq yaratmışdı, hökümət matəm saxlamış, nə lazım olarsa onu yerinə yetirməyə hazır olduğunu bildirmişdi. Bu hadisə ilə əlaqədar ser Con Məlkum özü İrana gələrək mərhumun oğlu ilə görüşmüşdür. İngilislər

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qətlə yetirilmiş şəxsin varisinə, həmçinin şaha və vəzirlərə xeyli pul verərək onları razı saldıqları üçün öz narahatlıqlarına son qoydular. Bu zaman Fətəli Şahın belə bir ifadəsi yayılmışdı: "Əgər ingilislər bir iranlının qətlində bu qədər mükafatlandırmağa hazırdırlarsa, nə qədər bizim təbəəmizdən öldürsələr, ixtiyarları var, nigarançılıq yoxdur" deməli, Xəlil xan qəsdən öldürülmüşdür. (71, c. 1, s. 489).

## MİRZƏ CABBAR

Əsli Qərbi Azərbaycanın Xoy şəhərindən olan Hacı Səfərəli Xoyinin oğlu Mirzə Cabbar Nəsrəddin Şah Qacar hakimiyyəti dövrünün tanınmış şəxsiyyətlərindəndir. O, Baş nazir, məşhur islahatçı, Tehran Darülfünununun yaradıcısı Mirzə Tağı xan Əmiri-Kəbirin (1808-1852) nəzər-diqqətini cəlb etmiş, bu səbəbdən təsis etdiyi İranda ilk qəzet olan "Ruznameyi-vəqayeyi-ittifaqiyyə"nin idarəsini mətbəənin sahibi olan Cabbar xana tapşırmışdı. Mirzə Tağı xan 1851-ci ildə Nəsrəddin Şaha ünvanladığı məktublardan birində Cabbar xana etimad göstərərək yazmışdır: "Qərara alındı ki, inşaallah yekşənbə günü açılacaq mədrəsənin (Darülfünunun) bayrağını bina üzərinə taxmaq işi Hacı Mirzə Cabbara tapşırılsın". (71, c. 1, s. 233). Əlbəttə, İran dövlətinin mədəniyyət

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

tarixində əlamətdar hadisə olan ilk qəzetin nəşri və Dadülfunun açılışında Mirzə Cabbara göstərilən etimad təqdirəlayiq və diqqəti cəlb edəndir. Bu iki mühüm hadisənin iştirakçısı olmuş azərbaycanlı Hacı Mirzə Cabbar bir müddət pasport işləri üzrə məmur vəzifəsində çalışmışdır. O, bütün pasport işi idarələrinin rəisi olduğundan Mirzə Cabbar Təzkirəçi[30] kimi də məşhur idi. Mirzə Cabbar Təzkirəçi 1268-ci ildə (1852) Nizamülməham (mühüm işləri nizama salan-H.T.) ləqəbini almışdı. Eyni zamanda mədən və fabrik-zavod işlərinə nəzarət işi də ona tapşırılmışdı. Göründüyü kimi dövlətin mühüm işlərinin icrasında Mirzə Cabbar tanınmış və nüfuzlu bir şəxs olmuşdur.

O, diplomatik fəaliyyət göstərərək bir müddət İran dövlətinin Bağdadda səlahiyyətli nümayəndəsi vəzifəsini (baş konsul) icra etmişdir.

---

[30] Təzkirənin digər mənası şəxsi vəsiqə, pasport deməkdir.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

# NƏTİCƏ

Tədqiqat işində əldə olunan elmi-nəzəri qənaətlərin əsas müddəalarını aşağıdakı şəkildə ümumiləşdirmək olar:

İran dövlətinin ictimai-siyasi həyatında azərbaycanlılar həmişə ön sırada olmuşlar. Lakin onlar haqqında olan məlumat fars dilli mənbələrdə olduğu üçün müasir azərbaycan oxucularına bəlli olmamışdır.

Nadir Şah Əfşar və Qacarlar dövrünün araşdırılması həmin şəxsiyyətlərin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

XVIII-XIX əsrlər İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlərdən bəhs edən bu tədqiqat işindən məqsəd Azərbaycan tarixinin boş qalmış səhifələrinə cüzi əlavələr etməkdir. Əlbəttə, iki əsri əhatə etməyə cəht göstərilmiş bu tədqiqatın tam əhatəli olması qeyri-mümkündür. Ona görə də göstərilən dövrün mənzərəsi

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

qısa olaraq verilmiş, XVIII əsrdə yetişmiş iki böyük, qüdrətli Azərbaycan imperatorunun fəaliyyəti, onların ətrafında və onlarla birgə və bu zaman kəsiyində fəaliyyət göstərmiş hərbçi, diplomat, həkim və s. xadimlərdən bəhs olunmuşdur.

Bu tədqiqat işində ilk dəfə olaraq İran alimi Mehdi Bamdadın 5 cildlik "Tarixi-Ricali-İran" bioqrafik əsərindən əsas mənbə kimi istifadə olunmuşdur. Əsər üzərində aparılan araşdırmalar göstərir ki, azərbaycanlılar XVIII-XIX əsrlərdə də İranın ictimai-siyasi həyatında fəal iştirak etmiş, hətta aparıcı qüvvə olmuşlar.

Mehdi Bamdadın "Tarixi-Ricali-İran" əsəri əsas götürülərək XVIII-XIX İranda yaşamış azərbaycanlıların ictimai-siyasi fəaliyyətini əks etdirən məlumatlar aşağıdakı qaydada qruplaşdırılmışdır:

1. Azərbaycan Səfəvi dövləti dağıldıqdan sonra ölkənin ağır vəziyyətində meydana atılmış Nadir Şahın fəaliyyəti və onun qələbələrinin iştirakçıları haqqında məlumat.
2. Qacarlar tayfası, Məhəmmədhəsən xan Qacar və onun oğlanları, Ağaməhəmməd şah Qacarın qurduğu böyük dövlət, onun qələbələrinin yardımçıları haqqında məlumat.
3. Qacarlar dövrünün (Müzəffərəddin şaha qədər) azərbaycanlı hərbçi, diplomat və digər görkəmli şəxsiyyətlərin fəaliyyəti haqqında məlumat.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

XVIII-XIX əsrlər bütövlükdə İran tarixinin ən ağır dövrüdür. Baş verən müharibələr, ərazi iddiaları, bir tərəfdən səriştəsiz hakimlərin çəkişməsi nəticəsində idisə, digər tərəfdən Şərqə gedən yollar üstündə yerləşən ölkənin mövqeyini öz tərəfinə yönəltməyə can atan xarici müdaxiləçilərin apardıqları rəqabətin güclü olması idi. Səfəvi şahı Hüseyn Şah İsmayıl Xətainin yaratdığı qüdrətli Səfəvilər dövlətini təmamilə zəiflədən sonuncu qüvvə oldu. Onun dövründə I və II Şah Abbasın bacarıqla idarə etdikləri dövlətin sütunları laxlamağa başlamış, onun oğlu II Təhmasib bu dövlətin necə deyərlər, axırına çıxan zaman Nadir Şah Əfşar meydanda göründü və dövləti tam dağılmaqdan qurtardı. Nadir Şah və onun tərəfdarları ağır döyüşlər aparmış, işğal olunmuş torpaqları geri almağa nail olmuşlar, bu döyüşlərdə sınaqdan çıxmış azərbaycanlı hərbçilər böyük dövlətin sərhədlərinin bərpa olunmasında və genişlənməsində Nadir Şahın yaxın silahdaşları idilər.

Nadir Şahdan sonra ayrı-ayrı xanlıqlara parçalanmış dövləti isə Qacar şahları sülaləsinin banisi Ağaməhəmməd şah Qacar və onun etibarlı silahdaşları bərpa etdilər. Tarixi hadisələri izlədikcə bu nəticəyə gəlmək olur ki, istər Nadir Şah Əfşar, istərsə də Ağaməhəmməd şah Qacar ağır döyüşlərə özlərinin inandıqları, arxalandıqları döyüşçüləri göndərirdilər. Onlar da əsasən azərbaycanlılardan ibarət olmuşlar. Nadir Şah öz əmisi oğlu Əmiraslan xanı Azərbaycanın və bütün Qafqazın Naibüssəltənəsi təyin etmişdi və o, sərkərdəlik məharəti ilə şöhrət qazandı, Nadir Şahın

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

intiqamını almaqla dövlətin bütövlüyünə öz sədaqətini göstərdi.

Ağaməhəmməd şah özünün müzəffər yürüşlərinin komandanı, qardaşı Cəfərqulu Xan və qacarlar elinin onun kimi ağıllı, cəsur şəxsiyyətlərinin köməyi ilə zəndilərə qalib gəldi və şahlıq taxtına rəqibsiz əyləşdi.

Ağaməhəmməd şahın vəliəhdi və həm də qardaşı oğlu Fətəli Şah XIX əsr İran tarixinin görkəmli şəxsiyyətlərindən biri oldu. Lakin onun hakimiyyəti dövründə xarici imperialist dövlətlərinin İrana maraqlarının artması, baş vermiş İran-Rusiya müharibələri, ölkəni və əhalini ağır vəziyyətə saldı.

Tədqiqat işindən bu nəticə də hasil oldu ki, həm Nadir Şahın, həm də Ağaməhəmməd şah Qacarın silahdaşları olmuş, onların planlarının gerçəkləşməsinə kömək etmiş cəsur, torpaq təəssübü çəkən insanlar olmuşdur. Ağıllı, uzaqgörən hərbçi, diplomat, Fətəli Şahın oğlu, vəliəhd Abbas mirzə Naibüssəltənə Azərbaycan valisi təyin olunduqdan sonra İranın xarici imperialist dövlətlərinin hücumlarından qorunması, müdafiəsi üçün çox iş gördü. Tədqiqat işində bu barədə geniş bəhs olunmuşdur. Abbas mirzə ordu quruculuğu ilə məşğul olarkən onun ətrafında Azərbaycanın cəsur, vətənpərvər döyüşçüləri cəm olmuşdular. Onlar I-II Rusiya-İran müharibələrində Azərbaycanın həm Şərqində, həm də Qərbində igidliklər göstərmişlər. Hüseyn xan İrəvani, onun qardaşı, Sarı Aslan ləqəbi ilə məşhur olmuş Həsən xan, Cavad xan Gəncəli, Hacı Məhəmməd xan Dəvəlu və yüzlərlə düyüşçünün adı tarixdə qalmışdır. Onlar Azərbaycanın İrəvan, Lənkəran,

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Gəncə kimi strateji əhəmiyyətli torpaqlarını uzun müddət rus işğalından qorumuş, bu yolda həyatlarını əsirgəməmişlər. Rus qoşunları komandanı Paskeviç Mədətov kimilərin vasitəsilə Azərbaycan torpaqlarına hücum edərkən dəfələrlə Abbas mirzənin ciddi müqavimətinə rast gələrək geri çəkilmişdir. Gəncədə və İrəvan ətrafında Mədətovu məğlub etmiş Abbas mirzənin cəsur sərkərdələri rus çarını heyrətə salmış, son olaraq rus qoşunları yalnız xəyanət nəticəsində qalib gələ bilmişdilər. Rusiya-İran müharibələri, bir tərəfdən ölkənin işğal edilməsi ilə nəticələndisə, digər tərəfdən böyük qəhrəmanlıq, rəşadət göstərmiş Sarı Aslan kimi Azərbaycan oğullarını xarici işğalçılara tanıtdı. Rusiyanın İranda təşkil etdiyi Kazak divizyasında olan ən yaxşı hərbçilər, Azərbaycanlı generallar, polkovniklər İran dövlətinin apardığı siyasətə qarşı üsyan edərək, İran ordusunu tərk edib, xalq kütlələri ilə birləşdilər. Azərbaycanlılar yalnız döyüş meydanında deyil, həm də siyasi baxışlarının zənginliyi ilə fərqlənmişlər. İranın ictimai-siyasi həyatında, eləcə də Şərq dünyasında, Avropada tanınmış filosof Seyid Cəmaləddin Əsədabadi – "Əfqani", İranda ilk qanuni-əsasi (konstitusiya) yazmış və onun tətbiqi üçün həyatını dəfələrlə təhlükə altına qoymuş Mirzə Yusif Təbrizi, İran dövlətinin ilk Nəşriyyat naziri, marağalı Məhəmmədhəsən xan Etimadüssəltənə XIX əsrdə yaşamışlar. Bu görkəmli alimlər, diplomatlar özlərindən sonra böyük tarixi irs qoyub getmişlər. Azərbaycan alimlərinin onlara həsr etdikləri əsərlər çap olunmuşdur. Nəticədə bunu qeyd etmək lazımdır ki, Mehdi Bamdadın əsərlərini bir mənbə

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

kimi təqdim etməklə XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlərdən bəhs etmək cəhdi tariximizin "unudulmuş" qaranlıq səhifələrini işıqlandırmaq zərurətindən irəli gəlmişdir. Həmçinin tarixi faktları araşdırmaqla azərbaycanlı ictimai-siyasi xadimlərin layiq olduqları qiymətlərini vermiş, onları tanıtmaqla yaşatmış, Azərbaycan tarixini az da olsa zənginləşdirmiş oluruq.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. Axundov M.F. Əsərləri. 3 cilddə. c. 2. Bakı: Elm, 1988, 387 s.; c. 3. Bakı: Elm, 1988, 388 s.
2. Azərbaycan Sovet Ensiklopediyası, 10 cilddə. III c. Bakı: ASE Baş redaksiyası, 1979, 600 s : IV c. Bakı, 1980, 592 s. ; V c. Bakı, 1981, 592 s; VI c. Bakı, 1982, 608 s. ; VII c. Bakı, 1984, 624 s. ; VIII c Bakı, 1984, 608 s. ; IX c. Bakı, 1986, 624 s. ; X c. Bakı, 1987, 608 s.
3. Azərbaycan tarixi. 7 cilddə. III c (XIII-XVIII əsrlər) Bakı; Elm, 1999, 584 s. ; IV c. (XIX əsr) Bakı, 2000, 456 s.


eated by Neevia Personal Converter trial version http://www.neevia.c

4. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrə qədər). c. 1. Bakı: Azərnəşr, 1994, 688 s.
5. Azərbaycanda tibb elminin tarixi problemləri. I Respublika elmi konfransının materialları, Bakı, 1-2 fevral, 2005-ci il. Bakı: Elm, 2005, 187 s.
6. Bəhmən Mirzə Qacar. Şükürnameyi-Şahənşahi (Fars dilindən tərcümə edəni f.e.n. dos. R. Kərimov). Bakı: Şuşa, 1999, 64 s.
7. Bünyadov Z. M. Dillər, təriqətlər, məzhəblər (Arayış kitabı). Bakı: Azərnəşr, 1977, 220 s.
8. Cəfərov C. H. Azərbaycan teatrı (1873-1973). Bakı: Azərnəşr, 1974, 314 s.
9. Cəfərzadə Ə. M. Zərrintac-Tahirə (tarixi roman). Bakı: Göytürk, 1996, 208 s.
10. Cəmaləddin "Əfqani". 160 illiyi münasibətilə konfrans materialları. Bakı: Azərnəşr, 2000, 132 s.
11. Cənubi Azərbaycan tarixi məsələləri. Bakı: Elm, 1989, 196s.
12. Cənubi Azərbaycan tarixi məsələləri. II nəşri. Bakı: Elm; 1991, 196 s.
13. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). Bakı: Elm; 1985, 314 s.
14. Çingiz Qacar. Qacarlar. XVI-XX əsrlər. Bakı: 2001, 190 s.
15. Çingiz Qacar. Qədim və Orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı: Nicat, 1997, 304 s.
16. Dəlili H. Ə. Azərbaycan-Rusiya münasibətləri fars və Azərbaycan dilli sənədlərdə (1722). Bakı: Elm, 1976, 110 s.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

17. Dəlili H. Ə. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin II yarısında). Bakı: Elm, 1979, 144 s.
18. Əfəndiyev O. Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 303 s.
19. Əhmədov T. Nəriman Nərimanov. Bakı: Yazıçı, 1982, 300 s.
20. Nicat Ə. Dünya sərkərdələri. Bakı: Azərnəşr, 1995, 220 s.
21. Əlyazmalar fondunun əsərləri, I c. Bakı: EA nəşri, 1961, 137 s.
22. Əminzadə Ə.Ə. Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikir tarixindən (XVII-XVIII əsrlər və XIX əsrin birinci rübü). Bakı: Elm; 1972, 221 s.
23. Gevr Jan. Xacə Şah. 2 cilddə. I c. Bakı: Gənclik, 1993, 224 s.; II c. 219 s.
24. Həmidova Ş.P. XVIII əsrin II yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı: Elm, 1985, 100 s.
25. Hüseynov B. XX əsr fars şeirində ənənə və novatorluq. Bakı: Elm, 1975, 340 s.
26. Hüseynzadə Ə. Siyasəti-fürusət. Bakı: Elm, 1994, 235 s.
27. Hüseynzadə Əli Bəy. Siyasəti-fürusət. (Tərtib edəni, müqəddimə və şərhlərin müəllifi Ofelya Bayramovadır). Bakı: Elm, 1994, 234 s.
28. Xudiyev N. Qarabağın keçdiyi tarixi yol. Azərbaycan, 2006, 20 iyun.
29. İbrahimov (Şahin) T, A. Birinci dünya müharibəsində İranın Cənub və Qərb rayonlarında milli-azadlıq hərəkatı. Bakı: Elm, 1981, 102 s.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

30. İbrahimov (Şahin) T.A. İranda siyasi cəmiyyətlər və təşkilatların yaranması və onların fəaliyyəti (1858-1906). Bakı: Elm, 1967, 188 s.
31. İbrahimov (Şahin) T,A, Qaşqaylar. Bakı: Elm, 1988, 211 s.
32. Kudəri Nəsrulla Həsən oğlu. Mirzə Məhəmməd Əbdül Səbur Təbrizi Qobolli. Azərbaycan tibb jurnalı, 1963 № 5, s. 79-82
33. Kudəri N. H. Mirzə Məhəmməd ibn Abdu-s-Sabur Təbrizi Qobollinin tibbi görüşləri. Tibb elmləri namizədi adı almaq üçün dissertasiya. Bakı, 1963, 262 s.
34. Qarayeva G., Hacıqədirli A. Yaxın və Orta Şərq ölkələrinin yeni tarixi. 1642- 1870. I kitab. Bakı: BDU nəşri, 2003, 466 s.
35. Məhəmməd Hüseyn Qüddusi. Nadir Şah. Bakı, 1999, 234 s.
36. Məmmədova Ş.K. "Xülasət ət-Təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: Elm, 1991, 120 s.
37. Məşrutə inqilabı-100! Beynəlxalq elmi konfrans (Bakı, 8-9 iyun, 2005). Bakı: Günəş, 2005, 246 s.
38. Mir Mehdi Xəzani. Kitabi-tarixi-Qarabağ. Qarabağnamələr. II c. Bakı: Yazıçı, 1991, s. 93-102
39. Mirzə Adıgözəl bəy. Qarabağnamə. Qarabağnamələr. I c. Bakı: Yazıçı, 1991.
40. Mirzə Yusif Qarabaği. Tarixi-Safi. Qarabağnamələr. II c. Bakı, 1991, s. 5-92.
41. Mustafayev V. Cənubi Azərbaycan. Milli şüur (XX əsrin I yarısı). Bakı: İrşad Mərkəzi, 1998, 160 s.
42. Nəcmi N. Abbas mirzə. Bakı: Yazıçı, 1993, 126 s.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

43. Nəzirli Ş Güllələnmiş Azərbaycan generalları. Bakı: Kooperasiya, 2006, 624 s.
44. Nurəliyeva T. Azərbaycan ədəbiyyatının tədqiqində əlyazma kolleksiyalarının əhəmiyyəti. Bakı: Şərq-Qərb, 1998, 160 s.
45. "Orta əsr əlyazmalarında ənənəvi tibb və əczaçılıq" I Beynəlxalq konfransın materialları (Bakı, 12-14 iyun 2006). II c. Bakı, 2006, 85 s.
46. Pənahi M. Heydər Əmoğlu. Bakı: Yazıçı, 1985, 414 s.
47. Pənahi S. Fətəli Şah Qacar. Bakı: Şuşa, 2006, 256 s.
48. Paşayeva M., Hacıyeva Z. Salman Mümtaz arxivinin təsviri. Bakı: Nurlan, 2005, 238 s.
49. Səfəviyyə padşahları. Transfoneliterasiya prof. C. Qəhrəmanovun, çapa hazırlayanlar və ön sözün müəllifləri H. Məmmədov və P. Kərimov. Hikmət (elmi araşdırmalar toplusu), 2004, № 3, s. 79-99
50. Səidəli Kazımbəy oğlu. Cəvahirnameyi-Lənkəran. Fars dilindən tərcümə edəni R. Şeyxzamanlı. Bakı: Örnək, 2000, 47 s.
51. Şəki xanlığının tarixindən. Bakı: 1993, 30 s.
52. Tahirzadə Ə. Ağaməhəmməd şah Qacar. Bakı: Çıraq, 2005, 41 s.
53. Tahirzadə Ə. Nadir Şah Əfşar. Bakı: Çıraq, 2005, 40 s.
54. Tağıyeva Ş. A. 1920-ci il Təbriz üsyanı. Bakı: Elm, 1990, 148 s.
55. Tağıyeva Ş.A. XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda torpaq mülkiyyəti formaları və

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

torpaqdan istifadə qaydaları. Bakı: EA nəşri, 1964, 247 s.
56. Tarix, filologiya və ilahiyyat məsələləri (Məruzə və məqalələr toplusu). Bakı: 1999, 47 s.
57. Təkləli M. Lisaneviç Dmitri Qnikonoviç (1778-1825) Qafqaz korpusu generalı, İbrahim xanın qatili. Kredo, 2003,21 iyun.
58. Tərbiyət M. Daneşməndani-Azərbaycan. Bakı: Azərnəşr, 1987, 460 s. (azərb-ca)
59. Yedd cildlik "Azərbaycan tarixi" haqqında. Qeydlər və təkliflər. Respublika, 2002, 8 dekabr

## Fars dilində

60. آخوندوف، میرزا سلیم. کشکولك. تهران: مطبعهء اقا میرزا حبیب الله ۱۳۱۳، ۱۰۶ + ۴۸ص.
61. آرین پور یحیی. از صباتا نیما. ج.۱. تهران: چاپخانهٔ سپهر، ۱۳۵۷، ٤۲۲ص.: ج.۲، ۱۳۵۷، ۵۴۰ ص
62. ابن محمد امین ابو الحسن گلستان. مجمل التاریخ بعد نادریه لیدن، ۱۸۹۱، ۷۲ + ۴۷ ص.
63. اعتماد السلطنه محمد حسنخان. درر التیجان فی تاریخ بنی الاشکان. جلد ۱. تهران، ۱۸۹۰/۱۳۰۸- ۹۱، ۵۱ +۲۴۶ ص.
64. اعتماد السلطنه محمد حسنخان. الحمار یحمل اسفاراً. چاپ اول، تهران، ۱۸۸۸-۸۹/۱۳۰٦، ۱۷۳ص.
65. اعتماد السلطنه محمد حسنخان. المآثر و الاثار. تهران،

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

۱۳۰۶/۱۸۸۷، ۲۹۴+۹۱ ص.
66. اعتماد السلطنه محمد حسنخان. مرآت البلدان ناصری. ج.۱. تهران، ۱۲۹٤/۱۸۷۷، ۶۰۶ ص.
67 اعتماد السلطانه محمد حسنخان. مرآت البلدان ناصری. ج.۲. تهران، ۱۲۹٤/۱۸۷۷، ۲۹۸+٤٥ ص.
68 اعتماد السلطنه محمد حسنخان. مرآت البلدان ناصری. ج.۳. تهران، ۹۶-۱۲۹۵/، 1878-79. ۲۶۴ +۰۵، ص.
69 اعتماد السلطانه محمد حسنخان. مرآ ت البلدان ناصری. ج.۴. تهران، 1297/1880، ۳۷۷ +۵۵ ص.
70. اعتماد السلطانه محمد حسنخان. روزنامهء خاطرات اعتماد السلصه. تهران: امیر کبیر ۱۳۷۷ / ۱۹۹۹، ۱۱۰ص.
71. با مداد، م.تاریخ رجال ایران. ج. ۱. تهران، ۱۹۶۶، ۵۹۵ ص. : ج. ۲. ۱۹۶۶، ۵۸۵ ص.: ج. ۳. ۱۹۶۶، ۴۴۵ ص.: ج.۴. ۱۹۶۶، ۵۴۶ ص.: ج. ۵. ۱۹۷۲، ۴۱۵ ص.
72. تربیت محمد علی. دانشمندان آذربایجان. تهران: مطبعه، مجلس، ۱۳۱۴ – 1936، ۴۱۶ ص.
73. خان ملك ساسانی. سیاستگران دوورهء قاجار. تهران: کتابخانهٔ زهوری، ۱۹۶۰، ۲۴۴ ص.
74. دنسترویل. امیر یالیزم انگلیس در ایران و قفقاز. تهران، ۱۳۰۹ / 1930.
75. دهخداع. لغتنامه. ج.۳۳. تهران، ۱۹۰۰، ۱۴۰ص.
76. دهخداع. لغتنامه. ج.۴۶. تهران، ۱۳٤۱/۱۹۶۳، ۷۹- ۸۷ ص.
77. سرجان ملکم.تاریخ ایران. ج.۲. بمبئ، ۱۸۷۲/۲۸۹،۲۵۱ص.
78. سیعد نفیسی – آخرین یادگار نادر شاه. تهران: مطبعهٔ شوروی، ۱۳۰۵/1927، ۳۱ص.
79. سیعد نفیسی. تاریخ اعجتماعی و سیاسی ایران. ج.۱-۲. تهران،۱۳۳۵،۱۳۴۵/1956، 1966. ۳۷۶+۳۰۵ص.
80. شرح حال عباس میرزا ملك آرا، برادر ناصرالدین شاه. تهران، ۱۲۲۵/۱۹۰۷، ۱۰۲ص.
81. صمد سردار ینیا. تبریز مهد صنعت چاپ در ایران.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

تبریز،۲۰۰۵/۱۳۸٤، ۱۸۱ ص.
82. صمد سیردار ینیا. ایر وان یك ولایتی مسلمان نشین بود. تهران: زوفا، ۲۰۰۱/۱۳۸۰، ۲٤۷ص.
83. فتحعلی شاه هین ناپولئون بوناپارتا جواب مکتبی. زنبیل تهران،۱۳۲۹/۱۹۱۱،ص.٤۵۷.
84. فتحعلی شاه قاجارین صدر اعظم میرزا شفیع حقنده فرمانین میرزا رضی ترفنیدن یازیلمیش صورتی. زنبیل، ص.۲۸۱.
85. فرهاد میرزا.زنبیل. تهران، ۱۳۲۹/۱۹۱۱، ۴۵۷ص.
86. فریزر جمس. تاریخ نادر شاه. تهران، ۱۳۲۱ / ۱۹۰۴-۱۹۰۳، ۳۱۵ ص
87. فسایی، میرزا حسن ابن میرزا حسین شیرازی. فارستامهء ناصری. ج.۱. تهران، 1894/۱۳۱۲، ۳٤۸ص.
88. محمود میرزا قاجار. سفینة المحمود. ج.۲-۱. تبریز، 1968/۱۳٤۶، ۷۸۰ص.
89. موئن محمد. فرهنگ فارسی. ج.۵. تهران، 1967/۱۳٤۵، ۱۳۹۲ص.
90. میرزا یوسف تبریزی. یك کلمه. تهران، 1870/۱۲۸۷، ۷۶ص.
91. نادر میرزا بدیع الزمان. تاریخ و جغرافی دار السلطنهٔ. تبریز-بضمیمهء شرح حال بزرگان. تهران، 1905/۱۳۲۳، ۳۹۷ص.
92. هدایت رضا قلی خان. فرهنك انجمن آرای ناصری. تهران: کارخانه علیقلی خان، ۱۲۸۸/۱۸۷۱، ٤۱٤ ورق.
93. هدایت رضا قلیخان. روضة الصفا. ج. ۶-۱۰. تهران، 1853-54/۱۲۷۰، ۱۲۶۰ص.

## Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan mənbələr

94. Байрамалибеков Т. Тюркская легенда о Фет-

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Али-шахе и его наследника Аббас Мирзе. 1935. 9 vərəq. B-5625/7250 (rusca).

95. صورت فرامین پادشاهان ایران. ۳۰+۲۵ ورق.
Б-1717/3342 – (farsca)

96. عباس میرزا نائب السلطنه. حکم ۱۸۲۶/۱۲۴۲ (مصطفی بک، محمد علی بک، صمد سلطان و غیر شخصلرین تلطیفی.
Hökm – 45/9139 (farsca)

97. فتحعلی شاه قاجار. فرمان. ۱۸۲۸/۱۲٤٤. (پراپورشیك آلكساندر بوقووتون (Boqovut) روسیه و ایران مناسبتلریندکی خدمتلرینه گوره نشانلا تلتیف اولونماسی).
Fərman – 22/8917 (farsca)

98. محمد صادق مروزی. تاریخ جهان آرا. ۱۸۲۸/۱۲٤٤، ۲۵۶ ورق. Д-281/10258 (farsca)

99. مصاحبهٔ ایرانیه (ترکمنچای معاهده سی حقنده). ۲۲۰ورق.
Б-900/2523 (farsca)

100. میرزا آدکذلبك. قراباغ نامه. ۵۲ ورق.
Б-1150/2773 (azərbaycanca)

101. میرزا مهدیخان استر آبادی. ناریخ نادری. ۱۸۱۵/۱۲۳۱، ۱۰۲ ورق.

102. Вурьун Сямяд. Азярбайсанын Хариси Юлкялярля Мядяни Рабитя Сямиййятинин исласында nітги, 20 декабр, 1947-си ил, 10 вяряг. Фr – 1624/24391

## Rus dilində

103. Алиев Играр. Очерк истории Атропатены. Баку, 1989, 159 с.

104. Анаркулова Д.М. Социально-политическая

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

борьба в Иране в середине XIX века. Москва, 1983, 159 с.
105. Ашурбейли С. Экономические и  культурные связи Азербайджана с Индией в средние века. Баку: Элм, 1990, 199+2 с
106. Босворт К.Э. Мусульсанские династии. Москва: Наука, 1971, 324 с.
107. Гасанзаде Т.Талыбов Р. О Сары Аслане – полководце и славном сыне Азербайджана. Зеркало, 2005, 5 мая
108. Гулиев Гасан. Смерть диплома, или к истокам конфликта в Карабахе. Баку: Нурлан, 2006, 224 с.
109. Гусейнов Г. Из истории общественной и философской мысли в Азербайджане  XIX века, Баку, 1949, 733 с.
110. Ибрагимбейли Хаджи Мурат. Россия и Азербаджанцы в первой трети XIX века. Москва: Наука, 1969, 287 с.
111. История Иранского государства и культуры. Москва: 1971, 350 с., со схем
112. Кудари Насрулла Гасан оглы. Из истории медицины Ирана XIX века столетия. Тезисы докл. II Закавк. Науч. конф. по истории и теории науки, посв. 50-летию Великой Окт. Соц. революции. (16-20, V. 67г.). Бакы, 1967, с. 193-195.
113. Крачковский И.Ю. Избранные сочинения. Том 4. М.-Л: Изд-во АН СССР, 1957, 919 с.
114. Ленин и Иран. Бакы: Элм, 1970, 78 с.
115. Маркова О.П. Россия, Закавказье и

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

международные отношения в XVIII веке. Москва: Наука, 1966, 323 с. , с карт
116. Махмудов Я. Взаимоотношения государств Аккоюмлу и Сефевидов с ападноевропейскими странами (II половина XV – начало XII века) Баку: Изд-во Бакинск.
ун-та, 1991, 264 с.
117. Мустафаев Дж.М Северные ханства Азербаджана и Россия (конец XVIII – начало XIX в). Баку, Элм, 1989, 128 с.
118. Пигулевская Н.В. и др. История Ирана с древнейших времен до конца 18 века. Ленинград: Изд-во Лен. Ун-та, 1958, 390 с.
119. Путешественники об Азербайджане, т.1. Баку: Изд-во АН Азерб. ССР, 1961, 199с.
120. Ромаскевич А. Литературное движение в современной Персии. Восток, 1923, кн. 3
121. Стори, Ч.А. Персидская литература. Библи - ографический обзор. В трех частях. Часть 1-3. Москва: Наука, 1972, 1886 с.
122. Фрай Ричард. Наследие Ирана М., 1972
123. Чингис Каджар. Каджары: из истории Азербайджанского народе. Баку: изд-во XXI YNE , 2001, 160 с.
124. Шифман Ал. Лев Толстой и Восток. Москва, 1960, 552 с., с илл., 1 л. портр.
125. Щеглова О.П. Каталог литографированных книг на персидском языке, в собрании. ЛО ИВ СССР, том 1. Москва: Наука, 1975, 400 с.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

## Türk dilində

126. Araslı Altan. Avropada türk izleri. C. 1, Ankara, 2001. 350 s.
127. Övliya Çələbi. Səyahətnamə. Dərsəadət, 1314/1896, 432 s.
128. Muharret Eren. Kocaavşar Köyü ve Tarihte Avşarlar. İstanbul, 1992, 287 s.

## ŞƏXS ADLARI GÖSTƏRICISI.

Abbas Irəvani – 185 -188, 326, 327
Abbas mirzə Mülkara – 180 – 183
Abbas mirzə Naibüssəltənə - 9, 10, 11, 12, 154, 155, 169, 186, 228, 254, 264 – 266, 273 – 281, 287, 294, 295, 297, 301, 304, 325
Abbasqulu xan Cavanşir – 243, 244
Ağa xan – 72

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Ağa Məhəmməd şah Qacar – 6, 7, 8, 9, 15, 54, 56, 60, 82, 88, 98 – 113, 117,121, 134, 143, 153, 172, 173, 281, 282
Allahverdi xan – 13, 313
Baba xan – 6, 64,
Bəhmən Mirzə - 254 - 257
Cabbar Xoyi – 362 - 363
Cahangir Mirzə – 12, 294
Can Məhəmməd xan – 7, 133 – 136, 146
Cavad xan – 12, 290 – 292, 295
Cavad Təbrizi – 14, 233 – 235
Cəfərqulu Xan – 6, 88, 110, 116, 119, 120 – 129, 163
Cəfərqulu Xan Cavanşir – 246
Cəlaləddin Mirzə - 339
Cəmaləddin "Əfqani" – 9, 13, 14, 174, 177, 198 – 208
Daneş Rza xan – 9, 17, 341 – 349, 358
Ehsan xan – 299
Əbdülfəttah – 331
Əbdülqadir xan şəkili – 12, 312
Əhməd xan – 70
Əli xan – 9, 17
Əlimərdan xan Şamlu – 6, 73
Əmanulla xan Əfşar - 289
Əmirxan Qırıqlı – 67,
Əmir xan Sərdar – 12, 295 – 296
Əmiraslan xan – 5, 6, 52, 58 - 63
Əsədulla Təbrizi – 355 – 356, 357
Əsədulla xan – 13, 17, 308 – 311, 329
Əsgər xan Əfşar – 9, 16, 300 – 301, 323 - 324
Əşrəf xan – 24, 25, 26, 28, 29, 39, 302

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Fərəculla xan – 293
Fətəli xan Əfşar Ərəşlu – 5, 37, 85 – 89
Fətəli xan Qovanlu – 6, 26, 27, 90 – 93, 295
Fətəli Şah – 7, 8, 9, 15, 16, 131 – 134, 141, 149, 163 – 167, 186, 267, 281, 282, 287, 290, 293
Həbibulla – 306
Həsən İrəvani, Sarı Aslan – 10, 12, 285 – 287
Həsən Təbrizi – 14,
Hüseyn xan Qəzvini – 11, 169, 181, 189 - 197
Hüseyn xan Nizamüddövlə – 11, 16, 304
Hüseyn xan Qacar Qəzvini – 281 – 283, 285, 287,
Hüseyn xan Müqəddəm – 9, 325 – 331
Hüseyn xan Şahsevən – 320
Hüseynqulu (Cahansuz) – 6, 113 – 114
Hüseynqulu xan – 293, 300, 324
Xəlil xan – 9, 360 – 361
Xosrov Mirzə – 333 – 336
İbrahim xan – 13, 42, 58, 59, 60, 61
İbrahim xan Münşizadə – 308 – 311
İbrahim şah – 52, 53
İbrahimxəlil xan – 156 – 161, 293
İsmayıl xan – 13, 314
Kəlbəli xan – 299
Kərəm bəy (Qacaq Kərəm) – 316 – 319
Kərim xan Zənd – 6
Qasım bəy Əfşar – 6, 65, 66
Qulamrza xan – 12, 305
Qürrətüleyn – 14, 221 – 227
Lütfəli xan - 7
Mahmud – 27

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mahmud xan – 22 23, 24, 80
Mahmud xan Fərmanfərma – 350 – 352
Mahmud mirzə Qacar – 251 - 253
Mahmud Təbrizi – 17, 219 – 220, 357 - 359
Məhəmmədbağır – 259
Məhəmmədəli, Hüccət – 231 – 232
Məhəmmədəli xan – 6, 353 – 354
Məhəmmədəli xan – 241, 242
Məhəmmədəli Qullarağası – 75
Məhəmmədəmin xan Qacar – 12, 299
Məhəmmədhəsən xan Etimadüssəltənə - 9, 13, 176, 177, 183, 200, 208 – 218, 301, 312, 317, 343,
Məhəmmədhəsən xan Qacar – 6, 60, 90, 93 – 97, 109, 113, 115, 148, 299
Məhəmmədhüseyn xan Qacarqovanlu – 7, 8, 93, 115, 140
Məhəmmədhüseyn xan Qaragözlü – 142
Məhəmmədhüseyn xan Qırıqlu Əfşar – 44, 76
Məhəmməd xan Qaragözlü – 12, 298
Məhəmməd İbrahim xan - 239
Məhəmmədqulu xan Əfşar Urməvi – 132, 138
Məhəmmədqulu xan Qaşqayi – 303 – 304
Məhəmməd Mehdi Qəzvini Şəmsülüləma – 240
Məhəmməd Mirzə (Məhəmməd şah) – 15, 16, 169, 186, 187, 253 – 256, 262, 295, 306,
Məhəmmədvəli xan Qacar Dəvəlu – 7, 136
Məhəmmədzaman xan Qacar – 12, 127, 297
Mirzə Baba Əfşar – 15, 260, 264 – 266
Mirzə Həsən Təbrizi – 176, 237 – 238
Mirzə Mehdi xan Əstərabadi – 45

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Mirzə Məhəmməd Təbib Qoboli – 15, 260, 262 – 263
Mirzə Rəzi – 151 – 152
Mirzə Rza Qəzvini – 9, 15, 16
Murtuzaqulu xan Qacar – 115 – 120, 144
Mustafa xan Dəvəlu – 143 – 146
Mustafa xan Qaracadaği – 137
Mustafa xan Şamlu – 45, 79
Mustafa xan Şirvani – 7, 283, 289, 290
Mustafa xan Talış – 12, 307
Mustafaqulu xan Qaragözlü – 26 – 51
Nadir Şah Əfşar – 5, 6, 26 – 51, 53 – 58, 61, 64, 67, 68, 73, 80, 93, 102
Nəsrəddin Şah – 12, 14, 169, 173, 176, 180, 182, 188 – 190, 193, 195, 200 – 201, 203, 204, 212, 226 – 229, 255, 268, 282, 287, 314, 316
Rza xan Qacar – 148, 149
Rza Kəlhur – 267 – 269
Rzaqulu xan Şamlu – 80,
Rzaqulu Mirzə - 8, 30, 34, 39, 49 – 51, 116, 123
Sadıq xan Şəqaqi – 105, 130 – 133, 282
Saleh xan – 47– 49, 81
Sarı xan Əfşar – 61
Səlim, həkim – 14
Səlim xan – 293
Sultan Hüseyn şah – 5, 19 – 25, 27,
Süleyman xan Təbrizi – 14, 137, 228 – 230, 342
Süleyman xan Qacar – 119, 132, 143, 153 – 155
II Şah Təhmasib – 5, 23 – 29, 31 – 35, 91 – 93
Təhmasibqulu xan Cəlayir – 5, 65, 83, 84
III Şah Abbas – 33 – 35

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Şahrux mirzə – 52 – 54, 61, 94, 102
Yusif xan Müstəşarüddövlə – 9, 13, 17, 174, 176, 177, 208, 214, 215, 283, 337 – 340
Zeynalabdin Şirvani – 249, 250
Zülfüqar xan – 31, 88 – 89

**MÜNDƏRICAT**

Ön söz..................................................................3

I Fəsil

XVIII əsrdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər..................................................................18
XVIII əsrdə İranda ictimai-siyasi vəziyyət....................18
Nadir Şah Əfşari dövrünün azərbaycanlı ictimai-siyasi xadimləri..................................................................55

eated by Neevia Personal Converter trial version http://www.neevia.c

Qacarlar dövrünün azərbaycanlı ictimai-siyasi xadimləri..........................................................90

II Fəsil

XIX əsrdə İranda yaşamış azərbaycanlı ictimai- siyasi xadimlər..........................................................169
XIX əsrdə İranda ictimai-siyasi vəziyyət...................169
Qacarlar dövrünün azərbaycanlı ictimai-siyasi xadimləri..........................................................180
Seyid Cəmaləddin Əsədabadi.....................................198
Marağalı Məhəmmədhəsən xan..................................208
Hərbçilər.......................................................................271
Diplomatlar...................................................................321

Nəticə............................................................................364
İstifadə edilmiş ədəbiyyat...........................................369
Şəxs adları göstəricisi.................................................380
Əlavə. Rəsmlər.

eated by Neevia Personal Converter trial version http://www.neevia.c